www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

“Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı” seriyası. N 74 (29 - 2017)

Tofiq Xəzər

“Bərdədən görünən dünya...”

Roman-epopeya. 16 cilddə. II Hissə. IX cild

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSİB – 2017

10.12.2017
Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi
www.yysq.kitabxana.net

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

“Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı”. Elektron Kitab N 75 (30 - 2017)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2017-ci ildə maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən bir hissəsi maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin (Qurumu) - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın “Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı” kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bir hissəsini maliyyələşdirib:

Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası:

http://cssn.gov.az/

Feysbukda “Ədəbiyyatda çağdaş kreativ cərəyanların analizi və virtual təbliğatı” kulturoloji-bədii layihəsi çərçivəsində rəsmi səhifə:

https://www.facebook.com/kreativlayihe/?ref=bookmarks

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu) - http://www.yysq.kitabxana.net

Tofiq Xəzər

"Bərdədən görünən dünya"

II HİSSƏ

Roman-epopeya

On altı cilddə. IX cild

Müəllif redaktəsində

Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov), yazıçı-kulturoloq

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. II hissə. IX cild. Bakı, 2011. "Gənclik" nəşriyyatı. 358 səhifə.

Tofiq Xəzər. "Bərdədən görünən dünya". Roman-epopeya. On altı cilddə. İkinci hissə. IX cild. Azərbaycan və çağdaş dünya ədəbiyyatında bir ilk olaraq 16 cilddə qələmə alınmış bu roman-epopeyanı XX və XXI əsr Azərbaycan tarixinin - mənəviyyatının ədəbi ensiklopediyası da saymaq olar...

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

Tofiq Xəzər
Bərdədən
görünən
dünya...


TOFİQ XƏZƏR
Bərdədən
görünən
dünya...



Tofiq Əli oğlu Babayev 1951-ci ildə Bərdə şəhərində anadan olmuşdur. 1967-ci ildə Bərdə 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunu və 1984-cü ildə Moskva Ümumittifaq Yeyinti Sənaye İnstitutunu bitirmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Qızıl qələm" və 2011-ci il üzrə "İlin Nəsr kitabı" mükafatlarına layiq görülmüşdür.

Ailəlidir, 3 övladı var.

Tofiq Xəzər

"Bərdədən görünən dünya"

II HİSSƏ

Roman-epopeya

On altı cilddə

IX cild

Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSİB – 2017

T70 Tofiq Xəzər. **«Bərdədən görünən dünya…»**
Bakı, 358 səh. 2011

Tofiq Xəzərin oxuculara təqdim etdiyi 16-cilddən ibarət «Bərdədən görünən dünya...» adlı avtobioqrafik romanı onun geniş oxucu kütləsi ilə ilk görüşüdür.

Müəllif əsərin ilk hisələrində SSRİ adlanan nəhəng bir imperiyanın eybəcərliklərini, sovet - rus zabitinin tamahkarlığını, rüşvətxorluğunu, özbaşınalığını, millətçiliyini və 18-19 yaşlı azərbaycanlı əsgərlərə qarşı haqsız hərəkətlərini məharətlə açıb oxucuya göstərir. Əsərin davamı əslində qəhrəmanın və XX əsr Azərbaycanın canlı ədəbi salnaməsidir...

Kitabda yüz illər boyu Dərələyəz mahalının Tarp, Terp, Dəmirçilər, Cul və Almalı kəndlərində yaşamış Xələflilər tay-fasının erməni daşnaklarına qarşı apardıqları sonu görünməyən mübarizəsindən də geniş bəhs edilir.

$T\frac{470206020_2}{M653\ (07)}$ qrifli nəşr

© Tofiq Xəzər

Tofiq Xəzər

Bərdədən gürünən dünya...

Doqquz cilddə

IX cild

Bakı-2011

Motalla alınan Lenin ordeni

Dodağı xallı Mənzər, ramanalı Mayya, Чайка-3 və "oğurluq" 5 рубл təbəddülatı...

Odessa, 25 və 26 iyun 1972-ci il, bazar günü və 1 gün.

Saat 05:00 - da, qolu gözəgirən qırmızı sarğılı növbətçi, - sanbalı dünyayla bir məşhur familiya daşıyan şorgöz və əyyaş Kalaşnikov -bizi oyatdı.

Dan yeri sökülmüşdü...

Şəhərin mərkəzi olsa da, dünya hələ ağarmasa da, arabir haradansa xoruz banı səsləri eşidilirdi...

Oyanıb bir qədər yerimdə, nazla qurcuxa-qurcuxa gərnəşəndən sonra, necə oldusa, cəld qalxıb geyindim.

Mirzəalıbəyli Şükür və mal-qara arasında böyüyən kəlbəcərli vaynösə Sahib Əkbərovla dənizə qədər qaçdıq.

Hava alatoran və mülayim idi.

Sübh tezdən olsa da, istirahət gününü ailəliklə çimərlikdə keçirməyi planlaşdıranlar artıq birucdan gəlir, hava işıqlaşdıqca insan axını da artırdı.

Vaxtımız çoxuydu.

Bazar günü olduğundan, rota saat 07:00-da qalxmalıydı. Ehtiyyatda düz iki saata yaxın vaxtımız vardı.

Qumda basdırdığım yerdən qantel və rezinləri çıxarıb, ardıcıl xeyli idman təmrinləri yerinə yetirdim.

Şükürlə Sahib idman əvəzinə, tələm - tələsik dənizin dizlərinə çıxan yerində canlarını sulayıb qumda uzanmış, Sahibin öz sözü olmasın, “gəlib - gedən zənən xeylaxlarını marıtlayırdılar.”

Vaynösə Sahib aşıq havası üstündə zümzümə eləyirdi:

“ Verdim bir dana,
aldım bir sona.
Ay qız anası,
qal yana-yana.”

Yarım saatdan çox da açıq dənizdə üzdüm.

Özümü çox gümrah hiss edir, qumda uzanıb dincələnlərə, ötüb keçənlərə tamaşa edə-edə, ona - buna göz qoya - qoya xərcləyib, 21 yaşın iki saat qızıl vaxtını öldürürdüm...

Rota gündüzü dənizdə keçirməyi, axşamı da kinoya getməyi planlaşdırmışdı.

Səhər yeməyindən sonra rota sıra meydanında cərgəyə düzlənib çimərliyə getməyə hazırlaşanda, baş leytenant Boykonu yanladım:

- Uşaqlarla pul yığmışıq, fotoaparat almaq istəyirik, icazə verin şəhərə gedim.

Boyko dərhal razılaşdı.

O bilirdi məndə pul var və ona görə razılıq verdi ki, pul istəyəndə xəsislik eləməyə qarmaq yeri qalmasın.

Birdən üzümə diqqətlə baxıb:

- İki saat bəsindi? - soruşdu.

Görünür tez qayıtmağımı istəyirdi ki, tez də, - öz təbiriycə desək, valyuta qopartsın.

- Hə, - dedim, nə deyirəm.

- Onda cəld tərpən...

Tağım komandiri Podqornunun lavsan paradnısını alıb geyindim və artıq yazılıb dolmuş gündəlikləri, çoxalıb qalaqlanmış məktubları, vinetka, rəngli fotoşəkilləri çantama doldurub getdim.

...Mərkəzi univermaqda çox götür-qoydan sonra otuz manatlıq Чайка-3 markalı fotoaparatı seçib, üzərində proletariatın dahi rəhbəri V.İ.Leninin başı əks olunan bənövşəyi iyirmibeşliklə, Kremlin baş qülləsi təsvir edilən göy beşliyi piştaxtanın üstünə qoydum.

Satıcı- qumral qaşlı qız pulları götürəndən sonra, müştərilərin çoxluğundan özünü unudub nə fikirləşdisə, qaytarıb mənə bir yaşıl üçlük və iki də sarı rublluq uzatdı.

Yəqin elə bilib, iyirmibeşliklə qırmızı onluq vermişəm.

Qalığı alıb əlimdə tutsam da, həyəcan keçirir: “bəlkə doğrudan qırmızı onluq vermi-şəm?” - düşünürdüm.

Birdən qorxdum və həyəcandan isinib qızardım...

Düzünü deyib pulu geri qaytarmalıydım, başqa cür də ola bilməzdi!

Amma, satıcı qızın başı müştərilərə bərk qarışsa da, nədənsə tərəddüd elədim.

Yanımda, kökəlib lətlənmiş 40-42 yaşlarında bir qadın fotoaparat seçirdi. Луч və Зенит markalı aparatlar arasında seçim eləyən bu qadına baxanda, qəflətən hardansa ağlıma gəldi: “Bu qadın məşhur akademik, rəssam, ya bəstəkardan və bir də vəhşi, başıyallı şirdən, yalquzaqdan, dağ keçisindən, yaxud ayğırdan qarışıq döl tutsa, görəsən bu arvaddan doğulan körpə necə olar?”

Çönüb arvadın üzünə diqqətlə baxdım da...

Hələ də qırraşıb dayanmış,Şərq küçəsinin verdiyi əxlaqa zidd bu hərəkəti özümə sığışdırmırdım.

Beş manat da beş manat idi!

Uşaqlara xeyli çaxır alıb, bir gecəlik olsa da, gözəl həyat yaşada bilər, ya bu pulu mayor Deqtyarın qabağına sümük kimi atıb, düz bir həftə hürməyinin qabağını ala bilərdim.

Səma, onda qanad çalanındır!

Nə edəcəyimi kəsdirə bilmədiyimdən dodaqlarımı çeynəyir, cəzbedici firma nişanı olmayan paltarlarda gəzən tozlu Şərq küçəsi sakinlərinin verdiyi əxlaqdan kənara çıxa bilmirdim.

Həyəcandan tərlədim də...

Və bu an dərk elədim:" Biz hamımız olduğumuzdan daha fərqliyik."

Yandakı televizor-radio satılan şöbədə televizorların çoxu müxtəlif kanallardan verilişlər göstərir, müştəriləri şirnikdirib həvəsləndirirdilər: "Bizim mallar sonuncu modellərdir ."

Televizorun biri xaricdə hansısa salonu göstərirdi. Böyük sinəbənd taxmış, gülümsəyən 17-18 yaşlı, uzun qılçalı bir qız Lüdovik Nobelin bərbəzəkli, üstüaçıq, kolyaska-arabaya oxşayan təkərli avtomobilini göstərib tərifləyirdi. Sarışın, dümdüz uzun saçları kürəyinə səpələnmiş bu qızın, yubkası bir qarış olduğundan əyiləndə ağ tumuşu görünürdü...

Vətən vicdanı olsam da, satıcı qız mən tərəfə baxmağı cəhənnəm, serjant rütbəli əsgər formama da ruslar demiş, heç внимания vermirdi.

Piştaxtanın altında, pulları yığdığı qabda pul-pula qarışmışdı.

Fürsət idi!

Bərdədən görünən dünyada, belə əxlaqa zidd keyfiyyətlər isə qəbuledilməz və hətta üstü açılsa, həqarət sayılardı!

Artıq hər şey vicdanımın ixtiyarındaydı...

Onsuz da mən bu pulu ev-eşiklərindən didərgin salınıb qul kimi istismar edilən məzlum 19-20, ən böyüyü 21 yaşında olan, həyatda bir dəfə doğulub-yaşamaq hüququ qazanan, kimsə, nə vaxt hardasa demiş: "dünyanın təri və duzu ilə dolanan", əli döyənəkli, barmaqları suluxlu, damarlarından qan sızmış Laçın və Kəlbəcərin sərt qayalı, ayı mağaralı uzaq dağ kəndlərindən,- vətəni qorumaq adıyla zorla gətirilmiş əsgərlərə xərcləyəcəkdim!

Dəfələrlə xatırlamışam:

"Bu uşaqlar əsgər gələndə yumurtadan yenicə çıxmış ətcə balalara bənzəyirdi... İndi isə ağır hambal güzəranı onların kövrək onurğalarını əymiş, çox kobud formada kişiləşdirmiş və hiss ediləcək dərəcədə yenmişdi...

Gözlərinin dərinliyindən, çəkdikləri əzab-əziyyətin nisgili oxunurdu.Həmyerlilərimin bu halına acıyır, dərdlərinə üzülürdüm."

Hardansa oxuduğum bir olay ağlıma gəldi:

"Təkamül nəzəriyyəsinin banisi, son günlərini ehtiyac içərisində səfil kimi keçirən, kor olmuş və hamı tərəfindən unudulmuş Jan Batist Lamarkın Parisdəki heykəlinə qızı Korneliyanın bu sözləri yazılıb:

"Gələcək nəsillər sənin lə fəxr edəcək və sənin intiqamını alacaqlar, ata!"

Kor olandan sonra Lamarkın diktəsiylə qızı Rozaliya "Zoologiyanın fəlsəfəsi" əsərini yazmışdı..."

Sərt hərbi qanunlar , yalnız – 22 milyon kvadrat kilometrdən çox ərazisi olan SSRİ nəhənglikdə hegemon ölkənin tərkibindəki on beş respublikada yaşayan müsəlmanlara tətbiq edilirdi.

Halbuki, bəyənmədiyimiz Çar hökuməti bizi hərbiyə zorla göndərmirdi.

Düzdü, Lenin, Stalin, Xruşşov, indiki Brejnev hökuməti müsəlmanları əsgər aparsa da, bizlərə qırıcı-bombardımançı təyyarələri, sualtı gəmiləri, tank və topları, hərbi texnikanı idarə etməyi öyrətməsə də, Çardan fərqli qul kimi istifadə etməyi də unutmamışdı.

Bir sözlə: “boyun olsun, boyunduruq tapılar!”

Tərs kimi Orta Asiyada, müsəlman respublikalarında doğum, - demoqrafik partlayış həddində, Rusiyada isə doğum səviyyəsi ilbəil düşür...

Qəflətən, içimdən sanki Şərq küçəsi toz-torpağıyla hayqırdı:

“Hoqqa çıxarma, qaytar pulu!”

Bir anlıq fikirləşdim:

“Bu qız rus deyil, ukraynalıdır, bizim kimi olmasa da, nisbətən əzilən, istismar edilən sinifdəndi, yazıqdı, qaytar pulu!”

İçimdə nəsə vulkan kimi püskürüb qaynayırdı...

Piştaxtanın yanındakı geniş pəncərənin şüşəsinə yapışıb qalmış, elə bil canlı bir müqəvvaydım.

Hissə qapılmış, daxilimdə bir-birilə vuruşan: “ halallıq, ya haramlıq, düzlük, ya əyrilik”, - iki yoldan birini seçməliydim.

Arqumentlərin çoxu bir-biriylə ziddiyyət təşkil etdiyindən real nəticə çıxarmaqda, məsələni yerbəyer, cabəca həll eləməkdə çətinlik çəkirdim.

Bu aşkar oğurluq idi!

Haram pul, elə bil adam kimi dil bilir, ovucumda sanki danışırdı:

“Sənin düzlüyünlə dəvə qoz sıçacaq? Apar məni!”

Suç üstündə yaxalanmış, qorxu və həyacandan titrəyən adamlar kimi, belimin nazik yerindən bir neçə iri soyuq tər damcıları diyirləndi...

Qıza yazığım gəldi.

Əskiyi gələcək!

1921-ci ildə Parisdə,- erməni Stepan Şaumyan saxlanıldıqda maşının yük yerindən 80 milyon qızıl pul çıxanda həbs olunmasa da, beş manat əskikgəlməyə görə ,qumral qaşlı bu satıcı qız iki il həbs cəzası ala bilərdi.

Sovet qanunlarının üzü ticarət əskikgəlmələrində, - qışın oğlan çağında Laçın və Kəlbəcər qayalarının xınalı, mamırlı çılpaq üzündən də soyuq və sərt olurdu.

Beş rublluq əskinası ovucumda sıxa-sıxa şüşəli piştaxtaya yaxınlaşıb, satıcı qızı lap yaxından çağırdım.

Qızın başı müştərilərə bərk qarışdığından əhəmiyyət də vermədi.

Qoca,qırmızı saçlı bir qadın yelləncək alır, bir başqası yelpik istəyir,bığ yeri yeni qaralmış bir oğlan kart soruşurdu.

Televizor-radio satılan yerin yanında elektrik cihazları şöbəsi vardı.

Tavanından yüzlərlə cürbəcür işıqlandırıcı çilçıraqlar asılmışdı. Bəziləri hərdən yanıb-sönür, dərhal da satıcı qız patronların başına döyəcləyirdi...

Birdən darıxmağa başladım. Lap zəhlətökən iş oldu.

Hər iki ombası, yana və arxaya çıxmış yaşlı arvad, bir nəfərlik yelləncəyə sığışmır, yanındakı təkqol oğlu da ona kömək edə bilmədiyindən, axırı dözə bilməyib anasına deyindi:

“Axı bu boyda da yançaq olar?”

Dodaqaltı son dəfə pıçıldadım:

“Allah, sən özün məni pis işlərdən hifz elə!”

Yelləncək almaq istəyən yekəgöt arvadın əlində ustalıqla hörülmüş qəribə bir səbət vardı, mahiyyəti ciddi olmasa da, arvad boş səbəti nədənsə heç əlindən qoymurdu.

Qəflətən yadıma düşdü ki, dəfələrlə rus qoşunları ermənilərə dəstək verərək at oynatdıqları Bakıda, rus - erməni əsgərləri, - insanlığa və müsəlman bəndələrə qarşı ağlasığmaz vəhşiliklər törətdikləri o günlər... görəsən, bizim içərisi dolu mağazaları tarimar eləməyiblər?

İndi bunlardan beş manat da mən oğurlasam, nə olar?

Xırdavat şöbəsinin astagəl, qumral qaşlı satıcı qızı indi də çox arın-arxayın, hələ təraş edilməmiş,narın tüklü bığı olan bir cavan oğlana "духи" iylədirdi. Oğlan qızın əlindəki ətri alıb, üst qurğusunu basmaqla, üz-gözünə xeyli püskürtdü. Dərhal ətrin xoş qoxusu ətrafa yayıldı...

Qan, - inqilabı qidalandıran bir nemət olduğu kimi... oğurluğun da - mənəviyyatı, vicdanı ləkələyib, tamahkarlığı qidalandıran bir nemət olduğunu indi dərindən dərk elədim.

Qızın başı heç açılmırdı.

Qəflətən qışqırdım:

-Eyy... Marksin ninyası!

Qız çönüb mənə baxsa da, sözlərimi başa düşmədi və növbəti müştəriylə alış-verişə başladı.

Cibimdəki əskinasların içərisindən öz halal beş rublluq bir ədəd pulun bürməyini açıb, əzik-üzük yerlərini sığallayıb düzəldərək arxasını oxumağa başladım: Беш сум, бес сом, беш сом, бəш манат, беш манат, erməni və gürcü əlifbalarıyla yazılar, ukrayna, belarus, Pribaltika respublikalarının dilində də beş manat sözləri yazılmışdı.

Deyəsən, satıcı qız elə güman eləyirdi, чайка - 3-ü qaytarmaq istəyirəm.

Şübhələnmişdi!

Ağlımdan keçdi: "Salam, ey qoca Bərdə!
Sənin qapılarından əsrlər baxıb gedib..."

Vaxtıyla güclü zəlzələdən tamamilə dağılıb, torpağın təkinə gömülmüş Bərdənin xarabalıqları üzərində qurulan, toz-torpaqlı doğma Şərq küçəmizin əxlaq nəzəriyyəsi, təxəyyülümdə keçirdiyim təbəddülatlardan çıxardığım fəlsəfi nəticə və həm də yaşayış kodekslərindən irəli gələn qanunlar, məni getməyə qoymurdu.

Mən Korçagini oxumuşdum!

Oktyabryat, pioner, komsomol əxlaqı almışdım!

Mən Sovet ordusunun vicdanıydım!

İlk dəfə getdiyim Moskvanın qarlı Kreml meydanında gəzib-dolaşanda... qarşıda gedən, toxunulmaz əcnəbi neqr ər-arvadın, çantadan cib yaylığı çıxaranda, təsadüfən pul kisələrinin yerə necə düşdüyünü xatırladım:

“O vaxt mən, sırf Bərdədən görünən dünyanın verdiyi əxlaqın tərbiyəsini yaşayırdım.

Və ayaq altında xırçıldayan, günəş şəfəqlərini əks etdirib, göz qamaşdıran ağappaq qarın üstündən, içi göy rəngli dollarla dolu pul kisəsini qaldırıb heç bir tərəddüd etmədən, təbəddülat keçirmədən, gözü-könlü tox, kütlənin arasından qaça-qaça, - çox sakit, insanlardan qorxmayan, onun bunun atdıqlarını dimdikləyib yeyən, bir topa göyərçinlərin əhatəsində özümü zənciləre yetirdim.

Ürək vuran bahalı parfümlərinin ətri, qapqara dəriləri, qara-qırmızı iri dodaqları və ağappaq sədəf dişləri indi də yadımdaydı.

Sovet vətəndaşlarından geyimləri də çox fərqliydi. Sərbəst, qayğısız görünürdülər...

Valyutayla dolu pul kisəni uzadanda... donub, alacalanmış gözləriylə üzümə heyrətlə baxdıqları, növbəylə qucaqlayıb sinələrinə necə sıxdıqları və bu yaxşılığın müqabilində restoran təkliflərinə məhəl qoymadığımı görəndə...

İlahi:

“Mersi! Mersi!”- sözlərindən başqa nə dediklərini anlamasam da, minnətdarlıq dolu çöhrələriylə üzümə necə həsədlə baxırdılar!”

Məxmər yaxalıqlı paltoda, Bərdədən dünyaya açılan Kreml meydanında necə azad və bəxtəvər idim!

Yaşamağın mayası halallıq, içdən, ruhən təmizlikdir.

Yaz küləyi kimi azad yaşamaq üçün, içdən təmiz olmaq gərəkdir!

Adiləni, Xuramanı sevəndə, bax, beləcə içdən təmiz idim!

İndi nə baş verirdi?

Həm də qumral qaşli bu qıza yazığım gəldi.

Yetmiş-səksən manat məvaciblə əlli il çalışsa da, bu zavallı qızın, normal ömür sürmək üçün gün-güzəran düzəltməsi bütöv ölkə vətəndaşları kimi, müşkül məsələydi.

Xırdavat bölməsində öz ağır, halal zəhmətiylə dolanan xoşrəftar cavan bir qızın “cibinə girib” beş

rubl çırpışdırmaq, artıq Şərq küçəsi əxlaqının büdrəməsi, sapması olardı!

Ürəyimdə özümlə təkbətək döyüşdə,- çək-çevir, çox uzunçuluq eləməyin əbəs olduğunu dərk edəndə, əcaib-qəraib fikirlərdən bezərək yan tərəfə burulub, düz qızın qarşısında dayandım:

- Девушка! – qışqırdım.

Yaşıl üç rubl və bükdüyüm iki ədəd sarı təklik əskinası piştaxtanın üstünə ataraq, şəstlə:

- Artıq qaytarmısınız! - dedim.

Qız güclə qışqırmağa macal tapan adamlar kimi hamının eşidəcəyi tonda, heyrətlə:

- Çox sağol, əsgər, amma on yeddi faiz endirimi var o aparatın.

Əvvəl heç nə anlamadım, döyüküb qızın üzünə baxanda, o təkrar başa saldı.

Sanki, səadətə qovuşdum!

Qızın məharətinə, halallığına mat qaldım.

Qışqırtıya çoxunun ürəyi qopsa da, hamı səxavətimə heyran qalmışdı.

Yaşamaq bu vaxt, bu anda nə dəyərli olurmuş!

Bir neçə yaşlı müştəri təşəkkür əlaməti olaraq mənə təzim də etdi.

Çiynimdə çanta, Podqornunun serjant liçkalı lavsan parad formasında, necə məğrur-məğrur ətrafa baxırdım!

Ürəyim dağ çeşməsi kimi pıqqıldayıb qaynayırdı.

Mağazadan aralananda bir ukraynalı yaşlı qadının başqasına:

“Dünyanın hər yerində insanların – düzü də, əyrisi də, pisi də, yaxşısı da var”, - dediyini eşitdim...

Birbaşa Arkadiya mehmanxanasının kiçik poçtuna qayıtdım.

Katerinanın anası növbədəydi.

İradə azadlığı varsa, nisbi də olsa, mən bu arvadda onu hiss edirdim.

Atama minnətdarlıq dolu məktub yazıb aviasifarişlə yola saldım.

Uzun illər tənhalığın çarəsizliyini yaşamış Katyanın anası - özünü sakit aparsa da, çox mehriban davransa da, mənə elə gəldi, gözlərini məndən yayındırır.

O, oturduğu stulun qoltuğuna söykənib köks ötürərək, sanki ürəyində ah çəkdi... və çönüb divardan asılan saata baxdı.

Saat 12:34 – ü göstərirdi.

Katerinayla görüşə hələ saat yarım vaxt qalmasına baxmayaraq, mənə elə gəldi, arvad ürəyində: “Gözləyir səni...” - demək istədi...

Öncəgörmənin yeri olmadığından, əsgər yastığımın içində qoruyub aylarla saxladığım, indi isə çantama yığıb gətirdiyim, - iki gündəlik, aldığım məktublar, vinetka, ağ-qara və rəngli fotoşəkilləri bağlama göndərmək üçün, cəld hazır karton yeşiyə səliqəylə düzüb, üzünü ağ parçayla tikdim.

Misdən qayrılmış, qulplu, darboğaz, boylu qadınlar kimi qarınlı səhəngdə bulaqdan su daşımayan... həyətdə saldığı kilimə iri mütəkkə

atıb, yerdən oturaraq ayaqlarını aralayıb, dördayağın üstündə oxlovla xəmir yayıb, sacda fəsəli, yuxa, lavaş bişirməyən... həyətlərində bel sapı, ling, kürəklə işləməyən... cəhrədə yun əyirib, polad məftil ilmələrlə corab toxumayan... utandığımdan heç adını belə soruşmadığım, - Katerinanın çatmaqaş anası istədi kömək eləsin, müştərisi çox və Katyaya hörmət qoyduğumdan razılaşmadım...

Pasılkanı yola salıb qurtaranda saat düz 13:00 idi.

Boş çantaya Чайка-3-ü atıb kazarmaya tərpəndim.

Boykoya qayıtmağım haqda məruzə edib, aldığım fotoaparatı ona göstərəndə, əvvəl Makedoniyalı İskəndər kimi məğrur dayansa da, qəflətən qaraçı Karmen kimi əl açaraq dilənən vəziyyətdə, sovet zabitinə yaraşmayan tərzdə, yalvarışla:

-Дай долги... - dedi.

Çörək haqda aclara nəsə demək,onları ovundurmaq mümkün olmadığı, su kimi aydın idi.

Has pişiyi olub tutmasın deyə, ləngimədən üçlüyü verib, iki-üç saat da şəhərdə gəzməyə icazə istədim.

Bükülüb əzilmiş yaşıl üçlüyü ovucumdan götürəndə, çuxura düşmüş yaşıl gözlərində sanki işıq parladı. Sevindiyindən heç cavab da verməyib, əlilə getməyimə işarə eləyərək, sanki: ”Cəhənnəm

ol!”- dedi., O getdi və mən də qayıdıb arın-arxayın,şellənə-şellənə taksiyə yayxanaraq içimdə sakit-sakit, çəhrayı mum kimi yanan... Odessadakı tanrımın ünvanını söylədim:

- Маршала Жукова 2...

Məni görəndə, küskün gözəlçəmin çöhrəsi işıqlandı, ağappaq yanaqlarına, - qaranlıqda yanan şam kimi çəhrayımtıl bir rəng qatıldı.

Yenə xatırladım:

“Tənəffüslərdə, kvadrat şəkilli dəmir çubuq hasarlı məktəbimizin həyətində o vaxtlar dəlicəsinə... platonik məhəbbətlə sevdiyim Xuramana yaxınlaşanda, onun yanaqları da eynən bununku kimi allanar və allanan sifəti nə qədər məni məftun eləsə də, ürəyimi sarsa da, - o an həya, qorxu və həyəcan hissi də məni içdən çuğlayardı...

Altı il əvvəl... yayda, Kəlbəcərin Dəlidağ adlanan yurdunda, vəhşi təbiətli ecazkar qayalardan uçurum aşağı baxanda, Bakıdan istirahətə gəlmiş - Mənzər adlı cavan bir gəlin məndən soruşmuşdu:

“Məhəbbət böyük olanda qovuşmaq çətin olur, yoxsa qovuşmaq çətin olanda məhəbbət böyük olur?”

Mən bu kəlmələri sonralar, orta məktəbdə oxuyanda Xuramandan pıçıltıyla soruşanda, o necə rəng verib, rəng alardı!

Hələ özümdən əlavə də eləmişdim:

“Bəs məhəbbət sənlə yan-yana, lap çiyin-çiyinə dursa, sənlə bir sinifdə oxusa... necə?”

Qorxu hissi məni dərhal necə bürüyər... -elə bilərdim, qan kimi allanan yanaqlarını kim görsə, ona dediyim bu məlhəm sözləri anlayıb-biləcək.

İlahi, vaqonda... səssiz-səmirsiz, kəlmə də kəsmədən Xuramanla necə vidalaşa bildik!

Əzizim!

Yoxluğun həyatıma yarımçıqlıq gətirsə də, ruh halımın dəyişməsinə səbəb olsa da, axır ki, əbədi əlvida dedirdə bildin...

Nə qədər çətin, heyrətamiz olsa belə,- sən artıq qəlbimdə yoxsan!"

...Katerinanın da ağ sifəti allanmışdı, yanaqlarının çəhrayımtıl rəngi, mənə iti baxışından heç nə yayınmayan, zənnində adətən yanılmayan, üstündən bir neçə il ötsə də, sakit bir qaranlıqda, hələ də başımın üstündə xəfif-xəfif axan rüzgar kimi - Xuramanı və hardansa, həm də həlim, dodağı xallı Mənzəri xatırlatdı:

"Mənzər o vaxtlar, - arxadan səliqəylə, tac şəklində yığılmış zil qara saçlı, qaraşın, siyah gözlü, azacıq yuxarı çatılmış incə qaşlı, 23-24 yaşında cavan, yaraşıqlı bir gəlin idi.

Uşaq doğmamışdı.

Bakıda, Qaraçuxurda ər evində yaşayır, qaynanasıyla yola getmirdi.

Əri jurnalist idi, radioda çalışırdı.

Atası qılıncoynatma növü üzrə, peşəkar mütəxəssis olduğundan, xaricdə - Səudiyyə Ərəbistanında müqavilə ilə məşqçilik eləyirdi...

Qırmızı alt dodağının üstündə, tən ortadan kiçik bir qara xalı da vardı. Bu xal yumru düyüdən də balacaydı və ona çox yaraşırdı.

İri döşləri sinəsində paltarına sığmır, düymələrini taram saxlayırdı...

Ağıllı, ağır, danışığını bilən, yerli-yataqlı gəlin idi.

İncəsənət institutunda oxuyurdu...

Mənzərin yanında həmişə başdan xarab, bakılı bir qız da hərlənərdi.

Onlar Dəlidağa birlikdə gəlmişdilər, qohum idilər.

Bütün "gəlmələr" kimi - çayın kənarında çadırda qalırdılar.

Ramanalı bu qız dəliydi!

Nə düzəməlli yemək yeyər, nə də söz eşidərdi. İyirmi yaşı olsa da, nazik əyri budaq kimi uzun qılçaları, məndən də betər,- bir dəri, bir yığın sümük,bir də sananan qabırğaları vardı.

Əlindəki ləyənə su doldurmaq adıyla şəlalədən axan şırnağın altında saatlarla dayanar, cılxa suya batar, suyu süzülə-süzülə də əlini qulağına tutub,- telefonla danışan adamlar kimi, öz-özünə kiminləsə gileyləşib söyüşər, dalaşardı...

O qız romantik və həm də çılğın idi!

Bir dəfə təsadüfən, döşəməsi taxta шит olan çadırda soyunarkən onu lüt görmüşdüm.

Qoz boyda döşləri vardı, canı qapqara, qupquruydu. Özü dəli olsa da, maraqlı adı vardı, - Mayya!

Bərdənin Mərkəzi kolxoz bazarında, qaçaqmalçılıqla kərə yağı satan bir arvad da vardı.

Üst - üstə geyindiyi uzunqol donlarının altında gizlətdiyi 800 qramlıq yağları, kiloqram adına milis işçilərinin gözü qarşısındaca müştərilərinə sırıyardı.

Danışırdılar ki, milis rəisi ilə şərik işləyir.

O hündür, iridöşlü, kök qadının adı Maya idi, - alverçi Maya.

Ramanalı bu qızın adı isə pasportunda Mayya yazılmışdı.

O vaxt Mənzər danışırdı ki, bu quru qara qız vaxtıyla çox ağıllı olub və Razində əla qiymətlərlə riyaziyyat təmayüllü orta məktəbdə oxuyurmuş.

Ömrünün on altıncı baharını yaşayanda, evlərində tək qalıb, çarpayısında yatdığı vaxt, doğmaca əmisi onlara gələr və yataqda yatan qıza təcavüz edərək, zorlamaq istəyər.

Bu yarıçılpaq qız, - vəhşətlə, dəhşətli çığırtı, fəryadla təkqol əmisinin altından birtəhər çıxıb canını qurtara bilsə də... əsəb, sinir xəstəsi olmuş və bu səbəbdən orta təhsilini də yarımçıq saxlayıbmış.

Hətta danışırdılar ki, qızın dopdoğmaca anası bu biabırçı, rüsvayçı hadisəni dəqiqliklə bilsə də, qaynıyla xoş münasibətdəymiş!?

Qızı dəli eləyən də əmisinin oğraşlığından çox, anasının bu tükürpədici olaya biganə qalmasıymış...

Zavallı qız heç vaxt əyninə gəlinlik paltarı geyməyəcəyini və tezliklə intihar edəcəyini tez-tez qaracuxurlu, dodağıxallı Mənzərə nağıl eləyirmiş...

Boynunda yoğun qızıl sep, barmağında iri qızıl üzük gəzdirən mərdəkanlı bu şoğərib, yanaqları fətirə oxşayan qadınsifət əmi, ziyafət kostyumunda, şişburun qara tuflilərdə, iblisanə xislətiylə yataq xəstəsi olan böyük qardaşıgilə, - Ramanıya tez-tez gələr, utanmadan, həyasızcasına Mayyanı xəbər alar, köhnə diş fırçası kimi atılmış qardaşının bit-birə basmış çarpayısına, büvə düşmüş yorğan-döşəyinə yaxın da durmazmış.

Mayyanın anası isə dağ kəklikotundan ona çay dəmləyib nədənsə qulluğunda zol dururmuş...

Dəm üçün kəklikotu ayrı şeydi!

Bir gözü qəhvəyi, digəri isə, - qarası qarışıq ağ ləkə olan bu əmi, yer üzündə nadir ələ düşən şərəfsiz, ləyaqətsiz, binamusun biri, xislətcə iblis imiş!

Mayyanın anası, - içərişəhərli Xanım arvad nədənsə, azyaşlı qızına təcavüz edən bu qaynıyla, vaxtaşırı pişikotu nanəsindən də çay dəmləyib, birlikdə ləzzətlə içər və uyuyub, tez-tez də qaynına:

"Gecə yarını keçib, hara gedirsən?" - deyərək, evlərində matax uşaq kimi əzizləyib, gözü hələ açılmamış qara pişik balası kimi bəsləyib, gecəni yanında saxlayarmış.

Mayya isə tükürpədici bu hadisədən sonra günü - gündən quruyub çöpə dönmüş, son vaxtlar

demək olar yeməkdən imtina da edibmiş...

Mənzər danışırdı ki, Mayyanın dəlicəsinə sevdiyi, - Naxçıvanın Şərur rayonundan olan İsbəndiyar adlı, subay bildiyi sevgilisi də, sən demə dörd uşaq atasıymış...

Qız bu acı, amansız həqiqəti biləndə növbəti sarsıntı keçirmiş, yediyi yalnız çəmənlikdə bitən ağ rəngli, kürə şəklində olan gövdəsi südlü, - ona acıqovuq da deyirdilər, - üfürəndə ağ tüklü çiçəkləri havaya dağılan, zəncirotuymuş...

Mayya çadırda pişiyiylə yatırdı.

Ehh... Dünyanın dərdi böyükdür, hələ yaxşı ki, bu dərd məhvərindən çıxıb kainatı bir-birinə vurmur...

Doğmaca, azyaşlı qardaşı qızına məşuq olmaq istəyən əmiyə bir bax!

Namuslu, ağıllı və qeyrətli,- yazıq dəli Mayya...

Dəfələrlə dəmir kanistrdən nöyüt töküb, özünü yandırmaq istəyibmiş...”

...Katerina qəhvə dəmləmişdi.

- Pişikotu nanəsi, ya kəklikotu yoxdur sizdə? – soruşdum.

O, heyrət və heyranlıq dolu təəccüblə üzümə baxıb:

- Bu hardan ağlına gəldi?

Katerinanın dik burnu ona çox yaraşırdı.

- Heçç...- dedim, biri vardı...

Kakao əvəzinə, qəhvəni piroq və kekslə içdik.

...Yenə arıq canımda əli tutan yerləri didib, cırmaqlayıb, iniltiylə yataqda çırpınanda... sanki onun səsindən, sinəsindən piroq, qəhvə və keks qoxulu incə, yanıqlı bir ah qopdu...

Onun göy gözlərinin yumru qarası həqiqətən bənövşə rənginə çalırdı.

Gözləri çox cazibəliydi, -şəhvətlə alışıb yanır, canından ehtiras yağırdı.

...Mənə elə gəlirdi, biədəb, içki düşkünü olan alfons əriylə, mənəviyyatsız rəfiqəsi onu ruhi bədbəxtlik dərəcəsinə gətirib. Bənövşə gözlü Katerinam indi-indi stressdən, ağır ruhi sarsıntıdan xilas olurdu. Mənə qədər gecələri məşəqqət içində yalqız qalıb, çox zülmlər çəkmişdi.

Zavallı qız, - yepiskopa vicdanla qulluq edən rahibələr kimi, hər an istədiyimi yerinə yetirməyə çalışırdı.

Hər ikimiz tərə bələnmişdik...

Ehmalca yanımdan sürüşərək ayağa qalxıb, moruq şirəsi gətirməyə gedəndə, arxadan, - yeni-yeni formalaşan, geriyə və yanlara çıxmış dopdolu yançaqlarına baxdım.

Qibtə ediləcək gözəl bədən quruluşu vardı.

Doğmamışdı... ana olmaq istəyirdi.

Özü də məndən!

Məcməyidə qırmızı moruq şirəsiylə dolu iki piyalə gətirdi.

Moruq şirəsini içən kimi o, arxası üstə uzanıb, bir qədər keçmiş təkrar məni üstünə çəkdi...

Anasının ölü səssizliyə öyrənmiş dəmir çarpayısı, - ehtirasdan, şəhvətdən yanan iki dəlinin çılğınlığına dözməyib,- sanki, o da bu hissləri yaşayır, çırpılıb döyülən it kimi zingildəyib səs salırdı.

Köhnə dəmir çarpayı aramsız cır-cır cırıldayır, qab-qacaq cingiltisi, çəngəl-bıçaq, qaşıq çıqqıltıları kimi müxtəlif səslər çıxarır və hətta mənə elə gəldi, bu çarpayıda gecələri tənha keçirən dul anasının kələm qoxuyan xırıltılı şit səsi də, bu səslərə qarışdı.

Köhnə dəmir çarpayının paslı boltları da xırçıldayırdı...

O ki var bürkü çəkib kirimiş təpələr təki yan-yana, heysiz uzanmışdıq...

Cüzi bayğınlıq məqamında olanlar kimi bədəni soyumuşdu.

Pərişan, kədərli halda: “İçimdə olan işıqlı və qiymətli bir şeyin itdiyindən gecə - gündüz ürəyim sıxılırdı. Sanki onu səndə tapmışam”, – deyib, bənövşə gözlərində şəfqətli səbr, çox məhrəm köksümə sığındı...

Amma o dərk edirdi ki, ölüm kimi səssiz-səmirsiz gedib, bir də geri qayıtmayacağam.

Təklik yaman dərddir...

...Qayıdanda, tağım komandiri,- molodoy serjant Podqornuyla İvanyuşenkoya bir manat səksən qəpikdən, yarım litrlik, iki butulka ağ süfrə çaxırı aldım.

Səhər - səhər özləri xahiş eləmişdi.

Axşamtərəfi, Bakirlə çıxıb turbazanın həyətində xeyli hərləndim və arada cibinə zorla, - üzərində V.İ.Leninin başı əks olunan qırmızı, şaxlı onluq basdım.

Götürmək istəmirdi.

O, ayrı-ayrı vaxtlarda, Nazıyla mənə on beş manat pul vermişdi. Niyə borclu qalaq ki?

“Borc alan bicdi, borc verən gic”- məsəli, nəsə mənə çatmırdı!

Adam adama əl tutar dəə...

Вымпел kinoteatrında Бродяга filmi göstəriləcəkdi. Filmə baxmaq istəyirdim.

Kazarmaya gəldim hazırlaşıb gedəm, uşaqlar xəbər verdi ki, Boyko bir saatdan çoxdur səni axtarır...

Yaxşı ki, gəlib çıxmışam.

Boyko, deyəsən verdiyim yaşıl üçlüyü xərcləmişdi. Yaxşı deyiblər:

“Kimə yaxşılıq elədin, özünü ondan qoru.”

Özü icazə verib buraxdığı vaxtdan, - üç saat əvəzinə, - iki dəfədən də artıq vaxt keçdiyini bəhanə eləyib qızmışdı:

- Samovolkadaydın? – qışqırdı.

Əclafın verdiyi anda bax, gördüyü işə!

Şərq küçəsi sakinlərinin, lap konkret, - Süzəndə xalanın sözü olmasın: ”Eşşək oğlu eşşəyin yediyi poxa!“

Kaşşeyevlə Podqornu tez məni müdafiə elədi:

“Çoxdan buradadır, özümüz onu bütün günü iş başında görmüşük.”

Növbəti bir manatın əldən çıxdığını anlayıb, Kaşşeyevə qaş-göz elədi və onun əhəmiyyət vermədiyini görüb qəflətən süstəldi, bir söz deyə bilmədi...

Mən də boynuma heç nə almadım, hətta öz dilimizdə:

- Vaxtsız banlayan xoruzun başını kəsərlər, - desəm də, o heç nə anlamadı.

Filmə baxmaq həvəsim öldü.

İrtibatım olan, irsal - mərsulla məşğul olmağa getdim.

Dolabımdakı kağız-kuğuzları tam yan-yön eləyib, səliqəyə salandan sonra, qardaşım Vidadiyə, - bağlama göndərdikləri üçün təşəkkür məktubu yazdım. Və Azərbaycanda nəşr edilən КОММУНИСТ qəzetində verilən oyun tirajı çıxanda, - lotoreyaları yoxlamaq üçün nömrələri ardıcıllıqla vərəqə köçürüb, göndərdim.

Rota günü dənizdə keçirmiş, axşam yeməyi yeyilmişdi.

Necə oldusa sinc vuruldu və sıra meydanında, düzlən! - əmri verildi.

Kinoya gedirdilər.

Həvəsim olmasa da, Boykonun təkidindən sonra gedəsi oldum.

İtaliya istehsalı olan, “7 Çervi qardaşları” filmini göstərdilər. Film elə də pis deyildi.

Boyko, filmdən sonra pəltək Əsədovla Voronkovu mənim acığıma rəqs meydançasına göndərdi...

Soyunub yerimə girdim.

Yenə xəyal dənizimin dibinə qurğuşun kimi baş vurub üzürdüm:

“Afişalar yazardım!

ЕЛАН

ПЕЈК-КОЛХОЗ
СПУТНИК-ВОСТОК
ИЈИРМИАЛТЫЛАР - NÜŞABƏ

Başlanır 16:00.
Futbol oyunları 5 nömrəli orta məktəbin stadionunda keçiriləcək...

Toz-torpaqlı, əyri-üyrü, qaca-quca Şərq döngəmizin çiy kərpic hasarları, - uzun illər günəş döyüb, yağış yuduğundan, ovalanıb tökülmüş... Xosu yazıq nə qədər əlləşər, bu afişaları divara yapışdıra bilməzdi.

Gecikmə ilə çatardı Bərdənin qırıq şüşə pəncərəli qatarları!

Zalı dolmayınca başlamazdı filmləri…

Ordu qənd ilə dolu, burnu fırtıqlı uşaqlar elə bilərdi, dünya onlarındı…

Kim bilir, sabahın sahibi kimdi?

Kübarlıq görməyən, bilməyən, yaşamayan Şərq döngəmizin bəxtəvər sakinləri!

Eyy... dimdiyi uzun aerodrom kepkalı Xosu yapışdıranda, divarında afişa durmayan, yarıalçaq - yarıhündür, əyri - üyrü, çiy kərpic hasarlarımız!

Qızılı qübbəli Qızıl meydanı, iki bacalı gəmisi, Domededovosu, Şeremetevosu heç vaxt olmayacaq... eyy... qədim paytaxt - qoca Bərdəmiz!

Bəxtəvərliyindən gen dünyaya sığmayan bərdəlilər!

Eyy... Zümürxan gölünün lilli ləpələrində - hörük kəndiri qırılmış, köhnə, kilidi paslanmış, çürümüş taxta qayığı öz-özünə yırğalanan:

Salam, ey qoca Bərdə!

Ulu sərkərdə - Makedoniyalı İsgəndərin, Nizaminin, həşəmətli Nüşabənin oylağı...

Eyy!!! Sadəlövh, cəsarətli və yalançı, pak, gopçu uşaqlıq dostum - Xosrov!”

Boryanın batman ad günü və Popova vurulan kəllə

Odessa, 27 iyun 1972-ci il, 11 gün.

...Rotamıza növbəti əsgər həyatının başlandığını bildirən: Qalxın! - əmri veriləndə, könülsüz olsa da geyinib sıra meydanında düzüldük.

Çiskin və seyrək duman olduğundan hava hələ tam işıqlanmamışdı.

Heç kim dənizə getmək istəmədi.

Vələduzna qara Vəli, Bakir Heydərov və zemelyalardan əlim üzüləndən sonra, birtəhər kəlbəcərli vaynösə Sahib Əkbərovu dilə tutub özümlə apardım.

Yaxşıca qaçdım, idman elədim, üzdüm...

Sahib uzaqdan sürünüb gələn topa qara buludlara baxıb: “ Bərk yağacaq,” – dedi.

Qayıdanda çiskin yağışdan əməlli - başlı islanmışdıq. Paltarlarımı dəyişib yeməkxanaya getdim...

Yeməklər nədənsə vaxtından əvvəl çəkilib uzun taxta stollara düzüldüyündən, tamam soyumuşdu.

Nazı dilinin pəltək yerinə salıb bərkdən praporşik Bandısikin üstünə çığırdı:

- Bu niyə soyuqduyyəə... bu saat bunlayı dəyişdiyy!

Praporşik çest verib, farağat formasında dayanaraq, çox təmkinlə:

- Baş üstə! – dedi.

Və sonra da çönüb, qolu qırmızı sarğılı növbətçiyə göstəriş verdi:

- Asadova qırmızı çaxırla səhər yeməyi, axşam da qəhvəylə bulka verərsən!

Gözlərini yumub dodağının altında da mızıldandı:

- Verdiyi abbasıya bax, etdiyi tələbə!

Çurban!

Bütün rota uğuldadı...

Qara Vəli, gözündə də qara eynək:

"Vəliəhddən - zaddan da olmadıq", - deyə-deyə, hırıldayıb bizim stola yaxınlaşdı.

Oturan kimi də, qara eynəyi gözündən çıxarmadan:

"Sən öləsən, türmədə də bir etiqaddan zaddan var, bu hərbi xarabada o da yoxdu", - öz - özünə xitab elədi.

Heç kəs Vəliyə əhəmiyyət vermir, hamı dayanmadan tələsik yeyirdi...

İşləri bölüb kazarmaya qayıtdım.

Ümumi dəftər dolduğundan gündəliyi tək-tək vərəqlərə yazmışdım. Oturub köhnə günləri, dünən

Mərkəzi univermaqdan aldığım təzə dəftərə köçürdüm.

Qəzetləri vərəqləyib maraqlı, siyasi xəbərləri və idman yeniliklərindən xeyli oxudum.

Bir xəbəri gündəliyə xüsusi qeyd elədim. Sən demə:

“I Pyotrun göstərişiylə 1717-ci ildə bizim doğma Xəzər dənizinin xəritəsi tərtib edilmiş və buna görə onu Paris Elmlər Akademiyasına üzv seçiblərmiş...”

Əsəblərim sakitləşmişdi.

Səhər idmanını dənizdə eləmək mənə çox düşür.

Tariyel Muradova, Süleyman Zahidova, Səməd Cabbarova, dayım arvadı Rənaya, Cekə, bibim qızı Gülxara, Zeynəbə, Ələvsətə və Tahir Ağayevə məktublar yazdım...

Nahardan sonra uşaqların gördüyü işləri yoxlayıb kazarmaya qayıtdım. Çox yorğun idim, yuxu gözlərimdən töküldüyündən, yıxılıb yatdım.

Boyko pul qoparmaq üçün müxtəlif planlar cızır, bəhanələr axtarırdı.

Məni görən kimi çağırıb:

- Bir qadın zəng vurmuşdu... - kiçik serjant Babayev lazımdır, - soruşdu, sonra da bildirdi ki, hər gecə samovolkada olursan və tez-tez də onlarda yeyib-içir, gecələyirsən...

Nə qədər elədi heç nə boynuma almadım. Və boyuna alası bir işim də yoxuydu. Həm də, heç kimlə

gecələmirdim. Gecələyənlər ruslar və zabitlər özləriydi.

Ürəyimdə götür-qoy elədim:

“Birincisi, məni Katerinadan başqa bütün ötəri qızlar,- serjant və ya Tofik olaraq tanıyır, bu isə kiçik serjant dedi.

İkincisi, heç özüm hərbi hissəmizin telefon nömrəsini bilmirdim, bilmədiyim şeyi kimsə necə verə bilərəm?”

Bu kələyi də baş tutmadı!

O, ətrafımda coz kimi, fır-fır fırlanırdı.

Чайка-3 markalı fotoaparata dünən aldığım, yumru kaset-plyonkanı salıb, uşaqların müxtəlif pozalarda şəkillərini çəkdim.

Kazarmada, əllərində gitara çalıb - oxuyan rus əsgərlərini də lentə alıb, sərələhlənə- sərələhlənə poçta getdim.

Katerina növbədəydi.

Mavi rəngdə sarafan geyinmişdi. Bu sapsarı açıq -saçıq kətan donundan uzun və abırlı olsa da, üst hissəsi həddindən azacıq açıq idi.

Onun bədənində göyərtdiyim bir neçə görünən yerə yalandan yod sürtüb, üstünə kiçik сантавик,- ağ leykoplastr kimi bir enli lent yapışdırmışdı. Məni görən kimi ağıllı, qayğılı çöhrəsinə işıq yayıldı:

- Xeyirdimi, yoldaş kiçik serjant?

Və nə fikirləşdisə, yaxına çağırıb dünən cırıqladığı yerləri xatırlatmaq üçün qulağıma pıçıldadı:

- Şırımlanmısan?

Və sonra da öz boyun - boğazını gizlicə göstərə- göstərə, çiynini silkələyib, astadan:

- Yodladığım yerləri də sən eləmisən, bilirsənmi?

- Barı anan görməyib? - sözgəlişi, bic-bic soruşdum.

- Yox, o gələnə kimi çıxıb evə getdim.

- Oğlan olsaydın səni nə kötəkləyərdim?! Zərrəcə tövrünü pozmadan, burnunu dik tutub, təmkinlə:

- Niyə? – soruşdu.

Qısqanclıqdan nişləmək məqsədiylə:

- Yenə sinən çox açıqdır!

Çöhrəsinə nəcib bir təbəssüm yayıldı, amma nədənsə:

- Qısqanırsan? – kədərlə soruşdu...

Kefi kök, başımı bulamaqla qısqandığımı təsdiq elədim.

O üzümə diqqətlə baxıb:

- Mən səni dəli kimi sevirəm... ifrat спектик olma, - dedi.

Düzü спектик sözünün mənasını tam anlamadığım üçün, cəld gözlərimi yayındırıb söhbəti dəyişdim və qılığına girib:

- Katya, anan intim münasibətimizi bilir? – soruşdum.

- Hə, demişəm... səni o saat tanıdı...

Özümü yığıb, heyrətlə:

- Bəs nə dedi?

Qımışıb:

- Gözləri yaş içində necə oynadı!

Həyəcandan ürəyim titrədi:

-Heç nə demədi?

Qulağıma isti nəfəsiylə pıçıldadı:

- Yox, nə deyəcək? Günəş buludda əbədi qala bilməz ki! Uşaq istəyirəm, ay ana... - o qafqazlı, kübar serjantdan, - dedim.

Dərhal... məni dəhşətli bir vahimə bürüdü: Gözlərimə cavan heyvan acgözlülüyüylə yeyən hamilə bir qadın surəti göründü. Heç nə də deyə bilmədim... ah çəkib susdum...

O narahat olduğumu, qəfil gələn qara bulud kimi tutulduğumu hiss eləsə də, büruzə vermədi və dərhal söhbəti dəyişdi:

- Hə, nəyə gəlmişdin?

Sanki qulağıma bayırdan uğultu səsləri gəlirdi...

Tahirin Odessada ağcabədili Nazı və mənimlə çəkdirdiyi, şüşəli çərçivəyə salınmış fotoşəklini yalançı, gopçu atası, - "Berlinin komendantı" - Soltan kişiyə banderol elədim.

Qoy Tahirin Odessada olduğunu bilsin!

Yazdığım məktubları sifarişlə yola salıb, bir neçə teleqram da vurdum.

Teleqramın birini də yazıb,- bacım Yeganəni əla qiymətlə musiqi məktəbinə daxil olması münasibətilə təbrik elədim və sonra ağlıma nə verdisə, ikinci bir teleqram blankı götürüb, bu dəfə rus dilində yazdım:

“Поздравляю тебя с успешным поступлением в Бардинскую музыкальную школу.”

Bacımın musiqi məktəbinə gedib-gələcəyinə sevinir, musiqi təhsili alacağıyla qürur duyur, fəxr edirdim.

Həm də, axı Komsomol da o məktəbdə oxuyur,- indi rəfiqəlik də eləyə bilərdilər!

Müştəri çox olduğundan Katerinayla gözlərimizi qırpmaqla “öpüşüb” ayrıldıq.

Və mənə elə gəldi, belə öpüşün özü də “o biri öpüşlər” qədər şirin, həm də dadlıdır...

Poçtla tam qurtarıb, kazarmaya yenicə qayıtmışdım, elə bir yağış başladı, tut ucundan çıx göyə!

Sel-su aləmi aparırdı.

Sosiskanı kolbasa kimi doğrayıb yeyən, kəlbəcərli vaynösə Sahibin hava прогноз-u düpbədüz çıxdı!

Nazı yeməkxanada, ensiz uzun taxta oturacaqda uzanıb yatmışdı.

Əhmədi bigəm! - deyərək, onu yaxalayıb səksəndirdim və dabbaq xoşladığı dərini yerdən-yerə vurduğu kimi, azca sinəsindən qaldırıb uzun taxta oturacağa döyəclədim.

Sonra da, Елм вə həjат jurnalından oxuduğum, maraqlı “Mexaniki inək” kəşfini ona danışdım:

“İngiltərədə bir aparat ixtira ediblər. İnəyə heç bir oxşarlığı olmayan bu aparat yemi südə çevirir.

Transportyor yemi “çeynəmək üçün” mexaniki çənəyə verir. Sonra oradan yem sentrafuqaya keçir. Burada lif mayedən ayrılır və kimyəvi maddələr elektrik cərəyanı ilə emal edilir.

Alınan şəffaf və neytral şirə, - şəkər, yağ və başqa maddələrlə zənginləşdirilir. Bütün bunlar ciddi şəkildə qarışdırılır və pasterizə edilir.

Bu da sənə inək südü! ”

Nazı gözlərini bərəldib diqqətlə baxırdı. Qəflətən şaqqanaq çəkib, qolunu dizinə çırpa-çırpa, qəşş elədi:

- Sentyfuqa, tyanspoytyoy nədi, pazteyizə, neytyay nədi əə?

O ki var güldük...

27 iyun 1972-ci il, saat 12:09 idi.

Yağış işini bitirib kəsmişdi.

Bakirlə samovolkaya getdik.

Turbazanın həyətindən keçib, sincablı, dələli xiyaban boyu veyillənə-veyillənə dəniz kənarındakı çimərliyə gəlib çıxdıq.

Alleya boyu maili enişlə keçdiyimiz bütün yerlərdə nəmişlik olsa da, boş oturacaq yox idi. Əsasən gecələr qol-boyun olub, sanki bütün Odessa bu taxta oturacaqlarda öpüşürdü.

Saysız öpüşənlərə, tamarzı məhbuslar kimi, - həsəd və vəhşi ehtiras dolu acgözlüklə baxa - baxa da, geri qayıtdıq.

Bakıda, milis işçiləri rüşvət almasa, “kələyə gələnləri”, - nəinki kələyə gələnləri, heç yeniyetmə sevişənlərin öpüşməsinə belə imkan verməzdi!

...Kazarmada Zamyatinlə mübahisə elədik. Səsə Faiq, Şükür və Nazı dərhal ayağa qalxdı. Bakir də tutulmurdu.

Zamyatin yedi...

Uşaqlarımızı özüm sakitləşdirdim.

Nahara az qalmış nazlı lümpen-proletariat Əhlimanla dənizə qaçdıq.

Biz hərbi hissənin ərazisindən çıxanda Boyko görər və Podqornuyla Kaşşeyevi arxamızca göndərmək istəyər.

Tağım komandirlərinin hər ikisi məni müdafiə edib deyərlər:

“Hər gün idmanla məşğul olur, - xiyabanda qaçır, sahildə qantellərlə idman təmrinləri eləyəndən sonra, dənizdə çimib qayıdır və buradakı turnikdə müxtəlif fiziki hərəkətlər edir, - yəni, elə bir qorxusu yoxdu...”

Və beləcə, kişi kimi ”yerdə qalanları” da malalayaraq, yaşılgöz Boykonun səbbini alıb sakitləşdirərlər.

Biz qayıdanda bunları mənə Kaşşeyev danışdı və eyham da vurdu: “Bu gün Boykonun ad günüdür... “

Dayısının aldığı al-qırmızı xoruz şirniquşu görən uşaq kimi sevincək:

- Belə de! Batman gündü ki!

Paypüşk alınmalıydı...

“Kimin arabasında gedirsənsə, onun mahnısını oxu,” - xalq məsəlini xatırlayaraq, Mürşüdə iki sarı rublluq əskinas verib, 1 manat 80 qəpiklik süfrə çaxırı aldırdım.

Nahar yeməyindən sonra uşaqların işlərini bölüşdürüb, гастроном-da səliqəylə kağıza bükülmüş və sellofana salınıb qırmızı lentlə bantlanmış bir butulka çaxırla,- dəftərxanada onu - siyasi işlər üzrə komandir müavini, baş leytenant Boykonu... uca göylərə, nəhayətsiz kainata güvənən sadəlövh müsəlman əsgər - kiçik serjant qanacağı ilə səmimi qəlbdən təbrik elədim.

Sevinclə hədiyyəni qəbul edib, utanmaz-utanmaz yanımdaca açdı.

Lotu adətkar imiş!

Ucuz ağ süfrə çaxırını görəndə, başına daş düşən adamlar kimi - gözləri bərəlib, susdu... Hannan-hana özünə gələndə, ikrahla ağzını büzüşdürüb, dodaqlarını irəli çıxararaq:

- Püfff... - elədi.

Sonra da başını aşağı dikib, gözlərimə baxmadan, sinəsi xışhaxışla qalxıb enə-enə donquldandı:

- Ətin üstü açıqdır, pişiyin qanacağına nə gəldi?!

Heyrətlə susdum...

Yerində qurcuxub, bir qədər sonra deyinə-deyinə, - səhərlər hərbi ərazini tərk elədiyimi

bilidiyini, bu işə göz yumaraq susduğunu, eyhamla cibimdəki əskinasların çoxluğundan da göz bəbəyi kimi xəbərdar olduğunu, minnət və istehzayla xatırlatdı.

Çənə döymək yeri deyildi.

Başa düşdüm:

“Cibdə pul olub komandiri, - özü də siyasi işlər üzrə komandiri mısıq qoymaq...

Bu ağır, - müsəlmanların namus müsibəti, nəsil-nəcabət davası kimi açıq bir mərəkə, çözülməsi –göy saplağından üzülüb düşmək istəyən sulu armud kimi yetişmiş...

Artıq çürüdülməli bir haqq-hesab, həyati vacib bir qiyamat və üstəgəl də batman ad günü məsələsi çılın-çılpaq ortalıqda...”

Malın mal olunca bazarın bazar olsun.

Gərək konyak aldıraydım!

Ən azı da üç ulduz.

Artıq gec idi, iş-işdən keçmiş, tələ tikəsi boğazımda ilişib qalmışdı.

Udqunub gülümsündüm, həqiqətən də simiclik eləmişdim, günahkar bir tövrlə köks ötürüb:

- Əvəzini çıxaram,- yoldaş baş leytenant...

- Pulunun sayını da deyim? Bil ki, Sovet ordusunun əks kəşfiyyatı Amerika, Hindistan, Böyük Britaniya, Çin, Fransa kimi hegemon dövlət başçılarının “ciblərindəki” puldan da xəbərdardı!

Hər şey su kimi apaydın idi.

Cibimdə pul və batman ad günü, - bu iki həyatı vacib məsələdə, ucuz çaxırla Fatıya tuman çıxmazdı!

Görünən dağa nə bələdçi?

- İndi həll edərəm, - deyib, suyu süzələnə-süzələnə, xəcalətlə bayıra çıxdım.

Boyko,- qırılsa hamıdan bərk qaçan buzov kimi bir şeymiş ki!

Yenicə aralanmışdım, fikirli olduğumdan Popov adlı bir sıravi sibirliylə toqquşdum.

Kobudluqla məni itələdi və ağızlaşdıq.

Qəflətən, çaqqala oxşar heyvərə gədə əl atıb boğazımdan yapışdı:

- Hyyy… deyirlər, "türkün canı bərk olur,"- görək?

Ağcabədili Nazı özünü yetirəndə, köpək oğlu qorxmaq əvəzinə bir əliylə də Nazını boğazladı.

Qudurmuşluğa bir bax !

Gözləri canavar gözləri kimi alışıb yanırdı.

Hardasan, ay Elxan Əbdürrəhmanov!

Elə bil meşədə qəflətən qarşımıza, ovçu tərəfindən güllə yarası almış bir ayı çıxmışdı.

Daha yer o yer deyil, çəmsiz, sipərsiz- zadsız işimiz fırığıydı.

Mırıq dişli bu "ayını" sındırmaq, ona babat həyat dərsi vermək zamanıydı. Geri çəkilmək, əsgərlər arasında beüzm olub,- mənən məhv olmaq qədər fəlakət idi.

Və həm də rus ayısı bilməliydi:

“Həyat heç də nağıllarda olduğu kimi deyil. Və türk də türkdü! Yenilməzlik alnımıza yazılıb...”

Boğazım əldə olduğundan məqam axtarır, çulğaşan bulud artıq bərk tufan qopacağından xəbər verirdi.

O, çaşıb səhvə yol verdi və hər ikimizin boğazını buraxıb, düz alnımın ortasına güclü bir yumruq ilişdirdi.

Nazı qaçdı.

Gözlərim qaraldı, əllərimlə başımı tutub, aşağı çökdüm...

Rus ayısı tamam boşalıb arxayınlaşanda, ürəyimdə: “Aman Allah, bu an məni sındırma!”- deyib, qəfil saçan şimşək təki, sıçrayıb düz onun yekədeşik, armudşəkilli ətli burnuna bir kəllə ilişdirdim...və dalbadal, dayanmadan sağ, sol yumruqla ağzına çilədim.

Yumruğum onun soyuq ağzına çırpılanda yumşaq, ətli iri dodaqlarının isti, köpüklü qanı sümüklü oynaqlarımda xırçıldayıb ətrafa sıçradı və üstümə, sir-sifətimə səpələndi.

- Cəsursan? Gəbər it oğlu! Gəbər! –deyib, qışqırdım.

Əclaf çox güclü idi.

Üstümə yeriyib, qüvvətli əlləriylə məni boğazlamağa çalışsa da, imkan vermədim və ikinci səhvi buraxıb, ləngidi.

Bir neçə saniyə ərzində ardıcıl atdığım yumruq və təpiklərdən gözü qorxdu, pendir motalı kimi

yırğalandı və heyrətli bir kədərlə əlini axan, qıvırcaq dolu qanlı dodaqlarına apardı.

Hər ehtimala qarşı, ora – bura baxıb, gözlərimlə yerdən bir daş axtardım.

Hər şey bir göz qırpımında baş vermiş, Maarif üç-dörd uşaqla özünü yetirib gələndə, gördüklərindən vəhşətə gələrək, yerindəcə quruyub qalmışdı.

Ətrafdakı əsgərlər də yüyürüb araya girdi.

O, məndən qat-qat qüvvətli olsa da, pələ qulaqları sıyrılmış, qıpqırmızı qızarıb köpmüş, armud burnu və ətli dodaqları yekəbaşlıq və saymamazlığı ucbatından dağılıb cılxa qana boyanmışdı.

Küçə davasının da öz fərdi taktikası, öz strategiyası, öz fəlsəfəsi var.

Birincisi - ürəkli olmaq, qorxmamaqdı!

İkincisi - cəld, çevik, soyuqqanlı olmaqdı.

Üçüncüsü -qan görəndə karıxıb, çaşıb boşalmamaq...

Əsas şərtlərdən biri də, qarşındakı rəqibin gözlərindən, rəng-rufundan ürəyini oxumaq, davaqabağı şəraiti düz dəyərləndirmək, siyasi hiyləgərlikdən istifadə və sonda ilk vurmaq!

Boğazım sıyrılsa da, demək olar, mənə heç nə olmamışdı.

Agcabədili Nazı yaman qorxdu!

Kəllə və ardıcıl yumruqlarım hədəfə düz dəydiyindən Popovun canına istilik keçmişdi. O, kazarmada dodağının qanını dəsmalla sıxıb

güzgüdə sir-sifətinə baxanda, burun və dodaqlarının şişmiş, qanlı vəziyyətini görüb sanki yuxudan ayıldı və birdən, yaralı ayı kimi hayqırıb yenidən üstümə cumdu.

Uşaqlar onun qarşısını kəsəndə, dəstəyi gümüşü balığa oxşar qatlama bıçağı çıxarıb, cəld açdım.

Yaxınlaşan digər sibir uşaqları da soyuq silahın zəhmindən qorxdu...

Popov sarsılmış, sınmış, "polad kanatı" sökülmüşdü! Sallaqxanaya aparılan qoyun kimi, donuq nəzərlərlə gözlərini döyürdü...

Gözlərinin altı əvvəl qızarmış, indi isə tədricən şişirdi.

Heysiyyatın da tarixi var!

Əclaf!

Hissləri zorlamaq, türk qüruruyla oynamaq olmaz. Eşşək də güclüdür, nə olsun?

Bil ki, türk - təkə təki, kəklik kimi dağdan-dağa səkər!

Yaxşı ki, Mürşüd, zemelya Şükür, Faiq, Turabxan, Bakir, Baba və başqa bizim uşaqlar yaxında yoxuydu.

Aralandıq...

İvanyuşenko dərhal tağım komandiri molodoy serjant Podqornuya davanı xəbərlədi.

Podqornu, kənara çəkib nə baş verdiyini soruşanda əvvəl dillənmədim.

Bir az səsinə həlimlik qatıb:

- Sıravi Popovu niyə döymüsən? Dünən Zamyatini də döymək istəmisiniz...

Podqornunun çəlimsiz qolundan yapışıb, İvanyuşenkonun yanına apardım. Tarasyukla Fedirko da ordaydı. Əclafın rəngi qaçmışdı, hikkəylə qışqırdım:

-Ейй... Ты! Трус! Сукин сын!

Rəngi meyid rəngi kimi saraldı, amma dillənmədi.

Yenidən paзгом götürdüm:

- Rotada mən də sənin kimi serjant ,həm də bölükbaşıyam, sıravi əsgər rusdu, deyə, məni boğazlamalıdı? Ayaqları altına üzüqoyulu sərib döyməli, mən də susmalıyam, hə? Nə borcuna qalıb sənin? Dalaşmışıq, özümüz bilərik, toy toğlusu kimi ortalığa nə girmisən? Nə satqınlıq eləyirsən?

Sümsük it!

Bil ki, itin qabağından qalanı aslan yeməz!

İvanyuşenko qorxusundan,- qəfil gələn rüzgar kimi xəfif- xəfif əsib, titrədi.

- İtin alası çaqqalın tulasıdır deyiblər,- eşitmisən?

Ruslar İvanyuşenkoya diqqətlə baxıb, qəflətən gülüşdülər.

O qorxusundan heyva kimi saralıb, çox qəribə bir sifətə düşmüşdü.

Elə bu vaxt...

Ruslarla Pervomayskidə düşən davalarda qaçıb gizlənsə də... bu dəfə Nazı, on - on beş azərbaycanlı əsgərlə özünü yetirdi...

Qarşılarına çıxıb, ana dilimizdə onları sakitləşdirdim.

Artıq zəfər çalınmışdı.

Allah bu dəfə də arxa kömək oldu.

Sınmadım!

Üzümü göyə tutdum. Mavi səmada iki quş ağır-ağır süzürdü...

Nazını Popovun arxasınca göndərdim, "kəs barmağını çıx bazara, əlac tapan çox olar"- məsəli başa salsın: "Satqınçılıq olmasın!"

Bir qədər keçmiş... Popov, kişi kimi özü yanıma gəldi.

Gözünün altı bərk şişmiş, sabaha göyərib qaralacaqdı.

Bir az da çıxımına gedib, mübahisə edə-edə barışdıq:

- Satqınçılıq, çuğulluq xislətimdə yoxdu, satmaram... -dedi.

Və axırda etiraf da elədi: "Günah özümdə oldu..."

Gecə sinc vurulanda bir qədər həyəcan keçirsəm də, sıra meydanında rotanın sonuncu sıra düzləmi sakitçiliklə keçdi.

Nə tağım komandiri gənc Podqornu, nə İvanyuşenko, nə döyülən Popov, nə də başqa görüb - bilib, eşidənlər bir söz danışmadı.

Hamı bu “milli” davanı mayor Deqtyardan gizlətdi...

Boykoya iki butulka “beşulduz” Екстра konyakı ərməğan elədim!

Dalğın idi...

Konyakları görən kimi sakit, amma hirsli bir mərhəmətlə:

- Qolikovla Stalindən nə danışacaqdın? - soruşdu.

Fitri istedadlı siyasətçilər kimi, aramla danişmağa başladım:

“Bizim həmyerlimiz, - bakılı Rixard Zorge SSRİ Baş Kəşfiyyat İdarəsinə olduqca mühüm məlumat vermişdi:

“Hitler hücuma keçməyi planlaşdırır.”

Lakin Stalin buna inanmamış və onun məxfi dezinformasiya qurbanı olduğunu zənn eləmişdi.

Hitler axmaq deyildi!

O SSRi üzərinə hücuma hazırlaşa-hazırlaşa yalan məlumatlar yayırdı.

Stalin, Baş Kəşfiyyat İdarəsinin rəisi general-leytenant Qolikova çox inanırdı.

Hər ikisi sənədlərə inanmırdı.

Odur ki, gecəsini gündüzünə qatıb elə meyar, elə sənəd, fakt axtarırdı ki, dəqiqliklə müəyyənləşdirsin, -Hitler nə vaxt və həqiqətdə nə planlaşdırır.

Nəhayət istəyinə nail oldu.

Xaricdəki bütün agentlər, qoyunları izləyirdi: "Əgər Avropa bazarlarında qoyun ətinin qiyməti kəskin aşağı düşsə, bu o deməyiydi ki, bazarlara dərisiz çoxlu qoyun cəmdəyi daxil olub və qoyun dərilərindən alman ordusuna, qışın soyuğu üçün isti kürklər tikilir.

Hitler tarixdən bilirdi: Rusiyada Napoleon ordusu qışın çovğununda, şaxtasında məğlub olmuşdu...

Bundan sonra bunu təsdiq edən yeni fakt ortaya çıxdı:

"Alman hərbi hissələrinin zibilxanalarında tapılan sürtkü yağına bulaşmış əski-üskü, cır-cındır və kağız-kuğuzlar!"

Agentlər bunları yığıb Moskvaya, analizə göndərmişdi.

Analizin nəticəsi göstərdi ki, bütün bu yağlar, isti iqlimə hesablanmış texniki sürtgü yağlarıdır.

Moskvanın sərt qışında, bu yağlarla heç bir texnika işləməzdi!

İ.V.Stalin və general - leytenant Qolikov belə qənaətə gəldilər ki, Hitler SSRİ üzərinə hücuma hələ hazır deyil.

Lakin:

Stalinin "Molotov-Ribbentrop Paktı"ndan sonra, Hitler strateji tupikə salındığını anlayıb qəfildən ayıldı ki, daha onun itiriləsi bir şeyi qalmayıb.

Stalin müharibəyə hazırlaşır və artıq dayanmadan qərb sərhədlərinə ağır texnika daşınır.

Sovet əsgərlərini daşıyan eşalonlar gecə-gündüz sərhəddə boşalır və ardı-arası kəsilmir.

Bir sözlə:

“Ordu cəmləşir!”

Fürer Hitler başa düşdü ki, qüvvə tam cəmləşməmiş ilk zərbəni özü vurmalıdır və ölümcül bir qərar olsa da, bunu qəbul elədi.

Stalin isə bunu heç gözləmirdi!”

Yaşılgöz Boyko heyrət və heyranlıqla məni dinləyib, başını bulayaraq susdu... və psixoloji reflekslə gözünü konyaka zilləyib, başı qarışıq,- gözləriylə minnətdarlıq elədi.

Batman ad günü!

Bu xata da belə sovuşdu...

Azərbaycanlı əsgərlər topalaşıb, ikincinci mərtəbədə, mentalitetə uyğun, -yenə söyüşə - söyüşə, çığıra - bağıra, səs-küylə danışır, ağız deyəni qulaq eşitmirdi:

“- At, qatara çatmaz, ay qoyun!

- Mal-qara elə istidə xəstəlik tapır də...

- Ələ... sən öləsən, babam müharibəyə gedəndə, heç altı-yeddi addım irəliləməmiş, yalandan üzüqoylu yerə hellənərək, geriyə sürünməyə başlayıb ki, guya yaralandı.

Bilmişdilər!

Basdılar cərimə batalyonuna.

O əziz dədəmin qəbri haqqı, müharibə qurtaranda, inan, sinəsi orden - medalla dolu gəlmişdi.

- Ay eşşək, elə qoz ağacından qayırırlar də mebeli!

- Ə, xotux, varlı da kasıba kilim-palaz toxuyar?

- Sən öləsən, ciyim deyirdi, təkbuynuz kərgədan məxluqatı yeyir.

- Ə, neynirəm eyy toyu, toy xərc götürür, gedən kimi sovxozda inək sağanın birini qaçırda bilmirəm?"

Hərə ağzına gələni gəvəziyir, bir söz söyləyir, səsləri ətrafı bürümüş, aləm bir-birinə qarışmış, sanki tayfa davası gedəcək...

...Tahir Ağayevin dağıstanlı əsgər dostu Ruslandan məktub aldım.

Fotoşəkil göndərməyi xahiş eləmişdi, vaxt eləyib göndərə bilməmişdim, odur, yazıb gileylənirdi...

Odessada, Tahir və Nazıyla - üçlükdə çəkdirdiyimiz fotoşəklin birini seçib, dərhal zərfə qoydum. Səliqəylə qısa cavab yazaraq, səhlənkarlığıma rəğmən üzr də istəyib, Ruslana cavab məktubu göndərdim.

Uşağa ana, torpağa toxum, kişiyə qadın lazım olduğu kimi, biz - suvaqçı əsgərlərə də əhəng və sement zəruri idi. Neçə gündü işləyə bilmirdik.

Axır ki, bu gün bir maşın,- çoxu, çay daşları kimi müxtəlif böyüklükdə olan, dənvari əhəng gətirdilər.

Müxtəlif mərtəbələrdə işləyən briqadamın müsəlman əsgərləri, nədənsə, açıq eyvanlara çıxıb sevinclə, pilotkalarını yelləyə-yelləyə fit çalır, çığırışır, ucu pazla yerə vurulan kəndirindən qopmuş dayçalar kimi şıllaq ata-ata oynaqlayırdılar.

ЗИС maşını yükünü şarıltıyla, tərtəmiz boşaldıb, nəriltiylə qara tüstünü açıq havaya necə buraxdısa, yan-yörəni əhəngin tozu qarışıq, tüstü dumanı bürüdü.

Maşını ağ toz və qara tüstünün yaratdığı boz duman cənginə aldı.

Sürücü əsgər qazı təkrar - təkrar basıb, ustalığını və özünün əlçatmaz böyüklüyünü lovğalıqla nümayiş elətdirməyi də unutmadı.

Əhəngin xoş ətri aləmə yayılsa da, dağ boyda ağaran yükə baxıb, düzü bir az məyus oldum.

Sabahdan yenə suvaq, yenə plan...

Lümpen proletariat, nazlı Əhlimanı gilənar oğurluğuna göndərdiyimdən bütün gecəni yatmamışdı. Ona istirahət vermişdim.

Rota yatandan sonra uşaqlara gilənar qonaqlığı verməliydim.

Gecə sakit idi.

Əhlimanla çıxıb turbazanın həyətində bir xeyli veyillənib, sülənəndən sonra, xiyabanda öpüşənlərə baxmağa getdik.

Zülmət qaranlığa çəkilərək, kənardan "sevişənlərə" baxıb ləzzət almağı müsəlman əsgərlərimiz, xüsusiylə də - göydodaq Ədalət,

vaynösə Sahib Əkbərov, qayışbaldır Turabxan, zəyəmli Vahid və ağcabədili pəltək Nazı artıq bir peşə halına salmışdı...

Yolda, güllə kimi səkən xallı Arif və Turabxanla qarşılaşdıq.

Həyəcan və qaranəfəs üstümüzə qaçıb tələşlə bildirdilər ki, bir mülki oğlan qara Vəlinin "qızını" zorla "əlindən" alıb aparmaq istəyir.

Dördümüz də dərhal hadisə yerinə götürüldük.

Süləngi qara Vəli darda idi!

Beş qafqazlının birdən, qəfil, dəli hücumu qarşısında rus oğlan çaşaraq, qeyd-şərtsiz ağ bayraq qaldırıb, qızı buraxdı.

Vəlinin "qızını" azad edə bildik!

"Gəlini bəyimizin" qoltuğuna verərək: "Toy xərc götürür, nəyimizə lazımdır axı, "işinizdə" olun,"-deyib, rus oğlanı özümüzlə oradan uzaqlaşdırdıq.

Sərələhlənə-sərələhlənə qayıdıb gələndə Kaşşeyev bizi yolda görər. Mülki paltarda olduğundan onu tanımamışdıq...

Gecə, gənc Podqornu məni kənara çəkib məsləhətlə dedi:

- İndicə Kaşşeyev mənə bildirdi ki, sənin bölüyündən üç nəfər əsgər xiyabanda olub- Arif, Əhliman, bir də Turabxan.

Mat qaldım.

Sağ olsun Kaşşeyevi, mənim adımı nə əcəba çəkməyib?

Lotu oğlanmış ki bu!

Qırışığım açıldı:

- Qələt eləyiblər, narahat olma, özüm dərslərini verərəm, - dedim.

Zemelyalar, - Faiq və Şükürü, ağcabədili Nazını, Baba və təpərsiz Mürşüdlə lümpen proletariat Əhlimanı da yanıma çağırtdırıb, tağım komandiri Podqornuyla birlikdə birinci mərtəbədə yeməkxananı açdırıdıq.

Gecədən oğurlanıb, saplaq qarışıq arıtlanaraq, gül kimi yuyulub təmizlənmiş bir vedrə gilənarı ləzzətlə yedik.

Başbirlik eləyən suyuşirin oynaş və məşuqəsi kimi - oğurluq gilənar, mağazadan alınan halal gilənarlardan həm şirin, həm də dadlı olurmuş...

Düşüncələr...
Motalla alınan Lenin ordeni və nazirin ikrahı

Odessa, 28 və 29 iyun 1972-ci il, III və IV günlər.

Bölük komandirlərini düz saat 04:30 -da durğuzdular.

Elə bil gözlərimə qum dənələri dolmuşdu, ha ovuşdursam da açılmır, heç yuxusu da qaçıb qurtarmaq bilmirdi.

Hansısa general gəlməliydi.

Bu bəhanəylə rotaya, “Qalxın!” - əmri verilib, sıra meydanında əsgərlər düzüləndə sübh tezdən saat 05:00 idi.

Bu səhərki dəniz idmanı əvəzinə, dünya ağarmamış Lenin iməcliyinə başladıq.

Toz-torpaqla güləşdiyimizdən, “qırmızı çaxırlı” halal səhər yeməyini düz bir saat gecikdirdilər.

Generaldan qabaq, Pervomayskidən azərbaycanlı Elxan həkim gəlib çıxdı.

Bizim bütün uşaqlar tozanağın içində, - dillərinin üstünə, göz bəbəklərinə, burun deşiklərinə, bığlarına kimi toz-torpağa batsalar da, sevincək tökülüşüb gəldilər.

Elxan həkim hamıyla bir-bir əl tutub, hal- əhval elədi. Toza batmadığımdan qucaqlaşıb öpüşdük və dərhal da qoltuq cibinə əl atıb, düz altı ədəd məktub çıxararaq mənə uzatdı.

Dördgöz, zərflərin üzərindəki adları oxudum:

“Tovuzun Cırdaxan kənd sovetliyinin Əsrik kəndindən olan taytax Nadir, yanağında- ortası tüklü qara xal olan Laçının Şalva kənd sovetliyindən olan Şahmar Hətəmov, Laçının Minkənd sovetliyindən Səbuhi Qadmalıyev, bakılı Bilalov, “xumbaçılar” - şamxorlu Alik Oqanesyan və Ağdamın Göytəpə kənd sovetliyinin Tərneft kəndindən olan Telman Mamedovdan idi.”

Məktub göndərənlərin çoxundan xoşum gəlsə də, xumba üzvü olmasına şübhəm qalmadığı,

ağdamlı çənə Telmandan zəhləm gedirdi. Bu əclaf çox nadürüst, xisləti, məsləki, əqidəsi bilinməyən, ruslar demiş,- балбес, гнида, Dostoyevskinin əsl идиот-u idi...

Sov.İKP MK Baş katibi, yoldaş L.Brejnev dəlicəsinə, sonsuz bir odlu ehtirasla orden-medalları necə sevirdisə, bu çənəsi əyri oranqutan meymununa oxşayan, şarlatan gədə də pis əməllərin- araqarışdırmağın, satqınçılığın, çuğulluğun dəlisiydi...

Uşaqlar həkimi dövrəyə almışdı.

Həkim nəsə danışmağın vacib olduğunu anlayıb:

- Pervomayskidə vəziyyət çox ağırdır, - dedi,- bizim əsgərlər hərbi xidmətə yenicə gələn molodoylar kimi səhər yeməyini yeyib, sübh tezdən işləməyə gedir, nahar və şam yeməyini iş yerində eləyib, yatmaq əmrindən az əvvəl qayıdır, işdən saat 21:00-dan tez gələndə sevinirlər...

Həkim üzünü mənə tutub:

- Salyanlı Adil deyir: “Babayev gedəndən xeyir, ruzi-bərəkət, oxumaq, çalıb-oynamaq, deyib-gülmək də onunla gedib. Heç kəs samovolkaya gedə bilmir…”

Altı məktubdan sonra, salyanlı Adilin bu sözləri məni lap duyğulandırdı.

İlk olaraq, xırxır Qadmalıyevin məktubunu açıb oxudum. Anasının Laçından, - oğlunun dostu kimi

mənə ünvanladığı məktub da zərfin içərisindəydi. Yazıq arvad yenə kərə yağı və Lənkəran çayı bükülən kağızda yazmışdı.

Oqanesyan yazırdı:

"Uşaqlar yetimləşib, görsən tanımazsan. Yefreytor çənə Telman isterika içərisində, ağır xəstəlik keçirən çaqqala oxşayır. İkinci rotanın siyasi işlər üzrə komandir müavini Boykonun dostu, - laçınlı Səbuhi Qadmalıyev evlənib, -kənddəki "o qızla" əməlli-başlı, ər-arvad kimi yaşayır. Taytax Nadir, gecələr hərbi hissənin maşınlarından oğurlayıb mülki vətəndaşlara satdığı hissələrin puluyla, tez-tez aldığı araq-çaxırdan verib, yaxın kəndlərdə yaşlı arvadlarla gecələyir.

Könlündən keçən generallıq arzusunu reallaşdırmaq üçün, hərisliklə rüşvət alıb sərvət toplayan, rotamızın komandiri, baş leytenant Bryusov, hələlik taytax Nadir, Səbuhi və Telmanin verdiyi paypüşkün ümidinə qalıb.

Rüşvət verməyi xoşlayan, Azərbaycan və digər müsəlman respublikalarından növbəti çağırışçılar gətirib, onların pulu hesabına yuxusunun çin olacağına hələ də inamını itirməyən Bryusov, indi əsl general hikkəsiylə, acığını hərdən bakılı, - arıq, pulsuz Bilalovdan, hərdən də, xrom zabit çəkmələrini kazarmanın taxta döşəməsinə çırparaq : "Тюрки,тюрки!" - qışqırıb Hətəmovdan çıxır.

İkinci rotadakı bütün stariklər isə tərxis olunub gedib..."

...Səhər yeməyindən dərhal sonra, Elxan həkim nədənsə vasvası qara Vəliyə Boykodan icazə aldı.

Tülkü Vəli irişə - irişə boğaz dartıb, mülki paltarımı istədi. Elxan həkimə görə bir söz deyə bilmədim.

Yaman isti idi, havada xəfə vardı...

Omsklu Alladan məktub aldım.

Yazmışdı:

“Ailə üzvləriniz haqqında geniş yaz... özün haqda ətraflı məlumatlar ver. Bir-birimizlə yaxından tanış olaq, dünyanın işini bilmək olmaz, bəlkə nə vaxtsa qarşılaşdıq? Atalar yaxşı deyib: Dağ-dağa rast gəlməsə də insan–insana rast gələr...”

Çox bəsit məktub idi...

Bu gün bölüyüm yeməkxanada növbəti naryadda idi.

Generaldan xəbər -ətər yoxuydu...

Bütün günü yeməkxanada oturub müxtəlif ünvanlara, dost - tanışlara məktublar yazdım, qəzetləri, çoxdan gələn maraqlı məktubları oxuyub, bir qədər də elə oturduğum uzun taxta oturacağın üstündə yuxuladım da...

Xallı Arif, təklikdə Podqornuya deyibmiş ki: “Məni samovolkaya Babayev buraxmışdı.”

Tağım komandiri, gənc Podqornu bu xəbəri çatdıranda məcbur qalıb, boynuma götürdüm. Yazıq bir söz demədi...

Yağış başladı.

Uşaqlarım taxta тёрка, полутёрка, козёл düzəltdi, sabahdan suvaq işinə başlayacağıq...

General gəlmədi.

Bəlkə də, mayor Deqtyarın hərbi - taktiki siyasəti, fəndi, qurğusu imiş. Hər yanı tərtəmiz silib-süpürüb, yaxşıca yığışdırmışdıq.

...Sübh tezdən nazlı, lümpen proletariat Əhlimanı da götürüb dəniz idmanına getdim.

Son günlər hava yaman yağışlı olur. Yay girəndən ilk dəfəydi, dənizdə adam az olurdu...

Nasos yenə işləmədi, nə qədər çalışdıq – vuruşduq, düzəldə bilmədik. Baş mexanik hansısa obyektdə olduğundan əlacsız qalıb, mayor Deqtyarın gəlişini gözləyəsi olduq.

Bu vaxt Tanya gəldi.

Görüşüb, hal - əhval tutandan sonra naryad bağlamağa başladıq. Yenicə bissimillah eləyib ölçüb - biçirdik, hərbi tikinti sahəsində nüfuz məmuru sahibi olan mayor Deqtyarın səsi aləmi başına götürdü:

- Briqadanın əsgərləri oturub, sən naryad bağlayırsan?- qışqıra-qışqıra soruşdu.

Yaman pərt olduq...

Tanyadan ayrılıb, mayorla getdim.

- Nasos xarab olub, yoldaş mayor, - dedim, - ona görə naryad bağlayırdım ki, siz gələnə boş dayanmayım.

Əclaf özü qollarını çırmalayıb nasosu qurdalamağa başladı. Görünür, düşünürdü:

"Bəlkə qəsdən qırmışıq?"

Uşaqların yanına qayıtdım. Hamısı dabanı üstə çömbəlib siqaret sümürür, zarafatlaşır, imkanlı qohumlarının sürü və ilxılarından söhbət eləyirdilər.

Yefreytor İlyas gözümə dəymədi və soruşanda: "Praporşik aparıb", - dedilər.

- Bəs, niyə mənə bildirməyib? – hirsimdən kazarmaya cumdum.

Praporşik ona kazarmadakı çarpayıları заправка elətdirirdi.

Yefreytor İlyasın köynəyinin yaxasından bərk-bərk yapışıb, zor gücünə, darta - darta kazarmadan çıxartdım.

O qollarımdan qırraşaraq, dartına-dartına zığıldayır, çəmkirir, birucdan cavab qaytarırdı.

Tutaşdıq.

Sifətindən başqa harası gəldi vurdum. Dovşandodaq, atsifət gədə rəngi qaçmış, ХБ-sinin düymələri açılıb qopmuş, əzilmiş halda- mırtıldaya -mırtıldaya, hədələyə-hədələyə və həm də ümidlə Boykonun yanına tərpəndi.

Kişi şikayətə getdi!

Bir az keçmiş Boyko məni çağırtdırdı.

İçəri daxil olanda, onu çölə çıxarıb çox səmimi və incə bir nəzakətlə:

- Yoldaş bölükbaşı, əsgəri vurmaq olmaz! Siyasətlə, sözlə başa sal...

Bu yöndə öyüd-nəsihət verməyi -paypüşt konyakların bəhrəsiydi...

Baş mexanik də gəlib çıxmışdı, mayorla birlikdə nasosu düzəldə bildilər.

Deqtyarın əlləri, dizi mazuta bulaşmış, qaşlarının üstündən tər damcılayırdı. Baş mexanikin də əyin-başı, üz-gözü, saçı paçevnik yağına, toz-torpağa bulaşmışdı...

Uşaqların işini böldüm.

Axırıncı mərtəbədəki işləyəcəyimiz yerə xeyli rastvor vurduq.

İş tam qaydaya düşəndən sonra qayıdıb kazarmaya gəldim.

Oturub, özüm haqqında Allaya geniş cavab məktubu hazırladım.

Bakıda tələbə olduğumu, Yasamalda daimi yaşadığım: "Ул. 11-я Хребтовая 7 А"- ev ünvanımı göstərdim.

Birdən ağlıma bir fikir gəldi:

"Omsklu Allayla niyə məktublaşıram? Məqsədim nə idi?"

Gözlərimi yumub, xəyal dəryamın dibinə enərək, beynimə gələn sualları öz-özümə verir və saf - çürük eləyib, düzgün cavab axtarırdım:

"Söz yox ki, onu sevmirəm, onunla ailə quracağımı deyiləm, biz ayrı - ayrı millətin, başqa- başqa

zümrənin adamlarıyıq... ancaq, cavan bir qızla dostluq eləmək olmazdı?

Əfsus, biz dost da deyildik.

Onunla Odessa aeroportunun arxasındakı meşə massivinin talasındakı saralmış hündür otluqda, o ki var öpüşmüşdük.

Deməli, artıq dostluqdan adlamışdı.

O ötəri bir məqam idi, yaşandı getdi...

Bəs onda niyə məktublaşırıq?

Axı mən hərbi xidməti qurtaran kimi doğma Bərdəmizə qayıdıb, yerdəki tanrım olan - Komsomolla ailə quracaq, sonra da biryolluq Bakıya köçüb,ali təhsilimi davam etdirəcəyəm...

Allayla məktublaşmağıma bəs nə ad verə bilərəm?

Hardasa eşitdiyim, ya oxuduğum bir gözəl məsəli xatırladım:

“Könül nə mey istər, nə meyxanə, könül dost istər, mey bəhanə...”

Nə vaxtsa Sibir tərəflərə yolum düşsə, onlarda qalaram, ya o Bakıya gəlsə, Qafqazı görəsi, gəzəsi olsa bizdə qala bilər.

Komsomol bu işi biləndə bir söz deməz? Məktublaşmağı davam eləsəm qısqanmaz? Ya elə Alla özü, bilsə ki, artıq ailə qurmuşam məktublaşmağa davam eləyər?

Hələ valideyinlərimiz...

O da məndən bir kar görməyəndə yəqin ərə gedəcək. Onun əri necə baxacaq bu işə?

Hələ bir həqiqət də oydu ki: Allayla mən, novruzgülüylə bənövşə kimi, bir-birimizi heç vaxt görməyəcəyik!

Gələcəyə çox nikbin baxıram.

Düzdür, nikbinliyin aşıb-daşdığı yer, ya erkən cənnət, ya da dəlixanadır.

Ancaq o dərəcədə deyiləm, qaya kimi sərt intizamım, polad kimi iradəm var. Əqidəm, məsləkim, dünyagörüşüm də öz yerində.

Qaya heç vaxt laxlamaz!

Məsləkimdə, əqidəmdə, amalımda qranit kimiyəm.

Hər bir sözə, cümləyə, hər yazılan, deyilən fəlsəfəyə öz mülahizəm, öz fikrim, öz iradım, öz baxışım var.

Hamıya adi görünən bəzi məsələlər məni daim düşündürür, tərpədir, narahat edir, həyəcanlandırırdı.

Yeri gəlmişkən, xırda bir detal:

“Niyə çoxbilmiş cuhudlar hamama adətən şənbə günü gedir, müsəlmanların çimib paklanmaq günü isə cümə günüdür?

Axı şənbə günü hamamda çimən еврей ev-eşiyində gecəni tər-təmiz yatıb özünü ailəsinə həsr edir, səhəri iş günü olmadığından heç olmasa iki-üç gün təmiz canla yaşaya bilir.

Bizim müsəlmanlar isə cümə günü çimib, elə o günü də iş yerində işləyib, toz-torpağa batırlar...”

Ya başqa bir misal:

Xalq mahnımızın sözlərində deyilir:

“Yar bizə qonaq gələcək,
Bilmirəm, nə vaxt gələcək?”

Axırda da deyir:

“Söz verib sabah gələcək...”

Bəs deyirdin, bilmirəm nə vaxt gələcək? Kişinin qızı sənə söz verib ki, sabah gələcək də!

Xalq mahnısının üç misrasında bir sətri yalan yazmaq, - həm də çox gözəl bəstələnmiş mahnıda ifa etmək nə verir bizə, ya gələcək nəslə? Bu yalanı tarixən bizi istəməyən qonşu ermənilər - zır düdüyünə qoyub çalmaz?

Və ya ,ikinci dünya müharibəsində bütün Sovet İttifaqının hərbi texnikasını, tankları, qırıcı - bombardmançı təyyarələri, döyüş gəmilərini yüksək oktanlı benzinlə təmin edən alim və mütəxəssislərimizə, neftçilərə... və yalnız azərbaycanlılardan ibarət 416-cı diviziyayla Taqanroq şəhərini Hitlerin alman faşistlərindən canları bahasına azad edən həmyerlilərimizə, - ümumilikdə doxsan iki nəfərə - Sovet İttifaqı Qəhrəmanı adı vermişdilər.

Bu doxsan iki nəfərdən isə, əllisi rus və ermənidi.

Tək Jukova, düz dörd dəfə Sovet İttifaqı Qəhrəmanı və marşal rütbəsi verilmişdi.

Müharibədə on minlərlə oğullarımız həlak olmuşdu. Küçə-küçə mağarlar qurulardı...

Çi fayda! Yüksək vəzifəyə müsəlman olduğumuza görə bizimkiləri təyin eləmirdilər.

Həzi Aslanov xristian olsaydı çoxdan marşal verərdilər...

SSRİ yaranandan üzübəri marşal rütbəsi alanımız yoxuydu, - iki azərbaycanlı almışdı, hər ikisi də ermənidi.

Sovet İttifaqı Qəhrəmanı adı alanlarımızın çoxu da , ölümündən sonra bu mükafatı alır, sağlığında göstərdiyi misilsiz şücaətin ləzzətli bəhrəsini dada bilmirdilər...

Şəhər və kəndlərimiz səngər-səngər cavanları itirsə də Sovet İttifaqı Qəhrəmanları, yüksək hərbi vəzifə tutanlarımız barmaqla sananırdı.

“Sosialist Əməyi Qəhrəmanı” isə yalnız pambıq yığan, neft çıxaran, əsasən də çobanlıq eləyənlərə verərdilər...

Tarixboyu, təhlükə sovuşhasovuşda, - yağışdan sonra aləmi başına götürən göbələklər kimi, kişilənib ortaya çıxan, - rusların тpyc adlandırdığı- həyasız erməni Baqramyanlar isə, elə asanca marşal rütbəsi alırdı...

Amma... 26 iyun 1945-ci ildə SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanıyla Sovet İttifaqı Generalissimus rütbəsi təsis edildi və səhəri günü bu

rütbəylə ilk təltif olunmuş Stalin, həm də 4 dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış marşal Jukov bilsinlər ki, Bakı nefti, bakılılar - akademik Azad Mirzəcanzadə və Sovet İttifaqı Qəhrəmanı akademik Ziya Bünyadovlar, tank qoşunları komandanı general Həzi Aslanovlar, 416-cı Taqanrok diviziyasını yaradan Mir-Cəfər Bağırovlar, dünyayla məşhur əks kəşfiyyatçı - azərbaycanlı Rixard Zorgelər, partizan Mixaylolar, bizim bərdənin Zümürxan kəndindən olan - Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovlar, fransız Şarl de Qolla çiyin-çiyinə vuruşan nuxalı. gənc Əhmədiyyələr olmasaydı, - girdəgöz, tösmərək fürer Adolf Hitler, Avropa və bəlkə də dünya şahmat taxtasından rus fiqurunu çoxdan silmişdi!

Bu vaxt beynimə başqa bir fikir gəldi:

“Pribaltikada, üç qardaş respublika - Litva, Latviya və Estoniyada yaşayan və rus dilində sərbəst danışıb yazan latışa, litvalıya, estona русскоговоряшшие,doğmaca respublikamızda yaşayan müsəlman azərbaycanlılara isə-русскоязычнее,- deyirdilər.”

Niyə?

Belə-belə işlər məni çox düşündürür, bu qəbildən olan yüzlərlə “qara siyahıları” Bərdədən görmək qeyri - mümkün idi.

Nə qədər oxusam da, müxtəlif insanlarla söhbət aparsam da, bu cür müəmmalı məsələlərin çoxu cavabsız qalırdı.

Dərsliklərdən tutmuş texniki, tarixi, siyasi və bədii kitablara qədər ,senzor öz işini görmüş, hər yazı siyasiləşdiyindən “gerçək” bilinmirdi.

Bərdə bizə kin, məkr, hiylə, siyasət, riya, ikiüzlülük öyrətməmişdi.

Çox sadəlövh idim.

Bir dəfə... hələ orta məktəbdə oxuyarkən Ulduz jurnalından oxumuşdum, alman filosofu Kant deyir:

“Ağ saçlı qadınlar ərlərinə xəyanət etmir.”

O vaxt heç nə anlamadım.

Bərdədən görünən dünyada, ya Şərq küçəsindən baxanda burada nə hikmət vardı?

Düşünürdüm: “Yəqin ağ saçlı qız tapıb evlənmək lazımdır.”

Amma çox sonralar, Bakıda institutda oxuyanda anladım... o, demək istəyirmiş ki, cavan olduğuna dəlalət edən müxtəlif rəngli - qara, sarı, şabalıdı... saçlıların əksəriyyəti, - avropada isə 99 faizi, ailəsinə - qadınına, ya kişisinə xəyanət edir. Elə ki, sinnləri əlli-altmışı keçib saçları ağappaq ağardı, bir poxa dərman olmadılar, bəli, onda xəyanətə son qoyurlar!

Hələ bu duel məsələsi.

Əsasən də Evarist Qalua və Puşkin...

Düşünürdüm: ”Hər ikisində ağıl deyilən şey yoxdur. Bax əsl nikbinliyin zirvəsi belə,- dəliliklə sonunclanır”.

Sən şairsən, ay gözəl Puşkin müəllim, özü də o böyüklükdə Rusiyanın ədəbiyyatı səndən başlayır... və ya... ey gidi dünyada, adı Qalua nəzəriyyəsilə

qalan, evlənməyə belə macal tapmayan düha, yeniyetmə riyaziyyatçı, siz hərbçisiz?

Reketsiz?

Ən pis halda sərrast atan ovçusuz ki, duelə gedib, qaliblər kimi millətin arasında məğrur - məğrur, şəstlə gəzəndə, sizi barmaqla göstərsinlər: “Bax, cəsur duel qəhrəmanıdır,”- desinlər deyə?

Bərdədən, bizim Şərq küçəmizdən onlar axmaq kimi görünürdü...

Düzdü, hələ Qaluaya bir qədər haqq qazandırırdım, çünki, onu duelə məcbur çağırıb, aparıblar.

Bəs Aleksandr?

Axı Puşkin, hərbçi Dantesi zorla duelə çağırtdıraraq özünü öldürtdürmüşdü...

Yox, vallah nikbinliyin də həddi - hüdudu olsa yaxşıdı.

Ya, bəlkə dəli -divanəlik özü, - daha ali bir məqsəddir?

Bəlkə, müəyyən həddən o yananı, yəni- lap dərini dərk edə bilmirəm?

Bəlkə, yaşadığım Bərdədən, təhsil aldığım Bakıdan, hərbi xidmət çəkdiyim Odessadan, gəzdiyim Kiyevdən , Rostovdan, Zaparojyedən, Dnepropetrovskidən, Həştərxandan, ya paytaxt Moskvadan da görünməyən, gizli, sirli,- ilahi bir haqq dünyası var?

Bəlkə, gözəgörünməz Tanrı özü şeytanı onların qəlbinə salıb, Əzrayılla cənnətə apardı?

Hələ ilk yadıma düşən bunlar oldu.

Dünyanın yarısını ən gənc yaşında fəth edən Makedoniyalı İsgəndər də, bu dünyadan tez köçmədimi?

Düzdü, o, dueldə ölmədi.

Məgər Allah onu da, - çox sevdiyindən duel yox, başqa bir bəhanəylə öz dərgahına apartdırmadımı?

Ali rəhbərimiz L.İ.Brejnevin ürəyinə xof salıb, Qaqarini göndərdtiyi kimi...

Proletariatın dahi rəhbəri, rus V.İ.Lenini, məsləki uğrunda Çara qarşı apardığı qorxulu siyasətdən üzü ağ, alnı açıq çıxarıb - zəfər çalandan sonra, maşınına minərkən, 3 avqust 1918-ci ildə, əcep Fanni Kaplan adında bir qəhbənin əliylə, dalbadal 3 atəş açdiraraq güllələtdirib, bir qədər sonra da o dünyaya göndərmədimi?

Ya xalq şairi Səməd Vurğunun Hüseyn Cavidə ünvanladığı böhtan dolu şeri... və Cavidin sürgünə açılan yolu... məslək, əqidə yolunda Müşfiqi, Mumtazı...

Zvenyevu, Plexanovu... hansını deyim?

Patris Lümumba...

Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsi 12 il qabaq, Patris Lümumbanı öldürmək məqsədilə Konqoya qatil və zəhər göndərmişdi. Lakin xoşbəxtlikdən qatil Konqo liderinin qəbuluna heç cür düşə bilmədi.

Bir il sonra 1961-ci ildə MKİ məlumat əldə edir ki, Lümumbanı - Konqodakı düşmənlərinə təhvil vermək barədə Mabutunun planı var.

Yaxınlarda azadlıq əldə etmiş Konqoda, az müddət baş nazir olmuş Lümumbanın - bizim dövlətimiz SSRİ ilə yaxınlıq etməsi, Amerikada onun məhv edilməsini gündəmə gətirmişdi.

Hökumətə rəhbərlik uğrunda Kasavubu və Konqo silahlı qüvvələri baş qərargahı rəisi Mabutuya məğlub olan Patris Lümumba, sentyabr ayında Leopoldvildə olan BMT qoşunlarının mühafizəsinə sığınmışdı.

Dekabrda isə Mabutunun silahlıları onu həbs edib, Katanqa vilayətinə aparırlar.

Moskva ona kömək edə bilmədi və iyirmi günün içində onu öldürdülər.

Sonralar oxuyub öyrəndim ki, bu məsələ belə baş veribmiş:

“Lümumbanın Moskvaya yaxınlaşması Eyzenhaueri bərk təşvişə salıb və Allen Dalles belə nəticə çıxarıb ki, ABŞ prezidenti onun məhvinə icazə verir...”

Noyabrın 27-də, birtəhər BMT hissələrinin nəzarətindən qaçan Patris Lümumba, beş gün sonra Mabutu tərəfindən həbs edilir.

Və bu da, Moskvanın müdafiə etdiyi Lümumbanın sonu olur.

İndi nə olsun ki, Patris Lümumbanın adını bütün SSRİ ərazisində əbədiləşdiriblər. Paytaxt Moskvada

geniş Patris Lümumba prospekti, P.Lümumba adına universitet açılmış, Bakıda da onun adına geniş prospekt verilmişdi.

Bəlkə elə doğrudur:

“Allah tərəfindən sevilənlər tez ölür?”

Küçələri cığır kimi olan Bərdədən belə şeylər görünməz, bilinməzdi...

Öz- özümə çox suallar verirdim:

“Yəni doğrudanmı Allah mələkləri Qüdsə göndərib tapşırır: “Qırın, qırın bu yəhudiləri, - qocasına, uşağına, hamiləsinə belə rəhm etməyin, hamısını qılıncdan keçirin!”

Xalqlar niyə din məsələsində bölünüb?

Bütpərəstlər, müsəlmanlar, slavyanlar, xristianlar, yəhudilər...

Milyonlarla planetdən, tək bircəciyində yaşamaq haqqı verilən bu insanlar niyə azad yaşamır?

Bu qədər sərhədlər nəyə lazımdı axı?

Ərəb, Məhəmməd peyğəmbərimiz şərabı qadağan elədiyi halda, türk gənc general, əsl sərkərdə, öz Atatürküm nəyə görə spirtli içkiyə rəsmən icazə verdi?

Atatürk, ərəb Məhəmməd peyğəmbərin yaratdığı İslam Allah dövlətini 04.03.1924- cü il tarixində niyə rəsmən ləğv elədi?

Dastan qəhrəmanımız Koroğlu, niyə Babi-aliyə, Ali-qapuya asi oldu? Çənlibel əslində haradır?

Sən demə, hindular xristianmış!

Bərdədən belə şeylər görünməzdi.

Çürük döşəmədə bardaşqurma oturub hind filmlərinə baxanda, zülüm- zülüm ağlayar, elə bilərdik hindu da elə hindlidir.

Öz ana dilimizdə olan kitabların sayı niyə həddən-ziyadə az idi?

Əgər Stalin xəyanət etməsəydi, Pişəvəri hökuməti dövründə İran azərbaycanlılarının da öz ana dillərində məktəbləri, qəzet - jurnalları olacaqdı.

Parsimizmin cövlan elədiyi vaxtlarda, şiələrin müqəddəs şəhəri sayılan Kərbəlada da məgər sünnülər Allaha etiqad eləmirdilərmi?

Dahi qəzəl ustadımız Məhəmməd Füzuli niyə Mesopotomiyada basdırılıb? Axı orta məktəbdə oxuyanda bizə öyrədirdilər ki, Füzuli azərbaycanlıdır? Məgər Mesopotomiya indiki Azərbaycandır? Ya o vaxt, elə Mesopotomiya özü də Azərbaycanın tərkibində olub?

Bəlkə tariximiz saxtalaşdırılıb?

28 may 1919-cu ildə, indiki Ermənistan SSR adlı respublika yaradılıb.

1920-ci ilin sentyabr ayında isə, Amerika prezidenti Vilson öz kabinetində oturub, erməni sərhədlərini kağız üzərində cızıb hazırlayıb.

Cəmi iki ay sonra, 2 dekabr 1920-ci ildə Atatürk Ermənistan adlı yeni yaranmış dövləti dağıdıb, yerlə yeksan eyləyib!

Bu da Atatürkün türklüyü, şücaəti!

Tarixi qələbəsi!

Bəs niyə az sonra danılmaz sərkərdə Atatürk, bizim yaşadığımız indiki Azərbaycanı V.İ.Leninə, ruslara - Rusiyaya verib?

İxvan hərəkatı nəydi?

Tütünə, qəhvə içməyə, teatra, musiqiyə - bir sözlə hər cür əyləncəyə yox! - deyən vəhabilər əslində, kimdi?

Bütün bu sualların cavablarını tapmaq üçün hələ çox oxuyub, çox eşidib, çox da gəzməliydim. Oxumaq üçünsə ana dilimizdə savadlı, tam əhatəli, dəqiq faktlara söykənən, siyasiləşdirilməmiş kitab yoxdu. Müsəlmanlara belə şeyləri dərindən öyrənmək, ümumiyyətlə, bizim sovet ideologiyasında məxfi yasaq idi.

Milis işçiləri, ərəb imamların şəhid olduğu gündə, sinə, bel və başlarına zəncir vurub, özlərini al-qana boyayanları artıq həbs edirdilər.

Bərdədə beləydi…

Darvini irəli verib: Allah yoxdu, - deyir, bizim hegemon dövlətimiz - Sovet Sosialist Respublikaları İttifaqı. Belə də iş olar?

Allahsız dövlət!

Hələ vəhabilər, Kəbədəki müqəddəs daşa sitayiş eləməyi qadağan eləmişdi, - xeyirdimi, niyə görəsən?

Doğrudanmı, sevimli ərəb peyğəmbərimiz Məhəmməd, sonuncu arvadı olan Ayişəni üç-dörd yaşında görüb, sevib, nişan qoyub və doqquz yaşında da özünə arvad eləyib?

Doğrudanmı, əslən ərəb olan Məhəmməd peyğəmbərimiz müsəlmanlara -rəqsi, şahmatı, nağıl danışmağı, yasaq eləyib, hətta musiqini, şərabı haram buyurub?

Doğrudanmı, "altda qalmaq məsələsi" qədim söhbətdi? Danışırlar ki, Adəmin ilk arvadı Lilit olub və o, ərinin - üstə çıxıb "öz işini" görməsinə icazə verməyib.

Altda qalmasına etiraz edib, bunu özünə sığışdırmayıb.

Adəm, Allaha bu xəbəri çatdırıb və Allah da Liliti elə həmən andaca lənətləyib.

Və onu daim alta yatan anamız Həvva ilə əvəzləyib.

Doğrudan ey, görmüşük də, gecə-gündüz belədi,- kişilər öpüşmək istəyən kimi, qadınlar dərhal kürəklərini yerə doğru aparır.

Bəlkə bu danışılan, bomboz həqiqətdi? Axı doğrudan qadınlar həmişə altda qalır...

Doğrudanmı, Bakıda bizi qoruyan milis işçiləri - şəxsən nazirin özünə tabe olan, DİN - İnsan alverinə qarşı mübarizə idarəsinin Adəm və Araz adlı əməlbaz əməkdaşları kimi, - 6-cı mikrorayonda yaşayan, İntiqam və Sevdanın qızı - 15 yaşlı Nigar və digər azyaşlı məktəbli -qızlardan faiz alır?

Yaxşı ailə tərbiyəsi görməyən, iradəsi zəif, oğlanlara meyilli və necə deyərlər - "ayağı sürüşkən" 13 -15 yaşlı, dərs oxumayan qızları - əvvəl

narkotikaya, içkiyə qurşandırır və sonra da qorxudaraq qızları yoldan çıxarıb pis yola salırlar.

Bakirəliyini necə, harda, kimə itirdiklərini düzəməlli xatırlamayan məktəbli qızlar, beləcə bu idarənin qurbanına çevrilirlər.

Axırda da, qızları öyrədib - varlı, pullu, vəzifəli kişilərlə görüşdürür, xəlvətdə isə onları izləyirlər. Və sonda, məqamı catanda da kişiləri qurduqları hörümçək toruna salıb, irişə-irişə, çox nəzakətlə milis idarəsinə aparır:

“Qız azyaşlı məktəblidir,-” deyib, direşirlər.

Biabırçılıq – çılın çılpaq ortalıqda!

Vəzifə itirməkdən, arvaddan qorxduqları üçün, belə arvadbaz kişilər məcbur qalıb, milis əməkdaşlarının “oxuduqları” küllü miqdarda pulu incə hıçqırıqlarla, ödəməli olurlar.

Görəsən Nazir özü də, bu qoparılan pul əməliyyatından xəbərdardı?

Doğrudanmı, latın dilində “POZĞUN QADIN” sözü “A” hərfiylə başlayır?

Doğurdanmı, orta əsrlərdə fahişə qadın, qızların sinəsindən boyunbağı əvəzinə “A” hərfi asıblar?

Doğrudanmı qədim Misir fironu Xeopsun Qahirədəki ehramı, onun qızının fahişəlikdən qazandığı pullarla tikilib? Eşitmişdim ki, fironun qızı ehrama qoyulan hər bir, - tonlarla çəkisi olan sal, kvadrat, nəhəng daşa görə- gecəni qulların başçısıyla yatırmış...

Doğrudanmı, yəhudilərdə - istənilən ata aldığı borc pul əvəzinə, öz doğma qızını bir müddətə borc sahibinə bağışlayırmış?

Qəflətən ağlımdan keçdi ki, bu Odessa qızları da məni lap əxlaqsız edib.

Bazlıq, vərdişə çevriləndə, - əxlaqsız bir sənətə, peşəyə adlamırmı?

Düzdür, subayam, hələ evlənməmişəm və Komsomol bu qəbahətlərimdən xəbərsizdi.

Onsuz da, toy olan gündən sonra - belə macəralara, romanlara son qoyacağam.

Amma, heç onu da unutmaq olmaz ki, Katerinanın əclaf əri - Seryojasayağı, -içkiyə qurşanmaq, sərxoşluq etmək, "qadın hesabına" yaşamaq və ya bəzi ''kişilər" kimi arvadına sürücülük eləyib, evdə qazan yeməyi bişirən, uşaq götü, paltar yuyub -ütüləyənlərin özü də, - ana dilləri olsa da, vətənləri olmayan, yalnız dilənən, pinti qız-qadınları hesabına alfonsluqla ömür sürən, içib əyyaşlıq eləyən, - qumarbaz qaraçı kişiləri kimi bir şeydir.

Prosper Merimenin, qaraçıların real həyat tərzindən, mentalitetindən bəhs edən Karmen romanını oxuyanda və qaraçı qızından bəhs edən Yeseniya filminə baxandan sonra, bir ara ağlımdan keçmişdi ki, elə bəlkə Bərdədə, qara Dərya adlandırdığım gölün yaxınlığında köç salıb məskunlaşan,- kirli qaraçı tayfasından Karmen ya Yeseniya kimi gözəl, qaraqaş, etibarlı bir qaraçıyla evlənim?

Amma, Kreml meydanında iki qaragöz, toppuş dodaqlı gözəl qaraçı qızı sırtıqlıq eləməklə və ora - burama əl atıb imrəndirməklə, zorla əlacpəzirlik eləyib falıma baxmaq istəyəndə, illərlə yuyunmadıqlarına, it iyi verən çirkli pırtlaşıq baş-gözlərinə, cırıq-curuq əyin başlarına, kirli, yalın ayaqlarına baxıb bu fikrimdən vaz keçdim.

Düşündüklərimə heyrət edib güldüm də!

Prosper Merimenin yaratdığı Karmen, filmdə göstərilən Yeseniya və bizim Süleyman Sani Axundovun yazıb -yaratdığı "Qaraca qız" nağılına çəkilmiş filmdəki, anası ölmüş Tutunu saxlayan Yasəmən kimi qaraçı qızlar, tamam fərqliydi.

Moskvadan verilən göstərişlə, - qaraçılar əsasən müsəlmanlar yaşayan ərazilərdə olduğu kimi- bizim Bərdədə də köç salıb məskunlaşmışdılar.

Dalı şəlləkli, ayaqyalın, qaraçı arvadlar bir ucdan it kimi küçükləyib artardı.

Burnu fırtıqlı körpələrini, elə səkilərin kənarında yerdən oturub divara söykənən, harda, necə gəldi əmizdirən, dəyib dərilməmiş büzük armud kimi iyrənc, sallaqdöşlü və ləbbadə geyinən pinti, sürtük qaraçıları - əl açıb gecə - gündüz dilənən görəndə, onlardan iyrəndim və ürpəndim...

Film, roman, nağıl ayrı, gerçək həqiqət, reallıq başqaymış!

Ya bəlkə qaraçıların elit güzəran keçirənləri, sədaqətli, namusluları da var?

Çürük dişli bu dilənən qaraçılar, dəmir - dümür taxılmış kirli sinələrindən “A” əvəzinə Karmenin, Yasəmənin, Yeseniyanın, ya da ki lap elə Tutunun adının baş hərfləri olan “K”, “T”, “Y” hərfini asıb, kaş adam kimi yaşayaydılar...

Və birdən, ağlıma düşdü ki, Azərbaycanın bir çox rayon və şəhərlərində olduğu kimi, Bərdənin özündə də, Dilən adında adamlar var: “Abbasov Dilən, Əliyev Dilən...”

Görəsən valideynləri övladlarına bu adı qoyanda nə düşünüblər? Yəni dilənmək, asan yolla pul qazanmaq?

-Tfuu!

Necə oldusa bakirəliyini qorsovet İsmayıla təslim etmiş arvadına, sürücü işləyən ticarətçi Pərviz kişi... heyvan yemi, “komikorma” satan dəvə Hümbət...обпит-də işləyən uzun Firdovsi.. Novruzu “götürüb saxlayan” - anonimçi, satqın - Bəşir Əliyev... “geroy” Məhəmmədəli və başqalarından eşitdiyim bir neçə ilginc əhvalat yadıma düşdü:

“Motalla alınan Lenin ordenli Hüseyin Ağayev məsləki...”

Hər ilin sentyabr, oktyabr, noyabr ayları pambıqçılıq rayonlarında, mövsümün qızğın pambıq yığımı ərəfəsi olar, televizor, radio və qəzet-jurnalların diqqətindən nəsə yayınmazdı.

Danışdıqları kimi yazıram:

“Azərbaycanın “baş pambıq xudası”, - nazir Fərhad Salmanov Bərdəyə gəlmişdi.

O il, qəzetlərdə çıxan gündəlik pambıq yığımı cədvəlində, birinciliyi Bərdə rayonu əldə saxlayırdı.

Respublikada ilk 100.000 ton "ağ qızılı" bərdəli zəhmətkeşlər toplamışdı.

Sosialist Əməyi Qəhrəmanı olan, Bərdə rayon Partiya komitəsinin I katibi Rüstəm Səfərəliyev, ikinci Sosialist Əməyi Qəhrəmanı ordenini alıb, hələ sağlığındaykən bürünc heykəlini, anadan olduğu Füzuli rayonunda qoydurmaq istəyirdi.

Kefi kök raykom katibi, naziri nahar fasiləsində, "Lenin ordenli" Hüseyin Ağayevin kolxozundakı bildirçin fermasına, nahara dəvət edir.

R.Səfərəliyev fermaya, nazirdən əvvəl gəlir və dərhal da Hüseyin Ağayevin - "bu iş" üçün xüsusi aylıq "əmək haqqı" verdiyi, birinci katibin sürücüsü-Yaşar, tapşırılan kimi -maşını elə saxlayır ki, sədr şəxsən özü arxa qapını açа bilsin.

Hava bərk istiymiş.

I katib, sədrin, özünə şərəf bildiyi, şəninə sığışdırdığı, adətkarda olduğu qaydada durub, qarşısında ikiqat əyildiyini görür və qapıdan - düşən kimi, - tualetə getmək istədiyini bildirir. Hüseyin Bayram oğlu cəld qabağa düşüb katibi tualetə aparır və burda da qapını şəxsən özü açır.

R.Səfərəliyev içəri keçən kimi də, yüyürüb kraxmallı təzə dəsmal və su dolu, qarınlı mis aftafanı götürüb qapının ağzında, mil, farağat vəziyyətində gözləyir.

Bu vaxt xidməti nazir maşınında, pambıq "maqnatı" Fərhad Salmanov tozanaq qaldıra -qaldira fermaya gəlir.

Qocaman katibin görünmədiyini, "Lenin ordenli" Hüseyin Ağayevin onu qarşılamadığını görəndə, nazir təəccüblənir və kolxoz sədrini soruşur.

Sürücü, bəzzad Yaşar göz vurub, tualetin ağzında sual işarəsi kimi zol dayanmış sədri göstərir və məsələni him-cimlə, xəlvəti nazirə başa salır.

Nazir F.Salmanov sədrin, bir qolu üstünə saldığı kraxmallı dəsmala, o biri əlindəki qarınlı aftafaya baxıb, Hüseyin Ağayevə sarı tüpürür və hikkəylə dönüb hökumət maşınına oturanda raykomun sürücüsü Yaşara deyir:

"Tüpürüm belə alınan Lenin ordeninə!

Beldə motal daşımaqla, oraq kimi ikiqat əyilməklə, rüşvətlə alınan Lenin ordeninin sahibi elə belə də olmalıdır!"

Bu da Lenin ordenli Hüseyn Bayram oğlu məsləki!

...Təzə-təzə əmələ gəlməyə başlamış, yumru ağ dirsəkli, yumşaq sinəli Katerinanı yenidən xatırladım:

"Katya sarsıntı keçirmiş, rəfiqə, ər, ailə xəyanəti, sevgi depressiyası yaşamış, mənən məhv olmuşdu...

Özünü Lyudmilaya, Anna Karieninaya, Onegininə bənzədərək ürəkdən sevib... ancaq sonda ərinin xəyanəti, əyyaşlığı, ikiüzlülüyü, rəfiqəsinin dönüklüyü ucbatından aralarında yaranan bir

özgəlikdən, uzun gərginlikdən, stressdən, ümidsizlikdən sonra sanki, - tək-tənha yaşayan dul anasının xeyir-duası və məsləhətiylə sapsarı kətan donunu geyinib, xəyanəti ehtiva eləmək üçün axtarıb... keçi tələsi yox... namuslu, qeyrətli, etibarlı, erkək birisi kimi məni seçmişdi.

İndi o, bizimkilərin təbiriycə, - zina edərək, mənimlə intim əlaqəyə girib, uşaq doğmaq istəyirdi.

Kimdir müqəssir?

Atın cilovu niyə buraxılmışdı?"

Sıra meydanında sinc çalındı...

Xəyallardan ayrılıb, cəld ayağa qalxdım. Nə olub görəsən? Həyətə çıxanda hər şey aydın oldu: "İki eşalon kərpic gəlmişdi!"

Ovçu ovda, yolçu yolda...

Fedirkoyla mənim bölüyüm bir maşını, Əsədovla İvanyuşenkonun bölüyü isə ikincisini boşaltmalıydı.

Söz ola bilməzdi!

Maşınlar yük altında, çisəngi yağış da aramla yağmağındaydı...

Axşam planyorkada, otuz kvadrat metr suvaq доложить eləyəndə, mayor suya batmış xebemə baxıb eşalonları xatırladı və bir az yalandan danlayıb oturtdu...

Axşam yenidən küy qopdu ki, general gəlir!

Hamını yeməkxanaya doluşdurdular.

Planyorka qurtarsa da, yersiz yerə Boyko mənim bölüyümü pisləməyə başladı.

“Yeyə” bilməyib, mübahisə eləyəndə isə çölə çıxmağımı əmr elədi.

İncimiş, hədələyici tonda:

- Eybi yoxdur çıxaram, amma Allah eləsin, elə o general kimdisə gəlib çıxsın, vallah da billah da kökdən varlı olmaq ayrı şeydi, - deyib, hikkəylə çölə çıxdım.

Az keçmiş o da çıxdı və yanıma gəlib, suçlu görkəmdə:

- Я виноват был, - deyib, üzr istədi.

Tək baş leytenant yox, hər hansı sovet zabiti, nöqsanı olsa da, olmasa da, rütbəcə özündən böyük olan generaldan çox qorxurdu.

Bərdədən görünən dünyada da, beləydi: Kiçik böyüyə, zənən erkəyə tabedir, vəssalam!

Siyasi işlər üzrə rota komandirinin müavini, baş leytenant Boykoyla anlaşıb barışdıq.

Dava acı olsa da, faydası şipşirin olar deyiblər.

General gecikir, yağış yağmağında davam edirdi.

Mürşüdlə, üçüncü mərtəbəyə qalxıb boş bir otaqda oturduq. Bir qədər dərdləşəndən sonra necə oldusa, qəflətən:

- Gəl, bir-birimizi boğaq,- dedim.

Razılaşdıq və it kimi xeyli boğuşduq. Onu çox boğdum, o da məni xeyli boğa bildi. Ancaq üstünlüyüm göz qabağındaydı.

Bu, səhər idmanlarının, turnik və qantel təmrinlərinin bəhrəsiydi. Əllərimin içi, biləklərim,

yumruğum ağırlaşıb, bədənimin əzələləri əməlli - başlı dəmirləşir...

Yaman boğdum onu!

Biz yuyunub, yığışıb axşam yeməyinə gedəndə, Əsədovgil hələ də eşalonu boşaldıb qurtara bilməmişdi.

Boyko: “briqadanı ver onlara kömək eləsin,” - deyəndə:

- Sən nə danışırsan? -biixtiyar qışqırdım, -biz öz planımızı yerinə yetirmişik!

Ehtiyat üçün, ana dilimizdə öz uşaqlarımı da öyrətdim: “Birdən karıxıb işləyərsiniz haa...”

Generalın gəlişindən hər an ehtiyatlanan Borya, qəflətən zabit kitelini çıxararaq, жесть eləyib maşının kuzovuna çıxdı... və vaskı Əsədovla İvanyuşenkonun bölüyünə kömək məqsədiylə kərpic tullamağa başladı.

Onun bu yetik siyasətini qiymətləndirib, fikrimdən daşındım və birlikdə köməkləşib yarım saatın içərisində maşını tərtəmiz boşaltdıq, hətta deyə - gülə banını da süpürüb, təmizləyib yola saldıq.

Nüfuz məmuru mayor Deqtyar, maşın gedəndən sonra gəldi və məsələni eşidən kimi kişilənib ortalığa:

“Nahaq kömək eləmisiniz! Son vaxtlar İvanyuşenko lap разгилдяй olub gedib,” - dedi.

Yatmaq əmrindən əvvəl, rotanın sıra meydanındakı sonuncu axşam yoxlamasında məlum oldu ki, Karibayev samovolkadadır.

Gecə yatanda nə hansısa general, nə də Karibayev gəlib çıxmışdı...

Əlvida, iyun 1972

Odessa, 30 iyun 1972-ci il, V gün.

Dnevalnı Vasya bizi, düz saat 04:47-də, dediyimiz vaxtdan da, on üç dəqiqə erkən oyatmışdı... Lümpen -proletariat, nazlı-qozlu Əhlimanla dənizə qaçdım.

Dünənki selləmə yağış öz sözünü demiş, çimərlikdə bir nəfər də olsun qadın yoxuydu, iki-üç yaşlı kişi gözə görünürdü...

Çimərlik boyu qaçıb, qantel və rezinlərlə elədiyim hərəkətlərdən sonra fırtınadan yenicə yorulub sakitləşmiş, köpüklü Qara dənizdə xeyli üzdüm...

Havalar son günlər yaman sərinləyib, neçə gündür yağış ara vermir.

Bu gün yay olsa da, əsl payız günlərinə bənzəyirdi. İyunun sonuncu günüydü və bir də heç

vaxt hərbi xidmətimiz dövründə iyun ayı olmayacaqdı.

Ey gidi dünya!

Yenə biosferama köç əhvalı yayıldı...

Bu səhər, planyorkanı polkovnik Arnaut özü apardı.

Bölük komandirlərindən ən az danlananı mən oldum.

Boyko razvodda, əlində tutduğu iri dərzi qayçısıyla, samovolkadan yenicə gəlib çıxmış Karibayevin liçkalarını kəsdi.

Karibayev əvvəl dillənməsə də, qəfil ilan çalmış adamlar kimi diksinib, bağırdı:

- Generala sizdən şikayət eləyəcəyəm, iddianızı əsaslandırın və rəsmi məktubla tələb eləyin... Клянус prikazla, qanunauyğun şəkildə liçkalarımı ala bilərdiniz, çaşdınız...

Kim idi ona qulaq asan?

Polkovnik Arnautun tövsiyəsilə əmək haqqlarını bu gün payladılar. Üç manat əlli qəpik pul verib, üç manat səksən qəpiyə qol çəkdirdilər.

Heç kim cınqırını çıxara bilmədi.

Otuz qəpiklər, kruşka almaq bəhanəsiylə praporşik Bandısikin ayağına yazılsa da, onun "kölgəsində", zabitlər arasında "yeyilirdi."

Mürşüd də bizim uşaqların canına düşüb, "Чайка-3" markalı fotoaparatın pulunu yığırdı. On səkkiz manat toplaya bilmişdi.

Kəlbəcərli vaynösə,sıravi Sahib Əkbərovu göndərib kolbasa və bir buxanka da qəhvəyi kömbə çörək aldırdım.

Nazıyla yeməkxanada oturub yedik.

Bütün vaxtımı elə yeməkxanada keçirdim.

Bayırda yağış başladı.

Əsgərlərim yeddinci mərtəbədə suvaq vururdu.

Kazarmada gizlincə yerimi açıb, xəlvəti uzandım...

Xeyli yatmışam, ayılanda artıq gecə idi. Yaxşı ki, fikir verən olmamışdı. Qalxanda nədənsə udquna bilmirdim. Boğazım ağrımağa başlayıb. İstədim санчаста gedəm. Amma gec idi.

Oturub gündəlik yazdım.

Son aylarda, ilk dəfəydi sonuncu günü yazıb, yaşanmış günlərlə -gündəliyi bir-birinə "qovuşdurdum."

Poçt gəldi.

Dostum Tahir Ağayev və buratino Tariyel Muradovdan məktub aldım. Tahir elə bir yenilik yazmamışdı.

Tariyel yazmışdı:

"Karantini, sərin Azərbaycan Astarasında keçsək də bizim hərbi hissəmizi Moldaviyanın Floreşta şəhərinə köçürdülər. 68804 nömrəli hərbi hissədə, Ukraynaya bitişik sərhəddəyik.

Пехота-ya düşmüşəm.Yaxşı ki ali təhsilim olduğundan bir il qulluq edəcəm."

Hərbi hissələri hardasa, deyəsən bizim Pervomayskiyə yaxın yerlərdə yerləşir...

Həvəslə Arkadiya mehmanxanasındakı bərbərxanada üzümü-saçımı, arıq sarışın qıza səliqəyə saldırıb kazarmaya qayıtdım.

“Чайка-3” fotoaparatının plyonkasını çəkib qurtarmışdım. Əlyatı göndərdim, yaxınlıqdakı mağazaların birindən фотобумага alıb gətirsin. Bərk-bərk də tapşırdım:

-Tutulsan, siqaret almağa gəlmişəm, - de.

Əlyatı, Kəngərlini və qara Vəlini də özüylə aparar və əclaflar yolda, nüfuz məmuru mayor Deqtyarla qarşılaşar.

Əlyat karıxıb, dərhal satar: “Məni Babayev buraxıb...”

Deqtyar onları qoyun kimi qabağına salıb gətirəndə, hikkəylə soruşdu:

- Bunları sən buraxmısan?

Xundpəsənd Əlyat, məni biabır elədi.

Üzlərinə at kimi dayanıb, qətiyyətlə:

- Yox! - dedim.

Həqiqətdə isə Əlyatı buraxmışdım...

Axşam gələn bir eşalon керамик плитка - nı, mayor Deqtyar acıqla, cərimə olaraq mənim briqadama boşaltdırdı.

Maşın boşalmaq bilmirdi...

Axır ki, axşam yeməyindən sonra, güclə qurtara bildik. Biz qurtaranda, sıra meydanında sonuncu yoxlama gedirdi.

Çatdırıb, rotayla hamama gedə bilmədik.

Bu da Əlyatın фотобумага serialı...

Bu gün aldığım məktublara cavab da yaza bilmədim. Eləcə, toz-torpaqlı yatası olduq.

Başqa əlac yox idi.

Sabah dənizdə gərək sabunlanıb çiməm...

Yata bilmirdim.

Dəxtərxanada televizoru açıb, kanalları dəyişə-dəyişə yaxşı veriliş axtarırdım.

Qəflətən "Odessa" kanalından boks yarışı getdiyini gördüm, özü də bəxtimdən super möhtəşəmini!

Bu ilin yanvarında Yamaykada keçirilmiş peşəkar boksçuların ağır çəkidə, - altı aydı qəzet-jurnalların yazdığı- məşhur Formen və Co Freyzerin görüşü idi.

Üstündən altı ay keçsə də, axır ki, bu görüşü gözlərimlə görə bildim.

Heyf, cəmisi iki raund çəkdi.

1949-cu il təvəllüdlü Formen, 1944-cü il təvəllüdlü Co Freyzeri hər iki raundda dəfələrlə nokdauna salıb rinqə uzatdı.

Necə deyərlər: Yaş yudu, quru sərdi...

Demək olar, dünya nəhəngi sayılan Co Freyzer heç nəylə yadda qala bilmədi.

Əfsus!

Kaş çox çəkəydi...

Salam iyul – 1972
Toma ehtirası
və sosializmin
qarğa-quzğun məclisi

Odessa, 01 və 02 iyul 1972-ci il, şənbə və bazar günləri.

Səhər sübhdən, saat 04:53 - də qalxıb, lümpen-proletariat Əhliman, vaynösə Sahib Əkbərov və zemelya Şükürlə dənizə qaçdıq.

Özümlə qətfə, kisə, maçalka, sabun da götürdüm.

Çimərlik boyu xeyli qaçandan, qantel və rezinlərlə idman təmrinlərini ardıcıllıqla yerinə yetirib, xeyli də üzəndən sonra, sabunlanaraq yaxçıca çimdim. Kəlbəcərli Sahib Əkbərov belimi o ki, var maçalkaladı.

Yarım saat da açıq dənizdə üzüb, çıxdım.

Bizdən bir qədər aralıda, 20-22 yaşlarında iki cavan qız oturmuşdu.

Hər ikisi yorğun, yuxusuz və dalğın idi.

Qətfəylə başımı qurulaya-qurulaya onlara yanaşdım:

- Dünən gecə gəlmisiniz?

Soyuqqanlılıqla soruşanda,hər ikisi birdən üzümə təəccüb və heyranlıqla baxıb, xorla:

- Nə bildin? - soruşdular.

- Hardan gəlmisiniz?

Onlar hələ də üzümə maraq və heyrətlə baxırdı. Sualıma sualla:

- Hardan bildin?- təkrar soruşdular.

- Quşların sübh cikkiltisi eşidiləndən üzü bəri çimərlikdə olduğunuzdan, altınızdakı isti odeyallardan...gözəl üzünüzdəki yorğunluqdan, çöhrənizdəki qayğıdan, ruhunuzdakı qürbətçilik xofundan... - yenə deyim?

Hər ikisi, bir-birinin üzünə heyranlıqla baxıb, qəfil qımışdılar...

- Siz turist də deyilsiniz, lap Şerlok Holms kimi, soyuqqanlılıqla,-dedim,-yoxsa səhəri elə turbazanın həyətində açardınız.

Həşəratlar öz səmtlərini yerin maqnit sahəsiylə təyin edirlər. Maqnit dipolu, -maqnit momenti olan molekulların oriyentasiyası nəticəsində yaranır.

Mən isə müşahidələrimlə danışığıma səmt verirəm. Yaxşılıq qəribdir, tanınmaz deyiblər, - hardan gəlmisiniz?

Artıq onların könlünü almışdım.

Boyca balaca olan qız, yumor qarışıq məzəli görkəm alaraq:

- Yaxşılıq qapı açar, məhəbbət bu sirli qapıdan içəri keçər, Moldaviyadan gəlmişik, Kişinyovdan, tanıyırsan?

- Niyə tanımıram?Qızlar! Serjant Dolqiyer Kişinyovda yaşayır, sizin Floreştada isə bizim məşhur Şərq küçəsinin buratinosu - dostum Tariyel Muradov hərbi xidmət çəkir... Necədir?

Hər ikisi Floreşta adını eşidəndə sevindi, sanki qırışıqları açıldı:

- Əlbəttə tanıyırıq, - öyündülər.

- Qürbətdə öyünmək, hamamda oxumağa bənzər, yəqin, qalmağa yer axtaracaqsınız... - elə bil dilotu yemişdim.

Onlar bir-birinin üzünə baxıb, çiyinlərini çəkərək susdular.

Sovet İttifaqının harasına, nə vaxt getsən, bir nömrəli problem, müşkül, - gecələməyə yer tapmaq məsələsiydi.

Rüşvət, korrupsiya, süründürməçilik SSRİ - nin şah damarına işləmişdi...

- Bir ölümün, bir də paxıllığın əlacı yoxdu, mən sizin üçün yer taparam, - deyəndə, onların yorğun, qayğılı sifətinə inam dolu incə təbəssüm yayıldı və xoş çöhrələri güldü...

Vətən olsa da, ana dillərimizdə bir - birimizi anlamasaq da, “yad yerdə” olduqlarını unudub, özlərinə arxa, həmvətən tapdıqlarına sevindilər...

Özümün Sovet ordusunda, əsasən, - müsəlmanların boyuna biçilmiş стройбат-da hərbi xidmət çəkdiyimi, mehmanxana və turbazanın baha olduğunu bildirəndən sonra:

- Ən yaxşısı ev tutmaqdır,- dedim.

Ümidsizliyə qapılmış yuxusuz, yorğun qızlar alternativ yol görmədiklərindən naəlac qalıb, razılaşdılar.

Çox sevindim, çünki iyirmi gün, iki həmyaşıdlarım olan moldovan qızla birgə yaşamaq, xülya yox, artıq gerçəkliyiydi!

Anlaşdıq!

Ciddi və rəsmi görkəm alıb:

- Onda, elə buradaca dincəlib, mənə iki saat vaxt verin, işləri qaydaya salım...

Qərib, köməksiz qızların başqa çıxış yolu olmadığından, məmnuniyyətlə razılıq verdilər.

Bərdəli Şərifov Vaqifin sözü olmasın, necə deyərlər: “General da kəndli olarmış!”

…Fətirsifət, lümpen ploretariat Əhlimanla vaynösə Sahib Əkbərovun ilan dili çıxarıb, yalvarmalarına tük qədər əhəmiyyət vermədən, yerlibazlıq eləyib, - düzü bərdəli olmayanı ikinci dərəcəli adam hesab eləyirdim - payıma düşən

gözəl, uzun, arıq Kristinanın gödək rəfiqəsini ürəyimdə zemelya Şükürə söz verdim.

Kazarmada geyinən kimi dabanıma tüpürüb turbazaya, Tomagilə tərpəndim.

Hələ səhər düzəməlli açılmamışdı. Pərdəli pəncərələri qaranlıq idi, işıqları yanmırdı...

Bəxtimin gətirdiyindən, gənc və dəliqanlı olduğumdan havalanıb nə edəcəyimi bilmirdim. Vaxtsız olsa da, utanıb-qızarmadan qapını şəst və ərkyana, döyəclədim.

Tomanın yuxudan oyanıb, yatağından kal, xırıltılı səsiylə soruşduğu:

- Kimsən? - sualına, çox əminliklə, evin kişisi kimi:

- Mənəm! - dedim.

Bir qədər keçmiş, yazıq Toma, düymələri açıq alt gecə köynəyində qapını açdı.

Göz bəbəkləri irilmiş, məni içəri buraxıb, qapını arxadan bağlayan kimi, qaranlıq otaqda heç nə soruşmadan, var gücüylə belimdən yapışıb, canavarın vəhşi ov ehtirasıyla bağrına basdı.

Üz-gözümü, əlimi, boyun-boğazımı öpüb dişləyə-dişləyə, vəhylə dodaqlarımı tapıb isti ağzına saldı.

Heç cınqırımı çıxara bilmədim.

Açıq dənizdə olub, üfüqdə ağappaq seyrək buludları seyr etmək vaxtı deyildi...

Sən demə, Toliklə Tolya yeddi günüymüş öldürmək dərəcəsinədək bir-birinin mitilini atıb, xəstəxanaya düşüblərmiş.

O, evdə təkiydi.

Bir həftə kişi görmədiyindən zavallı dəli olmuşdu...

Vəhşi lal ehtirasla, yalquzaq kimi elə dodaqlarım ağzında, məni ortalayıb havaya qaldırdı və istisi hələ çəkilməyən yatağına çırpdıdı.

Yalnız bir dəfə macal tapıb, qaranlıqda onun - manyaklar kimi quduz, odlu baxışlarının alışıb yandığını görəndə, düzü Tolik-molik, Tolya-molya, kişilik, qeyrət, əxlaq meydanı olmadığını dərk edib, təslim oldum.

Əvvəl, düymələrinin çoxu açıq, gecə köynəyini əynindən sıyırıb çıxardı. Sonra məni altına salıb, dəlicəsinə soyundurmağa başladı.

O, yanırdı!

Bir həftə nə uzaq zamanmış!

Özünü üstümə yıxıb, zorla döşünü ağzıma soxanda bir az ürpəndim.

Döşləri donuz məmələri kimiydi!

Birinci dəfəydi belə döş görürdüm. Gilələri qarışıq məmələri, - xırda bostan yemişi kimi, enindən çox uzununa inkişaf eləmişdi.

Amma, heyvani yırtıcı ehtirası ağlımı başımdan aldı, qarşısıalınmaz şəhvət içimdən məni dəlicəsinə sardı.

Payız yeli kimi altından çıxıb, onu altıma basdım.

Əllərimi inək kimi yalayır, barmaqlarımı ağzına salıb sorur, dişi pişik kimi xırda olan döş gilələrimi, isti dodaqlarıyla əmirdi.

Bu izaholunmaz seks səhnəsi, sübhün açılmasıyla qəfil baş verdiyindən, o, yuyuna bilməmiş, nəfəsindən spirt və çürük taxta döşəmə kimi - xəfif kif iyi gəlirdi.

Ancaq iy vaxtı, iy hayı deyildi...

...Qaranlıqda onu, - hörükləri açılıb balışın üstünə tökülmüş, quşqunluğu hədsiz iri, ağ mirvari sırğalı Məhbubə xalaya "bənzədirdim".

Dizlərim əsirdi!

Onun kare formasında vurulmuş seyrək saçlarından yapışıb, başını sinəmdəki tüklərin ortasındakı xırda giləli, pişik döşlərimdən güclə qopardım.

Dəlilik dərəcəsinə çatmışdıq.

Uçunurduq!

Qırraşıb, onun nərmənazik belindən necə sıxdımsa, sümükləri şaqqıldayıb, az qaldı bağıra. Quşqunluğundan bir neçə yağlı çimdik də aldım.

Necə çılğınlıqla inləyib, yaralı ilan kimi qıvrılıb - açılırdısa, sanki indi bayılacaqdı!

Qəflətən şişərək qızmış qanla dolu, son ereksiya həddində olan, - dənələri tökülmüş qarğıdalıya bənzər cinsi orqanı əliylə tutdu və göbəyindən aşağı sürtə-sürtə sürüşdürüb...

Şəfəq vaxtıydı!

Quşlar artıq civildəşirdi.

...Hovumuz alınıb, yan-yana uzananda, yaltaq pıçıltıyla:

- Toma, iyirmi günlük bir otaq lazımdır. Pulunu bəri başdan verəcəm, qonaqlarım gəlib...

Özündən-müştəbeh bir əminliklə:

- İki-üç saata həll edərəm, - deyib, bir də keçi kimi üstümə dırmaşdı...

O, üstümdə "rahatlanaraq" elə atılıb-düşür, elə inil-inil inləyirdi, elə bil, yüz illərdir ayğır görməyib...

Bütün dinlərdə fahişəlik, - o qədim peşə - zina sayılsa da, qadağan edilsə də, hər ikimiz bu səhər, kortəbii bu işin quluna çevrilmişdik.

Fahişə ilə yatan kişinin özü də elə fahişədir!

Amma kimə deyirsən?

Düzdü, Toma fahişə deyildi, ancaq iki oynaşı ola - ola... məni də yatağından keçirdi!

Xristian, slavyan, ya yəhudi qadın - qafqazlı kişidən aldığı ləzzəti bütün ömrü boyu unuda bilməz!

...Səhər yeməyi artıq qurtarmışdı.

Siyasi məşğələyə gecikirdim, özümü zorla çatdırdım.

Məşğələdən sonra развод oldu.

Artıq saat 09:59 idi.

Moldovan qızlar çimərlikdə söz yox, səbirsizliklə yolumu gözləyirdi, ancaq hərbi xidmətdə olan əsgərin belə gecikmələrini başa düşmək olardı.

Hərbi xidmət dövrünün sonuncu iyul ayı obaşdan fontan və salyutla başlamışdı!

Vaxt uçurdu.

Kristinanın şux sinəsi, maqnit kimi məni çimərliyə dartırdı.

Mirzəalıbəyli Şükürün bazlıqla, içməklə, davayla, vulqar danışıqla, siqaret çəkməklə, idman eləməklə, oxumaqla arası yoxuydu:

"İnək olub, Hindistanda yaşayasan" – deviziylə yaşayırdı.

Bu da belə məxluqdu...

Əlqərəz, mirzəalıbəyli Şükür HACMEPT gedəndən sonra məcbur qalıb, bütün işləri Mürşüdə həvalə edərək, lümpen Əhlimanla turbazaya tərpəndim.

Mən gedəndən qapı açıq qalıbmış.

O hələ də uyuyurdu...

Toma, aylarla həsrətində olduğu "işi" peşəkarlıqla həyata keçirib, indi də yerində qaymaqlayırdı... Ərindiyindən qalxıb qapını arxadan bağlamamışdı.

Səsə, xumarlana - xumarlana gözlərini açıb, heysiz əllərilə qucaq açdı:

- Otaq hazırdır, - işvəylə nazlanıb, intim səslə pıçıldadı.

Məst idi... hovu alınmışdı...

Sevinclə, tələm-tələsik mülki paltarlarımı geyinib, Əhlimanla düz çimərliyə götürüldüm. Əhliman idman formasındaydı...

Qızları tapmadıq!

Bir anlıq heyrətə gəldim, canım buzladı, sanki, damarlarımda qan dondu...

Yox, yeri səhv salmamışdım, sadəcə qızlar yoxuydu.

Amma ola bilməzdi, onlar gözləməliydi...

İstirahət günü olduğundan hava qızdıqca, çimərlik gələnlərlə dolur, insanlar birucdan sıxlaşırdı.

Sahil boyu, dəli kimi o yan - bu yana qaça - qaça, gecədən uzanıb yatdıqları yerin ətrafına fırlana - fırlana, kəndir kimi dolanırdım.

Saldıqları odeyalların yeri açıq-aşkar görünürdü.

Onlar yenicə getmişdilər.

Gecədən ac - yalavac çox qalaraq və xeyli - gecikdiyimdən, yəqin qayıtmayacağıma tam əmin olub, özlərinə gün ağlamağa gediblər...

Dağ döşündəki yaşıl çəmənlikdə, höyüş otların örüş yerinə, novata gedəndə - özünü tükənməz, yenilməz, azad hiss edən, yumru fətirsifət, qırmızıyanaq Əhlimanın ayağı mənə düşmədi.

Tapmaq ehtimalıyla, düz bir saat iyirmi beş dəqiqə moldovan gözəlçələri - ümidimi üzmədən, tələşlə axtardım.

Sonda, bica yerə əsir-yesir olduğuma şəksiz inananda, onları itirdiyimə o qədər heyfsiləndim, o qədər üzüldüm...

Yerimə, iradəsi zəifin biri olsa, inanın, vətərini kəsib özünü məhv edərdi!

Ayaqlarım heç getmək istəmirdi.

Kristina dopdoğma vətənində olsa da, yurdsuz - yuvasız, evsiz-eşiksiz, rəfiqəsiylə tək-tənha idi. Onlarla düz iyirmi bənzərsiz gün keçirəcəydik.

Heyf!

Nədənsə Kristinanı mahna eləyib, içimdə Əhlimana nifrət elədim.

Vaqonda, "haray, kömək" dəstəyini həşir qoparıb, - qətiyyətlə çəkən adamlar kimi, bir də onunla bazlığa getməyə xitam verdim.

Ürəyimdə: "ağırayaq", - adlandırıb, ondan lap zəhləm də getdi.

Geri qayıtdıq.

Turbazada Tomayla qarşılaşanda, dərhal hiss etdim ki, onun tükü durulmuş, rəngi açılmışdı. Şaftalı çiçəyi çırtlayanda olduğu kimi, çöhrəsi qızarırdı...

Məni görən kimi:

- Otaq hazırdı, danışmışam, - dedi, - açarı nə vaxt götürəcəksən?

Yenidən məni kədər bürüdü, gözucu Əhlimana nifrətlə baxıb, kəkildədim:

- Qoy gəlib çıxsınlar, deyərəm...

Toma məhrəm bir nəvazişlə əllərimdən tutub, kənara çəkərək, isti nəfəsiylə:

- Yaman şeymişsən! - pıcıldadı.

Mən başqa, matəməngiz bir aləmdə, başqasının hüznünü yaşayıb, kədərlə hüzrünü verirdim...

Bəxtimə baxın:

“Obaşdan, moldavan qızlar vardı otaq yoxuydu, indi də otaq var, əndamıyanmışlar yoxdu...”

Toma məndəki soyuqluğu hiss edir, amma bunu Toliklə əlaqələndirərək, elə də ciddi əhəmiyyət vermirdi.

Əsas oydu ki, “kəhər ayğıra dırnaqlarıyla yer eşdirmişdi!”

Kazarmaya qayıtdım.

Bu gün Elmanın iyirmi bir yaşı tamam olurdu. Çağırıb təbrik elədim və işdən azad edib:

- İstəyirsən şəhərə get, mülki paltar verərəm sənə, amma çalış ələ keçmə!

Qısa ömründə, səadətin imkanını hec vaxt görməyən, lümpen proletariat Əhlimanı da ona qoşub, saat 12:07-də turbazanın həyətindən şəhərə yola saldım və bərk-bərk də tapşırdım:

“Bax haa! Böyük risk edirəm, axşam proverkasında sırada olmalısınız!”

Getdilər...

Qızların yoxa çıxması heç yadımdan çıxmırdı. Kristina əntiqə qız idi!

Ac uşağın məzhun sifəti kimi - çöhrəsi hec yadımdan cıxmırdı.

Görəsən, qızlar bu gecəni də sahildə keçirəcəklər? Dağ qoydular mənə!

Heyf...

Onunla nəğmə bəstələyə bilmədik...

Xosunun nənəsi Fatmanın sözü olmasın: “Alıbəyin daşşaqlarından başqa ciblərində heç vaxt, heç nə olmayan” mirzəalıbəyli Şükürlə, dostu zemelya Faiq yeddi manat pul istədi.

Ağızlarından söz qurtarmamış çıxarıb verdim.

Təpərsiz Mürşüd fotoaparat üçün yığılan otuz iki manat pulu gətirdi.

Əlimə düşən doxsan manat puldan, -pasılkadan çıxan əlliliklə, zərflərdən tökülən beşliklərlə, - beş rubl da özümdə vardı, - artıq bir həftəyə xərclənib, cəmi - əlli səkkiz manat qalıb.

Hələ üç rubl da fotoaparatın bumaqa və dərmanlarına xərcləməliyəm. Qalacaq əlli beş manat.

Malakeşlər briqadama iki rus əsgər verdilər. Fasiləsiz işi təmin etmək üçün rastvornasos xarab olanda özləri düzəldəcək, barabanlı palçıqqarışdıranda işləyəcəklər.

Yaxşı oldu.

Yazıqların bəxtindən barabanı fırladan hissə xarab oldu və nə qədər əlləşib mazuta, yağa bulaşsalar da, üst - başlarını toz - torpağa batırsalar da qurğu əməl yemədi ki, yemədi.

Düzəldə bilmədilər.

Yazıqların davanından tər tökülürdü.

Baraban fırlanmadı...

Planyorkada çox ciddi bir məsələ həll olunurdu. Üç manat əlli qəpikdən rotaya əmək haqqı paylanmışdı. Gözdə-qulaqda olmalıydıq ki, **ЧП** baş verməsin.

Boyko mənə güvənib jest elədi: Kətan parçada "Патрул" sözü yazılmış, göz deşən qırmızı sarğını qoluma bağladı:

- İki nəfər də kimi istəyirsən seç, kömək eləsinlər sənə,- dedi.

Rotanın yarısı kinoya getdi.

Eşşəkliyindən, hamama gedəndə fitə bağlamayan, daim qalın qıllı peysərini qaşıyan təpərsiz Mürşüdlə, şami - şərifdə cümə namazı qılmayan, kuybışevli Hüseyni özümə köməkçi seçdim.

Hər üçümüz tərpənib, buğlu hamamda yaxşıca çimdik.

Qayıdıb səliqəli, nizamnaməyə uyğun geyinərək, Boykonun hüzuruna gəldik.

Lüzumsuz olsa da, gözlərini qıydı, başdan ayağa qədər bizi yoxlayıb, boş-boş sözlərlə təlimatlandıraraq buraxdı.

Çingənə Mürşüdü mağazanın qarşısına qoydum. Çaxır, araq içənlər ora getməliydi. Özüm də çəpəl, kuybışevli Hüseyni götürüb turbazaya getdim. Həm rəqs meydançasında şıdırğı rəqs gedir, həm də xiyabana, çimərliyə gedib, öpüşənləri marıtlamaq istəyənlər oradan keçirdi.

Tansda o qədər mahliqa, qəşəng, ehtiraslı qızlar vardı!

Parfümlərinin ətri aləmə yayılmışdı. Canıyanmışlar elə gözəl geyinmiş, elə yaxşı bəzənmişdilər...

Pərişan Kristinanı tapmaq, onu yenidən görmək, ona həyan durmaq ümidiylə çimərliyə baş vurdum.

Ancaq yox idilər.

Görünür, evi olan kiməsə ilişiblər...

Rəqs meydançasında oynayanlardan, heç kəsin sanki dərd - səri yoxuydu.

Bir himə bənd, qız - qadınlar geyinib - kecinib, ətirlənib, yeyib - içib, indi də şənlənir, oxuyur, rəqs edirdilər.

Voronkovu gördüm. Patrul sarğısını qolumda görən kimi, boğaz çəkdi və icazə alıb sevicək, “gəzdiyi" qızı gətirməyə getdi.

Bir söz demədim...

Yaxşı timsal, yüz yönsüz sözdən yaxşıdı.

Narın yağış başladı və bir qədər yağıb tez də kəsdi.

Mürşüdü yoxlamağa getdik.

Bizi görən kimi gözləri işıqlandı və tələşla sıçrayıb qalxaraq, sevinclə tələsik dedi:

- Sən мax vermə, altı rus tutmuşam, çaxır alırdılar,- dördünü Boykoya təhvil verdim, ikisini də yeməkxanaya salıb döşəmə yudurduram.

Tatar üzlü Mürşüdün uzun bığları daim səliqəsiz durardı. Gündən qaralmış dərisinin qırış yerləri ağ idi.

Onun kürəyinə bir neçə yumruq vurub:

- Yaxşı oğlansan, - dedim.

- "Yaxşı oğlan" kənd yerində yaxşı adama deməzlər, - kəkəş - kəkəş fısıldayıb, - dedi.

Gülüşdük.

İvanyuşenkoyla Malışevi də xiyabanda mən tutdum. İki, siqaret çəkən ukraynalı qızla çaxır içirdilər.

Yalvardılar ki: "Demə! Nüfuz məmurları bilməsin!"

Nə edəydim? Əsgər boş vaxtında bəs neyləməliydi?

- İşinizdə olun, - dedim, amma bir şərtlə...

Hamısı da birdən, tələşla: "Nə şərt?"- soruşdular.

- Maksim Qorki haqda nə bilirsiniz? –danışın.

Qızlar da söhbətə qoşuldu və sonda, mən özüm də bildiklərimi söylədim.

Məlum oldu ki:

"Maksim onun atasının adıdır. Qorki isə yaradıcılığı dövründə özünə götürdüyü - 30 təxəllüsdən, ən çox bəyəndiyidir.

Əsl adı Aleksey Peşkov olub.

Hələ uşaqkən atasıyla anası ayrılır. Qorki 12 yaşından orta məktəbi atıb, çörəkpulu qazanmaq üçün dəmiryolda işə girərək fəhləlik eləyir.

Tez - tez qız - gəlinlərə aşiq olan zavallı Peşkov, özbaşına Bakıya gəlib Qaraşəhərdə xeyli müddət fəhlə işləyir.

Sonra Tbilisiyə dönür.

11 yaşından yetim qalan yazıçı, özündən xeyli böyük bir qadına vurulur.

Qadını dəlicəsinə sevir və bir gün onu başqa bir kişiylə yataqda tutur.

Xəyanəti bağışlaya bilməyən Aleksey özünü güllələyir.

Xoşbəxtlikdən sağ qalan Peşkov, Nijni - Novqoroda gedib, orada Katya adlı bir qızla ailə qurur...

Anası, atasına xəyanət edərək başqa kişiyə qoşulub gedəndə oğlunu taleyin ümidinə qoyub amansızlıq eləyir.

Sonralar, o da anası kimi uşaqlarını və Katyanı atıb, Mariya adlı bir qadınla evlənir və onu özüylə İtaliyaya aparır.

Şöhrəti dünyayla bir olan yazıçı, kübar məclislərdə Mariyanı doğma arvadı kimi təqdim edir və bu eşq fırıldağının üstündə onu bir çox dövlətlərə, - o cümlədən, Amerikaya gəlişinə qadağa qoyurlar.

Qorki, İtaliyada yaşayanda onun 5 yaşlı qızı vəfat edir.

Keçmiş arvadı - Katya məktubla yazıb, bildirsə də, o doğmaca qızının dəfninə gəlmir...

Sonralar, Leninlə dostluq eləyir...inqilaba dəstək verir...”

Bax belə!

Bu da Aleksey Peşkov gerçəkliyi.

...Gecə, sıra meydanında sonuncu yoxlamadan sonra, rota kazarmaya yatmağa gedəndə, - on dörd nəfər mənim, yeddi nəfər də vaskı Əsədovun briqadasından yığışıb, - adama bir manatdan pul yığdıq ki, Elmana yeməkxanada ad günü keçirək.

...On nəfərlik, iki uzun taxta stolun başına toplaşdıq.

Məclisi təbrik sözləriylə açdım.

Çaxır butulkalarının tıxacları dalbadal guppultuyla açılıb içilirdi.

Məhəmməd sağlıq deyəndə sözləri nəsə mənə toxundu, ancaq ürəyimdə: "səni budaq kimi sındırardım, amma ad günü olduğundan -cavabını vermək sonraya qalsın", - dedim.

Bir sözlə: "Lax yumurta! - çaxmağı çək, qoysun belinə!"

Badələri ləbələb doldurub yeyib-içir, o ki var deyib - gülürdük. Stariklik damarlarımızda qanımızı coşdurur, artıq nüfuz məmurları - mayor, baş leytenant, ya praporşik elə də önəm daşımırdı...

Çaxırdan içdikcə məclis qızışıb qaynayır, çaxır uşaqları ding - ding dingildədirdi. Həmişə qaraqabaq, özünü ağır aparan göydodaq Ədalət, qəflətən sellofan torbanı zarafatca xəstə Mamedin başına keçirdi və torbanın uclararını, onun arıqlıqdan qabağa çıxmış hulqumunda burmağa başladı.

Duyuq düşən dazbaş Babayla, inək balası kimi zərif sifət Bakir, - uzun Ədalətin işləməkdən daş kimi bərkimiş, kilidlənmiş yumruğunu açа bilmirdilər.

Heysiz mayıf Mamed uçalananda, tulalnıb sellofan torbanı başında partladaraq cırıqladım. Bir an da geciksəydim yazıq Mamed əldən getmişdi!

Onun təbaşir kimi ağarmış sifətinə qan gəldi və qəflətən nalə çəkib şivən qopartdı.

Uşaqlar tökülüşüb yalandan, - bu an bəni - insandan daha çox fələyi xatırladan Ədaləti vurdular ki, Mamedin çığırtısı kəssin.

Ədalət lüt soyunub, qızmış yallı şir kimi həmləyə keçərək zəif, xəstə, cılız uşaqların üstünə tullandı.

Baxdım ki, elə bu da mənim kimi pişik məməlidir. Xırdaca, düyü boyda giləsi olan iki qara məməsi var, kənarlarını da cod tük basıb.

Ədalətin kefliliyi məclisə rəngarənglik qatmışdı.

Hamı dingildəyir, fit çalır, atılıb - düşür, soncuxlayır, - hərə də ağzında çaldığı öz havasına oynayır, özü bacardığı tonda bağırır, zingildəyir, bayağı mahnı oxuyur, özü bildiyi sözlərdən cümlələr düzəldib, xırıldaya-xırıldaya muğamat zəngulələri vururdu.

Mayif Mamed taleyilə barışıb, artıq incə hıçqırıqla hıqqanır, hərdən də, bic - bic, qudok səsi kimi səslər çıxarırdı.

Düşük - düşük danışan kim, ayağındakı ucuz, qart, rezin şəpiti şappıldada - şappıldada tualetə

qaçan, rastına çıxan gicbəsəri, gənc və dəliqanlını qucaqlayıb öpə - öpə qıyya çəkib tullanıb - düşən kim, debillər kimi qəfil qəhqəhə çəkən kim, yerindən qopub yel kimi çölə çıxmağıyla gəyirib qaytaran, qusub üst - başını batıran, yeri - yurdu iyləndirən kim...

Gündüzlər hərbi hissənin həyətində sülənən, gecələr yeməkxananın qapısında mürgü vuran, qara xallı ağ küçük, - çömbəlib qusan kəlbəcərli, vaynösə Sahib Əkbərovun əlini yalayırdı.

Hardasan, ay tüklü sinəsi - Baharın ayaq izləriylə dolu... heç vaxt arxasınca bir ağlayanı olmayacaq, badamgözlü tamada gədə!

Vaqif Hüseynov!

Ayıq olanda döysə də keflənəndə Bəylərlə Baharı fransız təbəəsinə bənzədərdi:

“Xan-bəy nəslindənik, sürgünlərdə sümük çürütmüşük,” - deyərdi.

Həqiqətdə isə, atası çilli Bəylər oğurluq üstündə Sibirdə uzun müddət dustaq həyatı sürmüş, Bahar isə, - yolunu, - qəbahətləriylə gözləmişdi...

İndi bu məclisdə yerin məlum, corabı qısa, döşləri südlü məmə kimi dolu, - Bahar arvadın oğlu!

Sosializmə daim tərif yağdırıb, allahsızlığı tərənnüm edəsən... Allahsız gədə!

Sosializmin qarğa-quzğun məclisiydi.

Kommunizm ideyalarını, bəli, gələcəkdə kommunist olacaq bu vətəndaşlar yayacaqdı.

Məlhəm söhbətləri belə bərkdən danışan, düz sözü də söyüşlə and içib inandıran - müsəlman hümbətləri!

Sərrast olanlar, qədərində içənlər - çox, lap çoooxxx, uzaqlarda qalan qul əməyini, zülmünü xatırladıqca... молодой-luğun kədər dolu qoynunda itib - batırdı.

Bu munis gecədə millətimizin mentaliteti açıq-aşkar qabarır, mənim də arzularım xəyallarımda qaynayıb coşur, pıqqıldayıb dağ çeşməsi kimi axırdı.

İlahi təxəyyülümdə dərk eləyirdim ki, nəhayətsiz mavilikdə, səmanın ənginliklərində - çəmsiz, qayğısız, çılğın uşaqlığım itib - batdı...

Dəlidağın, Dərələyəzin çılpaq, sərt, soyuq qayalıqlarında çapdığım kəhər atın kişnərtisi qulaqlarımda səsləndi:

“Quduz yalquzların ehtiraslı baxışlarını intiusiyayla hiss edib, uzaqdan görəndə arıq ayaqlarını, dəmir nallı pəncə və dırnaqlarını yastı, mamırlı iri qayaların üstündə qəzəblə şaqqıldadıb, bərəlib böyümüş iri gözləriylə necə dördnala götürülərdi...

Atın cilovu əlimdə olsa da, qorxumdan ayaqlarımı üzəngiyə bərk-bərk sıxar, qırraşıb atın yalından necə yapışardım!”

Eyy... ulu, avam, üz - gözü, əl - əyağı hisli uşaqlıq!

Süleyman Zahidov, Tariyel Muradov, ya İsgəndər Tağıyev, - ha deyilsə də, bir damcıda milyon atom olduğunu, heç başa düşməzdi...

Üstünə, sevdiklərinin baş hərfləriylə, oxlu ürək şəkilləri çəkilmiş qara partalar...

Zəncilərə oxşar, yastıburun, uzunboylu Ərəstun, pioner baş dəstə rəhbəri olan bir qızı lal baxışla necə izləyərdi...

Sinifdən hər çıxanda, Xuraman gözləriylə gözlərimə baxıb, gözüylə deyərdi: "Hara?"

Eyy... arzularımın filmi!

Sən...elə gözəl bir nəğməm idin...

İyirmi səkkiz- otuz iki şagird, zəng içəri vurulanda, Raquf müəllim gələnə kimi sərçə qorxaqlığıyla, fəhmlə fizika dərsini tələm-tələsik əzbərləyəndə, uşaqların mızıltı səsi, necə arı vızıltısına bənzəyər, yuxu gətirərdi...

Xınalı sifəti çillərlə dolu, həyalı Adilə və müqəddəs bildiyim təkəbbürlü qız Xuraman, - uşaqlığımın uzaqda qalan kədər, qəm dolu qoynunda itib - batmışdı...

Əfsus... indi adın gələndə, daha dizlərim əsmir...

Bitməmiş nəğməm!

Sənlə torpaqda qovuşacağıq! - əzizim...

Gərgin, nazik barmaqlarım titrədi.

O vaxt sevgidə necə xam, naşı idim...

Xəmiri abırdan yoğrulmuş, pak, məsum Komsomoluma çatanda isə... artıq məhəbbət allahı

Eros, Kupidon tilsimlənmiş məhəbbət çeşməmin gözünü açmışdı!

Komsomolu xatırlayanda, artıq... göydən bu an sanki səhləb çiçəkləri yağırdı!

“Monamanka” ya bənzəyən, heç vaxt ürək dolusu güldüyünü görmədiyim, - macərasız, romansız, əzabkeş nənəm də... nəhayətsiz mavilikdə, səmanın ənginliyində qaldı.

Bizi belinə şəlləyib nə qədər əziyyət çəkərdi!

Yeddi uşaq idik. Təkiydi yazıq nənəm... Seçə bilmir, fərq qoya bilmirdi heç birimizə...

Sonuncu əzik - məzik, üzü üzlər görmüş alüminium kuruşka - piyaləmi çaxırla ləbələb doldurub, su kimi qurtaqurtla içəndən sonra müdrik, yetik nəzərlərlə yerdə qalan on doqquz əsgər - həmyerlilərimi süzüb, bir anlıq məclisin abu-havasına qatıldım.

İt yiyəsini tanımırdı, - naçar naçar:

“ - Pusma məni, - mayıf Mamed Ədalətə gileylənirdi.

- Ə... sən öləsən, nətər qışqırdım, it bərk qorxdu, sonra da sıçıb özünü batırdı...

- Sırıma əəə mənə! Xirtdəyə kimi özün çamurdasan, dağda, içi keçəli çadırda doğulub, sovxozda böyüyən, pastiyannı naxıra, novata gedən gədə...

- A, gendən bilinən lilipud, saqqızımı yaxşı oğurlayıb məzdədin getdi.

- Aftafa görməyən göt xoruldayır axı!

- Ə qırışmal, deyirsən yenə cibində yel vurub, yengələr oynayır?

- Bir qədim söhbət elə, bu mən ölüm! - hülqumunu çəkib Turabxan mənə deyirdi.

- Ə... arvadlar kimi elə bilirsən güldanda pul balalayacaq? - laçınlı Ədalət kəlbəcərli vaynösə Sahibə dedi.

- Ə... zavtasız azcana o tərəf otur dənəə, iyin boğdu məni...səni təzdirənin...

- Ə... möhtəkir qozdulu, kim rüşvət götürmür dedin?

- Xalam düz deyirmiş: “Bu pezi gədə də həvəsiyir qılı gələ, tamaşadı yolanda.”

- Ə... daşşağı yıytıq pasan, vuyayam küllü-küf gedəysən! – Nazı kiməsə qışqırdı.

- Poxlu dərədən gəlirdim...Bir atlı yel kimi gəlib, çiynimdən yapıncını qaparaq, dördnala çapa - çapa, toz olub yoxa çıxdı.

Kimsə qışqırdı: “Ə... cındır, nömrəsini götürəydin də!”

Hamı güldü...

- Mırtdama əə... mındar gədə... dovşan bığ!

Bu söhbətləri eşidib, lombasıyla onlar tərəfə tüpürərək, bir də xülya dolu keçmişimə qayıtdım.

Yenə ucsuz - bucaqsız üfüqlərdə, bu qısa ömrümə əbədi sığınmış qız - qadınların surətləri ətir saça - saça xəyalımda canlanır, hər anı artıq tarixə gömülmüş varlıqlarıyla gözlərim önündə dirilib - qalxırdı.

Onların xoş hənirini, odlu - alovlu nəfəslərini duya - duya... hətta, bəzilərinin barmaqlarında, isti boyun - boğazlarında, qulaqlarındakı qızıl, platin, gümüşə salınmış büllur üzüklər, qızıl zəncirdəki medalyonlar və sırğalarının metal sərinliyini belə canımda hiss elədim.

Qulağıma pıçıltıyla dedikləri sözləri, şəhvətdən qopan iniltiləri belə eşidirdim...

Omsklu Allanı - saralmış hündür otluqda, sverdlovsklu Nataşanı - yağan selləmə yağışın altında ehtirasla hövkələdiyimi xatırladım...

İçdiyim ağ süfrə çaxırı, -düşüncələrimin suyunu dalğalandırır, içimi duyğulandırıb geniş fəzanın sonsuzluğunda, istiqaməti heç cür bilinməyən ənginliklərində, xatirələrimi, ilğım kimi uyudub buxarlandırdı.

Həyatımda ilk intim əlaqə yaşadığım ağ mirvari sırğalı, qoşayelən, ağ ipək kəlağayı bağlayan Məhbubə xala, sonra Sarıkirpikli, Qırmızı kostyumlu Anna Krasik yadıma düşdü...

Nostalji hisslər məni necə çulğamışdısa, gecə yarını keçsə də, - artıq yeməkxanadakı atəşfəşanlığa Boykonun, starşina Kirilyukun, Podqornu və Kaşşeyevin nə vaxt qatıldıqlarını görməmişdim.

Soğan, ağ turp, yavan çörəklə dolu taxta stollara - artıq haradansa likör, araq, pivə, konyak da gətirilmişdi...

Oxuyan, oynayan, əllərini ağzına soxub, - suyu süzələnə - süzələnə “fıştırıq” çalan, Приma siqaretini

acgözlüklə sümürən, payayla çırpılan çəpgöz dana kimi böyürən, bağıran uşaqların sanki, heç dərd - səri yox idi.

Elə bil, hərbi xidməti qurtarmış, səhər açılan kimi yurd-yuvamıza qayıdacaqdıq...

Yenidən gözlərimi yumub, xəyali dünyama qapıldım:

“Fikir və xəyallarımda, Kəpəzin ətəyindəki Göygölün - gömgöy sularının dibindən baş qaldıran, yarpaq və ləçəkləri şehli - qırmızı, sarı, bənövşəyi, narıncı çiçəklər, gözlərimdə çönüb adını belə bilmədiyim donetskli - o məktəbli qıza, sinəsi appaçıq sarı kətan donlu Katerinaya, sonra da həyatımın yeganə qazancı, mənası və ailə quracağım çəhrayı sifətli Komsomoluma döndülər...

Mənə elə gəldi, sevginin özü də Komsomolumun yanaqları kimi elə çəhrayı rəngdədir...

Qazax rayonunun İncəli kəndindən olan Məmməd İlqarın bir şeiri yadıma düşdü:

İlahi, belə də gözəl olarmı?
Kimdi qələm çəkən? Nə gözəl çəkib.
Üz - üzə, göz – gözə sehrlənmişik
Nə gözəl əl çəkir, nə göz əl çəkir...

***

Gül, ay gözəl – gözəllikdə bircəsən
Gül bağında bir mən olum, bir də sən.
Gül üstündə arıya bax, bircə sən

Gör gülün nazını, nə gözəl çəkir...

***

Gəl salma Məmmədi, - gözündən, gözəl
Gözüm gözmü görüb – gözündən gözəl.
Mən ölmüş neyləyim, gözündən gözəl
Nə bu könül doyur, nə göz əl çəkir...

Qəflətən elə bildim, dolmuş buludun düymələri açılmış gecə köynəyinin sinəsindən -şırıltıyla tökülən yağış, necə yağırsa, sanki yazdığım gündəliyin sətirləri arasından sel axır.

Və sonra da yalnız Şevçenko parkına yağdı...

Birdən də doluya çevrilib, şappıltıyla yağan iri buz dənələri, siçan yuvasının ağzında hələ də pusquda dayanan, - qocaldığından sədaqətini dəyərləndirməyən nankor sahibinin qıymadığı bir tikə çörək ucbatından atılmış, - boynu xaltalı, şeşəqulaq qara itin - dərisinin altında əti qalmayan qabırğalarına şakkaşuk salıb qəzəblə çırpılır.

Sonra... iri şüşəsi tünd eynəkli o tələbə qızı xatırladım.

İlahi!

Günəşin istisi, torpaqdan qalxan nəm -bürkülü qoxu, çiçəklərin - otların sevgi yaradan, şəhvət oyadan ətri, onu necə ehtirasa gətirmişdi!

Məzuniyyətdə olduğum yandırıcı isti günlərdə Məhbubə xalayla yığdığım yaşıl almalar... Günorta, yandırıcı istidə onların həyətindəki vertolyota oxşar cırcıramanın havada bir nöqtədə asıla dayanıb,

sürətlə qanadlarını necə çaldığı və bu qanadların vızhavızla çıxardığı vızıltı səslərini də eşitdim.

Sonra da enli cığıra bənzər toz - torpaqlı, əyri - üyrü, qaca - quca Şərq, - "küçə" adlanan məşhur döngəmizin məmə yeyənindən pəpə deyənlərinədək hamısını bir - bir xatırladım...

Və nəsə birdən əsgər həyatı - Odessa, Pervomayski, Qara dəniz, çimərlikdəki qantel və rezinlərim, Toma qarışıq turbaza gerçəkliyi - mənə bezdirici göründü...

Hər şeyin rəngi gözümdə bozardı.

Doğma atasını ayaqları altına salıb çırpan, çığnayan, - Şərq küçəmizi ləkə və çirkabla ilk dolduran - amalsız, məsləksiz, əqidəsiz, - "dovşan bığı" olmaqdan savayı heç nəyə yaramayan Bahar arvadın vaskı oğlu, -qudurğan Vaqif yadıma düşdü.

Yalanla bəslənib böyüdülən oğlan.

Bəyin pəyəsindəki at peynindən, arpa təmizləyib yeyən, yalançı, - "sümükləri də bəy nəslindən" olan gədə...

İkinci dəfə qəflətən tüpürdüm!

Tüpürcək yanımda, başını əhəngli divara söykəyən ağcabədili Nazının sifətinə düşəndə elə bil, yuxudan ayıldım.

Nazıda yuxudaymış. O, təşvişlə səksənib sıçrayanda, məni də xəyallarımdan ayırdı.

Nazı yuxuda nə eləmişdisə, "qabağı" dovşan qulağı kimi dik durmuşdu.

Üzünü, əlinin dalıyla silib: “Damayımı kəsəyəm haaa... üzümə niyə tüpüyüysən əəə...”

Xebe formamın qoluyla tez onun üzünü silib, sürtüb təmizlədim...

....Səhərə yaxın növbətçi oyadanda hiss elədim ki, çimərlik idmanına həvəsim və gücüm qalmayıb. Yuxudan ayılıb bir də yuxuya keçmişdim.

Dünyada, sübh yuxusundan şirin nə ola bilərdi?...

“Əcəl elə o vaxt adamın hüzuruna gələ, -ölmək kaş sübh yuxusunda baş verəydi. Ağrısız - acısız, qorxusuz - hürküsüz, şirin, daş kimi yatdığın yerdən də ruh olub göylərin ənginliklərinə çəkiləsən.

Belə ölümə nə var!

Kaş bu fikri ulu Tanrı, Şeytanın, əcəl mələyi Əzrayılın qəlbinə sala...

Camaatın başına min - bir oyun açıb, kələk gətirib, qan - bağır, biman eləyib müxtəlif yollarla öldürməkdənsə, elə sübhün şipşirin yuxusunda - nazik qılçaları üstündə yatan quşların oyanıb cikkildəşməyə, xoruzun ilk banladığı vaxtda canını rahatca alıb, ruhunu uçura.

Görəsən dörd qramlıq ruh uçanda, nə vaxtsa heç qatili - Əzrayılı görüb?

Ya araqarışdıran Şeytan, pis əməlindən ruhlanaraq, sevinə - sevinə əllərini bir - birinə sürtüb, tullanıb düşəndə və ya canını aldığı körpə qız - oğlanların ruhuna baxanda, Fələk nə hisslər keçirir?

İroniyayla baxmır?

Bu kəlmələri yazanda Şeytanın, ya can alan Əzrayılın yadına düşməməyim üçün, hər iki qulağımı çəkdim...

Şeytan, hələ günü bu gün də görmür məgər, müqəddəs Məkkədə milyonlarla müsəlman ona necə ikrahla, yağmur kimi daş yağdırıb qarğış eləyir?

...Sıra meydanında, saat 07:00 - da vurulan sincin təkrar səsindən sonra, məcbur - həmişə olduğu kimi, o üz - bu üzə qurcalanıb yuxunun ləzzətini gözlərimdə nazla, sonacan yaşatmamış yerimdən qalxdım.

Bu gün istirahət günü olduğundan hələ saat yarım da artıq yatmışdıq...

İdmana çatmadım.

Səhər yeməyində rotaya qoşuldum. İştaham heç yoxuydu, əyri - üyrü alüminium qaşıq, çəngəl - bıçaq, tarelka və kruşkanı əlimdə o tərəf - bu tərəfə, bir az fırladıb oynadandan sonra, verdikləri qoz boyda sarı marqarin yağıyla fındıq boyda qəndi çörəklə bir təhər yedim.

Qırmızı rəngli futbolçu formamla ağ ketləri geyinib, voleybol meydançasına getdim.

Ketləri geyinən kimi elə bil, çönüb qanadlı quş oluram.

Uşaqları haraylayıb, hay - küylə kələ - kötür meydançaya topladım. Bir qədər futbol oynayıb top qovduq.

Havada arxası üstə çönüb fırlanaraq qol vurmağımla, yerə tappıltıyla düşəndə, - ziqq! -

elədim. Cəld qalxanda, qaca yerdə ayağım büdrədi və təkrar yıxılanda dizim sıyrıq - sıyrıq oldu. Əzələlərimin qanı dəriyə çıxsa da, axmadı...

Sıra meydanında növbəti yoxlamadan sonra rota çimərliyə, açıq dənizdə üzməyə gedirdi.

Boykoya dizlərimi göstərib, санчаст - a getdim...

Yolboyu, xışha - xışla qalxıb enən dənizi və hansısa, lövbər atmağa çalışan gəmi kapitanını xatırladım.

Qulaqlarımda sanki axşam əzanı səsləri eşidildi...

Санчаст - da sıyrıq yerləri maye məhlulla yuyub təmizləyəndən sonra yodladılar. Yod dizlərimi göynətdiyindən ufuldaya - ufuldaya güclə dözdüm. İnfeksiyaya qarşı toz halına salınmış dərmanı, pambıq və kiçik, düzbucaqlı cunaya səpib, yodun üstündən dizlərimi bintlə sarıdılar.

Kazarmaya qayıtdım.

Rota getmişdi...

Kaşşeyev kazarmadaydı. Ondan icazə istədim ki, şəhərə gedəm. Qara Vəliylə ağcabədili Nazı da icazə alıbmış, hazırlaşıb birlikdə çıxdıq.

Tomagildə, Nazıyla mülki paltarlarımızı geyindik. Vələduzna Vəli də harasa gedib, yeni tanış olduğu bir “dostundan” mülki paltar alaraq, bəzənib - düzənib gəldi. Qısa saçını sulayıb düz qabağa daramışdı, hələ də suyu darağın diş yerlərindən damcılayırdı.

Şevçenko parkına getdik.

Bizim parka girməyimizlə göy üzünü qəfil qara buludların alması bir oldu. Və az sonra sürünən buludlar gözlərinin zındığını tökməyə başladı və necə şıdırğıyla tökdüsə, o böyüklükdə parkda bir ins - cins qalmadı.

Bircə, tökülüşüb "Qodu - qodu" oynamaq çatmırdı!

Dörd tərəfi hündür torla tutulmuş, yaxınlıqdakı təpədə yerləşən voleybol meydançasında - sarı idman formasında qızlar voleybol oynayırdı.

Tamamilə suya batsalar da, idmançı qızlar çox həvəslə oynayır, qışqırıb - bağırır, selləmə tökülən yağışa baxmayaraq, sevinclə oyunlarını davam elətdirirdilər.

Sel tutmayan yerdə bir xeyli dayanıb, onlara azarkeşlik elədik.

Yağış toxtayıb, - çisəngiyə çevriləndə təpədən aralanıb, bir az da dikə çıxdıq və iri, tünd şüşəsi olan, adını bilmədiyim, eynəkli tələbə qızla - "yaşanan", - o tarixi görüş yerinə getdik.

Nə qara eynəkli qız vardı, nə də, qocalığı ucbatından tərk edilmiş qara şeşəqulaq it...

Saata baxdım: 13:30 idi.

Qara Vəliylə Nazı kazarmaya qayıtdı, onlar dənizə - rotanın yanına gedəsi idilər...

Taksiyə oturub, ehtirasla bənövşəgözlü Katerinamın anası yaşadığı ev ünvanını söylədim:

- ул. Маршала Жукова 2.

- Çox yorğun və yuxusuz olduğumdan, mühərrikin xoş uğultusunda yuxu məni basırdı. Tez - tez diksinib ayılır, başım maşının yan şüşəsinə dəydikcə, daha dərin və şirin yuxuya keçirdim.

Hətta, qısa bir yuxu da gördüm:

“Hansısa tərli bir atın uzun yalından yapışmışdım . At tez -tez fınxırır, göz işləyən tütün plantasiyalarının kənarıyla çapırdım. Üstü şiferlənmiş, - yastı damlı, baş-başa tikililərin qarşısında çoxlu, - enli , uzun tütün yarpaqları, iri - iri kəsilib asılmışdı...”

Diksinib ayılanda xatırladım ki, Qutqaşen tərəflərdə belə tütün plantasiyaları salınardı...

Yaxşı ki, tez çatdıq.

Taksidən düşəndə mənə elə gəldi ki, o açıq pəncərədə dayanıb, gəlişimi səbirsizliklə, həyəcanla gözləyir və indi sayıb taksipulu verəndə, yuxarıdan odlu ehtiraslı baxışlarıyla göbəyimdən aşağını qucaqlayır...

Katerina yaxşı qızıydı. Çox yaxşı!

Yazığın necə deyərlər, bir üzü qız, bir üzü də gəlin idi.

Liftin qapısı ağzında dayananda, gördüm üstünə yazılıb: “Не работает.”

Elə bu vaxt yaraşıqlı bir qadın, - nədənsə bu qadını, qəbahətli Bahar xalaya oxşatdım, - mənə yanaşıb, təbəssümlü çöhrəsiylə:

-İki gündür işləmir, təmirə dayanıb,- dedi.

Boş - boş, gic - gic, öz - özümə çərənləyə-çərənləyə pilləkənləri qalxdım.

Hardansa... qara bir duman kimi, beynimə düşdü: "Kaş Bahar xalanın çılpaq belinə atılıb minəydim." İçimdə ehtiras şahlandı!

Bahar xalanın hökmlü səsi, qulağımda səsləndi:

"Çıldırma! Divarı çatlaq daxmana işıq düşdü? Kor kimi o qaranlıq yuxundan ayıl!"

Bu vaxt ağlıma bir müdrik kəlam gəldi:

"Niyə kişinin zina tutduğu intim iş cinsi əlaqə, - kişilik, - qadınınkı isə qəhbəlik sayılır?

Düzünə danışsaq, lap elə küçədə duran əxlaqsız, qırmızı onluğa, "altında" - kölə, qul olan qadın fahişəylə yatan kişi, - özü də, fahişə deyilmi?".

"Kişilik", - belə yerdə çürük bir məntiqdir.

Yatağından yüzlərlə qız keçən oğlan, ya kişi, eşit:

"Sən də, - elə o bəxtləri daşa dəyən ərgən, nakam qadın və ya uğursuz nigahlı qızlar kimi bir fahişəsən!"

Musa peyğəmbər özü axırda işə qarışıb, yəhudilərə haram buyurmadımı bu işi?

Nə olsun Məhəmməd peyğəmbərimiz yeddi arvad alıb? Bunun dərin mənası, əsaslı kökü, məntiqi var.

Sonuncu pilləni qalxıb zəngi basdım.

Katerinanın cənnət qoxulu gözəl, lüt canını açıq qapı arxasından görəndə, yenə hər şeyi unutdum:

“Kişi baz olar!..” ürəyimdə,- mızıldadım.

O, zəngin səsinə buğlu hamamdan, -canından, saçlarından su süzələnə - süzələnə çıxmışdı.

Qapının sürgüsünü, siyirtmələrini altdan-üstdən çəkib bağladıq.

Bir anda məni soyundurub, dizlərimin bintlə sarındığını görəndə, əvvəl qorxdu, tələş və heyrətlə:

- Nə olub? -qışqırdı.

Gülə - gülə: “Boş şeydi, futbol oynayanda sıyrılıb” ,- dedim.

O, səliqəylə sarınmış bintləri cəld açdı və ciddi bir şey olmadığını görəndə, qolumdan cəkə - cəkə, quşqunluğumdan yağlı bir çimdik qopararaq, özüylə hamama basdı...

...Hərbi hissəyə girəndə sıra meydanında yoxlama gedirdi.

Öyrəndim ki, heç adımı çəkməyiblər də...

Boykonu görüb, yenidən icazə almaq istəyirdim.

Yeməkxanada soyumuş qatıqlı borşu tezbazar içib, kartof püresilə гречка yedim.

Rusların гречка dediyi - qarabaşağın üstündəki, illərlə soyuducularda qalan soyutma balığı yeyə bilmədim.

Biz yeməkxanadan çıxanda hava yenə bozarmışdı. Qara duman qatarlaşıb sürətlə süzürdü.

Laçın və Kəlbəcərin kahalı, sərt qayalı dağlarından gəlmiş uşaqlar, səmaya baxanda, əsl Moskva sinoptikləri kimi:

“Yağış yağmayacaq,”- dedilər.

Yığışıb elə əsgər formasında bir qədər voleybol oynamağı qərara aldıq, ancaq hamı tox olduğundan yaxşı alınmadı...

Boyko hücrəsində idi.

Heç kimə demədən aradan çıxıb çimərliyə getdim.

Qaranlıqda bir intim pıçıltını xatırladan Katerina, hamamdan sonra dizlərimi səliqəylə sarımışdı.

Əlləri - qıllı, qara hörümçəyə bənzər, qara Vəliylə, qara vaskı kimi, - rus hərbi nüfuz məmurlarına quyruq bulayıb, - peşkalıq eləyib, daim qulluqlarında dayanan, yanlarıyla kölgə kimi addım - addım hərlənən Nazını tapdım.

Çimərlik boyu gəzib, lüt qızlara tamaşa elədik.

Sonra, yumurtası tərs gələn fərələr kimi bezikib, onlardan da aralandım.

Qayışbaldır çəpik Turabxanı kazarmadan götürüb, turbazanın həyətində veyillənməyə başladıq.

Xeyli keçmiş... dənizdən, elə çimərlik paltarında bir qız gəlib yanımızdan keçmək istəyəndə, onun qarşısında zol dayanıb, ərk -nazla:

- Qızıl balıq, - ordu sıralarına qorxusuz, açıq girən bir serjant lütbəli qafqazlı əsgərlə tanış olmaq istəməzdiz? - soruşdum.

- Tələsirəm, ради бога - deyib, qoluyla məni yolundan kənarlaşdırmaq istədi.

Qolundan tutub saxladım... bir az kobud çıxdı, - amma, narazılıqla üzümə baxsa da, adını söylədi:

-Tumurcuq, - Lyuba...

Tanışlıqdan sonra, ləngitdiyim üçün üzr istədim və Qara dənizin göy sularında ondan gözəl nağıl balığın olmadığını təkrar-təkrar vurğulayıb, sabah axşam saat 20:00-a, elə durduğumuz yerə görüş təyin elədik və o, and içdi ki, gələcək.

Qolunu buraxdım.

Qız, necə əzilib - büzülürdüsə, sanki indicə sıxıb, ondan şərab düzəldəcəkdim!

Mən qızla danışanda Turabxan aralanıb getdiyindən turbazanın bağında bir qədər də tək - tənha gəzməyə başladım.

İki arvad ərik ağacının budağını əyib, saralmış cır ərik yığırdı. Qafqazlı olduğumu görən kimi, içinin nisbətən yaşlısı ürəklə:

- Bizə ərik yığmağa...

Arxasını deməyə imkan verməyib, onlara yanaşaraq:

- Məzuniyyətdə olanda, ağ mirvari sırğalı Məhbubə xalaya da alma yığmağa kömək eləmişdim, - dedim.

Bu eyhamdan bir şey anlamasalar da, heç nə soruşmadılar.

Bağdakı ağaclardan onlara xeyli cır əriklə gilənar yığdım.

Skamyada oturub, yuyulmamış ərik və gilənarlardan yeyə - yeyə söhbət elədik. Nisbətən cavan olanı bir dost yumşaqlığı ilə yeyəcəyimiz hər bir meyvəni, ehmal -ehmal cib yaylığıyla sürtüb təmizləyirdi...

Quşqunu iri, yaşlı qadın daha yaraşıqlıydı.

Açıq başa saldılar ki, turistdirlər, siqaret çəkməkdən, alkoqol qəbul etməkdən içləri pırsımış qarpız kimi iylənən ərləri ucbatından qısır qalmışlar. Doğmaq istəyirlər...

Yaşlı olanın adı Nadejda idi. Qımışıb bic - bic gülümsəyərək, birdən üzümə dik baxa - baxa utanıb və sıxılmadan:

-Sabah axşam tansa gəl, orada görüşərik, soldat temperamentli olur, o da qala qafqazlı ola!

Boğazı, bir quş boğazı kimi uzun, nazlı, yüngül cavan qız - Kseniya, - Nadejda ona Ksyuşa deyirdi - şaqqanaq çəkib güldü...

Ünvanlarını dəqiq bildirdilər, - hər ikisi turbazanın birinci korpusunda, yeddinci otaqda qalırdı. Ayrılanda Ksyuşa havada əl yelləyib:

- Gələndə dostunu da gətir, -dedi.

Hərbi hissəyə qayıtdım.

Axşam proverkasının vaxtı idi.

Sıra meydanında sonuncu yoxlamada Nazim Əsədovla qara Vəli sıra düzülüşündə yoxuydu. Vələdüzna Vəlini bilməsələr də, ya bilib üstünü

vurmasalar da, Boyko Əsədovun cərgədə olmadığını bildi.

Yaşıl işıldayan gözlərini qıyıb:

-O sümük yığını,- трус, bu gün gözümə dəyməyib, samovolkadadır, sabah mayora məruzə eləyəcəm, Pervomayckiyə qayıtmalıdı, это уже точно, - dedi.

Gözləri qaranlıqda çaqqal gözü kimi işıq saçırdı. Artıq, üç rubl nağdı cibindəydi!

Vəziyyətin gərginliyini hiss edib, Əliyev qulağıma pıçıldadı:

-Nazim xəbər göndərib ki, tansda olacaq.

Yoxlama başa çatan kimi, çoban çomağı Mürşüdlə kuybışevli Hüseyn Mehdiyevi onun arxasınca çimərliyə, özüm isə qaçıb Boykonu yanladım:

- Onca dəqiqə vaxt ver, serjant Asadovu tapıb gətirim, muştuluğu olacaq.

Razılaşdıq.

Turbazaya götürüldüm.

Rəqs meydançasını ələk - vələk eləsəm də, Nazını gördüm deyən olmadı.

Geri qayıdanda təsadüfən qabaqlaşdıq. Mülki paltarda idi. Hərbi vəziyyəti başa salıb, cəld onu Tomagilə apardım ki, paltarlarını dəyişsin.

Qara Vəlini də çimərliyə yolladım,- çoban çomağı Mürşüdgili geri qaytarsın.

Nazının başına, xebe formasına su çilədim, - guya hamamdaymış.

Kinodan qayıdan əsgərlərimizə qoşulub kazarmaya bir qayıtdıq.

Ov bərədəydi!

Hər şey qaydasına düşdü.

Boyko hamam məsələsinə inanmasa da, sevincini büruzə verirdi:

- Kişi kimi de, hardaydın?

Heç vaxt bazlıq eləməyən, qara pirişikli üzündən daim his yağan Nazı qurumuş, qansız dodağını diliylə yalayıb, yalandan boynuna aldı ki, gəzdiyi qızın evində olub.

Boyko tam rahatlaşdı:

- Nə başını bir turp kimi kökündən qoparardım!

Gözükölgəli Nazını artıq ovlamış, ən azı litrlik çaxır pulu zabit mundirinin kiçik, döş cibindəydi.

Boyko və Voronkovla danışıb birlikdə yeməkxananı açaraq, - axşamdan aldığımız kolbasayla - uzun baton çörəyi, köhnə Днепр soyuducusundan götürəndə, göz elədim,- Nazı cəld qaçıb, iki butulka da araq alıb gətirdi.

Alüminium əsgər kruşkasında yarıyacan süzülmüş, ikinci arağı içəndən sonra tamam boşalıb süstləşdim və məni şirin bir yuxu basdı.

Buğlu hamamda Katerinanın məni əsir-yesir eləməsi - öz işini indi görürdü.

Onları orada qoyub, özümü güclə kazarmada çarpayıma yetirdim və pal-paltarlı -zadlı çul kimi üstünə yıxıldım...

Дмб приказ - imza, düz 100 gün qaldı!

Odessa, 3 iyul 1972-ci il, 1 gün.

Şübh tezdən, növbətçinin: “ROTAAA QALXXX!!!” - çığırtısına oyananda, çox əzgin olduğumdan dəniz idmanına həvəsim olmadı.

Boyko, sıra meydanında məni, Mürşüdü və Hüseyni sıradan bir əsgər addımı irəli çıxararaq:

“Patrul işini təlimata uyğun - əla, çevik və gözüaçıq, vicdanla yerinə yetirdiklərinə görə...” oxuyub, bizə “благодарност” elan elədi.

Sürəkli alqışlar altında çest verib:

- Служу Советскому народу! - deyəndə, dizlərimin və bədənimin sıyrıq yerlərinin ağrısı da keçdi.

...Uşaqların işini böldüm.

Barabanlı rastvornasos işləmədiyindən hamını откос və канапатка - ya qoydum.

Gipsoplitələri, metlax - kafelləri, qumu, suyu, ağ və qırmızı kərpicləri mərtəbələrə zorla çatdırdığından, qaldırıcı kran sürücüsü - крановшик - əsgər, vaxt tapıb bizə palçıq verə bilmirdi.

Odur ki, bu işləri - plan dolmasa da, boş dayanmamaq xatirinə görürdük.

İşlərin gedişinə nəzarəti Mürşüdə həvalə eləyib, özüm ruslar demiş: свободну, - qaldım.

Voleybol oyunu dizlərimi sıyrıq - sıyrıq etdiyindən, gecə Boykoyla içdiyim araq beynimi keyləşdirdiyindən və vəhşi lal ehtirasından doymayan, çılğın Katerina, - buğlu hamamda çalağan kimi bədənimi sıyırıb - şumladığından, - çul kimi düşüb, bütün gecəni yatsam da, əzgin, halsız və yorğun idim.

Bu səhər, idman və dənizdə üzməyi təxirə saldığımdan heyfsilənir, çox narahat və kefsiz hərlənirdim.

İdmana həvəsim sonsuzdur.

Санчаст-da növbətçiydim.

Yeni xəstələnmiş yeddi əsgəri də özümlə götürüb, Санчаст-da yatan xəstələrə baş çəkməyə,

həm də həkimə yaralı barmağımı və göynəyən boğazımı göstərmək istəyirdim.

Qapıdan içəri keçən kimi, Санчаст-ın spesifik iyi məni vurdu. Yod, spirt, müxtəlif preparatların, dərman məhlullarının iyi bir - birinə qarışmışdı.

Ağ optik eynəkli, şax, nişastalı ağappaq xalatlı hərbi -həkim, tibbi lupa alətiylə barmağıma diqqətlə baxıb, gözlərini qıyaraq:

- Artıq gecdir, üstündən bir ay keçib, sümük bitişib, - dedi, çeçələ barmağın eləcə də əyri qalacaq.

Təşvişlə sifətinə baxdığımı görəndə isə zarafata keçdi:

- Qorxusu yoxdur, qız verəcəklər! Kimdi çeçələ barmağına diqqətlə baxan, ya ona görə səni vəzifəyə qoymayan?

Elə pis oldum!

Həm də sağ əlimin barmağıydı, hamıyla görüşəndə sağ əlimlə görüşürəm...

Sonra ağzımı geniş açdıraraq, qaşıq kimi tibbi bir alətlə dilimin üstündən basıb boğazıma baxdı.

Hərbi həkim qıtlığı ucbatından hələ də işləyən bu ağ saçlı qoca, - ehtiyyatda olan, mayor rütbəli zabit - həkim idi. Hiss elədim ki - başını yalandan bulayıb, açiq jurnalda nəsə qeydiyyat apardı.

Sarı, su kimi dərman məhlulu verib, ciddi şəkildə:

- Boğazında qarqara elə, умывалник - ə tüpür, - dedi.

Dediklərini məsuliyyətlə yerinə yetirdim.

Sonra başqa bir tabletka da içirdib:

- Sabah da gələrsən, - dedi.

Nədənsə, yenə yuxum tökülürdü.

Xəstə əsgərlər növbəylə özlərini həkimə göstərəndə, dəhlizdəki kiçik yumşaq divanın üstündə oturan kimi mürgülədim və sonra da yuxuya keçmişəm.

Kimsə gövdəsiylə silkələnib hərbi əmrlə:

Встанн! - çığıranda, səksənib sıçradım və divanın üstündən sürüşərək döşəməyə düşən yay pilotkamı qaldırıb, cəld başıma basdım. Qarşımda dayanan tanımadığım, yüksək çinli zabitin qarşısında ayaqlarımı cütləyib, bir-birinə çırparaq farağat formasında, zol dayandım.

Əclaf, hərbi hissəmizin ünvanını, ad və familyamı soruşdu.

Məruzə elədim:

“Товарищ подполковник, г. Одесса-56, индекс 270056, ул. Тенистая 13, в/ч 11741, младшый сержант Бабаев Тофик Али оглы до исторический приказа - о демоблизасия осталось ровно 100 дней!”

Lüzumsuz olsa da, şəhərin adını, indeksi, Tofiq Əli oğlunu və 100 günü acıqla, - dedim.

Köpəyoğlu,ərinmədən kiçik cib bloknotunu çıxarıb, dediklərimin hamısını qeyd elədi, sonra da şit-şit, sırtıqcasına:

- Sizin mayora zəng vurub telefonla xəbər eləyəcəm,- dedi, санчаст adıyla gəlib, burda yatıb dincəlirsiniz.

- Yeddi xəstə əsgər gətirmişəm yoldaş podpolkovnik, onları gözləyirdim, divan rahat, yumşaq olduğundan huşa keçib yuxulamışam. Müsəlman əsgər-xəstəyə bir qədər dincəlməyin bu qədər qəbahət olduğunu heç bilməmişəm, lütfən, üzürlü hesab edin.

Üzürlü hesab eləmədi və qanacaxsız, elə nırx: “Deyəcəyəm,” - deyib durdu.

Axırda dözməyib, əsəbimdən öz dilimizdə mızıldadım: “Onsuz da daşım ağırdır, amma deyib nə pox yeyəcəksən dədəyin ağzıyla?

Dovşan bığı!”

Biz qayıdanda artıq planyorka başlamışdı. Yolda kefir, bulka alıb yemişdik.

Bu günüm yaxşı keçdi.

Axşam yeməyindən az sonra, Heydərov dördüncü mərtəbədə Nazıyla mənə rəqs eləməyi öyrətdi.

Xariqüladə gözəl birisi olarsa, artıq yüngül hərəkətlərlə, onunla tans oynaya bilərdim...

Axşam saat səkkizə az qalardı, mayor Deqtyar gəldi.

Tülkü, qara Vəli institut istiqamətində piyada gedərkən görübmüş, təcili:

“Vəlini tapın! ”- əmr elədi.

Lap yerinə düşdü.

Saat 20:00-da görüşüm vardı.

Qara Vəlini axtarmağı bəhanə eləyib, elə mayorun gözünün qabağındaca hərbi hissənin ərazisindən çıxdım...

Turbazanın parket rəqs meydançasında dünyayla məşhur Robertinio Loretti oxuyur, mal kimi sürüyə tez qoşulan, - yaşlı rəqs edənlər küyə düşüb,bəshə-bəslə oynamaqdan qan-tərə batmışdılar.

Tanışlarla tələsik əl görüşür, hal-əhval tuturdum.

Qara Vəli yoxuydu.

Saat 20:00-da hərlənib - fırlanıb, "sütül tovuzquşuyla" şərtləşdiyimiz yerə gəldim.

Saat 20:10, 20:20, 20:25 oldu.

Tumurcuq Lyuba, gecikirdi...

Yefreytor atsifət İlyasla kəlbəcərli Sahib Əkbərova tapşırmışdım ki, təcili axtaran olsa, həyəcan siqnalı verilsə, sinc çalınsa, - tikdiyimiz binanın yeddinci və ya səkkizinci mərtəbəsinin açıq eyvanına çıxsınlar.

Qəflətən, gözüm binanın səkkizinci mərtəbəsindəki eyvanda, öz-özünə pilotka yelləyən Sahib Əkbərova sataşdı.

Deməli, artıq axtarırlar.

Dərhal hərbi hissəyə götürüldüm.

Axtaran zemelya Şükürüymüş...

Belin sınmasın, Sahib!

Sən demə, başlarına gələn məsələ qəliz olduğundan məni axtarıblar.

Kim isə, tikinti materialları saxlanılan daş anbarın, - yarım əsrdən çox işlədilmiş köhnə, iri qıfılını sındırıb, döşəmə üçün alınan beton plitələrdən xeyli aparıb.

O materialı işlədən əsgər Şükürlə Faiq olduğundan, mayor onlardan şübhələnib və hər ikisini yanına çağırtdırıb.

Faiq samovolkadaymış.

Şükür mayoru aldadaraq: “Faiq yemək yeyir,” - deyib.

Mayor dirəşib ki, bu saat onu da çağır, birlikdə yanıma gəlin... Bəli, həqiqətən məsələ “turş” imiş.

Şükür gizlincə qulağıma pıçıldadı:

- Faiq, çoxdan gəzdiyi qızla Москва kinoteatrındadır.

Москва kinoteatrı, Toqqa toxuculuğu kombinatından da uzaqda yerləşir və təcili Faiqi tapıb gətirmək lazım idi.

Zira, Laçın dağlarında kişi-kişi şeşələnib yapıncıda gəzən, təpərsiz Mürşüdü, vaynösə Sahib Əkbərovu, vələdüzna qara Vəlini, ya ağcabədili vaskı Əsədovu onun arxasınca göndərmək əbəsiydi.

- Nə edək? - təşvişlə soruşdu.

Qamətinə sağanaqlı eynək yaraşan mirzəalıbəyli Şükür, dostu üçün bərk həyəcan keçirirdi.

Birdən ağlıma gəldi: “Daha onu-bunu axtarmaqdan bezmişəm, bəlkə bu bazlıq məsələsinə biryolluq son qoyaq?”

Dərhal, bənövşəgözlü Katerinamın isti nəfəsini, yumşaq canını içimdə hiss elədim...

Vaxt itirmək olmazdı!

Və qəflətən Əhlimanı da götürüb, hərbi hissəmizin ərazisindən güllə kimi çıxdım.

Tomagildə, tələm-tələsik mülki paltarımı geyinmək istəyəndə, Toma bu vur-çatlasında:

“Özüm səni soyunduracağam”, - desə də, məsələnin ciddiliyini anladıb:

“Dostumuz təhlükədə, hauptvaxt başının üstündədir, ” - deməyi belə unutmadan, tələsik şalvarı əynimə “çətdədib” aradan çıxdım.

Artıq yaz küləyi yox, payız küləyini xatırladan yel kimi uçaraq, qarşıma çıxan ilk boş taksini saxladıb Москва kinoteatrına sürdürdüm.

ГАЗ-21 - markalı taksi, Волга maşını - bəxtimizdən qəttəzə və sürücüsü də cavan bir oğlanı idi.

Yalançıların sözü olmasın, təhlükədə olan dostumuzu, əsla gecikmədən tapmaq lazım olduğunu, qafqazlı olduğumuzu və “artıq pul” eyhamımızı eşidib, - avtoşlar kimi ayağını qaza basmağıyla, taksini iki təkər üstə çöndərib, asfaltı eşdi və təkərlər çox ümidverici bir səs çıxardaraq qıjıldadı.

Əhlimanı kinoteatrın ətrafını yoxlamağa göndərib, cəld özümü içəri təpdim.

Bəxtimdən Faiqlə elə foyedə üz-üzə gəldik və o, gözlərinə inanmayıb, səsini belə çıxara bilmədən, heyrətə gəldi.

Nəfəs almağı sanki unutmuşdu...

Volqa hərbi hissəyə doğru şütüyəndə, özümü Sovet İttifaqı Qəhrəmanı kimi hiss edirdim.

Faiq danışırdı:

"Gəzdiyim zavallı qız Daşa, ilk dəfəydi bilet alıb məni filmə baxmağa dəvət eləmişdi..."

Gülə-gülə:

- Əsgər həyatı belə, - ümidsiz günlərin gecələrində kədərli görünən ay kimidir, gözəl oğlan, neyləmək olar?

Taksidən düşən kimi, tələsik turbazadan Əhlimanla Faiqi yola saldım.

Hərbi hissəyə tərəf qısıla-qısıla, kimisə pusan adamlar kimi, - hərdən gizlənib, hərdən də qalxıb oğrun - oğrun qaçanda, görünən bu səhnəni fırçasıyla yaratmağa rəssam lazım idi.

Hardasan ay Tahir Salahov, yaradasan bu oğurluq əsgər qaçışını...

Tomagildə paltarımı dəyişib qaça-qaça geri qayıdanda, Şərq küçəmizin qərbində yerləşən, Bərdənin Mərkəzi Kolxoz bazarında, раскладушка açıb, novruz bayramlarında - rənglənmiş al boyalı yumurta, başqa vaxtlar isə xırdavat satan, fal açaraq ona-buna dua yazıb dilini-ağzını "bağlayan" qonşu

Xeyrulla kişinin, - cəddə inanmasam da, -olmayan cəddini bir daha çağırdım!

Şükür sevindiyindən ağlayıb.

Nüfuz məmurları - mayorla baş leytenant isə Kəngərlini görəndə samovolka variantını bağlayıb, əsas məsələyə keçiblər. Oğurluq məsələsi də dalana dirənəndən sonra, baş-başa qoyulmuş dörd vaqonun arasındakı sıra meydanında onlarla qarşılaşdıq.

Şükürlə Faiq bilmirdilər mənə necə minnətdarlıq eləsinlər. Bu an onların çöhrəsini yalnız florensiyalı Leonardo da Vinçi "Cakonda təbəssümü"nü yaratdığı kimi yarada bilərdi!

Faiqə dedim:

- Əsgərin qızla kino məsələsi - hərdən özü də elə kino kimi olur, bəzən uğurlu, bəzən də belə... qız yəqin Бродяга filminə bileti geri qaytarmaz... Bunu əsl sirli məhəbbət simvolu kimi - ömrü uzunu əzizləyib qoruyar...

Sonra da öz başıma gələn, - iki keçmiş kino əhvalatını onlara danışdım:

"Bərdədə, Tanrıdan verilən ilk uğursuz məhəbbət payım olan Xuramanla baxdığım Kozara filmi və bir də Pervomayskidə, üzünü belə görmədiyim yad gəlinlə "baxdığım" o tarixi Nina filmi..."

Yeri gəlmişkən: V.İ.Lenin Sürixdə gizlənib-Vyanaya, oradan da Bakıya - inqilabın ideya və mübarizəsinin əsas istiqamətlərini, oğrun yollarla göndərir, Stalin də Bakıda oturub, neft

milyonçularının pullarını talayaraq, “yer altında” quraşdırdıqları gizli НИНА mətbəəsində ИСКРА qəzeti buraxırdı...

Çar belə yıxılıb də!

Boyko bu gün mənə maraqlı bir fakt da söyləmişdi. Hansısa generaldan eşidibmiş:

“Uruqvaylı jurnalist-yazıçı gənc Eduardo Qaleano adlı birisi, ötən il -1971-ci ildə, “Latın Amerikasının Kəsik Damarları” adlı bir kitab nəşr etdirib.

Kitabda, qitənin fəthindən üzübəri, Latın Amerikası xalqlarının qarşılaşdığı zülmdən, istibdaddan bəhs edir.

Kitab bütün dünyada əks-səda doğurub.”

Həqiqət belədir də!

Siyasi işlər üzrə müavin, baş leytenant Boyko, deyəsən gərgin ailə problemi yaşasa da, içkidən başı açılmasa da, dünyanın siyasi işlərində ayıq idi. O, tez-tez deyirdi:

“Sovet zabiti vicdanla, tükənməz enerjiylə çalışmalıdır...”

Dübarə, "Lenin ordenli Hüseyin Ağayev" və əfətli Hüseyin kişiylə Zeynəb Xanlarovanın "Yaşıl teatr" əhvalatı

Odessa, 4 iyul 1972-ci il, II gün

Bu səhər, sübh tezdən ayılanda - yenə nədənsə əzgin, həvəssiz olduğumdan dəniz məsələsini təxirə saldım və qəflətən xatırladım ki, приказ-ımıza artıq 99 gün qaldı!

Şipşirin bir duyğu canımı sardı...

Üç ay, bir həftə, üstəgəl ikicə gün!

Artıq, bu nağıl reallıq idi!

Xoşbəxt, azad gələcəklə... düz səhər yeməyinə kimi yerimin içində o yan-bu yana qurcalandım...

Səhər yeməyindən sonra da uşaqların arasında işi bölüb, nəzarəti Mürşüdə həvalə eləyəndən sonra, Faiqlə Şükürün yanına düşdüm.

Birdən yadıma düşdü ki, dünən Москва kinoteatrının qarşısındakı lövhəyə vurulmuş afişada, - ağzında tüstülənən papirosla Rac Kapurun silindrli şəkili asılmışdı. Бродяга filmi göstəriləcəkdi: saat 11:00, 14:00 və 17:00-da.

Saata baxdım: 10:01 idi.

Uşaqlara tapşırdım, - axtaran olsa Москва kinoteatrında olacağam. Bu filmə, çox çalışsam da, fürsət tapıb Odessanın ayrı-ayrı kinoteatrlarında baxa bilməmişdim. Bu dəfə məqam idi, vaxta hələ bir saat qalırdı.

Podqornuya yanaşıb:

-Училиш-ə gedirəm,soruşub-axtaran olsa, müdafiə edə bilərsən? - soruşdum.

Salaqa olsa da, tağım komandiri, - starik kiçik serjant tərəfindən sayıldığının ləzzətini yaşayaraq, dərhal böyüklüyündən qürurlanıb razılıq əlaməti olaraq qımışdı...

Təbiət cəsurluğu qədər cəsur, təbii sağ-lam və qoçaq olan Bakiri də özümlə götürüb, aradan çıxdım.

Bakir, “sutkalıq dnevalnı” dayanıb növbəni təhvil verdiyindən, istirahət etməliydi, odur ki, soyunmuşdu, elə idman formasında idi.

Onu həyətdə qoyub, mülki paltarımı geyinmək üçün Tomagilə getdim.

Toliklə Tolya - hələ də xəstəxanadan çıxmadığından, Toma yenə evdə tək idi.

Səhər çağı, məni qapısında görəndə əvvəl gözlərinə inanmadı.

Pərdələri çəkilmiş otağa keçəndə, gözləri qaranlıqda vəhşi canavar gözləri kimi parladı. Köhnə taxta qapının deşiyindən düşən günəş şüası işığında - tozlu havada gördüm ki, Toma alt gecə köynəyindədir.

Yuxudan ayılmışdı, dərhal arxadan qapını bağladı, sürgüsünü çəkdi və arıq belimdən necə qucaqladısa, nəfəsim bir an kəsildi.

O, bir yığın sür-sümük olan arıq canıyla necə güclüydü!

Yatağına yıxmağıyla soyundurmağı bir oldu.

Nə qədər yalvardım, - kinoya gecikirəm, işim var, çöldə gözləyirlər, desəm də, xeyri olmadı.

Məni zorladı!

Pərdələri tam salındığından - alaqaranlıq yatağında, çox ehtirasla işini gördü...

Geyinib çıxanda,xoruz kimi qızardığımdan Bakir başa düşüb hey qımışsa da, boynuma heç nə almadım.

Taksiyə oturub getdik.

Volqa yerindən yenicə tərpənmişdi ki, səkidə, tumurcuq Lyubanı gördüm.

O dünən görüşə gəlməmişdi, maşının yan şüşəsindən məni görüb tanısa da, artıq heç bir şey mümkün deyildi, kəlmə soruşa bilmədim,

gecikirdik.Yalnız əllərimizi havaya qaldırmaqla, salamlaşa bildik.

Kinoya vaxtında çatdıq.

Yüyürüb kassadan iki bilet ala bildim.

Axır ki, həsrətlə çoxdan arzuladığım bu filmə əyləşib baxırdım: Rac Kapur və Rita... Onların kiçik vaxtları...

İlahi, film məni necə duyğulandırmışdı!

Necə peşəkarlıqla çəkmişdilər!

Film boyu gözlərim dolur, boşalırdı.

Bir daha əmin oldum: Oğrunun oğlu oğru, düzün oğlu düz olar! Rac kimi tək-tük istisnaları çıxmaqla, real həyatda həqiqətən beləydi. Məhəbbət isə hər şeydən üstündür.

Müstəntiq qız oğrunu sevir, məhəbbət hər şeydən uca, ülvi və təmiz olur.

Məhəbbət - oğrunu da düz yola gətirərək vicdanlı, namuslu edir.

Məhəbbət - hər şeydən saf, ali, ilahi, müqəddəs və güclüdür.

Dərk elədim: ”Bəli, pul çox şeyi həll etsə də, hər şeyi həll edə bilməz. Həyatda var-dövlət sahibi olanların hamısı xoşbəxt deyil ki!”

Film məni elə tutmuş, elə kövrəltmişdi...

Hərdən rota yadıma düşür, düşünürdüm :

“Bəlkə axtarırlar?” - bir anlıq olsa da filmin təsirindən çıxırdım.

Amma film də film idi.

Tutulsam, kövrəlsəm də oğurluq qaçıb filmə baxmağım ləzzət eləyirdi.

Tutulmayan oğurluqda şirinlik, hardasa bir bəxtəvərlik də var...

Bu da oğurluğun yeni fəlsəfəsi!

Kinodan çıxanda, saat 13:20 - idi. Deməli, cəmisi on dəqiqə vaxtımız qalmışdı.

Bəli, on dəqiqədən sonra sinc çalınacaq və sıra meydanında проверка başlayacaqdı...

Taksi Волга-dan düşən kimi, qaça-qaça Tomagilə özümü yetirib, əynimi dəyişəndə sincin zəng səslərini artıq eşidirdim.

Qorxu, tələş, intizarla, tər axıda-axıda özümüzü yetirdik. Sıra düzülüşündə adbaad yoxlama artıq qurtarmışdı. Podqornu yazıq adımı ötürübmüş. Heç kimin xəbəri olmayıb. Xəbəri olan da, - yəqin, susub.

Бродяга filmi məni valeh eləmişdi.

Rac... Rita...

Санчаст - a getməliydim.

Həvəsim yoxuydu, Rac və gözəl Ritanın təsirindən hələ də çıxmamışdım, onlara acıyır, onlarla yaşayırdım...

Ələvsətdən məktub gəldi.

Yeni xəbərlər yazmışdı, ümumi məzmunu beləydi:

"Komsomol sonuncu imtahanı verərək - orta məktəbin doqquzuncu sinfini bitirib, amma, nə səbəbdənsə Şuşaya getməyə gecikirlər.

Hər gün qardaşlarını, anasını, özünü və

bacılarını həyət qapılarının ağzında görür. Sənə görə, Komsomola heç kim sataşmır onu heç kim istəmir və arxasınca düşəni, incidəni də yoxdu," - yazırdı.

Filmin və məktubun təsirindən санчаст-a getməyə heç həvəsim olmadı.

Yorğun-arğın, əzgin, həvəssiz və kövrək olmuşdum. Çarpayını açıb,hərarətim var adıyla yerimə uzandım.

Uşaqlara tapşırdım soruşan, axtaran olsa: "Qızdırması var, xəstələnib" - desinlər.

Yenə xəyallar məni ağuşuna alıb sonsuz göylərə qaldırmışdı:

"Doğrudan da... kasıb təbiətin qənirsiz gözəlliyindən, varlı isə, imarətindən, pulundan, maşınından, var-dövlətindən ehtirasla ləzzət alıb yaşayır. İmarəti nə qədər böyük olsa da gözü doymur. Kasıb lap çadırda yaşasa da, Allaha dua edib, sakitcə güzəranını sürür...

Ağlıma gəldi ki, həqiqətən bu dünyada ömür sürmək möhtəşəmdi, yaşamaq gözəldi, amma nə olsun?

Sonda hamımız öləcəyik.

Hər şeyin bir sonu var...

Görən niyə belə yaranıb – bu fani dünya?

Deyəsən, biologiya elmi də hər bir sirri daha müəyyən edə bilmir... İnsanlar yeni-yeni xəstəliklərə yoluxur. Təbabət aciz qalıb, - taun, diabet, qrip, miningit, qara ciyər serrozu, ürək

infarktı, böyrək çatışmazlığı, xərçəng xəstəliyi kimi və müalicəsi tapılmayan ağır xəstəliklər həddindən çoxdur.

Genetikanın dərinliklərə siraət eləməsi nə qədər artsa da, hələ çox şeylər sirr olaraq qalır.

İnsanlar niyə belə tez qocalır?

Niyə az yaşayır? Heç olmasa, çinar, palıd ağacları, ya sərt qayaların ömrü kimi olaydı...

Amma orası da var, qısa ömürlə insanlar bu boyda oyunlardan çıxır, gör çox yaşasalar, ya həyat əbədi olsa , nə hoqqa çıxararlar.

Fikirləşdikcə, məsələlərin kökünə "qazıb" çatmaq istəyəndə, görürsən yox, müəmmaları öyrənmək qeyri-mümkün olur.

İnsanlar tez-tez zəlzələlərin, sunamilərin, daşqınların əlində əsir-yesirdi.

Yoxsa Allahın qəzəbinə gəlirik?

Hansısa Afrika ölkəsində, ac uşaqları öz gözləriylə görən - qərbli jurnalist qadın, necə hönkürüb ağladı!

Bir dəri, bir yığın sümük olan, qabırğaları çöldən sananan, ac-susuz, qapqara zənci uşağın gözləri çuxura düşüb necə bərəlmiş, üzünə qonan milçəyi belə qovmağa taqəti qalmamışdı...

Yadplanetlilər artıq səmamızda görünür.

Bermud üçbucağı nə olan şeydi? Niyə o ərazinin üzəriylə uçan təyyarələr, üzən ən nəhəng gəmilər belə yoxa çıxır, heç tozu da tapılmır?

Qıpqırmızı gül qönçəsinin yan-yörəsindən yamyaşıl, tər yarpaq çıxaran, gül toxumlarının hikməti nədi?

Dünyada, heç bir rəssam bu təbii yarpaq, bu gül kimi qoxulu, canlı heç bir əsər yarada bilməz.

Təbiət möcüzədir.

Təbiət cəsurdur!

İnsanlar təbiət qarşısında aciz qalıb.

Toz görməyən, yeni açılmış yamyaşıl yarpaq, yanında da tikanları müti, yupyumuşaq qıpqırmızı gül...

Hoqqaya bax!

Xarüqaladə gözəl tovuz quşunun, tük və lələklərindəki o, ilahi rəngləri kim yarada bilər?

Di gəl... o cür gözəllikdə quşun çıxardığı kobud, axmaq səsə bax!

Səsin sehri yada düşdü.

Bərdədəki evimizin geniş aynabəndində yatanda, Qarasuyun qurbağaları gecələr necə quruldaşar...O səsdə nə qədər sərinlik, şirinlik, həzinlik, dinclik, nağıllıq, rahatlıq, ilahilik vardı!

Gecəni onların səsiylə yatanlar bilər - bu tanrıdan gələn səslərin ecazkarlığını...

Gecəyarı, qulaqoxşayan sakitlikdə, yüngül əsən mehdən, pıçıldaşan yarpaqların səsi... Ya, lal axan nəhəng Kür çayının lilli sularında, Yevlax körpüsü üstündən baxanda görünən, möhtəşəm, əzəmətli yatağı...

Ya da, dağa-daşa çırpıla-çırpıla axan Tər-tər çayının köpüklü qıjov şırıltısı...

Bu səslər, təbii - ilahi musiqilərdir!

Təbiətin bizə bəxş elədiyi musiqi səsini Bethovenlər,Qara Qarayevlər,Mortsartlar,Fikrət Əmirovlar, Çaykovskilər yarada bilməz.

Eşşəyin də balasını, incə gözəl yaradır yaradan.

Ya keçinin çəpişi, itin küçüyü, qoyunun quzusu, sərçənin sarıdimdik ətcə balası və ya at, meymun, ayı, ördək balası olsun... - qadının doğduğu körpədən də gözəl yaranır...

Niyə görəsən?

İnsanlar Allahı tanımır, bizim hegemon vətənimiz, - bolşeviklər, - sovetlər ölkəsi: “Allah yoxdur”, - deyir.

Ancaq kim çətinə düşürsə, ya ölüm ayağında olursa, göylərə tapınır:

“Ay Allah, kömək elə!” - yalvarır.

Bu nə deməkdi?

Öz yaxın ətrafımı götürəndə , - baxırsan yalan danışan, zina, küfr edən, iraq olsun - allahını tanımayan, Allaha tapınmayan, Bahar arvadın şərəfsiz oğlu - Vaqif Hüseynov kimi - yer üzərindəki allahı sayılan atasını, ayaqları altına salıb çığnayan, döyən... Və oxumayan, dünyanı yeyib-içməkdə görən, arvadı hesabına varlanıb qudurğanlıq eləyən, pullu savadsızlar həddindən çoxdur.

Yaxşılar, - imanlılar, dini, əqidəsi, amalı, məsləki, allahı olanlar isə inanın, lap barmaqla sayılası qədərdi.

Nə nəticə çıxır?

Dost-tanışın, qohum-əqrəbanın, yaxın-uzaq yoldaşların, ailə-uşağın doxsan doqquz faizi cəhənnəmə düşəcək?

Cənnətdə isə - barmaqla sananan beş-üç nəfər hərlənəcək?

Day bunun nə ləzzəti?

Hamı cəhənnəmdə, - qır tiyanında çığıra-çığıra əməllərinin hesabını verəcək, bədəlini ödəyəcək... deməli, bir-birilərinə yad səkkiz -doqquz imanlılar isə, tamam başqa məkanda - behiştdə hərlənəcək?

Adəmlə Həvva ikilikdə behiştdə olanda, öz yaradanını - Allahı niyə eşitmədi?

Bu səkkiz-doqquz günahsız da, vallah, darıxacaq o behişt -cənnətdə.

Heyif deyil, küll halında bağırıb-çığıran dost-tanışların, qohum-əqrəbalarınla birlikdə, zəbanə çəkib yanan qır qazanında bişəsən?

Hardasan eyy... Bahar arvadın, tamada oğlu, - bayquş Vaqif!

Sən öləsən, sən ölsən, - səni nə cənnət, nə də cəhənnəm qəbul edəcək.

A yazıq, yerdəki kimi - elə göydə də, - ortalıqda qalacaqsan!

Görəydim bayquş kimi ulayıb, it kimi zingildəyəndə ... Hitlerə oxşar atan nə edəcək, səni cəhənnəmdə bağışlayacaq?

Yoxsa, sıpıxıb özünü dürtməyə gizli yer axtaracaq? Axı, özü də pis əməllərin giriftarı olub...

Əşşi, can onların, cəhənnəm tanrının, özləri bilər...

Mən özüm də deyəsən, Komsomoluma elədiyim xəyanətlərə görə... - cəhənnəmdə olacağam, bəs onda Komsomolum cənnətdə tək-tənha neyləyəcək?

Məhbubə xala, qatardakı donetskli qız, Sarıkirpikli, Qırmızı kostyumlu Krasik, bənövşə - gözlü Katerina...

Eh... hələ cındır Valya və Tomayla da cəhənnəmin ucsuz-bucaqsız qır tiyanında elə hey çığırıb, şah-şəbədə çıxaracağıq.

Hansı yaxşıdır görəsən?

Atalar deyib: “Ellə gələn qırğın-qiyamat toy-bayramdır.”

Onda elə cəhənnəm yaxşıdı ki...

Yox!

Görünür heç belə də deyil. Mənim hələ öyrənmədiyim, oxumadığım, dərindən dərk edə bilmədiyim həqiqətlər bəlkə də bambaşqadır.

Uşaqlıq dostlarım, - dar ayaqda dostu darda tək qoyub, “C” - nın yanına “R” qoyan nankor, səy, qarğa gədə - Ələsgər, Sərxanın qızbibi, - heyran olmağı belə bacarmayan, uduzmağı çox rahat “həzm edən”,

evlərini vətən, doğmaca dayı - bibilərini xalq bilən uşaqları, - Vaqiflə Arif, Məhbubə xalanın oğlu Arif, it yalançısı və gopçusu olsa da, dostları dalaşanda, qılınc kimi sıyrılıb çıxan, cəsarətli Xosrov... Araz, Soltan, Savalan kimi - narkotika dəlilləri... uyuşdurucu ölüləri, - Aydın və Yunis qardaşları, dostum Tahir Ağayev, sür - sümük yığını Xırda müəllimənin böyük oğlu Bəşirov - Şadlinski Fəxrəddin, əslən naxçıvanlı - Прима siqareti çəkən Pəri arvadın oğlu - idmançı, cəsarətli Məmməd Fətəliyev və adlarını çəkmədiklərimin də hamısı cəhənnəmdə, mənimlə birlikdə olacaq.

İçimizdə cənnətlik bircə qardaşım Rafiqdi,- o da cənnətdə tək qalıb məgər darıxmayacaq?

Hələ, Bərdədə bir Ağayev Hüseyin var, konsert onundu.

“Azərbaycan” və “Moskva” kolxozlarının ayrı-ayrı vaxtlarda sədri vəzifəsində çalışıb və elə indi də sədridir. Yaşlı nəslin dediyinə görə, əyninə ömrüboyu bircə kostyum geyinib ki, pulunun çox olduğunu kənardan bilən, hiss edən olmasın.

Yalan olmasın, on-on beş ildi məzuniyyətə çıxmır, guya əli işdən soyuyar.

Boz həqiqət isə bambaşqaydı, - kimsə, o olmayanda - üçdən-beşdən çırpışdırardı!

Bu adam vəzifəlilərlə görüşəndə, iki əllə necə əyilirdisə, az qalırdı başı görüşdüyünün dizləri arasına dəysin.

Danışırdılar:

“Raykom katibinin sürücüsü bəzzad Yaşara aylıq rüşvət pul verirmiş ki, Газ-24 markalı hökumət maşını olan Volqa ya Нива-nı düz o durduğu yerdə elə saxlasın, qapını açıb özü raykom katibini maşından düşürə bilsin...”

Kolxoz fermasının camış, inək, keçi, qoyun südünü, pendirini, qatığını, qaymağını və kəsilib soyulmuş, qulağı бирқалы quzularını, oğlu Tariyelin belinə şellədib paytaxta göndərə-göndərə, axırda Lenin ordeni “aldı”, Azərbaycan SSR Ali Sovetinin deputatı “seçildi”.

1926-cı ildə, Bərdənin Xəsili kəndində anadan olmuşdu.

18 yaşı olanda Böyük Vətən müharibəsi gedirdi.

Vətəni müdafiə etməkdən yayındı!

Təhsili də yoxuydu, heç orta məktəb oxumamışdı. 1960-cı ildə, 34 yaşı olanda, rüşvət verib,- güya, Azərbaycan SSR Kirovabad şəhərində, Kənd Təsərrüfatı institutunun zootexnik fakultəsində, qiyabi yolla təhsil almışdı.

Saxta diplomu da vardı.

Ömründə kitab oxumayan, düzəməlli yazmağı bacarmayan bu adam, Sovetlərin evini yıxan - rüşvət daşıyanlarından idi.

Atası Bayram çox imkanlıydı.

Puldan basıb, böyük oğlunu Böyük Vətən müharibəsindən saxlatsa da, huşu kəsib oxutmamışdı.

Halbuki hambal Zeynalabdin Tağıyev-həyətindəki quyusundan fontan vurub neft çıxandan sonra varlanan kimi, hətta tanımadığı savadlı kasıb balalarını da, öz puluyla- dünyanın müxtəlif ölkələrinə göndərərək oxutdururdu.

Kreml divarları içərisindəki məzarlıqda basdırılan yeganə azərbaycanlı Nəriman Nərimanov da hambal Zeynalabdinin puluyla oxumuşdu...

"Həşəmətli" Bayram isə, rüşvətlə oğlu Hüseyni, Vətən müharibəsindən yayındırdığı bəs deyil, indi də puldan basıb, şərəfini qorumadığı vətənin, sinəsi orden-medallı qəhrəmanı eləmişdi.

Yeri gəlmişkən, N.S.Xruşşov və onun silahdaşlarının bəyənmədikləri İ.V.Stalin, öz oğlunu müharibədən yayındırmamış, hətta kontuziya alıb vətən yolunda əsir düşmüş oğlunu alman feldmarşalına dəyişməmişdi!

Bərdəli Aslan Vəzirov kimi, - vətən yolunda şücaət göstərib, Sovet İttifaqı Qəhrəmanı olmaq, Ziya Bünyadov kimi, həm savadıyla akademik, həm də hünəriylə müharibədə Sovet İttifaqı Qəhrəmanı almaq lazımdır, ay Bayram əmi, birinci katib, - Sosialist Əməyi Qəhrəmanı Rüstəm Səfərəliyevin arxasıyla aftafa gəzdirmək yox!

Ya da, ana torpaq, vətən uğrunda- bizim Xələflilər nəsli kimi - rus və ermənilərlə yüz illər böyu döyüşüb qırılasan gərək.

Heç nə anlaya bilmirəm düzü...

Necə ola bilir, bir adama Lenin ordeni verəsən, V.İ. Leninin "kəsdiyi" puldan basıb, Leninin yaratdığı ölkəni qorumaya?!

Heç nə demirəm, nə vaxtsa, Xeyrulla kişinin fətvası tutacaq bu nəsli, bu kökü, bu tayfanı.

Dünyanın quyruğu uzundu...

Hüseyin Ağayevin həyat yoldaşı cavan rəhmətə getmişdi. Əsil cənnətlik qadınıymış, - namuslu, əliaçıq, həyalı...

İndi necə olacaq, biri cənnətdə, o biri cəhənnəmdə?..

Axirətin işi yaman şuluqdu deyəsən.

Allahın yaratdığı o gözəllikdə maralı, ahunu, cüyürü, ceyranı güllə ataraq, qıyıb öldürən ovçunun, gərək elə o andaca əli quruya...

O dilsiz - ağızsız heyvanın, şirin ətini yeyən vəzifəli kişilərin də, gərək ləzzətlə yediyi an, tikəsi boğazında ilişib qala və oğul-uşağının qabağındaca çırpına-çırpına çabalayaraq, elə o ceyran, maral kimi - gözü hədəqəsindən çıxa -çıxa can verə ki, barı uşaqları dərs götürə...

Eh, bu dünyanın işi lap sirillahdı!

Pərvanənin özünü şamın şöləsində, od-alovun içində yandırması...

Arı öz düşmənini sancıb hikkəsini soyutsa da, ilahi işinə əngəl olandan intiqamını alsa da, fəqət... dərhal özünün də ölməsi...

Eh... kəməri qarlı uca dağların yağış görməyən yarğan qayaları...

Yalnız Şuşada zirvədə açan xarı bülbül gülü...

Dünya sehrdi, xülyalarla dolu insanlarıyla bəzənmiş xarüqədir...

Niyə biz beləyik görən?

Azərbaycan bayatıları kitabında məşhur bir Qarğışlar bölümü var. Oxuyub, mat qalıram. Niyə bu cür qarğış - bayatılar əcdadlarımızdan üzübəri yol tapıb gələ bilib?

Görün kişi- kişiyə yaraşmayan nə qarğış tökür:

Əziziyəm, yasa mən,
Dara zülfün, Yasəmən,
İstəkli ərin ölsün,
Gəlim sizə yasa mən.

***

Saleh, min de, Yasəmən
Süsən, sünbül, ya səmən
Qoy ölən rəqib olsun,
Gündə gedim yasa mən.

***

Akoşkasan, şişəsən,
Sivriləsən düşəsən,
Sevgili yarın ölsün,
Əldən-ələ düşəsən.

***

Eləmi kərəm düzə,

Düşübdü Kərəm düzə,
Başçın ölsün, ay durna,
Dağılsın fərən düzə.

***

Mən aşiq, tar çalınsın,
Oxunsun, tar çalınsın,
Məni səndən edənin
Balası parçalansın.

Heç, kişi də... qıza, qadına qarğış tökər?

Bunu kitaba salanlar heç utanmır?

Durnaya qarğış eləyərlər?

Hələ uşaq olanda gecə-gündüz maraqla, ağlaya-ağlaya, heyrət-həyəcanla oxuduğumuz Məlikməmməd nağılı...

Məlikməmməd quyuya düşəndə doğma qardaşları kəndiri kəsib qaçır.

Heç elə də qardaş olar?

Belə amansız hiyləgərlikləri eşidən körpə uşaq böyüyəndə qardaşının başını kəsməz?

Ya başqa bir misal:

“Məlikməmməd axırda gəlib nəhəng divin mağarasına girir.

Div yatıbmış...

Mehrini saldığı, çeçələ barmağı boyda olan sevdiyi qıza toxunmayan div!

Uşaq olanda, - nənəmizin danışdığından, oxuduğumuz nağıllardan,Sindibadın filimindən,

yatmayanda, - anamızın adıyla qorxutduğu yekəpər divi - qorxulu, eybəcər, uşaqyeyən, şər-şeytan kimi düşünürdük.

Həmişə ürəyi şüşədə olar... qılıncla, oxla, od - alovla , tüfəng çıxandan sonra da iri qırmalı patronlarla, milyon dəfə, partapart güllələsən belə, ölməz, daha çox azğınlaşıb, üstünə gələrdi.

Yazıq div, bəni-insan olan sevdiyi qızı yedirdib-içirdər, korluq verməzmiş. Hətta, ürəyi olan şüşəni və topladığı sərvəti gizlətdiyi yeri də, etibar eləyib qıza göstəribmiş...

Sonra nə olur?

Heyvərə, alnının ortasında heyva boyda - tək bir gözü olan,qorxunc bədheybət quleybanı yuxudaykən, igid, yenilməz, qorxmaz, "ölməz" Məilkməmməd mağarada peyda olur.

Yatan, qorxulu adamyeyən divi və sinəsinə başını söykəmiş gözəl- göyçək qızı görüb, qılıncı sıyırır və necə hayqırırsa, dağ boyda div qorxusundan dik atılır.

Zavallı div, sevgilisi olan qızı bəni - adəmdən müdafiə etməyə qalxır.

Ölüm - dirim mübarizəsi başlayır.

Yüz dəfə özündən balaca bir uşağa divin gücü çatmır və hər ikisi əldən düşəndə... qız, - onun uğrunda vuruşan divi satır.

Qaş- göz eləyib, Məlikməmmədə bildirir ki, divin ürəyi şüşədədir... və qız şüşənin yerini göstərir.

Məlikməmməd dərhal şüşəni qılınclayır.

Himalay dağı boyda div tir-tap arxasıüstə, yogun qılçaları göydə, ildırım vurmuş kimi guppultuyla yerə sərələnir.

Yer titrəyir və Məlikməmməd qızı, qız da tanımadığı oğlanı qucaqlayır.

Yazıq div insan sevdi, zibilə düşdü.

İlahi sevgiylə sevdiyi qızın xəyanəti və satqınçılığına, allahın yaratdığı bədheybət divin həyatı qurban getdi.

İllərlə yığdığı sərvəti talandı...

Əvvəl elə düşünürdüm qız düz edib.

Sonralar... gördüm yox, səhvəm, gözəl qız xəyanət və satqınçılıq eləyib!

Div halal məhəbbətinin, sevdiyi gözəlin yolunda - sədaqətinin, etibarının qurbanı olub!

Qız, gərək daha doğru yol seçəydi.

Nə divi, nə də Məlikməmmədi güdaza verəydi.

Yadıma Məlikməmmədlə bağlı, gülməli bir əhvalat düşdü:

"Qardaşım Vidadi, altıncı sinifdə oxusa da, hələ kitabı üzündən yaxşı oxuya bilmir, Məlikməmmədin nağılını hecalayır, heç özü də bilmirdi nə oxuyur. Elə bilirdi, Məlik ayrı adam, Məmməd də bir başqasıdı..."

Ona baxıb, gülməkdən uğunardıq!

Qısası, satqınçılıq və xəyanət eləyən tanımadığı qız olmasaydı, bizim qəhrəman Məlikməmməd öləsi idi...

“Kitab yüklü eşşək” kitabında, eşşəklərin dilindən yaxşı yazıblar, - yadımda qalan kimi yazıram:

“Ey insanlar!

Sizlərdən beş-on nəfər igidi, bizim də soykökümüzdən, beş-on eşşək-qoduğu salın tövləyə, ya başqa-başqa otaqlara, çöldən də ağzını bərk-bərk kilidləyin.

Bir həftədən sonra, qapıları açın və görün, - eşşək dediklərinizlə, insan dediklərinizin qaldıqları pəyə və otaqlardan nə iyi gəlir?

Oxucu da bağışlasın, yəni - biz eşşəklərlə, siz insanların sidik və nəcisindən...

Üfunət hardadır?

Harda yaşamaq daha yaxşıdır? Hansını seçərdiniz, tövləni, ya insan qalmış otağı?

Və sonda, kitabda yazılanlardan belə nəticə çıxır:

“Sağ gözüm sənə qurban, sol gözüm mənə bəsdi,- deməklə deyil eyy...

“Cücələrim”-ə qulaq asıb, biz eşşəkləri minməklə hər şey həll olunmur axı!

Eşşək olsaq da, palçığa bir dəfə giririk, siz isə ömür uzunu çamurdasınız.

Sizdə müharibəyə getməyən Lenin ordeni alır, biz uzunqulaqlarda isə işləməyəni saxlamır, açıb meşələrdə azdırır, çaqqal-çuqqala yem oluruq.

Başına slindir, panama qoyanlarda isə tam əksinədir: Rahatca vətənin halal çörəyini haram

yolla yeyib, yüksək kürsülərdə daz başlarıyla milyonlar qazanırlar...

Bayram əmi, - belələri, Hüseyin qağanın böyütdüyü, kiçik oğlu İbrahim Ağayev kimi araqarışdıran, əbləh olacaq axı!

İbrahim, - "Lenin ordenli kişinin" oğlu, Bayram kimi "ağsaqqalın" nəvəsi olsa da, savadsızlığı, xainliyi, nadanlığı, ikiüzlülüyü ucbatından Bərdəni bir-birinə vurub, sonda - qohum-qonşunu, dost-tanışı bir-birinə düşmən edəcək.

Qarabağın dilbər guşəsi olan, Nizaminin, Makedoniyalı İsgəndərin ayaqları dəyən, Nüşabənin yaşadığı bu yurdu viran qoyacaq...

Bərdənin Zümürxan kəndindən olan, Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovun, uzun müddət Azərbaycan SSR-nin Maliyyə naziri işləmiş Baxşalı Baxşalıyevin, Əliş Ləmbəranski kimi kişilərin, doğulub boya-başa çatdıqları Bərdənin adına töhmət olacaq...

Eh... deyəsən dünya Bərdədən göründüyü kimi deyil.

Bərdədən deyəndə ki, bizim qaca, qoca, toz-torpaqlı Şərq küçəmizdən...

Müharibə dövrü olmasa da, Vətənin bizə ehtiyacı olduğunu güman eləyib, can-başla sevgilimi, ali təhsil aldığım Politexnik institutu, Roma, London, Paris, Tokio, Nyu-Yorkdan belə müqəddəs saydığım Bərdəni, Şərq küçəmizi qoyub gəlmişdim.

Gələcəkdə Tariyel və İbrahim Ağayevlər qoy, rüşvətdən, haram pullardan yığıb sərvət toplasınlar... uşaqlarını böyütsünlər. Bərdəni viran qoysunlar, əminliklə deyirəm:

“Xeyir tapmayacaqlar!”

Lap, Bərdənin Памбыгчы futbol klubunun da adını dəyişib, ABN, - Ağayev Bayramın Nəvələri, - qoyun. nə olsun!?

Gözüm aydın! Futbolu da öldürəcəksiniz!

Vətən vicdanı olub, namus-qeyrətlə vətəni qorumaq, savad alıb vətənə xeyir vermək hər bir azərbaycanlının müqəddəs borcudur.

Görüm indi bu tərbiyə, bu əqidəylə nə vaxtsa Bayramın nəvələri yaxın qohumlara, dostlara, həmyerlilərə, rüşvətsiz, təmənnasız,- yaxşılıq mənasında nəsə eləyəcəklər?

Əsla!

Düzdü, nə vaxtsa ulu Tanrı özü bu harınçılığa, haramçılığa, gədəliyə bir əlac çəkəcək. Özünə eləməsə də, uşaqlarına, arvadına, ya qardaş-bacısına nəsə eləyəcək, -necə ki, bərdəli bir başqa harına bunu göstərdi.

Biri də vardı - Əhəd adında.

Ticarətdə rəhbər vəzifədə çalışırdı.

Kiminlə görüşsə, o əl tutduğu adam kabinetdən çıxar-çıxmaz əlini odekalonlayıb:

“Он тюремшик”, -iyrənirmiş kimi, ikrahla, ironiyayla deyərdi.

Biri soruşanda ki: “Sadıqov, necəsiniz?”

Üzünü turşudub, yaşıl gözlərini qıyar, dodağını diliylə isladaraq: “Əşşi, bu nədi eyyy... səhər açılar-açılmaz, yuxunun şirin yerində dur... dişini fırçala, sabunla üzünü yu... təraş elə, dəsmalla boyun-boğazını sil-qurula... nədi-nədi, işə gedəcəksən...

Sonda Allah dolaşdırdı, “леви” mal, - adi çıraq lampası üstündə tutulub, küllü miqdarda rüşvət təklif etsə də, neçə il həbsxanada məhkum həyatı yaşadı...

Bir dostum da vardı Bakıda.

Ağcabədinin Hüsülü kəndindəniydi, Rəfael Çovdarov.

Azərbaycan Tibb İnstitutunun əyani, fəhlə-kəndlilər üçün təşkil edilmiş hazırlıq kursundan, qonşumuz Bahar arvadın oğlu- bir gözü çaş Siyasətlə eyni vaxtda Tibb institutuna qəbul olunmuşdu.

Xuramanın arxasınca, o institutda əsir-yesir olanda, məni onunla, Siyasətin böyük qardaşı, atasını eşşək kimi çırpan tamada Vaqif tanış eləmişdi.

Bəstəboylu, dolu, qarayanız, totuq-motuq, Siyasətin sözü olamasın: ”Bu dızqax, istilini gədə”-müftə, daim onun-bunun hesabına babat yeyib-içdiyindən, qarın çıxarıb cüssəli görünsə də, təbiətcə çox qorxaq idi.

Əlindən oğurluq, yalan və pis işlər gəlir, bu sahədə lap at oynadırdı.

Bu adamla neçə illər oturub-dursam da, onun hansı mənsəbə qulluq elədiyini anlaya bilmədim.

Xisləti çox pisiydi.

Bir dəfə Bakıdakı evimə gəlib, çörəyimi yeyəndən, yarım litr tut arağını boşaldandan, mixəkli, darçınlı, hilli çayımı içəndən sonra, ömrümün qırx gününü yazdığım Gündəliyin bir ümumi dəftərini, geyindiyi qara sviterin altında gizlədib oğurlamışdı...

O günü, evə ondan başqa heç kəsin gəlmədiyini xatırlatsam da, dazbaş, yekəqarın, dılğır gədə boynuna heç nə almadı...

Bu əqidənin sahibindən gələcəkdə nə həkim olacaqdı görəsən?

Sonralar, nə qədər danladım, yalvarıb-yaxardım, dilə tutdumsa da, heç bir faydası olmadı ki, olmadı...

Əziyyət, həvəs, sevgiylə, ilahi hisslərlə dolu yazdığım gündəliyi qaytarmadı əclaf!

Lap axırda zinhara gəlib, oğurlayana ana- bacı qalmadı, söyüb batırdım da...

Peysərə verdi.

Bir gün, qonşu Bahar arvadın ikinci oğlu, gözüçaş Siyasət bu Rafaeli qucağına alıb, Tibb institutunun düz qarşısında, - institut binasının damını təmir edən dağlıların bir neçə gün əvvəl, yük maşını arxasına polad “трос”-la qoşub sürüyə-sürüyə gətirdikləri, altı qalanmış, artıq zəbanə çəkib yanan tiyanın içinə basdı.

Üst-başı, əli pıqqapıqla qaynayan qıra bulanmış ağcabədili Rafaeli Siyasətin əlindən qrup yoldaşları güclə aldılar.

O vaxt düzü sevindim bu işə!

Oğurluq edənin, dostluqda yalan, siyasət işlədənin, ikiüzlülük, riyakarlıq edənlərin sonu elə belə də olmalıydı.

Bir müddət sonra... onları barışdırdıq və bir gün kefə yığışıb, Ağdamın Atçılıq sovxozu yerləşən kəndində, ümumi dostumuz Zakirin toy məclisinə getdik.

Atamın yenicə aldığı təptəzə maşınla, sübh tezdən Bakıdan çıxıb, iki saata yaxın bir vaxtda Bərdəyə çatmağım isə lap möcüzəydi!

Nə Siyasətin özünün, nə dostu, - anası bakılı, bir vaxt Abşeron rayonunun hakimi işləmiş - özü Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsində təhsil alan bakili Natiq Axundovun, nə də bu hüsülü biğsiz Rafaelin ağlı kəsmirdi məni durdura.

Bu surətlə maşın sürməzlər.

Əcəl hər an başımızın üstünü ala bilərdi.

Eh, cavanlıq...

Görəsən, Allahın hansımıza görə yazığı gəlmişdi?

Bərdəyə salamat çatdıq.

Toyda Rafaeldən başqa heç kim yemək yemədi. Yeniyetmə idik, yemək heç yadımıza da düşmürdü.

Pul yazdırdıq adımıza, sarı təkliklərdən şabaş səpdik oynayanların başına.

Klarnet çalan püflədikcə, ruhum coşub-daşır, inadla ürəyimdə, qayıdan baş lap bərk sürəcəyimə söz verirdim.

Rafael o qədər tıxmışdı, qayıdanda, yekə pəzəvəng kişilər kimi, maşının içində xor-xor xoruldayırdı.

Siyasət hamımızı təzə həyətlərindəki iki-mərtəbəli evlərinə qonaq apardı.

Tez-tez rus dilində - сволыч, балбес, гнида, чурбан, безсовестна və петух kimi vulqar sözlər işlədən atası, - тюремшик Bəylər yaxşı ki, evdə yoxuydu.

Hava çox isti olduğundan, maşından tökülüşən kimi geniş həyətdəki iri tut ağacının kölgəsinə yığışdıq.

Siyasətin anası Bahar xala, elə sərin tut ağacının altındaca enli yumru stol qoydurub, tər-təmiz kraxmallı süfrə açdı.

İnək südü, qatığı, camış qaymağı, təndir çörəyi, yağ, keçi pendiri stolun üstünə düzdü. Samovarı tut ağacı kötüyündən hazırlanmış kömürlə qaynatdı. Kəklikotu çayı dəmlədi.

Həyətlərində saxladıqları arı yeşiklərindən kəsib götürdüyü şanıdan bal süzüb, ortaya qoydu. Muğanlı və Mirzəalıbəyli suyu gətirtdi.

İlahi, bu cür nemətlərdən heç birini də dadmadıq, yalnız çay içdik kəllə qəndlə...

Qarınqulu Rafael yenə hamının əvəzinə nə var, basıb yedi. Zavallı hara yığırdı bu qədər yediklərini? Necə həzm edəcəkdi bəs? Heç bədbəxt oğlu bədbəxt, bəlkə düşünmürdü də...

Bahar xala əyilib ağappaq baldırlarını tez- tez göstərə-göstərə Rafaelin acgözlüyünə göz qoyur, hərdən rişxəndlə oğlu Siyasətə baxırdı da... Taksi Fərman bir yeşik Исти-су gətirdi...

Məni təkrar görüb- tanıyanda, qucaqlayıb üz-gözümdən öpdü. Yazıq arvad: ” Ay bala, heç səni görmədim gələndə, necəsən, anangil necədir?– soruşdu. Qonşular de görüm necə-dir? Həyətinizdəki bizim köhnə ev dururmu?

Nədənsə, qımışaraq - atamı, Sehran xala- nın əri Əyyub dayını, arxa qonşu- şəhər hama- mında kisə-çəkən isləyən, qıllı İbrahimi... Qolu əzələli, öz pəyəsindəki heyvanlara çobanlıq eləyib Qarasuyun ətrafında otaran, qonşu Hümbət kişini də, xüsusi vurğuyla soruşdu...

Siyasət anasını qucaqlayıb vidalaşanda:

- Nənəm, taksi-sürən Fərmandan başqa heç kəsə belə süfrə açmazdı! Bu gün bizə də o süfrədən açdı... - dedi.

Bu sözün mənasını, yolboyu çox fikirləşdim:” Niyə məhz taksi-sürən Fərmana?”

Qayıdanda, maşına vurulan 92 markalı benzinin pulunu Natiq Axundov ödədi.

Yol-uzunu Natiqlə Siyasət pıçıldaşıb:

“Rafayıl, toyda o qədər yeməkdən savayı, təkbaşına bir boşqab kələm turşusu, bir nimçə dolusu da xiyar-pomidor salatı yedi,” - deyə-deyə hey gülüşürdülər.

Vaxseyyy...

Bunun gələcəyi necə olacaq? Özü də za- vallı həkim işləyəcək.

Rafael yanımda, qabaq oturacaqda otu- rub, başını yan şüşəyə söykəyərək ağzı açıq yatmışdı.

Hərdən -bir zırt... - eləyib, pis qaz buraxır, uşaqlar cəld yan şüşəni endirirdi.

Mən özüm də iydən boğulurdum.

Gün doğandan hava da bərk istiydi...

Biz ac gedib, ac da qayıtdıq.

Uşaqlıq ehtirası!

Xeyir - şərə getməklə, kişilənmək, ad-san çıxarmaq vaxtıydı...

Heyhat...

Onları indi xatırlasam da, yadıma düşdü ki, heç məni yada salıb, bir əl kağızı boyda məktub da yazmadılar.

Necə oldusa tələbəlik həyatımı xatırladım.

1968-1969-1970-ci illər...

Yenə kədərlə, dərhal Daş Salahlıdan olan arvadbaz, arsız qazaxlı Mahir Eminov... Qasım İsmayılovlu, mağmın Cek... Optik eynəkli, qozbel, sadə şuşalı Elxan Əlizadə... Sarışın, bütün qiymətləri beş olan kasıb puşkinli Adil... Göyçayın Qaraməryəmli kəndindən olan kürən Elmdar Bağırov

və naxçıvanlı, nimdaş paltar geyinən Asif yadıma düşdü.

Cekdən başqa hamısı etibarsız çıxdı.

Tələbəlik illəri də, ömrün ilahi çağlarıdır.

Yadıma bir əhvalat düşdü:

“Bir gün oxuduğum Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun həyətində atamın ən yaxın dostu Hüseyin Abbasovla qarşılaşdım.

Yay idi...

Yay sessiyası yenicə başlamış, zaçot-imtahanların şıdırğı alveri gedirdi.

Hüseyin kişiyə əmi deyirdik. Onun oğlanları Elgiz və Elbrus da mənim atama əmi deyirdilər.

Bizim institutda qiyabi təhsil alırmış, heç bilmirdim.

Əvvəllər yük maşını sürücüsü işləmişdi.

Dostluqda köhnə kişilərdən sayılırdı. Ağzındakı bütün dişləri yüksək əyarlı qızıldan idi. Çox zarafatcıl, deyib-gülən, yeyib-içən adamıydı.

Düzdü, savadı yoxuydu. Elə o da, Bayram kişinin “ordenli” oğlu Hüseyin Ağayev kimi instituta rüşvətlə qəbul olub, indi də pulla imtahan verirdi.

Sопромат,техметал, fəlsəfə nə olduğunu bilməzdi...

Gülə-gülə, kəkəş-kəkəş:

“Ömrümdə heç vaxt qoltuğuma çertyoj-mertyoj vurmamışam”,- dedi.

Havalar bərk isti olduğundan qolsuz ağ köynəkdəydim. Səhər vaxt tapıb yemək yemədiyimdən şalvarım belimdən düşürdü.

Qoltuğumdakı çertyojlara baxıb, bu sözləri dedi.

“Oxumaq lazımdı, çox düz eləyirsən, qardaşoğlu,”-deyəydi, daha çox yerinə düşərdi. Amma atamın dostu olduğundan, əmi gözündə gördüyümdən susub, şalvarı yuxari dartmaqla kifayətləndim.

O da atam kimi - qamətli, çox yaraşıqlı kişiydi.

Dopdolu sağlam bədəni vardı. Yay olsa da, yüngül kostyum geyinmişdi.

Şəvə kimi çod, qapqara saçlarını arxaya darayırdı. Çox namuslu, tərbiyəli ailəsi vardı. Hüseyin əmi əliaçıq, səliqəli geyinən, özü də, uşaqları da ortaya ləyaqətlə çıxanlardanıydı.

Xüsusilə dəlisov oğlu Elbrus.

Hüseyin əmi hiss elədi ki, acam. Tez əlini cibinə salıb mənə pul vermək istədi.

Pulum olmasa da, ac olsam da, Şərq küçəsinin bizə aşıladığı tərbiyədən, qıpqırmızı qızardım və yalandan: Toxam, pulum da var,- dedim.

Düzdü, küçəmizdə eləsi də vardı, beləsi də.

Alagöz müəllimənin qohumu, Sərxanın qızbibi uşaqları Vaqif və Arif qardaşları kimi, hələ elə-beləsi də...

Ayrılanda isə yaman kövrəldim, nədənsə gözlərim doldu.

Bir neçə günüydü “Yaşıl teatr”da axşamlar Zeynəb Xanlarovanın açıq havada konserti keçirilirdi.

Üç günüydü ki, anşlaq olduğundan bilet satışı məsələsi süni alverçilərin əlinə keçmiş, kassaların qabağına: “Bilet yoxdur” - sözləri yazılmışdı.

Milis işçilərinin əlinə əla fürsət düşmüş, kassaların arxa qapısından xışmayla biletləri ciblərinə dürtüb çölə çıxarır və sırtıq, həyasız, mənölüm- sənöl nədi bilməyən alverçilərə ötürürdülər.

Üç günüydü Yaşıl teatrın xüsusi alverçiləri və milis işçiləri əməlli-başlı qaz vurub qazan doldururdular.

Necə deyərlər: “Ovu elə gərək bərədə də vurasan!”

Yasamalda damlara qır döşəyən xızılı qonşunun oğlu Akifdən üç manat borc almışdım. Cəmi yeddi manat pulum vardı.

Dörd saat əvvəldən iki manatlıq gül dəstəsi alıb gəlsəm də, cibimdə qalan beş manata bilet tapa bilmədim.

Millət bilet üstündə bir-birini qırırdı.

Bilet ala bilməyənlər qapqara rəngə boyanmış kvadrat dəmir çubuqlu, ucları,- hündür, yaraşıqlı hasarın yan-yörəsində fırfıra kimi fır-fır fırlanır, hərə bir yolla içəriyə keçmək istəyirdi.

Gördüm bir dəstə cavan oğlan kənara çəkilib nəsə xosunlaşır. Və birdən biri:

”Ala səbrin olsun da, qoy qaranlıq düşsün, hasarın üstündən aşarıq”...- dedi.

Bir hündür hasara baxdım, bir də özümə...

Və ürəyimdə sevindim: ”Elə bu uşaqları güdüm, onlar hasarın kvadrat çubuqları üstünə dırmaşanda mən də dırmaşaram...”

Qəflətən çaxnaşma, qaçhaqaç, səs-küy qopdu.

Qaçanların arxasınca götürüldüm.

Çəhrayı rəngli təptəzə bir ГАЗ-21 markalı волга avtomobilini əhatəyə almışdılar. Arxa qapını açıb, peysərini qırış-qırış ət kəsmiş bir neçə dazbaş pəzəvəng oğlan, donub şax qalmiş müqəvva kimi, bir xeyli dayandılar.

Və... təqribən beş dəqiqə çəkən bu şirin intizara axır ki, son qoyuldu. Maşından nazla, təmtəraqla, gəlin kimi bəzənmiş bir qadın çıxdı.

Lap irəlidəydim.

Beş dəqiqəlik möcüzəli sükutdan sonra qəflətən bir uğultu qopdu!

Fit verən, qışqırışan kütlənin dalğası bir-birinə dəydi.

Qadın gəlin paltarı kimi nazik, ipək, yerlə sürünən uzun donunda yan-yörəsindəkilərə əliylə hava öpüşü göndərdi və sonra da başını dik tutaraq dayanmadan ətrafdakılara əl elədi.

Dərhal tanıdım:

Zeynəb Xanlarova idi!

Pəzəvəng oğlanlar onu müşayiət eləyib sıx insan kütləsi arasından səhnə arxasına aparırdılar.

Dərhal gizli pıçhapıç düşdü ki, sükan arxasında əyləşən uzunboylu, yaraşıqlı və bahalı geyinmiş sürücü oğlan prokuror Ələkbər Tağıyevin oğludur.

Və nəsə... məlhəm, məxfi məqamlardan da danışırdılar.

O vaxt bu "söz-söhbət" həqiqətən çox yayılmışdı. Ələkbər Tağıyev prokuror işləsə də, həvəskar bəstəkar idi. Zeynəb xanım əsasən onun bəstələdiyi mahnıları şövqlə oxuyurdu.

Kütlə dağılanda qəflətən Hüseyin əmini gördüm və yüyürüb ona yaxınlaşdım. Nəsə döyükürdü, əlimdəki çiçək dəstəsinə baxıb sevincək, ümidlə :

"Biletin var əə... qardaşoğlu?" - ərklə, sinə dolu soruşdu.

Əminliklə başa düşdüm: "Gərçi... biletim olsa, əlimdən alacaqdı."

Yaxşı qurtardım!

Dərhal da anladım, onsuz da biletim yoxdu, niyə fikirləşirəm, yaxşı qurtardım?

Qəflətən yadıma hasardan adlamaq istəyən uşaqlar düşdü. Qaçhaqaçda onları itirmişdim.

Hüseyin əmiyə bu variantı söyləyəndə əvvəl kişi duruxdu:

"Ayıbdı, adımız-sanımız var..."

Artıq alverçilərdə də bilet yoxuydu.

Toran düşmüşdü. Girəvə idi.

Qəflətən açıq səhnədə konsert başladı. Zeynəb xanım ilk nəğməsini oxuyanda kişi sıyıldı və əlimdən tutub:

“Haradı ora?” - soruşdu.

Parkın hündür, tozlu şam ağaclarının arasından keçib, hasarın kimsəsiz yerinə gəldik. Alatoran olsa da,sıx ağacların budaqları buranı tam görünməz eləmişdi.

Göstərdim...

Hüseyin əmiyə arxalandığımdan elə özüm də ürəklənmişdim. Yan-yörəyə çönüb baxdıq, doğrudan da heç kim gözə dəymirdi.

Konsertin səsi aləmi başına götürmüş, qanımızı coşdurmuşdu...

Qalırdı hasara dırmaşmaq.

Birdən ürəklənib cəsarətlə:

“Əşşi, dırmaş, tələş etmə! - dedim,- çətini o tərəfə düşməkdi. Kim-kimədi? Düşüncəyə təslim olma!”

Oynaq musiqinin səsi də bizi bir tərəfdən qanadlandırır, darıxdırır, dingildədirdi.

Konsertdəki şən tamaşaçıların gurultulu alqışları altında Hüseyin əmi ürəklənib dəmir çubuqlardan yapışaraq, qol əzələləri gücünə qalxmağa başladı.

Bərk-bərk də tapşırdı:

”Gözdə-qulaqda ol, yan-yörəni diqqətlə izlə və gələn olsa, tez xəbər elə!”

Hüseyin əmi hasarın lap başına çatanda kolluqdan xışıltı səsləri gəldi və qəfil iki milis işçisi peyda oldu.

Əclaflar pusqu qurubmuş!

Bir an duruxdum...

Getdi, deyəsən, Hüseyin əmi qara qızın eşqinə!

“Eyyy, vətəndaş, düş aşağı!”

Vəziyyət xoşagəlməz hal almışdı, irəli yeriyib:

“Mən eləmişəm, bilet yox idi”- dedim.

Və qəflətən ağlıma gələn ilk fikri tələsik, çinli müsəlmana oxşar milis serjantına söylədim:

“İstəyirsiniz biletin pulunu sizə verək...”

İkinci milis işçisi əlinə fürsət düşdüyündən lap bizim praporşiklə baş leytenant Boyko kimi amiranə və tələbkar səslə qışqırdı:

“Vətəndaş, eşitmədiniz?”

Hüseyin əmi enməyə başladı.

Əlimdə bükmələyib tutduğum pulu fağır hesab elədiyim, asta tonda danışan, qarnı çıxmış, buxaqlı milis işçisinin ovcuna basmaq istədim:

”Dayı, şər qarışıb, şax-şəvəlli, hündür, qol-budaqlı şam ağaclarının altıdır, heç ulduzlar da görünmür, təşvişə düşmə, götür...” -dedim.

Əclaf əlimi geri itələdi.

Deyəsən, babat da vurmuşdu. Əli od kimiydi...

Hüseyin əmi hasardan düşən kimi gülə-gülə,- özündən razı, amiranə səslə danışan milis işçisinin qoluna girib kənara çəkdi.

Nə danışdılarsa, üçü də bir-birinə qoşulub çox mehriban getdi.

Tək qaldım...

Birdən, mənə əhəmiyyət vermədikləri üçün əlimdəki çiçək dəstəsini dəmir çubuqların arasından

içəri atıb, hasara dırmaşdım. Qaranlıqda guppultuyla o tərəfə tullanıb çiçək dəstəsini yerdən götürdüm və külək kimi səhnəyə doğru götürüldüm.

Tamaşaçılar əyləşən yerə yaxınlaşanda, arxadan bir neçə milis işçisi qışqırıb üstümə tərəf qaçsalar da, yel kimi süzüb özümü biletsiz, ayaq üstə dayanan tamaşaçıların arasına soxdum.

Ələ keçəcəyimdən ehtiyat eləyib, peşəkar gizli agentlər kimi, iki dəfə də yerimi dəyişdim.

Səhnə o qədər işıqlı, o qədər gözəl bəzənmişdi!

Bir çox yerlərdə quraşdırılmış güclü işıq projektorlarının gur işığında Zeynəb xanım səhnə boyu gərdiş edə-edə, şövqlə Horobodoli mahnısını oxuyurdu.

Hər şey möhtəşəm idi!

Yaşıl teatrın səhnəsində, açıq havada ilk dəfəydi canlı konsertə baxırdım...

Zeynəb xanım növbəti, - sözləri Zeynal Cabbarzadəyə,musiqisi Tofiq Quliyevə məxsus olan "Məzəli mahnı"nı oxuyurdu:

***

Qara gözün badam,
O dedi: yox, yox, yox, yox.
Mənə gəlsin qadan,
O dedi: yox,yox,yox,yox.

***

Nəqarət:
Dedim: İnsaf elə,
Dedi: gülə-gülə,

Səndən yar olmaz mənə.

***

Düz dolan, düz otur, ay kişi,
Yaş ötüb deyəsən yetmişi,
Bir dənə ağzında yox dişi,
Bir utan, qızına aşiq olarmı adam?

Sonra...

“Dünyanın xoşbəxti mənəm, dünyada” mahnısını, arxasınca da... Zivər Ağayevin sözlərinə, prokuror-bəstəkar Ələkbər Tağıyevin bəstələdiyi “Mən baharın qızıyam” mahnısını oxudu:

***

Bahar gələndə, mən də
Bitərəm göy çəməndə.
Mən baharın qızıyam,
Köynəyi qırmızıyam.

***

Nəqarət:
Uçmağa yox qanadım,
Qızıl lalədir adım.
Çölü-düzü bəzərəm,
Əldən-ələ gəzərəm.

***

Zeynəb xanım növbəti, - “Ağzında yox bircə dişin” mahnısını oxuyur, əllərində gül-çiçək dəstələri, buket tutmuş qız-oğlanlar mahnılararası fasilələrdə, bizim rotanın əsgərləri kimi cərgəylə səhnəyə qalxıb, onu təbrik edirdilər.

Qucağında tutduğu gül - çiçək dəstələrini səhnənin aşağı hissəsində xüsusi qurulmuş rəngbərəng işıqlar verən projektor və səs-gücləndiricilərin yanında, döşəməyə yığırdı...

Gül-çiçək çələngləri gətirən fanatlar da çoxuydu.

Projektorların gur işığında, musiqi sədaları altında hər şey möhtəşəm görünürdü.

Növbəti bir lirik türk mahnısını oxuyub qurtaranda, açıq konsert salonunu gur alqış sədaları bürüdü.

Qəflətən qaçıb, tələsik səhnəyə çıxdım.

Zeynəb xanım irəli durdu və öpmək üçün əlini mənə uzatdı.

Onun əlindən tutub məharətlə öpdüm və cəld əlimdə tutduğum gül dəstəsiylə Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının oturduğu yerə yaxınlaşdım.

Bütün "Yaşıl teatr" nə edəcəyimi maraqla izləyirdi.

Qəflətən tarzən Həbib Bayramovun qarşısında dayanıb, əlimdəki gül dəstəsini ona uzatdım.

Tamaşaçılar əl çalıb, uğuldadı!

Həbib Bayramov heç gözləmirdi!

Yazıq çaşdı, tez də mizrablı əliylə çiçək dəstəsini alıb, gülümsəyərək təzim və təşəkkür etdi.

Elə bu vaxt kimsə qabaq oturacaqların birindən qışqırdı:

"A koopooolu!"

Bu, Hüseyin əminin kələm qoxulu, şit, xırıltılı səsiydi.

Və dərhal da, sürəkli alqış sədaları yenidən Yaşıl teatrı bürüdü.

Geri qayıdıb aşağı düşmək istəyəndə Zeynəb xanım növbəti mahnısını oxuya-oxuya əliylə saçlarıma sığal çəkdi...

Bir an ayaq saxlayıb:

“Bilet olmayanda sizə görə qanunu da pozmaq olar. Qanun abır, yorğan deyil ki, daim bürünəsən!”

O heç nə eşitmədi...

Bu da, MA3 markalı yük maşın sürücüsü, əfətli Hüseyin əmiylə Zeynəb Xanlarovanın

“Yaşıl teatr əhvalatı”...

İlğım dolu yaxın-uzaq, köhnə, yaşanmış günləri xatırlayıb lap kövrəlmişdim.

Qəzetləri yan-yön eləyib, yeni Известия qəzetini oxudum və nə vaxt yuxuya keçdiyimi xatırlamıram.

Alacaqaranlıqda ayılıb yerimdə xeyli qurcalanandan sonra, durub özümü səliqəyə saldım və iş yerinə qalxdım.

Kapitan Maltsev gəlmişdi.

Planyorka pis keçmədi.

İçki düşkünü Klimenko, vaskı Əsədov və tağım komandiri, molodoy Podqornu möhkəm danlandı...

Sverdlovskidən məktub gəldi.

Nataşa yazırdı:

“Bizim şəhərdə магнитометр adlı cihaz buraxırlar. Cihaz insan orqanizmindəki dəmir qırıntılarının yerini düzgün təyin edir. Bu, cərrahların işini xeyli yüngülləşdirəcək...”

Bilmədim bunu nəyə görə yazmışdı?

Mən də ona yumorla cavab yazdım:

“Azərbaycanın ərazisi 87 min kvadrat kilometrdir. Biz sayca çox azıq, halbuki burada 20 milyon adam rahat yaşaya bilər... Магнитометр-imiz də olsa, daha bizə zaval yoxdu. Hərbi xidməti qurtaran kimi gəlib alacam...”

Qoy o da gülsün!

Ələvsət və Tariyel Muradova da cavab məktubu yazandan sonra ужин eləyib aradan çıxdım.

Tomagildə paltarlarımı dəyişib qara, ütülü şax şalvarla ağ neylon köynəyi geyindim.

Toma artıq halalca əri kimi mənə qulluq göstərirdi.

Geyinib tansa gedəndə, düşünürdüm:

”Söz yox, rəqs meydançasında, artıq kavalerlər özünü “öldürür”, dodaqlar ağarır, alınlar qırışır...”

Fedirkoyla pilotkasını yan qoyan pəltək, vaskı Nazı məni mülki paltarda gördü. Gəldiyimə peşman oldum. Yaxşı deyiblər:

“Gəlmişdim kabab iyinə, gördüm eşşək dağlayırlar.”

Sıra meydanındakı sonuncu planyorkaya getmədim...

Zemelya Şükür məni görən kimi borc aldığı yeddi manatı qaytardı.

Götürmədim.

Gecə yenidən pulu zorla verib: ”Çaxırdan, pivədən alarsan, birlikdə içərik...”- dedi.

Gec olduğundan içmək məsələsi sonraya qaldı.

Qırmızı kostyumlu Anna Krasik

Odessa, 5 iyul 1972-ci il, III gün

Bu gün də dəniz idmanını təxirə salası oldum: Saat 06:20-də geniş Komsomol iclası keçirilməliydi...

Yerimizi заправка eləyib, yuyunduq və kazarmada toplandıq.

“Əsgərlər arasında baş alıb gedən alkoqolizmə qarşı mübarizə” mövzusunda gizli məktub gəlmişdi.

Heç vaxt içkidən başı açılmayan nüfuz məmuru, Sovet zabiti, siyasi işlər üzrə komandir müavini, hündür budaqlar kimi adama yuxarıdan baxan baş leytenant Boyko məxfi məktubu canıyananlıqla,

rəsmi duruşla oxuyub, heç vaxt içməyən general kimi şəstlə kazarmanı və əsgərləri süzdü... Кремовка konfetinin birini ağzına atıb:

-Вы понили? – soruşdu. Kim içsə getdi, - rişxənd eləyib, saxta bir təbəssümlə gülümsədi.

Hər şey ovuc içi kimi aydın idi...

Bu günkü Komsomol iclası da, digərləri kimi rəsmiyyət xatirinə keçirilib, getdi babamın xeyratına.

Sonda razvod oldu.

Bu gün briqadam yeməkxanada növbətçi olduğundan günüm xoş keçməliydi.

Elə də oldu.

Gecə yarı, saat 00:07 idi, artıq ayın tarixi dəyişmiş, bir gün də hərbi xidmət dövrünün üstündən götürülmüşdü...

İyul ayı girəndən ardıcıl gündəlik yazmamışdım. Odur ki, kazarmada oturub əvvəl köhnə, artıq yaşanmış günləri yazmağa başladım.

Berlin Tahir Ağayevdən məktub almışdım, yazmışdı: “Bir-iki günə Bərdəyə gedəcəm.”

Nə qədər ürəyim açılsa, nədənsə yaman xainliyim, paxıllığım da tutdu.

Kaş mən də gedəydim!

O, xoşbəxtdir və qəflətən onun bu xoşbəxtliyinə ürəkdən sevindim, axı ondan başqa birinci yeri tutası dostum yoxuydu...

Əclaf Aydın! Kölgəsiz dost!

May da, iyun da keçib , iyul ayı beş gündü başlayıb, nə məktub yazdı, nə teleqram vurdu, nə də yanıma, - Odessaya gəldi.

Bərdədə, Bakıda yanımdan əskik olmazdı.

Düşündükcə çox pis oldum və ən son qərarımı verdim:

“Sağlıq olsun! Borclu borclunun sağlığını istər!”

Bu gün Komsomolumu sevdiyim gündən düz otuz iki ay ötürdü. Otuz iki ay...

Keşməkeşli, hicran, həsrət dolu düz otuz iki ay...

Həsrət... həsrət... həsrət...

Düz beş ay idi ondan məktub almırdım.

Ağlıma gəldi ki, giley dolu bir məktub yazıb, dünyanın ən yazıq məxluqu, dostum Berlin Tahir Ağayevə göndərəm.

Sərçə kimi qorxaq Tahir Bərdəyə gedəndə özü bir yolla çatdırar.

Qəti qərara gəlib, çox qısa bir məktub yazdım:

“Doxsan səkkiz gün də ötəcək, SSRİ Müdafiə naziri hərbidən tərxis olunmağımız barədə əmr imzalayacaq və bu tarixi əmrdən sonra yaşanan hər bir gündə məni hərbidən azad edə bilərlər.

Niyə məktub yazmırsan?

Bu qədər uzaqlaşma... beş ay da susmaq olar?”

Sonra da Odessa ünvanımı göstərdim:

“Индекс - 270056, город Одесса-56, ул.Тенистая 13 в/ч 11741.”

Yazdığım kağızı zərfə qoyub, ağzını yapışqanla bağladım. Sonra bu məktubu başqa bir ağ zərfin

içərisinə yerləşdirib, üzərinə Tahir Ağayevin Tbilisi ünvanını yazdım.

Üstüörtülü, bir-iki kəlməylə bildirdim ki, nə yolla olsa, bu məktubu Komsomola çatdırsın və özündən başqa ikinci bir adamın əli bu zərfə toxunmasın.

Bacısı Zöhrə müəllimə Nüşabə qalasında motorelsürən Zöhrabla lüt yaxalandığından, istəmirdim onun əliylə versin.

Pervomayskiyə - xumba Telmana, külək əsəndə öz-özünə danışan yarpaqlar kimi, hirslənəndə öz-özünə gileylənib deyinən Tovuzun Əsrik Cırdaxanlı kəndindən olan, axsaq Nadirə, Kirovabada əsl, köhnə kişi xarakterli, vətənpərvər, qeyrətli,- öləndə də əlimdə silah öləcəm,- deyən, erməni adı gələndə ana-bacı qoymayıb söyən Natiq Mamışova, dərdə əbədi əlvida deyən, tez əfv edən, hökumətə dua et, SSRİ-yə zaval yoxdu tezisiylə yaşayan, ötürücü məntəqələrdə nəsillikcə əziyyət çəkən Axıska türkü Süleyman Zahidova, Yevlaxa, atamın doğmaca dayısı, dərələyəzli Təhməz kişinin oğlu Səməd Cabbarova, Bərdəyə, Məlikməmmədi Məlik və Məmməd oxuyan qardaşım Vidadiyə də məktublar yazdım...

Qoltuğuna yumşaq dəri iş çantası, gözünə optik və gün eynəyi, biləyinə qızıl saat, ağzına qızıl diş, əyninə xarici kostyum yaraşmayan, əlləri PACTBOP kimi itaətli, duruşuna, xislətinə külüng, kürək, bel sapı, ling yaraşan Sahib Əkbərov aparıb hamısını Arkadiyanın poçtundan yola saldı.

Axşam rotamızın yüz iyirmi doqquz nəfərlik əsgərindən seçib otuz üç nəfəri konsertə apardılar.

Könülsüz olsam da, getməyi qərara aldım. Sıraya düzülüb: Раз, раз, раз... раз, два, три! - sədaları altında konsertə getdik.

Yolüstü iris, peçenye və konfet aldım.

Dağlarda qışda yapıncı, yayda qaloşda gəzən təpərsiz Mürşüdlə zemelya Faiq, hərəsi bir yanımda oturmuşdu.

Aldıqlarımızı iştahla yeyə-yeyə tamaşaya baxırdıq.

Konsert pis keçmədi. Bir kapitan rütbəli hərbçi zabitin səhnədə dişləriylə üç yüz səksən kiloqram çəki qaldırması, yük maşınını çəkməsi və kubalıların Gitara mahnısı əsl möcüzəydi.

Yaddaşıma əbədi həkk olundu!

Zalda, çoxlu yüksək çinli zabit ailələri oturmuşdu. General ailələrinə baxıb gözlərimlə Qırmızı kostyumlu Krasiki axtarırdım...

Aswaan siqaretini ədəbaz işvəylə ağzında saxlayanda... gözlədiyini duyaraq, cəld kibriti götürüb əllərim əsə-əsə alışdırdığım an yadıma düşdü.

O vaxt kibritin çəhrayı şöləsi çöhrəsini işıqlandıranda hiss eləmişdim ki, gəncliyini sağa-sola xərcləyib. Dodaqlarının hər iki tərəfdən kənarına qırış düşmüşdü.

Ağappaq, üstü qırışmış, sanki vaxtsız qocalmış əlləri kədərli idi...

İlahi, o: “трахай, трахай...” - deyib, necə inil-inil inləyirdi!

Konsertdən çıxanda Faiq mənə bildirib, cərgənin sıra düzülüşündəki yoxlama qurtaran kimi aradan çıxdı.

Gəzdiyi qızla uğursuz Бродяга filmi əhvalatından sonra, bu gün ilk görüşü vardı.

Tomaya tapşırmışdım: ”Mülki paltarlarımı Şükür, Faiq bir də Nazı, nə vaxt istəsə verərsən”.

Faiqə dedim:

- Çox ləngiyəcəksənsə Tomagildə əynini dəyiş ki, tutulmayasan...

Sıra meydanında sonuncu yoxlamadan bir qədər keçmiş, qırmızı çimərlik paltarında qaçıb bir balon çex pivəsi aldım.

Rota yatandan sonra, kazarmada işıqlar sönən kimi həyətdə, qırmızı kərpiclərin üstündə oturub Podqornu, Şükür və Maariflə pivəni içdik...

Növbəti bir əsgər həyatı da belə can verdi...

Əlvida, on doqquz ay!

Odessa, 06 iyul 1972-ci il, IV gün

Saat 05:00-da oyanıb, dörd günlük uzun fasilədən sonra təkbaşına dənizə götürüldüm.

Yolda Ədalətlə Sahib Əkbərovu gördüm, qoca kişilər kimi söhbət eləyə-eləyə yüngül qaçışla çimərliyə gedirdilər.

"Kənd-kəsək, dağ işi çətindi,"- deyib, göydodaq Ədalət gileylənirdi.

Yanlarına çatanda zarafatla: "Məxluqat, yapıncınız varmı?"- soruşub, payız küləyi kimi onları tozlayıb keçdim. Ürəyimdə:

"Hər ikisinə- külüngə, kətmənə, dırmığa, çoban çomağına söykənmək çox yaraşardı, nəinki eynək taxıb qəzet-jurnal, kitab oxumaq, yazı yazmaq,"- dedim.

Yolboyu da bu fikrimlə tam razılaşdım. Dağ kəndində doğulub, sovxozda böyüyənlər!- kinayə elədim. Bəyənmirdim onları...

Qantel, rezin hərəkətlərini həmişəkindən çox eləyib, sahil boyu xeyli qaçdım.

Dan yeri ağarsa da, hava buludlu olduğundan adamlar çimərliyə seyrək gəlirdi.

İlıq suda doyunca üzdüm, sahildən xeyli aralanmışdım, qəflətən meduza sürüsünə rast gəlib, biixtiyar geri qayıtdım.

Amma, vahimə məni pis basdı!

Qorxudan sürətlə üzdüyümdən, sahilə çıxanda yorulub əldən düşmüşdüm.

Adama heç nə eləməsələr də ətim ürpənir, onlardan iyrənirdim. Nə başları bilinirdi, nə ayaqları, nə gözləri seçilirdi, nə də ağız-burunları. İri ləyən boydaydı çoxu...

Bütün vücudları da kəl sümüyünün iliyi kimiydi. Böyük ilik qanadları yelpik kimi yellənirdi...

Kazarmaya gümrah döndüm.

Bu gün iki əlamətdar hadisənin yubiley günüydü.

Düz on doqquz ay əvvəl, bugünkü gün Biləcəri stansiyasından arı kimi hünərli və yüngül çıxdım.

Qürurla Vətəni qorumaq, iki il vətən vicdanı olub, lazım gəlsə, lap uğrunda ölmək şərəfinə ordu sıralarına qorxu-hürküsüz, açıq girərək,- ali təhsilimi, Qarasu gölü kənarında, saçını gənc əllərimlə, dost yumşaqlığı qədər kövrək daradığım çəmənliyi, könül rübabım olan sevdiyim məktəbli, pioner qızı qoyub, vətənə borcumu ödəməyə gəlmişdim.

Artıq 19 aydır ev-eşiyim, isti ocağımdan ayrı düşmüşəm.

Düzdür, əzablı, iztirablı, həsrətli, acılı, ağır zəhmətli günlər arxada qalıb. Sanki iki illik yolu olan bir gəmiylə okeanda səfərə çıxmışam. On doqquz aydır görünən bir səmadır, bir də sonsuz sular... İndi isə durbinlə baxanda artıq yer kürəsinin meşələri, dağ-daşları, torpağı görünür.

Nədənsə, bu an ağlımdan Sakit okean adaları keçdi.

Bugün də belə bir qənaətdəyəm ki, bütün kainatın, sonsuz qalaktikanın tacı- günəş və milyardlarla insanların məskunlaşdığı yer kürəsidir.

İnsan olmayan yer cənnət belə olsa, boş və mənasızdır...

Azadlığa qovuşmağıma az qalıb... lap az... 97 gündən sonra приказ çıxır.

Remenlərdə vurhəşir on doqquzuncu deşiklər açılırdı. Kəmərlərimiz elə bil pulemyot atəşindən keçib, deşik-deşikdir.

Cəmi üç, ya dörd "deşik" də olsa, üzərində beşguşəli ulduz olan, qıpqırmızı sovet hərbi bileti əlimdə, azadlığa buraxılacağam.

Bundan şərəfli nə ola bilər?!

Heyf, heyf, çox heyf ki, Bərdədən belə görünmür:

"Rüşvət verib xəstə, şikəst adıyla hərbi xidmətdən yayınanlara əsl kişi kimi baxırdılar." Əsgər gedənlər əsasən yiyəsizlər, kasıblar olardı. Bir də ya axşam, ya qiyabi oxuyub, rüşvət verməyən mənim kimi tələbə oğlanlar...

Hələ bu gün başqa bir tarixin də yubileyi idi: Ötən il bu günkü gün Pervomayskidə ömrümə əbədi həkk olunacaq, qəlbimə dərin iz salacaq hadisə baş vermişdi.

Unutmaram o günü.

Axşamtərəfi, saat təqribən dörd-altı arası, indi baş leytenant olan Boyko, - o vaxt hələ leytenant idi, - məni çağırıb qışqırdı:

“Bölükbaşı, hazırlaş, axşam məzuniyyətə gedirsən!”

Donub qalmışdım.

Bu cümlələrin arxasında nələr yatmırdı?

Bərdə, Bakı... narkotikadan artıq kölgəsi də bürkülü olmuş Aydın və Yunis qardaşları... dopdoğmaca böyük bacısı Zöhrə müəllimənin pozğunluğu ucbatından dünyanın ən yazıq məxluqu olacaq dostum Tahir Ağayev... atası maşınla vuranı, öz üstünə götürmək istəyən əqidəli Xosrov... Şuşa, Komsomolla görüş, bunlar yox idi hələ...

Pervomaysk-Voroşilovqrad, tarixi qatarda donetskli qızla o gecə... həyatımda ilk dəfə baş verən qızla öpüş səhnəsi... sonra nələr, nələr...

Şuşada, Cıdır düzündə böyük ehtiramla həll olunan, Komsomolla qurulacaq gələcək ailə həyatı...

Sonra, ağ mirvari sırğalı Məhbubə xala məsələsi, həyatımda ilk cinsi əlaqə...

İlahi, bütün bu olanlardan artıq düz bir il keçib. Hər şey tarixə dönüb...

Dünyanın nə qəribə işləri varmış...

Bu iki yubiley günündə görək nələr baş verəcək?

...Göygöz, kirpikli Eldarı, vələdüzna qara Vəlini və İlhamı Pervomayskiyə göndərdilər. Qara Vəlini samovolkaya, Eldarla İlhamı isə xəstəlik tutduqlarına görə.

Onlarla öpüşüb vidalaşdıq, onsuz da nə qalıb, tezliklə doğma yurdda görüşəcəyik...

Vələdüzna qara Vəli dilxor olsa da, zarafatından qalmırdı: “Kommunizm tənəzzül edəcək. SSRİ özü zəifləri əzməyi xoşlayan ölkədir. Yorğanının bir ilməsini çək, on beşi birdən dağılacaq. Elə bizim rotanın zabitləri də zəifləri əzməyi xoşlayan zəiflərdəndir.”

Ramizə bağlama gəlmişdi.

İçərisindən öz ana dilimizdə Коммунист qəzeti və Кирпи jurnalı çıxanda bükülüb-əzilmiş qəzet və jurnal mənə necə doğma göründü!

Nahara kimi yeməkxanada oturub, onları acgözlüklə son cümlələrinədək oxudum.

Vaynösə Sahib Əkbərova, içdiyimiz наливной çex pivəsinin boş şüşə balonunu və iki manat da pul verdim ki, bizə pivə saxlatsın, gecə saat 22:00-dan sonra gedib gətirəcəyik.

Günorta naharından sonra sakitcə gedib, kazarmada elə hərbi xebedə, düz saat 17:09-a kimi yatdım...

Vahidlə Əlyatın şamxorlu yerlisi, bir ağdamlı oğlanla gəlmişdi. Görüşüb tanış olandan sonra, oturub xeyli söhbət elədik.

Alverçi idilər.

Nəhəng ölkəmizin bütün bazarlarında bizimkilərin alver eləməsini pislədim.

Vahidin yerlisi mənə bunu irad tutdu. Düzü üzə vurmadımsa da, çox pərt oldum.

Dərk elədim ki, səhv elədim.

Şamxorlu oğlan yumşaq tərzdə, çox mülayim və ağıllı şəkildə mənə izah elədi:

- Bax sən bu ağdamlı oğlanı birinci dəfədir görürsən. Özü də yaşca səndən böyükdür. Ona səndən qabaq çox öyüd-nəsihət veriblər. İndi sən beş dəqiqəyə onu düz yola qaytaracaqsan? Hər kəs dünyaya bir dəfə gəlir və istədiyi kimi də ömrünü sürür...

Onun bu sözləri mənə "dərs" oldu.

Şamxorlu əslində düz deyirdi. Dostunun həmyerlisini on dəqiqəlik görməyə gələn tanımadığım cavan oğlana, qürbət bir yerdə başlamışam ki: "Niyə oxumursan? Bu, iynəylə gor qazımaqdır. Alverçiliklə axırın hara gedib-çıxacaq?"

Məgər özü, ya ailəsi bunu fikirləşməyib? Valideyinləri, qohum-əqrəbası, nəsli- kökü onu başa salmayıb? Nə işimə qalmışdı axı?

Düzdü, həmyerlim idi, canım yanırdı, amma əsas səhvim oydu ki:

"Məqamı deyildi!"

Onlar getdi. Çox peşman olmuşdum...

Planyorka normal keçdi.

Plan doldu, dolmadı, daha məni danlayan yoxdu. Ya beziblər, ya da utanırlar daha, - bütün briqadamın əsgərləri bir neçə aydan sonra demblə gedir axı...

On doqquz ay canımı qoydum, işlədim, doğma vətənə əlimdən nə gəlirdi verdim, həmyerlilərimə görə danlanmaqdan cana-bezara da gəldim...

Sıra meydanındakı sonuncu yoxlamadan sonra rota yatmağa gedəndə soyunub, qırmızı çimərlik плавки-sində pivəni gətirməyə getməliydim.

Meydançadan baxdım ki, iki cavan, yaraşıqlı, məktəbli qızla, ibtidai sinif yaşlı bir oğlan uşağı yolla gedir.

Kəsə yolla yüyürüb onları qabaqladım və qarşılarında dayanıb çox hörmətlə təzim etdim.

Qızlar şaqqanaq çəkib güldü.

Aşağı, asfalt yola düşəndə xoşuma gələn qızı bir müsibətlə dilə tutub, o uşaqla qızdan ayırdım.

Tanış olduq, adını Lida, - dedi.

Qonşuluqda olurmuş, sən demə, elə lap evlərinin qarşısıymış. Bizim kazarmadan necə deyərlər, beş addımlıq yoluydu.

O qədər yaxın dayanmışdıq, danışdıqca qızın gülən gözlərinin içini görürdüm. Üzünün rəngi al qırmızıydı. O, qapılarının üstündən asılan fənərin gur işığında, bu tanışlıqdan çox məmnun olduğunu söyləyəndə, yanımıza qısqıvraq, kiçik, mehriban bir it gəldi.

İt əvvəl sakitcə üzümüzə baxdı və bir az keçmiş, sanki lüt canımı görüb, “Ə, buranı nə bardağa döndərmisən?”- öz it ağlıyla düşünüb- qəflətən hürməyə başladı. Qazan dibi yalayan itin səsinə, yüngül və şən gülüşlü qızın anası evdən çıxanda, qız qışqırdı:

- Lütsən, qaç!

Çörəyi küt gedən arvadlar kimi karıxıb, görüş təyin eləmədən belə qırmzı плавки-də götürüldüm.

Vəziyyətin öz xeyrinə dəyişdiyini duyan it qızışıb, mırta arxamca düşərək məni qovmağa başladı.

İt dayanmadan qaçıb, getdikcə РАЗГОМ götürdü. Var gücüylə hürə-hürə, mənə çatsa da, hərdən yalandan dartınıb, tez-tez qorxusundan dayanır, qabaq ayaqlarını yerə bərk basa-basa dişlərini qıcardır, hərdən geri çəkilir, təkrar bir də cumurdu...

Tamaşaya yığılanlar çoxalanda it tırsıyıb geri döndü və arxasıyla toz qaldırıb gözdən itdi...

Bahar xalanın sözü olmasın, bu zırıltı işdən də salamat sovuşduq.

Pivəni gətirib zemelya Şükür, təpərsiz Mürşüd və vaynösə Sahib Əkbərovla içdik.

Kefim kökəldi.

Tomagildə ağ neylon saroçka ilə qara şalvarı geyinib turbazanın izdihamlı rəqs meydançasına getdim.

Bağdakı qızılgül kolundan ağ qönçə gülü qoparanda barmağımı yandakı iti tikan yaraladı.

Meydançadakı rəqs edənlərin arasında və kənardan baxanların içərisində o qədər gözəl geyimli qızlar vardı!

Hamısı da cüt gəlmişdi.

Özüm kimi, tək gələn qız axtarırdım. Təklikdən darıxıb, kədərlə dayanan romantik qızlardan çox xoşum gəlir.

Bu gecə beləsi olmadı.

Kaşşeyevin gəzdiyi dul əməlbaz arvadla qarşılaşdıq. Mülki paltarda olsam da tanıdı. Qolu, qılçası olmayanı, keçəli, koru tanımaq qədər qafqazlını tanımaq asan idi. Onunla çox mehriban görüşdük.

Birdən necə oldusa,üzümə diqqətlə baxıb:

- Pul verim çaxır al, rəqsdən sonra bizdə içək...

Bu an gözləri dirildi.

Düzü, gözləmirdim, civildəşən gözlərindən duruxub, kortəbii instinklə kəkildədim:

- Pul lazım deyil... alıb gələrəm...

Tans qurtaran kimi gedib restorandan üç manata litrlik süfrə çaxırı aldım. Beynim nəsə mücərrəd fikirlərlə qaynayırdı.

Qayıdanda yol kənarındakı yaraşıqlı hündür işıq dirəyində yanan küçə fənərinin işığında, gördüm bir oğlan ikimərtəbəli evin damında antena qurdalayır və qəflətən ayağı sürüşüb üzüaşağı guppultuyla yıxıldı.

Havada ondan it kimi boğuq bir səs çıxdı, sonra yerdə şappıldayıb səs kəsildi.

Donub yerimdə mıxlandım.

Qarşıdakı beşmərtəbəli daş binanın ikinci mərtəbəsinin işıqlı eyvanında tum çırtlayan cavan bir qız da təsadüfən bu mənzərəni görüb, bərkdən qışqırdı və evə girib köməyə tələsdi.

Elə bildim ölüb.

Vahimələnsəm də qızın çığırtısı bir az məni ürəkləndirdi. Qaranlıqda evin ətrafına fırlanırdım...

çığıran qız da, bir oğlanla köməyə gəldi.Əlimizə keçən qəzet, taxta, kağız-kuğuzu yandırıb xeyli axtardıq, amma meyidin cəsədini tapa bilmədik.

Evin işıqları yanmırdı. Qonşu qızla oğlan əminliklə dedi ki, oğurluğa gəlibmiş, yıxılıb və cəld qalxıb aradan çıxıb. Antenna qurdalamaq bəhanəymiş...

Geri qayıdıb mülki paltarımı dəyişmək istəyəndə gördüm Toliklə Tolya xəstəxanadan çıxıb. Hər ikisiylə qucaqlaşıb, çox mehriban öpüşüb-görüşdük. Hal-əhval tutduq.

Toma evdə yoxuydu.

Bildirdilər ki, indicə gəliblər...

Xəstəxanada barışdıqlarından, indi bir-biriylə nəzakətlə davranırdılar.

Çox maraqlıydı, görəsən, ehtiraslı Toma bu gecəni hansıyla keçirəcək?

Kubrikaya gəlib, oğlanın yıxılması və “saxladığı” arvadın “çaxır al” məsələsini ətraflı Kaşşeyevə danışdım.

O da əynini geyindi və birlikdə vaqon-kubrikadan çıxdıq.

İkimərtəbəli həyət evinin dörd tərəfini Kaşşeyev batareyalı fənəriylə işıqlandırdı. Nə bir səs küy vardı, nə də cəsəd ...

Mademauzel Nastya xalagilə getdik.

Nədənsə bizim rotanın bazlıq edən rus əsgərlərinin doxsan beş faizi ərli-ərsiz yaşlı qadınlarla görüşürdü...

Zəngin səsinə sevincək qapını açan Nastya xala Kaşşeyevi yanımda görəndə, selləmə yağışdan əvvəl qaralan göy üzü kimi qəflətən tutuldu. Onun qırış düşmüş sifətində narazılıq aydınca görünürdü...

Stolun üstünə nimdaş bir süfrə çəkdi. Süfrə köhnə olsa da, yuyulub-ütülənmişdi. Pomidor, kolbasa, duz-çörək, yumurta gətirdi və yanına altı butulka Жигулевский pivəsi düzdü.

Restorandan alıb kağıza bükdürdüyüm litrlik çaxırı inamla masanın üstünə qoydum.

Solğun bənizli dul Nastya xalanın qırx üç-qırx beş yaşı olardı. Doluydu. Rəngi ağ, gözləri açıq yaşıldı. İri döşləri, qısa saçları vardı.

Kaşşeyev özünü evin kişisi kimi aparırdı. Nastya xalaya ərklə soğan, pendir gətirməsini də yada saldı. Dul Nastya çox təmizkar idi. Göyərti gətirəndə buna lap əmin oldum. Tərtəmiz yumuşdu və təmizliyindən parıldayan qırmızı pomidorların yanına düzdü.

Məclis quruldu.

Kaşşeyev içdikcə innab qabığı kimi qızarırdı. Bir xeyli çaxır içdikdən sonra Nastya xalanın rəngi açıldı. Narazı çöhrəsi və nigaran gözlərinə işıq gəldi.

Kaşşeyev durub çarpayıya uzananda, getməyə hazırlaşdım. Nastya xala qapını açıb məni yola salanda:

- Tez-tez gəl, - dedi, gecələr tək oluram... və birdən ikiəlli başımdan yapışıb ehtiras dolu bir yanğıyla dodaqlarımdan bərk-bərk somurdu.

Heç cınqırımı çıxara bilmədim.

Kazarmaya mən girəndə, gecə saat ikini keçmişdi. Qolu qırmızı sarğılı növbətçi Mitya stulda mürgüləyir, tez-tez başı gedir, diksinib ayılırdı.

Kazarmanın daxilində Lenkomnata kimi istifadə edilən otağın qapısı açıq, işıqları yanırdı. Maraq üçün baxdım: İvanyuşenkoyla saçları nədənsə vaxtsız tökülməyə başlamış Malışev idi. Məni görən kimi, gecə yarını çoxdan ötsə də, sevincək Qorkı söhbətini yenidən saldılar. Sən demə, kimdənsə yeni faktlar öyrəniblərmiş:

“Amerika yazıçısı Herbert Uels Moskvada, inqilabla bağlı V.İ.Leninlə görüşür. Görüşdən sonra məşhur yazıçı Leninin təklif etdiyi yerdə yox, M.Qorkiniin evində qalacağını bildirir.

Evində qonaq olan Uels, gecəni xəlvətə salıb onun arvadıyla yatır və təsadüfən dostunun və arvadı Mariyanın xəyanətini Qorki başa düşür...

Bütün bunlara baxmayaraq, sonralar onların dostluğu davam edir. Hətta Herbert Uels ölməzdən əvvəl Mariyanın adına 100.000 ABŞ dolları pul koçurur.

Qorki özü də ölümündən əvvəl vəsiyyət eləyir ki, onun gələcək bütün qonorarları qoca Mariyaya çatsın.

Beləcə, şanslı bəxtəvər qəhbə qocalanda milyonçu olur.”

Yaxşı deyiblər:Kiminin əvvəli, kiminin axırı.

Hamı yatmış, növbəti bir əsgər günü ölü sükutda uyuyurdu..

Elbrus Abbasovla bank Rza, mədəniyyət Soltan və Əli müəllim əhvalatı

Odessa, 07 iyul 1972-ci il, V gün

Səhər ayılanda başım ağırlaşdığından birtəhər qalxdım.

Geyinib əlimi cibimə salanda gördüm dünən mağazadan çıxanda cibimə qoyduğum sonuncu sarı manatlıq yoxdu. İtki çox pis şeydi. Xebenin bütün ciblərini dönə-dönə ələk-vələk elədim.

Manatlığı itirmişdim...

Başımın ağırlaşması dərhal yadımdan çıxdı və bir də naharda yadıma düşdü.

Çölə çıxıb səmaya baxırdım. Göydəki ağ-boz qarışıq buludlar səmanı necə tutmuşdusa, göy üzünün mavi rəngi yoxa çıxmışdı. Sanki səmanın gömgöy üzünə ağ-boz qarışıq rəngli bir kətan pərdə

çəkmişdilər. Bu mənzərə mənə köhnə bir xatirəni xatırlatdı:

“O gün qış ayı olsa,da hava eynən beləydi.

Günəş, bu ağımtıl-boz “pərdə çəkilmiş kətan parçanın arxasından” buludları al şəfəqlərə boyayıb ağımsov qızartsa da, qızılı, gözqamaşdırıcı isti şüaları yoxuydu.

Şəhərə çıxmışdım...

Bərdə rayon Mərkəzi Bankın qabağından keçəndə, olduqca maraqlı bir hadisənin şahidi oldum.

Zemelya Şükürün həmkəndlisi Bank müdiri vəzifəsində işləyən mirzəalıbəyli Əliyev Rza Surxay oğlunu, Hüseyin əminin kiçik oğlu Elbrus sürüyə-sürüyə, itqusdu eləyib bank binasının giriş qapısından çölə atdı.

Özümü köməyə yetirdim.

Uzundraz Rza özündən yaşca, boyca və bazbrutda zəif olan Elbrusun qolları arasında, fısıldayıb boşalan kamerli top kimi əzik-üzük olmuşdu.

Titrəyir, qəhər onu boğsa da, cıqqırı belə çıxmırdı.

Elbrusun qarşısına keçib onu birtəhər, zorla durdurduq.

Yumağa dönən, qəhr olmuş, üfunət iyi verən Rza rəhbərlik elədiyi kollektivin gözləri qarşısında, çirkaba batan, bahalı kostyumunda ayağa qalxıb, yerə düşən norka papağını götürmək istəyəndə,

Elbrus nərə çəkib əlimizdən çıxdı və ayağını papağın üstünə qoydu:

“Şərəfsiz! İftiraçı! - qışqırdı, sənə papaq qoymaq yaraşır? Get yaylıq bağla!”

Birtəhər, çox minnət-sünnət mirzəalıbəyli Rzanı əfətli Elbrusun cəngindən qopartdıq.

Sən demə, bir göz qırpımında salxıq bığlı Rzanı bankın ikinci mərtəbəsindəki kabinetdən -qalstukunu iri əlinə dolayaraq, boğazlayıb, başına-götünə, qarnına çırpa-çırpa pilləkənlərlə üzüaşağı sürüyübmüş.

Nə səbəbdənsə, işçilərdən də heç kim yaxına durub, ”həşəmətli” müdirlərini Elbrusun əlindən almayıb.

Elə bu vaxt, kimsə, bir qadın bankın ikinci mərtəbəsindən qışqırdı:

“Ağzın əyilsin, Rza, araq içə bilməyəsən!”

Rzanın dodaqlarına zavallı bir kədər qonmuş, gözlərinin qırışmış kənarında yaş damlaları göründü...

Bazburutlu Rza incə hıcqırıqla inlədi.

Çox maraqlıydı, görəsən, Rza nə pox yeyibmiş?

Rza o vaxtdan iri bir budaq kimi sındı!

Bir gecə də...

Rza Surxay oğlu, Bərdə rayon ticarətinə, - Райпо adlanırdı - rəhbərlik eləyəndə, dəri-zöhrəvi xəstəliyinə yoluxmuş, bu cür barmaqla sananan küçə fahişələrindən biriylə tutulub, milis şöbəsinə salınmışdı.

O vaxt qaynı, - qara Məmmədəlinin oğlu Soltan, gecəni yatmayıb ağlasığmaz rüşvət hesabına səhərəyaxın şöbənin KPZ-sindən onu çıxara bilmişdi.

Bu, Alagöz müəllimənin qohumu o Soltan idi ki, doğma Sərxan əmisinin qızbibi uşaqları Vaqif və Ariflə birlikdə bizi gözümçıxdıya salan, - yevlaxlı Aləmin qohumu, - özümüzdən yaşca böyük Yusif adlı oğlan bizi döyəndə qaçıb üstünə getmişdik.

Yevlaxlı Yusifdən böyük və cüssəli olsa da, uzundraz, bazburutlu Soltan söz versə də, qorxusundan bizi müdafiə edə bilmədi...

Və bu, siqareti sıqaretə calayan qara Məmmədəlinin oğlu, - o Soltan Həsənov idi ki, Bərdə Mədəniyyət şöbəsinin müdiri vəzifəsinə yenicə təyin edilmişdi.

Yerinə keçdiyi, şair təbiətli Əliyev Əli Əyricəlini, - hamının hörmət bəslədiyi, arxaya daranmış gur, dalğalı saçlı Əli müəllimi isə - Ağsaqqallar evinə müdir qoymuşdular.

İş elə gətirmişdi ki, indi Əli müəllim özünün uzun müddət rəhbərlik etdiyi rayon Mədəniyyət şöbəsinə tabe idi.

Qara Məmmədəlinin pullanıb harınlamış oğlu Soltan bir gün şəxsən özü, sələfi Əli müəllimi yoxlamağa gələr...

Yazda, - aprel ayının əvvəlləri Bərdədə alça, gavalı, alma, ərik ağaclarının ağappaq, şaftalıların isə çəhrayı ləçəkli çiçəklər açan vaxtıymış...

Qocaman yurdcanlı, əyricəli Əli müəllim nahardaymış.

Soltan "bekin" qəfil gəlişindən qorxub, əndişələnən, Ermənistandan didərgin düşüb yurdsuzluq kədəri yaşamış ailələrdən olan, yeni-yeni əbədiyyət üfüqündə mənəvi azadlığın zirvəsinə çıxmış cavan katibə qız, tez əl-ayağa düşüb, gizlincə Əli müəllimin evinə zəng vurar və olayı xəbər eləyəndən sonra:

"Çay qoy içsin, gəlirəm," - cavabını alar.

Əyricə kəndində məskunlaşmış gənc katibə qız Soltandan hörmətlə:

"Çay içirsinizmi? - soruşar.

Böyük, qurbağalı gölməçədə qönçəsindən yenicə pardaxlanıb açılan nülufər gülünə bənzər, şux sinəli qıza baxanda, mədəniyyət Soltan sevincək əllərini bir-birinə sürtüb:

"Yanırdım elə..." - deyər və bic-bic də soruşar:

"Pişikotu yoxdu?"

Hörüyünə və yaxasına kənddən dərdiyi bir neçə bənövşə taxmış gənc qız həyəcanlı olduğundan pişikotu sözünü başa düşməyib:

"Gözlə dəmləyim", - deyər.

Soltan özlüyündə elə hesab edər ki, laləyanaq cavan kəndçi qız artıq qoca, araq vurmaqdan beli donqarlaşmış,kasıb, uzunboylu müəllimdən bezib, özünü "tazə bəyə" fəda etmək istəyir...

Və isti çayı buğlana-buğlana qurtumla içəndə, qıza eyham vurar:

“Mənim kimi cavan, zəngin dura-dura, tumurcuqla qoca qarğanınkı necə tutur?”

Qızın dərhal əsəbləşdiyini, rənginin qaçdığını, külqabına əl atdığını sezib, Soltan “ağa” qorxar, qızdan qurtulmaq üçün, tez Əli müəllim gəlməmiş durub aradan çıxar.

Əli Əlİyev gələndə, laləyanaq qız onun biədəb hərəkətlərini olduğu kimi ağsaqqal qohumuna danışar...

Və... araqdan düt deyincə dümləyən qozbel Əli qızdan qələm-kağız istəyər...

Qızın boynubükük duruşuna və təhqir edilmiş namusuna qəlbən yanan Əli müəllim, bədahətən ağlına gələn ilk qafiyəni sərlövhəyə yazar:

“Sən ey daşşağımın sol tayı Soltan!”

Qız elə başlığı oxuyan kimi qorxusundan və abırından şələ-şüləsini gizlincə yığışdırıb, ardına belə baxmadan, tər bənövşələri də döşəməyə atıb, asta qaçana göy imam qənim, qaçar...

Qəzəl üstdə yazılan bu şeir həddən artıq təhqiredici, məzəli, vulqar pozğun sözlərdən ibarət olduğundan... Rza Əliyevlə gendən tanış və Soltan Həsənova qonşu kimi böyük hörmət bəslədiyimdən gerisini yazmıram.

Mədəniyyət Soltana yazılmış bu həcv-qəzəli ilk ələ keçirənlərdən biri də elə tamada Vaqif Hüseynov idi. Xanımzərin oğlu Mətləb nə qədər yalvarıb-yaxarmış, böyük bir qonaqlıq boyun olmuşdu, əclafdan heç cür bu qəzəli ala bilməmişdi.

Sonralar bunun da səbəbini bildik: Axı Soltan, anası Baharla qəbahəti olan Əyyub kişinin qaynıydı.

Pah atonnan!

Qoy qızılı günəş şəfəqləri pəncərəsindən vuranda... mürgüləyən və qısa yuxuya keçən Bahar arvadın oğlu Vaqif də kişilənsin!

Bərdəlilərin çoxu bu qəzəli əzbərdən bilir...

O vaxtlar ki, mən uşaq idim...

O il ədəbiyyat fənnini tədris eləyirdik və ilk dərsi, institutu şövqlə, məhəbbətlə, əla və yaxşı qiymətlərlə yeni bitirmiş şair təbiətli, uzunboylu, kəkəş-kəkəş duran, saçlarını səliqəylə arxaya daramış bir müəllim keçdi:

"Adım Əli, familiyam Əliyev, təxəllüsüm də Əyricəli," - dedi və ilk tanışlıqdan sonra dərs keçmək əvəzinə, yenicə yazdığı bir hekayəsini xüsusi ilhamla, intonasiya ilə danışaraq, bizi kövrəltdi və sonda da yenicə yazdığı "Bərdə haqda" ilk şeirini, öz sözü olmasın, hələ mürəkkəbi belə qurumamış cızma-qaradan söylədi, bir neçə misrası yaddaşımda qalmışdı:

***

Min nemət yetirən saf torpağın var
Palıd tək, çinar tək, vüqarlı, Bərdəm.
Nüşabə kamala çatdı burada
İsgəndər baş əydi, bu böyük ada
Binədən olmusan ilqarlı, Bərdəm.
Nizami hüsnünə vurulmuş düzü,
Sənə qurban olsun Əlinin özü,

Uzaq keçmişlərdən, yadigar Bərdəm.

***

Bu qozbel Əli Əliyev, o Əli müəllim idi ki, cavanlığında arağı su yerinə içirdi.

İndi isə qocalmışdı.

O, araq və qocalıqdan donqar beli oraq kimi əyilsə də, qapqara şəvə tükləri ağappaq ağarsa da, yenə arxaya darayır, saçları heç tökülüb seyrəlməmişdi.

Nimdaş kostyumda gəzərdi...

Bərdə yadıma düşən kimi... ilk əvvəl Fikrət Qocanın, - Bərdə haqqında yazılan şeirlərin içərisində ən yığcam, ən gözəl, - şah əsər hesab elədiyim bir şeirini həmişə xatırlayıram:

Eramızdan o tayda,
Nizamidən bəridə,
Salam, ey qoca Bərdə!

***

Sənin qapılarından-
Əsrlər baxıb gedib.
Bəlkə sənin tarixin
Qədim körpü uçanda
Tərtərə axıb gedib?

***

Sonra Tərtər utanıb,
Axmayıb köhnə yerdə.
Salam, ay qoca Bərdə!

***

Bərdədə biri də vardı, İsa Sevər.
Bərdəliydi!

Doğma Bərdə haqqında yazılan ən yaxşı şeirlərdən birini də o yazmış, adını da qəribə qoymuşdu:

Mən Bərdəyəm

Mən Bərdəyəm,
mən dağlardan bəridəyəm.
Nə dağım var, nə də dərəm,
Düzəngahdır hər tərəfim.
Ancaq dağsız tariximə
yazılıbdır dağlar qədər,
Haqq tərifim.
Yazılanlar hanı görən?
Ey Arranın anası,
deyirlər paytaxt olmusan,
Neçə qədim paytaxtlara-
yemək üçün un satmısan,
Geymək üçün ipək, yun satmısan.
Paytaxtları tikmək üçün qul satmısan...
Zəlzələmi oğurlayıb tarixini?

***

Bu yerdə Nizaminin də bir şeiri yadıma düşdü.

Dünyanı fəth edən fəttah, sərkərdə - Makedoniyalı İsgəndərin Azərbaycana gəlib, Bərdənin hakimi Nüşabəylə görüşdüyü bu səhnəni vəsf edən dahi Nizami yazırdı:

“Hərum” adlanırdı
bu yurd hər yerdə,
İndisə adına deyirlər- Bərdə
Bərdə nə gözəldir , necə qəşəngdir,
Yayı da, qışı da güldür, çiçəkdir.
İyulda dağları lalələr səpər,
Qışını baharın nəsimi öpər.
***

Bu yerdə, birdən ağlıma gəldi ki, dahi Nizami bunu niyə belə yazıb axı, Bərdədə dağ nə gəzir?

Bir qədər də fikirləşib tapdım, gərək belə yazaydı:

İyulda düzləri lalələr səpər...

Dənizdi, dağdı, qışında qardı, dərədi, - bərdəlilər belə şeyləri görməzdi. Heç tamarzı da deyildik bunlara, bekara aralaşıb yuxarı qalxsaq, Dağlıq Qarabağ, - dağla dərəylə, qarla, qaca, daş-kəsək yollarla dolu Şuşaydı.

Bərdədən şimala yollansaq, onda Xəzər dənizinə gedib çıxardıq.

Amma, lal yataqlı dəli Kürü, dayaz olsa da əyri-üyrü, qıjovla ora-bura çırpıla -çırpıla axan, çınqıllı Tərtər çayı vardı Bərdənin...

O da yadıma düşdü ki. Makedoniyalı İsgəndər başqa ölkədə olanda, eşidir ki, şimaldan Kəntal adlı birisi hücum edərək Bərdəni işğal edib və gözəl Nüşabəni də əsir götürüb.

Dərhal geri qayıdaraq, Kəntalın qoşununu darmadağın dağıdıb, Nüşabəni də əsirlikdən azad edir...

Poçt gəldi.

Və dərhal elə bil, Bərdədən hoppanıb Odessaya düşdüm.

Laçın dağlarında yekə ayağına camış gönündən çarıq geyinən Mürşüd, yenə dana kimi böyürüb məni axtarırdı:

“Babaayeev... Babaayeev...”

Doqquz ədəd məktub gətirdi.

Tələsik zərflərin ünvanını oxudum:

Omskdan Alla, Sverdlovskdan Nataşa, Özbəkistandan dostum, axısxa türkü Süleyman, Tbilisidən dağıstanlı əsgər Ruslan, Bakıdan qardaşım Rafiq və tələbə dostum Cəfər-Cek, Moldaviyanın Floreşti şəhərində hərbi xidmət çəkən Tariyel Muradov, Kirovabaddan Natiq Mamışev və qonşu Yevlaxdan atamın dəlisov, cəsarətli və dizibərk dayısı Təhməz kişinin oğlu Səməd Cabbarovdan idi.

Komsomol susurdu...

Bir az keçmiş çoban çomağı Mürşüdün arxasınca vaynösə Sahib Əkbərov da bir məktub gətirdi.

Onuncu zərf Tovuzun Əsrik Cırdaxanlı kəndindən olan taytax vələdüzna Nadirdən idi. Pervomayskidən yazmışdı.

Nədənsə qardaşımın məktubundan əvvəl Nataşayla Allanın məktublarını açıb oxumağa başladım.

Yazıb xahiş eləsəm də, Nataşa üçüncü dəfəydi, fotoşəklini göndərmirdi. Onun çox gözəl çöhrəsi vardı.

"O yağışlı gün"... hərarətli canıyla mənə necə sığınmışdı! Qonur gözləri, dik burnu, nəm saçları, isti nəfəsi, ehtiraslı öpüşləri...

O necə qaynayırdı!

Dostun тупой-du, - demişdi mənə.

O gün ehtirası Tahirin ucbatından içində boğuldu...

İstəyirdim hər məktub yazanda şəklinə, gözəl simasına, gözlərinə baxıb, düşünərək yazım.

Amma zərfdən yenə fotoşəkil çıxmadı.

Heç o haqda kəlmə yazmamışdı.

Görünür, bu gözəl qız çox səhlənkar və diqqətsiz, həm də oxumaq- yazmaqla arası, həvəsi və səriştəsi yoxuydu. Amma nə əcəb, iki səhifəni yazıb tam doldurmuş, özü haqda soruşduğum bütün sualları cavablandırmışdı?

Oxuduğu orta məktəb direktorunun qızı olan, rəfiqəsi Lyudmilanın тупой Tahirə dediyi:

"Чушка какая",- sözlərini yazıb mənə təkrar xatırladır, bakirəliyini o yağışlı gündə... Odessada

bir qafqazlı əsgərə qoyub getməkdə israrlı olduğunu dönə-dönə bildirirdi.

“Qismət deyilmiş sənə...” - yazırdı.

Buna xeyli heyfsiləndim və duyğulanıb kövrəldim. Bəli, o məqamı yaşaya bilmədik! Onun tərs rəfiqəsi və mənim типой dostumun ucbatından...

Məktubları bir-bir oxuyub cavab yazdığım üçün, mayıf Mamedi çağırtdırıb, ruslar demiş, köynəyimə петлица və boynuna da ağappaq воротничок tikdirdim...

Son vaxtlar günümün daha çox hissəsini yeməkxanada keçirirəm. Demək olar, səhər yeməyindən sonra briqadanın işlərini qaydaya salıb buraya gəlir, düz nahara kimi qəzet, kitab oxuyur, həm gündəliyi, həm də məktublara cavab yazıram.

Tariyel Muradova yazdım:

“Bərdənin əlvanbülbül sərçələrini, qırqovul yuvalarıyla dolu meşə ağaclarını qoyub Floreştiyə niyə getmisən ələə?”

Əlbəttə, zarafat eləyirdim.

Kürqırağı meşələrimizdə kəklik, ağ, boz, qızılı qırqovul, turac çox olardı, amma gələcək karyera, ana torpaq naminə, hərbi xidməti də mütləq keçməliydik.

Vətən vicdanı, namusu olub, Vətən qorumaq şərəfi də öz yerində!

Faiqlə xebelərimizi dəyişdik.

Onunku boğazlı olduğundan xoşuma gəldi, mənimki isə təptəzəydi, heç geynilməmişdi...

Faiqlə kazarmaya yaxın olan institutun yeməkxanasına getdik.

Sosiska, qara çörək, kiçik xiyar turşusu, adamın burnundan tüstü çıxaran горчица və kefir alıb, çox iştahla yedik.

Sosiska buğlu, isti olanda yaman ləzzətli olurmuş!

Yeməkxanadan çıxıb dəhlizlə gedəndə gördüm iki cavan qız bir otaqda təmizlik işləri görür. Onlara baxıb söz atdım.

Sarışın olanı əlindəki əskini havada yelləyib, gülə-gülə:

-Gəlin, kömək eləyin, - dedi.

Bizə də elə vaxt öldürmək lazım idi.

Faiqlə içəri keçdik.

Sarışın qız elə bil dilotu yemişdi:

- Biz kasıbıq, biləsiniz...

Faiq kompliment üçün:

- Siz kosmetikasız da gözəlsiniz...

Sarışın cəld cavab verdİ:

- Kompliment üçün sağ ol, əsgər, amma unutma ki, ölmüş bir hüceyrəyə də bənzəmirik, düzdü xınalı əllərində həsir səbət tutanlardan da deyilik, biləsən: Kasıbın dürməyi yavan olsa da, dili yağlıdır.

Söhbətə müdaxilə elədim:

- Kasıbın dörd düşməni var: İt, bit, milis, bir də molla.

Hamımız gülüşdük.

- Həm də biləsiniz: Heç biz də təkbuynuz kərgədan deyilik. Kasıbın arvadı da xəstə olar, ananız necə?

Yenə gülüşdük.

Beləcə, çox şirin tanış olduq: Hər ikisi adını Liza söylədi, biz də adımızı Gizir oğlu Mustafa bəy,- sonra da onar başa düşməyəndə Koroğlu,-dedik. Birinci gün,axşam saat 20:00-a institutun qarşısına görüş təyin elədik.

Payıma düşən Liza o birindən həm yaşca kiçik, həm də boyca balaca idi. Bizim qızlar kimi şabalıdı saçları, qonur gözləri vardı.

Sarışın Liza isə Faiq Koroğlunun payına düşdü.

Mənim Lizam çox gözəl və az danışan idi.

Birinci gün sözlərini tutub gəlsələr, bəxtim vuracaq!

Qayıdıb kazarmaya gələndə nahar vaxtı idi. Artıq yeməyə iştaham qalmamışdı.

Rota yeməkxanaya gedəndə, Faiqdən aldığım yeni boğazlı xebedə, əsgər yatağımı açmadan yerimdə uzanıb, xeyli qəzet-jurnal oxudum, sonra da yuxuya keçmişəm.

Ayılanda, saat 17:03 idi.

Planyorka olacaqdı, sonra da hamamda çimməli idik.

Hərə bir yana dağılmışdı.

Klimenkonun mülki paltarlarını alıb Faiqə verdim. Özüm də Tomagildə mülki geyindim.

Toma, Tolik və Tolya yeyib-içirdilər.

Toma onların hər ikisini, görünür, “razı” salmışdı. Mehriban davranır, bülbül kimi şövqlə ötürdülər.

Saçına zinət vermiş ətir-ənbərli Toma, əmrinə müntəzir iki oynaşının gözündən yayınıb, işvəylə mənə öpüş göndərdi və odlu canavar gözləriylə içimi tərpətdi. Sonra da nümayişkaranə yanına çağırıb, ərklə saçlarıma nəvazişkar əl çəkdi...

Hər ehtimala qarşı, Tolikdən gözlərimi yayındırırdım...

Kefləri kök idi.

Artıq... rekviyemə ehtiyacları yoxuydu.

Söz yox, anlaşıb ortaq məxrəcə gəliblər. Nə qədər israr elədilər, oturmadım. Ayaqüstü limon dilimiylə bir rumka araq içib, aradan çıxdım.

Axşamsərini, Faiqlə gəzə-gəzə Парк Ленин-ə gəldik və özümüzü ora-bura çox vurandan sonra, iki qızla tanış olduq.

Hər ikisi də erməni çıxdı.

Adlarını Süzanna və İzabella dedilər. İkisi də kök və otuz -otuz iki yaşında olardılar. Sırtıqlıq eləyərək, utanıb- qızarmadan açıq-saçıq danışırdılar:

“Od tutub yanırıq, yer tapın... - ruslardan, xaxollardan bir şey çıxmır...”

Və hətta, yekə ala gözləri ölgün Süzanna erməni ləhcəsiylə, yarı ukrayna, yarı rus dilində varvar, vulqar sözlər danışıb, pis bir söyüş də söydü:

-Хавно!

Pulumuz, aparmağa yerimiz və qızların ədəbsizliyinə görə həvəsimiz olmadığından, rotanı bəhanə eyləyib, yalandan sabah axşam, saat 20:00-a elə durduğumuz yerə görüş təyin eləyəndə, bir gecəlik gül kimi solmuş yorğun İzabella:

- Məni atdın, zəngin qəhbə qucağına tələsdin?- kinayə ilə soruşdu.

Cavab verməyə macal tapmamış, sürtük Süzanna:

- Bu alış-veriş səltənətində qaranlıq kimi kor olma, bu yanan döşlərə bax... Süzanna və Xruşşov dastanını oxumusan?

Mən də onu dolamaq qərarına gəldim:

- Hə... Xruşşovla yatan qız! Sizi tanıdım! Anan, günəşli aynayla, həbsxana məmurunun göbəyindən aşağıya şüa salan Ofeliya, düz otuz il həbsdə yaşamış, bilərzik, medalyon, saat, sırğa əvəzinə, zəncir daşımışdı...

O, hikkəylə ayağa qalxıb, mənə təpik atdı.

Süzanna da pişik kimi atılıb, əl çantasıyla Faiqə birini ilişdirdi.

Onları parkda qoyub, sabah 20:00-da... deyə-deyə qaçdıq.

Milis və ya hər hansı zabit görsəydi...

Axşam düşmüşdü, artıq turbazada танс başlayırdı. Ora qayıtdıq.

Hər ikimiz mülki paltarda olsaq da, heç nəyə, heç kimə əhəmiyyət vermədən, düz rəqs meydançasına qədər getdik.

Bəxtimizdən ağcəbədili Nazıdan başqa görən olmadı.

Nazı da proverka vaxtı çıxıb getdi.

Alla Puqaçovanın mahnısı oxunan kimi, Faiq rəqs eləməyə başladı və növbəylə düz dörd qızla oynadı.

Kirovabadlı Faiq rəqs meydançasında gül kimi açılırdı!

Kənardan baxa-baxa qəflətən, yumorla Faiqə qışqırdım:

- Ə... az estetik hərəkət elə!

Faiq rəqs elədiyi növbəti qızın çiyninə başını söykəyib, sakit-sakit yırğalanaraq vals oynayır, qız da öz dəmindəydi...

Rəqs eləməyə nədənsə utanırdım. Ən pis, qüsurlu vərdişlərimdən biri buydu.

Musiqi alətində çala bilməmək, rəqs eləməyi professeonal bacarmamaq, ən zəif yerim və ən böyük nöqsanımıydı!

Komsomol olduqca gözəl piano çalırdı. Ancaq nədənsə, özüm skripka çalmağı daha çox xoşlayırdım.

Bunları yaxşı öyrənmək üçün lazımınca işləməliyəm. Tər tökməliyəm.

Belə olmaz!

Bu zəruri, həyati vacib məsələlərdə mənə nöqsan tutulmamalıdır. Hərbi xidməti qurtarıb Bakıya qayıdanda, ali təhsili, idmanı davam eləməklə yanaşı, müəllim tutub, bunları da öyrənməliyəm.

Belə şeyləri yaxşı bilməmək, bacarmamaq sözün əsl mənasında səviyyəsizlik idi!

Bax, Bərdədən görünməyən dünyada belə işlər də vardı.

Şərq döngəmizdən baxanda, bir məsələ çılın - çılpaq ortalıqdaydı: "Başqa xalqları deyə bilmərəm, Azərbaycanda çox qardaşı olanların sözü keçərliydi. Düzü, lap qanun idi:

"Duxun" var, inanma!

Nənəm deyərdi: "Yad planetlər var, özləri qəsdən gizlədir." Bir də çox deyərdi: "Göz yaşı olmasa, adam qəflətən alışar..."

Gecə saat 01:00-da rəqs qurtardı.

Biz kazarmaya girəndə rota artıq çoxdan uyuyurdu.

Əsgər Nikulin dnevalnı dayanmış,növbətçi isə gözə dəymirdi.

Nikulin yazıq bir söz demədi...

Yerimə girəndə fikirləşirdim:

"Belə əsgərlik çəkməyə nə var?

Səhər açılır, gecə düşür...

Yəqin dostum buratino Tariyel Floreştidə, Tahir yazıq da Tbilisidə yatır. İraq olsun, görən bu gün döşəmə -zad yumayıblar?

Xosu əsgər getsə, konsertdi... qayıdanda, deyəcək: General it kimi qorxurdu məndən, arvadı diz çöküb qarşımda yalvarırdı: Xosya, məni bağışla, kiççiyinik..."

Özün öləsən, ay başı qapazlı, arxasız, tək Xosu!

Nə vaxtsa yuxuya keçmişəm...

Zemelya Faiqlə dostluğa xitam!

Odessa, 08 iyul 1972-ci il, şənbə

...Bu gün şənbəydi və qanunla istirahət günü sayılırdı.

Plan vermək lazım deyildi, amma генеральный уборка olmalıydı.

Bunun üçün yoxlama komissiyası təsis edildi. Komissiyanın sədri - Kaşşeyev, üzvləri Babaev, Fedirko və Podqornu təyin edildi.

Bu, artiq mayor Deqtyarın mənə böyük etimadıydı.

Saat 15:00-da hansı briqadanın necə işlədiyi yoxlanılacaqdı.

Briqadam ikinci blokun altı mərtəbəsini təmizləməliydi.

Uşaqlarımı yığıb, öz razılıqlarıyla, - kim-kimlə istədisə, elə də böldüm və bütün altı mərtəbədə yerləşdirdim.

İş başlayanda qayıdıb kazarmaya gəldim.

Köhnə, çirkli xebeləri yudum.

Fedirko kazarmanı təmizlədirdi. Bütün kazarmadakı yorğan - döşəyi çıxardıb, açıq havada günə verirdilər.

Zemelya Faiqlə xosunlaşıb, institutun yeməkxanasına, - həm isti sosiska yeməyə, həm də incibalıqları - Lizalarla söhbətə getdik.

İnstitutun iclas zalında tərs kimi yemək- xana işçilərinin komsomol yığıncağı keçirilirdi. Gözləyəsi olduq və hələ uzun çəkəcəyini öyrənəndən sonra da yeməkxanaya getməyi qərara aldıq. Buğlanan sudan çıxarılan isti sosiskayla qara çörəyi yaxşıca yeyib, üstündən də adama bir stəkan sərin kefir içdik.

Qayıdıb yenidən iclasın qurtarmasını gözləməyə başladıq.

İclas da üzünə durub, qurtarmaq bilmirdi.

Faiqin sarışın Lizası kök, hündür, şaqqalı, duzsuz, iri əl-ayağı kobud olduğundan mənim incibalığımdan eybəcər idi. Qızın öz əti rəngində

olan dodaqları da, qaytan kimi nazik olduğundan heç adama yapışmırdı.

O nə fikirləşdisə, qəflətən dedi:

- Gəl, “qızlarımızı” dəyişək...

Razı olmadım. Təkid eləməyə başladı, yenə razılaşmadım...

İclas uzanır, hövsələmiz daralır, vaxt da keçmək bilmirdi. Faiqlə hərdən zarafatlaşıb bir-birimizi cırnadırdıq.

Birdən o, ciddi görkəm alıb, alnını düyünlədi və qaşlarını qaldıraraq:

-Hamı bilir göz qulaqdan irəlidədir, deyəsən, sənlə mənimki tutmayacaq, - dedi.

Qulaqlarıma inanmadım.

Elə bil mənə güllə vurdu!

Necə tutuldum...

Sibirdən gələn, uzunqunc çəkməli gənc əsgərlərin içərisində həmyerlim, bərdəli Şükürə görə, əzizləyib, zemelya adlandırdığım və ən çox hörmət qoyduğum bu kirovabadlı oğlan, nədən qudurdu?

Matım-mutum qurudu.

Yəni bu qədər hörmətin qabağında, elədiyimiz dostluğun müqabilində, “belə sözü” hər hansı bir bərdəli kimsə deyə bilərdi?

Əsla!

Bərdədən görünən dünyaya belə şeylər yad idi. Buna üz lazımdı!

O, kirovabadlıydı...

Və bununla da artıq öz qanacağını, əxlaqını göstərdi! Amma maraqlıydı: Bu nəyə, kimə söykənən arxayınçılığın verdiyi yükün təzahürü idi?

Necə də utanmadan, ciddi şəkildə deyə bildi...

Neçə ayın hörmətini, indicə yediyimiz və ötən aylarda kəsdiyimiz duz-çörəyi bir andaca necə yerə vurmaq olardı?

Həm də nə üstə?

Bərdədə beləsinə, savadsız, qacımış qadınlar deyərdi: "Üzü götündən qırmızı!"

Yanıb-yaxıldım:

- Neynək! - dedim.

Və bir müddət hər ikimiz susduq.

Sanki başımdan qaynar su tökmüşdülər.

"Neynək!" - deyəndə səsim xırıldadı...

Heç nədən düşmənçiliyə gedən yolun dar, lüzumundan artıq və vaxtsız başlanğıcının məşəqqətli hissəsiydi...

Faiq danışmadığımı, qara bir bulud kimi tutulduğumu görsə də, əhəmiyyət verməyib, təkəbbürlə, heç bir şey olmayıbmış kimi çox arxayınlıqla :

- Mən gedirəm,- dedi.

Bu an, üst dodağı uzunlamasına açıldı və burnunun dibinə çəkildi.

- Get! -dedim.

O getdi...

Sanki vaqon irəlilədikcə torpaq geri qaçır, sürət artdıqca torpaq geri uçurdu.

Ürəyimdə, Faiqlə bağlı son qərarımı verdim:

“Hökmən çırpılmalıdır!”

Əclaf!

Qudurğan!

Gözlərim qarşısında yenə yanları yaşıl, köhnə bir qatar canlandı: Bərdəni ətəkləyirdik... Vaqon irəlilədikcə, yanıyla hürüb qaçan bir sürü it hey geri qalırdı...

Bu qədər hörməti, neçə ayın dostluğunu bir anda necə tapdaya bildi?

Özü də heç nəyin üstündə...

Bəlkə, bəzi rus əsgərləri kimi odekalon içib? Ya quru çörək diliminin üstünə çəkmə mazı “sürtüb” yeyib?

Düşündükcə, yanıb - yaxılırdım.

Qupquru pambıq çöpü kimi, dizimlə səni sındıracam...

Faiq kirovabadlı!

Молодой olasan, dopdoğmaca qonşu bölgədən olasan, aylarla sənə hörmət qoyan həmvətəninə, yad, tanımadığın rus qızına görə belə sifət göstərəsən...

Elə bil Qara dənizlə birgə Xəzər dənizi xışhaxışla qalxıb enir, hərdən də qabarır, amansız, köpüklü dalğaları hirs-hikkəylə sahilə çırpılıb, boğuq guppultu yaradırdı.

Yox!

Əsla... bu işi sənə bağışlaya bilmərəm.

Ya sən qazanacaqsan bu dəfə, ya da səni məhv edəcəm...

Saat 14:42-də balaca Lizamın düz üstümə tərəf nazla gəldiyini gördüm və cəld xəyal dünyamdan ayrılıb, pişvazına çıxdım.

Pəncərənin qarşısında dayanıb xeyli söhbət elədik.

Və qəflətən, o da uşaq kimi dodaqlarını büzərək, qaşlarını düyünləyib:

- Yox, daha dalımca gəlmə,- dedi, hələ balacayam, burada da anama kömək eləyirəm, bilsə, döyəcək məni.

O, heç bir cavab gözləmədən, uşaq sadəlövhlüyüylə çevrilib getdi...

Canıma istilik yayıldı: Bu nə məsələydi? Ürəyimi üzmə... - deyə də bilmədim.

Dalbadal ikinci zərbəni alırdım.

Qəfil göy guruldayıb, çöldə yağış tökməyə başladı.

Leysan yağırdı.

Sel-su aləmi başına götürdü...

15:00-da hərbi hissəmizdə olmalıydım. Yoxlama keçirməliydik.

Liza getmişdi... Hələ də yerimdə quruyub qalmışdım.

Axır ki, bu an komsomol iclası qurtardı.

Köhnə tanışım olan Qrişa adlı oğlanla qarşılaşdıq. Ürəyimdə bir qədər götür-qoy edəndən sonra, özlüyümdə kədərə əlvida deyib, məsələni ona

açdım. Qriş Lizanın anasını tanıyırdı və söz verdi ki, onunla danışacaq.

Acizanə xahiş elədim: Liziçkayla da danış, sabah gəlib nəticəsini öyrənərəm.

Biz kəsəmət kəsib, kişi kimi ayrıldıq.

Yağış bərk döşəsə də, bir az yüngülləşib yeyin qaçmağa başladım. Cılxa suyun içində kazarmaya çatanda gördüm, yağışa görə hamı пастелини içəriyə daşıyıb, qalıb təkcə mənimki. Döşəyim eləcə özüm kimi, suyun içindəydi.

Görünür, bizim uşaqlar döşəyin mənim olduğunu bilməyiblər.

Yaman əzgin və küskün idim...

Əynimi dəyişib, suyu süzülən döşəyi uşaqlarla köməkləşərək kazarmaya gətirib, dikinə pəncərəyə söykədik ki, suyu süzülüb tədricən qurusun.

Kubrikadan başqa bir quru döşək götürüb gətirdik, O birisi iki-üç günə ancaq quruyardı.

O da gün çıxsa...

Yoxlama komissiyası saat 15:00 əvəzinə 16:00-da toplaşdı.

Rotanın apardığı УБОРКА -nı yoxlamağa getdik. Yoxlayıb qiymət verməliydik...

Toplanan xallara görə Fedirko ilə mənim briqadamın balları eyni oldu və hər ikimiz birinci yeri tutduq.

Mayor Deqtyar yaxşı təmizliyə görə Elmanla Vahidə уволнения elan elədi.

Leysan yağış, qıjovla axan sel kəsmişdi...

Rotayla birlikdə hamama getdik.

Uzun hamamın yan-yörəsində çilçilsifət, kuybışevli Hüseyin Mehdiyevlə hərlənib, tualet axtarırdıq.

Hamamın arxasındakı məftil zivədən rəngbərəng qız купалъник-ləri asılmışdı.

Hüseyin xəlvətə salıb, qəflətən qara rəng купалъникин-in birini zivədən çıxardaraq, xebesinin düymələrini açıb sinəsində gizlətdi.

Cəld aradan çıxdıq.

O, hamamın tualetində qadın çimərlik paltarının döşlüyünü atıb, yamyaş tumuşunu əyninə çərtdətdi. Ölçüsünə idi.

Qadın tumuşunda kuybışevli Hüseynin "şeyi" qalxdı. Üstdən aşkar hiss edilirdi...

Qeyri-ixtiyari birini götürmək həvəsinə düşüb: "Tomaya verərəm," - fikirləşdim.

Hüseyin də özünü didib-tökür, məni qızışdırıb dingildədirdi.

"Müxənnətə nəhlət," - deyib, yenidən geri qayıtdıq.

Kənardan zivənin üstündə sıralanmış qız купалник-lərinə baxıb, gözüm al qırmızı birinə sataşdı və qəflətən qaçıb, oğurluq və yad adama məxsus olduğu üçün iyrəndiyimdən, baş barmaqla adsız barmağımın ucunda dartıb onu zivədən qopartdım.

Bu da nəm idi.

Qaçdıq...

Yaman gözəl, təzə və bahalı, həm də liftçiyi həddən çox yaraşıqlıydı. Görəsən, bunun içərisində kimin döşləri gizlənirmiş? Oğurluq, al qırmızı yad qadın çimərlik paltarı gözlərimdə elə gözəl göründü!

Və bir anlıq mənə elə gəldi, oğurladığım купалъник, sözsüz Hüseynin oğurladığından daha bahalı, yaraşıqlı və bu yad al qırmızı купалъник-i geyinən qız, ya qadın özü də yüksək təbəqəli, oxumuşun biridir.

Həyatımda ilk dəfəydi nəsə çırpışdırır və dərindən dərk eləmirdim ki, bu elə əsl oğurluqdur. "Kasıblıq eyib deyil, amma oğurluq eyibdir" -məsəlini xatırlasam da, tutduğum işin oğurluq olduğuna inanmırdım.

Mənə elə gəlirdi, zivədəki купалъник -lər kefi kök qız, ya qadınlarındır və bundan onlarda hər rəngdə var. Hətta bilsələr mən götürmüşəm, heç nə də deməzlər, biləcəklər ki, zarafatdı, ərklə götürmüşəm.

Çimərlik paltarıdır də...

Nədi ki?

Toma bunları görəndə çox sevinəcək, elə onun sevinci mənə bəsdir!

...Hüseyinlə bir-birimizin kürəyini ətirli sabunla sabunlayıb, bərdəli arvadların sözü olmasın: "Canıdildən maçalkaladıq".

Çimə-çimə öyünüb, hey, səy-səy oğurluq əməlimizdən iftixar və qürurla danışırdıq.

Hamamda yaxşıca çimdik.

Axşam ужин-i çox gec verdilər.

Lenin parkında, saat 20:00 görüşünə getmədim.

Qılçalarını aralayıb, hissiyatıma əbəs yerə cəhd edən erməni qızları -Süzannayla İzabella, zarafatlaşıb dalaşsaq da, yəqin səbirsizliklə yolumuzu gözləyəcək.

“Yanırıq,”-deyib, dad döyürdülər...

İstəsəydim gedərdim!

Faiqin əvəzinə nə çox tamarzı əsgər, amma nəsə erməni qızları özlərini çox ədəbsiz, qadına yaraşmayan, - sırtıq, söyüşcül, qəhbə kimi apardıqlarına görə heç həvəsim olmadı.

Onları düşünəndə, nədənsə çürüməkdə olan çəmənlik yadıma düşdü...

Axşam yeməyindən sonra Nazı, Ədalət, Hüseyin, mayıf Mamed, Turabxan və Çingizlə qırmızı kərpiclərin üstündə dairəvi oturub, ordan-burdan söhbətlər edirdik.

“Sibir uşaqları”ndan olan Ramiz salamsız-kəlamsız, özbaşına gəlib, çox iddialı şəkildə yanımızda oturdu.

Onun da familiyası Babayev idi.

Elə Süzanna və İzabella kimi bu da təklif gözləmədən və “qazanda” nə bişdiyindən xəbəri olmadan söhbətimizə müdaxilə edir, yüksək tonda həyasızlıqla danışırdı.

Onsuz da bizim müsəlman əsgərlər danışanda, kənardan davakar qışqırtılar kimi eşidilərdi. Bu isə lap ağını çıxardıb, heç birimizi saya salmırdı.

Əsədov dözməyib əsəbi şəkildə:

- Bala, sən yeyində tam sakit duyyy... danışanlay səndən böyükdüüyy...

Əsədovun söz deməsiylə, qəfil paslı tətiyi çəkilən tapança kimi, Ramizin qayıdıb onun pirişikli sifətinə sillə çəkməsi bir oldu.

Arxasıyla da, ana-bacı qoymadı,söydü.

Ədalət, Hüseyin və Turabxan durmaq istəyəndə, sakitcə Nazim özü qalxıb:

- İsti dedim, ağzın yandı? - deyib, qəfil burnunun üstünə karlı bir yumruq, arxasınca da yaxasından yapışıb, ağzına dalbadal iki kəllə vurdu.

Tullanıb bir yumruq da gözünün altından Turabxan geydirdi. Götünün üstünə də bir təpik mən ilişdirdim.

Ədalətlə Hüseyin də cumdular, amma çox ağ olurdu, odur, qışqırıb onları zorla saxladım.

Nazı sakitcə dedi:

- Göymüysən əə, axıy vaxtlay bunlayın hamısı quduyubb...

Ramizin ağzı-burnu qanamış, gözünün altı köpəşiyib şişmişdi, cınqırını belə çıxara bilmədi.

Ruslar da kənardan görürdü. Amma heç kim heç nə demədi.

Ruslara görə də onu çox döymək olmazdı, nə qədər olmasa müsəlman idi.

Yekəbaşlıq elədi, payını da çox layiqincə ödədi.

Qoy dərs olsun!

İki-üç gün əvvəl meydançada futbol oynayanda da, kimə gəldi sataşır, söz atır, onun-bunun üstünə cocuyur, qışqırıb-bağırırdı.

Hələ Sibirdən gəlmiş öz uşaqlarıyla da yersiz mübahisə eləyir, özünü çox yenilməz, saymazyana aparırdı.

Müxtəsəri, özünü dəliliyə vurmuşdu:

“Burda mənəm, Bağdadda kor Xəlifə!”

Pisikmiş, aralanıb getdi...

Onsuz da ürəyimdə, Sibirdən gələn uşaqlara qarşı soyuqluq, nəsə bir nifrət oyanmışdı:

“Faiqə bax hələ!”

Bütün bunlara bərdəli Şükürə görə hörmət qoydururam, əvəzində başımıza çıxırlar.

Artıq yavaş-yavaş çarx tərsinə fırlanır...

Axşam rota kinoya getməyə düzüləndə, Boyko məni патрул elan elədi və Mürşüdlə Hüseyni köməkçi verdi.

Tağım komandiri Podqornu dərhal qırmızı sarğıları bizə təqdim eləyib, qolumuza bağladı.

Mənə də elə bu lazım idi. Şənbə günü olduğundan möhtəşəm tans oynanılacaqdı!

Rota kinoya yola düşən kimi, uşaqları götürüb, qonşu- Дружба sanatoriyasının rəqs meydançasına getdim.

Kaset qoymuşdular. Alla Puqaçova gözəl səsiylə oxuyurdu.

Nəsə, bir az dayanıb darıxdım. Adam çox olsa da, cavan qızlar az idi. Turbazanın rəqs meydançası

daha atəşfəşan olurdu. Söz yox, Ukrayna gözəli Sofiya Rotaruyla indi oralar dağılır.

Qayıdıb gələn kimi, əvvəl turbazanın qarşısında bir qədər var-gəl elədik və gözlənilmədən Boykoyla qarşılaşdıq.

O, bizi görüb dillənmədi və tələsik harasa getdi.

Sonra Tomayla Tolyanın qol-qola gəldiyini görüb, onu muştuluqladım:

- Sənə bir çimərlik paltarı verəcəyəm, qıpqırmızı da rəngi var.

- Neçəyə almısan? - necə oldusa, qəhbə qiymətini soruşdu.

- Pişiklə yalaşan bir qızdan oğurlamışam, - dedim.

Onlar gülüşdü, bildilər ki, zarafat eləyirəm.

Qolumuzdakı, üzərinə CA hərfləri və Патрул sözü yazılmış qırmızı повязка-ya görə bizi biletsiz içəri buraxdılar.

Gördüm Əsədov, Fedirko, Voronkov və Maksim Malışev də içəridədir.

Qorki söhbətindən sonra, Malışevi-Mariya Maksim, İvanyşşenkonu isə Herbert Qorki adlandırırdım.

Onlar rəqs edirdi.

Медленни rəqsləri oynaya bilsəm də, nədənsə oynamağa utanırdım.

Bir neçə qadın oynamağa dəvət eləsə də:

“Bacarmıram,” - deyib, - üzr istədim.

Gözlənilmədən, tələm- tələsik starşina Kirilyuk göründü.

Cəld Hüseyin və Mürşüdlə tünlükdə gizlənib, sivişərək aradan tez çıxdıq. Rəqs edənlərin başları qızlara qarışıq olduğundan Kirilyuk onları gördü.

Az sonra, dördü də Kirilyukla birlikdə rəqs meydançasından çıxıb düz kazarmaya tərəf getdilər.

Və "Ы" əməliyyatından bir qədər keçmiş, Alla Puqaçova oxuyanda, Boyko o gözəl arvadıyla göründü...

Starşinanın bu "təmizləmə" əməliyyatının məğzi faş oldu.

Boyko arvadıyla rəqs meydançasında görünən kimi, qoruyucu missiya vəzifəsini yerinə yetirən starşina Kirilyuk yenidən peyda oldu. Az keçmiş Fedirko da göründü

Boyko starşinadan: "Fedirko neyləyir burada?"- soruşanda, Kirilyuk yalandan:

"Mənimlə gəlib..."-dedi.

Müəmmalı dialoq oldu.

Gecəni xeyli hərləndik.

Biz kazarmaya qayıdanda dedilər ki, Boyko əsəbi gəlib və öz kubrikasında arvadıyla mübahisə edir.

Xatirəsinin yarasına artıq ağ qurd düşmüş Pervomayskidəki "o moskvalı sıravi əsgər" tərxis olunub gedəndən, Boykonun ailəsində sakitçilik idi...

Bəs indi xeyir ola?

Dağlarda kəl gönündən çarıq geyinən патрул Mürşüd, biti, birəni, büvəni, güvəni, gənəni bir-birindən ayıra bilməyən Pirelyevi mağazada çaxır alarkən tutmuşdu.

Levçenko da kefli idi.

Mənə məhəl qoymadıqlarından, necə deyərlər, bığımın altından keçmədiklərindən mən də acıqla starşinaya məruzə elədim.

Keçəl başını yudu da, daradı da.

Beləcə növbəti əsgər gününü yaşadıq...

ТРУД qəzeti

Odessa, 09.07.1972-ci il.
Bazar günü.

Gecələr çox gəzib, kazarmaya səhərə yaxın gəldiyimdən, sübh tezdən qalxıb idman eləyə bilmirəm.

Son vaxtlar boks məşqi, dənizdə çimmək məsələsi də fasilələr verir, hətta dişlərimi yumağa belə ərinir, bütün bunlar məni çox narahat eləyirdi.

Şəhər hamamının həyətindəki zivədən götürdüyüm al qırmızı qadın купальники artıq canımı sıxmağa başlamışdı.

Mən nə etmişdim? Bu hərəkətin adı nə idi?

Cəsurluq?

Yavaş-yavaş vicdanımın səsi oyanıb məni narahat edir, əzirdi.

Dalğınlıqla düşünürdüm: Bəlkə kimsə son qəpiyini verib alıb? Bəlkə kimsə ərindən qısıb yığdığı, ya başqa birisi boğazından kəsib valideyninin verdiyi pulla alıb bunu?

İçimdə nəsə məni didir, fikirlərim dönüb qurdeşənəyi olmuşdu.

Camalı şölə saçan Komsomolum bilsə, bu işə necə baxardı?

Gizlində oğrun-oğrun, yanıqlı ehtirasla siqaret çəkən Sarıkirpiklinin, ağ mirvari sırğalı, iri əndamlı Məhbubə xalanın, bənövşəgözlü əzabkeş Katerinanın, ya başqa tanış qız-qadınlardan hansınınsa, -alt çimərlik paltarını kimsə oğurlayıb aparmış olsaydı, mən nə edərdim?

Hava buludlu olsa da, hələ yağmırdı.

Tutduğum əmələ peşimançılığın verdiyi yükün ağırlığından qəlbimin səsi, düşüncələrim məni yaman boğazlamışdı: Özümü niyə, nədən bu səviyyəyə endirmişdim?

Hüseyin kolxozçu ailəsindən çıxmışdı, Ağcabədinin Kuybışev kəndində böyümüşdü, savadsız, oxumamışın birisiydi.

Niyə ona qoşulmuşdum?

Keçirdiyim təbəddülatlardan sonra, atüstü qıpqırmızı çimərlik paltarını götürüb, həftədə bir gün əsgərlərin ixtiyarına verilən hamama tərpəndim.

İlahi!

Yazıqlar qorxudan, məftil zivədən heç nə asmamışdı...

Oğrun-oğrun güdərək adam olmayanda al qırmızı alt qadın çimərlik paltarını zivədən asdım və gizlincə qayıdıb, gəldiyim səmtə götürüldüm.

Bu ilk oğurluq çimərlik paltarı, düzü nə qancıq Tomaya, nə də ki, mənə lazım idi.

Qırışmal Hüseyin özü bilər, vicdan onun, əqidə -amal onun. Tariyelin anası, yeganə bərdəli Sovet İttifaqı Qəhrəmanı olan Aslan Vəzirovun

dopdoğmaca qardaşı qızı Rəfiqə xalanın sözü olmasın: Can onun, cəhənnəm Allahın...

Yaman sakitləşdim.

Salam, eyy... şirnikdirici və əlvida, kədərli oğurluq!

Bizimki tutmadı eyy...zavallı!

Sıra meydanındakı növbəti düzləmdə, dünənki nümunəvi патрул-luğa görə Boykodan yenə благодарность aldım. Amma düzünə qalsa, heç mənə düşmürdü.

Hava buludlu, tutqun olduğundan dənizə getmədim.

İnstitutun yeməkxanasında Lizanı tapdım. İncibalığım bir qədər yumşalmışdı. Xeyli söhbət elədik, deyəsən, elə əclaf Qrişa özü onu sevir...

- Axşam 17:00-da gələcəyəm,- dedim.

Çox mehriban əl tutub, ümidlə ayrıldıq.

Kefim kökəldiyindən kazarmaya qayıdıb qırmızı idman formamı geyindim.

Bakir Heydərovun güclü Sibir komandası ilə, kapitanı olduğum yenilməz Azərbaycan komandasının əsgərləri toplaşıb, mərclə futbol oynadıq.

Möhtəşəm oyun keçdi:

0:2, 2:2, 3:2, 3:3, 4:3, 4:4, 4:5, 5:5 və sonda, altıncı qolu vurub qələbə çaldıq!

Atı alıxsız minən qayışbaldır Turabxan, səmə Elman və vaskı Nazı yaxşı oynadı. Hamımız tərin-suyun içindəydik.

Krantda yuyunduq...

Çılğın oynadığımızdan hamının sir-sifəti qızarmış, gözlərinin ağı təmizlənmiş, yanaqları allanmışdı. Mənim də sifətim od kimiydi, yanaqlarım əlimi yandırırdı.

Axır ki, futbolda da starik olduğumuzu sübut eləyə bildik. Molodoyların qarşısında xəcil olmadıq. Uşaqların çoxunun dirsəkləri, alın-başları, dizləri, çiyinləri sıyrıq-sıyrıq olmuşdu.

Uzun sürən duman, çisgin, yağışdan sonra açılan havada, günəş şəfəqləri altında bərq vuran dağ yarpaqları kimi Laçın, Kəlbəcər uşaqlarının da üzü gülürdü.

Qələbənin ləzzətini yaşayırdıq...

Katerinayla görüşməliydim.

Odur ki, təsadüfi görüşdən doğulan, gicgici Boykodan уволнения almaq lazım idi.

Heç kimə heç nə demədən, özümü səliqəyə salıb парад formamı geyindim. Səmə Elmanla şamxorlu naşükür Vahid də geyinib hazırlaşırdı.

Boyko məni buraxmadı:

- Xanımımla gəzməyə gedirəm. Zabit və serjantlardan da heç kəs qalmayıb. Sən də getsən, rota başsız qalacaq, nizamsızlıq, xaos olar...

Çox qanacaq, həlim, nizamlı və nəzakətlə xırdalasa da, bu təklif-məsləhət mənə sancaq kimi batdı.

Amma üstünü vurmadım.

Təsadüfi qurulan ailə başçısı Boyko mataq arvadıyla bəzənib-düzənib kubrikadan çıxanda, onları yola salırdım.

Qadın ətri vaqon-kubrikanı bürümüşdü...

Tez qızışıb Boryanın cibinə 3 rubl basdım.

Canıyanmış necə gözəl idi!

Həyat- yaşamaq zəhmətinə dəyməsə də, beləsini görəndə yanıldığını zənn edirsən.

Beləsinin yolunda adam ölmək istəyər. Elə bil qancığın mayası işvə-nazdan yoğrulub. Bir an mənə elə gəldi ki, belələri doğmaq üçün yaranmayıb. Bunlarınkı səyahət, restoran, çimərlik və oynaşlarıyla yataq romanları yaşamaqdır.

Belələriylə müharibələri də udmaq olar.

Mərc gələrəm!

Sanki Allah belələrini yaradır ki, süd dişləri çıxandan qucaqlardan düşməsin...

Elə onlar çıxan kimi, haradansa tağım komandiri, molodoy Podqornu peyda oldu. Topla ilk dəfə oynayan körpə uşaq kimi sevindiyimdən yüyürüb onu qucaqladım:

- Məni gözləyirlər, nə yaxşı gəldin!

Kənd-kəsəkdə, əliyünğül, əkiz doğulmuş, qaşqabaqlı anası donuz, qaz saxlayan, əliağır əclaf traktorçunun oğlu, dünyaca məşhur familiya daşıyan Podqornu, nədənsə, hədsiz dərəcədə sevinib, Boykodan ehtiyat eləsə də, qətiyyətlə dedi:

- Get, amma tutulma...

Sonra nə fikirləşdisə, kişilənib:

- Hər ehtimala qarşı, tutulsan da, ничего, mayora lap deyərsən Podqornu buraxıb.

Bu kişiliyi məni mütəəssir elədi və ürəyimdə ona çaxır söz verdim.

Zəmanə adamı!

Onsuz da vaxt daralmışdı, gedəcəydim.

Mənimki gətirdi!

Hərbi parad formada uvolnitelnisiz, əvvəl Deribasovskaya gedib Nazıyla çəkdirdiyim fotoşəklin neqativini aldım.

Çox axtarsam da, фиксаж tapa bilmədim.

Adambaşına sarı bir manatdan, düz qırx həmyerlimdən pul yığıb Чайка-3 almışdım, indi isə çəkdiyim şəkilləri çıxartmalıydım ki, heç olmasa uşaqlar inciyib küsməsin, söz-söhbət yaranmasın, narazı qalmasınlar,gözləri bir şey görsün.

Öyrəndim ki, Dəmir-yol vağzalının aşağı yanındakı fotomağazada tapılar.

Oraya tərpəndim. Güclə axtarıb mağazanı tapsam da, фиксаж burada da olmadı.

Чайка-3 çamadanımda yatır, plyonkası dolub, проявитель var, фотобумага var, hər şey qaydasında, di gəl фиксаж məsələsi...

Böyük, qara rəngli televiziya kameraları quraşdırıb, elə küçədəcə film çəkirdilər. Bir qədər maraqla tamaşa elədim.

Фиксаж məsələsinə görə kor-peşiman geri qayıdanda, qarşıma iyirmi beş-iyirmi yeddi yaş arası bir qız çıxdı. Boyca məndən balacaydı. Gözünü

mənə zilləmişdi. Uzun müddət itkisini axtarıb indicə tapan adamlar kimi gözləri par-par parıldayırdı:

- Əsgər! - qəflətən qışqırdı və düz üstümə sarı gəldi.

Heç ağzımı açmağa macal tapmamış, sevincək:

- Baş serjant, dənizkənarı bulvar lazımdı, istəyirəm bir az gəzəm, nə kömək eləyə bilərsən? Könlümə toxunsan, peşman olarsan.

İlham qızı minmişdi!

O, lap burnumun ucunda dayanmış, ağzından içdiyi konyakın qoxusu gəlir, nabələd adamdan çox, "bazarlığı" alınmamış adama oxşayırdı.

İçkili olduğundan tanış olmağa həvəsim olmasa da, işi tündləşdirməyib фиксаж tapmaq ümidiylə:

- Gəl gedək, gözəl, söz yox, qadın evin majorudur, - dedim.

Sözün mahiyyətin anlamasa da, fərqinə varmadan yastıburun ayaqqabıda, dənizçi köynəyi geyinmiş qız dərhal qoluma girdi.

Təsadüfi görüşlərin birində ilişərək, qana bulaşmış tumuşunu saymazyana zibil yeşiyinə atan, bakirəliyinə günortanın qızmar istisində, pişiklərdən başqa heç kəsin olmadığı vaxt atüstü əlvida deyənlərdən doğulana oxşayırdı.

Yolüstü tanış olduq, adını:

- Mariya, - dedi, - bu gecə saat 01:00-da Odessa aeroportundan təyyarəylə Tulaya uçacağam...

Günəş qaval kimi başımıza döyürdü.

Cilalanmış tapança kimi, yanağı par-par parıldayırdı.

Gördüm havalıdır, bulvara getsək, çox çəkəcək, odur ki, özünə bildirmədən Arkadiya mehmanxanasının qarşısındakı xiyabana aparmaq qərarına gəldim...

Başım ağırlaşmış, kölgə və rahatlıq arzusundaydım.

- Gəmilərin dor ağacları hündürdə yırğalanıb cırıldayır,- hə? –soruşdu.

Və birdən hündür direkdən asılmış yumru böyük saata gözüm sataşdı: Əqrəblər 13:47-ni göstərirdi, on üç dəqiqədən sonra üfüqdəki ümid gəmim olan bənövşəgözlü Katerinam məni gözləyəcəkdi. Sanki dənizdə qaynar hava axını dalğalandı. Süstləşmiş ləpələr tənbəl-tənbəl sahilə çırpılmağa başladı.

Bıçağın metal ağzı günəşdə parladı!

Qəflətən üzbəüz dayanıb, az qala acizanə yalvardim:

- Mariya... mən əsgərəm, əynimdəki parad formanı da görürsən, bir qədər tək gəz...

Heyrətlə üzümə baxa-baxa, günün altında qorxusundan donub qaldı. İstidən və həyəcandan başım şişsə də, ümidverici tərzdə:

-Əndişələnmə... cəmi on üç dəqiqə vaxtım qalıb, cəld hərbi hissəyə qayıdım, iki-üç saatdan sonra mülki paltarda samovolkaya qaçıb gələrəm... Gecə saat birdə də səni aeroportdan yola salaram. İndi ixtiyar özünündür. Bu an səbr daha uyğundur...

O, aramsız olaraq gözlərimin içinə baxa-baxa, deyəsən dediklərimin səmimiyyətinə tam inandı. İçib, zehni aktivliyi müvəqqəti qaldırıb gəlsə də, söz tapmadı. Tələb etməyə haqqı çatmadığını tam anlayaraq, çıxımına getməyə razılaşdı.

Və saat 17:00-a, elə ayrılacağımız bu yerə görüş təyin elədik...

Taksiyə oturub: ул. Маршала Жукова 2 - ünvanını deyərək, içi qəhər dolu Katerinagilə sürdürdüm...

Bloka girməzdən, həyətdəki çəmənlikdən bir ot sapı qırıb, dişimin dibini qurdalaya- qurdalaya pillələri qalxdım.

...Həmişəki qaydada, lütfkar qız məni çox mehriban qarşıladı.

O, vəcdə gələcək dərəcədə dəyişib, nə qədər məsum olmuşdu...

Əllərinə qulluq eləyir, hər bir arzumu dərhal yerinə yetirirdi.

Xasiyyətimiz tuturdu.

Gördüyü işə özüm kimi ehtirasla, bütün qəlbiylə yanaşırdı. Cavan gəlin ola-ola, yataq otağında sübhə qədər, əsasən gəncliklə müşaiyət olunan eyş-işrətsız, yalqız qalırdı.

Ərinin ucbatından bomboz, mənasız ömür sürür, amma əlinin zəhmətiylə dolanırdı. Nifrət elədiyi -tamahkarlığın əsiri olanları, xəyanət edən qadın və kişiləri ələ salıb belələrinə gülür, onlara hiddətlə yanaşırdı.

Ərindən, rəfiqəsindən bu gün kəlmə də danışmadı.

Ежегодник - 1971 kitabını oxuyurdu.

Большая Советская Енциклопедия-dan Azərbaycan, Bakı, Qız qalası, Xəzər dənizi, Neft daşları, Qobustan, Göygöl haqqında xeyli öyrənmişdi.

Hətta qərara aldıq ki, Bakının Нефтчи futbol klubu Черноморетс-lə oynayanda, gedib birlikdə baxaq.

26-ları, Kremldə dəfn olunan Nəriman Nərimanovu, Məhəmmədəmin Rəsulzadəni, Heydər Əliyevi, Qara Qarayevi, Niyazini, Tahir Salahovu, Nizamini, Fizulini, Koroğlunu, Cavad xanı, partizan Mixaylonu, şəkili Əhmədiyyəni, bakılı Rixard Zorgeni ona tanıtmışdım.

Nobel qardaşlarından, onların Bakı buxtalarında neftdən ətək-ətək qazandıqları milyonlara kimi demişdim.

İki dissident hərəkatı həyatı yaşayan Nadir Ağayev və Əbülfəz Əliyev haqqında... Hüseyin Cavid, Salman Mümtaz, Müşfiq və digərlərinin repressiya qurbanları olduğunu da bildirmişdim.

Akademiklər,- Yusif Məmmədəliyev, Ziya Bünyadov, Azad Mirzəcanzadə, Topçubaşov, Midhəd Abbasov, Heydər Hüseynov və fizik Landau haqqında özü oxumuşdu.

Bilirdi ki, akademik Ziya Bünyadov həm də Sovet İttifaqı Qəhrəmanıdır.

Üç dəfə təqdim edilsə də, bir dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş qorxmaz, tank qoşun- ları komandanı, Katyanın doğmaca vətəni Ukr- ayna uğrunda döyüşmüş general H. Aslanov...

Hələ Amerikada yaşayan azərbaycanlı, dünyada ən məşhur "Qeyri-səlilst nəzəriyyə"si- nin banisi Lütfüzadə! Onun haqqında da xeyli danışdım.

Almaniyada yaşayan və Qurban Səid imzasıyla tanınan Əsədbəyin, - Stalin, Hitler, Mussolino haqqında yazdığı memuarlardan və qələmə aldığı "Əli və Nino", "Allahu-əkbər", "Son peyğəmbər", "Altunsaç" romanlarından da onu xəbərdar eləmişdim.

Gözlənilmədən soruşdu:

- Bəs sənin yaşadığın, bağlamalar aldığın rayondan tanınmış kimsə var?

- Niyə yoxdur? Var! Bizim Şərq küçəmizin məşhurlarından olan, –qonşumuz, Buratino Tariyelin anası Rəfiqə xalanın dopdoğmaca əmisi Aslan Vəzirov. Bərdənin Zümürxan kəndindəndir. Polkovnik rütbəsində, Sovet İttifaqı Qəhrəmanıdır. Azərbaycan SSR Ali Sovetinin deputatı olub. Moskva ona dörd "Qırmızı Bayraq" ordeni verib. Polşanın "Qrunvaldın rıtsar xaçı" ordenini alıb. Oder çayını döyüşə-döyüşə keçib. Sizin Ukrayna cəbhəsində komandanlıq edib...

Bərdənin Lənbəran kəndində doğulub boya- başa çatan Əliş Ləmbəranski, - iki "Lenin", üç "Qırmızı Əmək bayrağı" ordeni var. Azərbaycan

SSR Nazirlər Soveti sədrinin müavini olub. O da mənim kimi sizin doğma Ukraynada hərbi xidmət keçib.

Vətən Müharibəsindən az qabaq: 1939-1940-cı və 1942-1943-cü illərdə Rostovda döyüş zamanı... dörd güllə yarası alıb, sağdı, Bakıda yaşayır.

Amerika səfərində kömrük xidmətindən keçəndə yoxlayıcı qurğular göstərib ki, onun üstündə metal var. Çox axtarıblar, heç nə tapılmayıb. Qurğu isə susmurmuş. Sonda onu lüt soyundurub, xüsusi aparatdan keçiriblər, yenə səs kəsilməyib və axırda məlum olub ki, müharibədə aldığı bir güllə gilizi hələ də canındadır...

Hələ Baxşalı Baxşalıyev.

Bərdə şəhərində doğulub orta məktəb oxuyan, hal-hazırda Azərbaycan Sovet Sosialist Respublikasının Maliyyə naziridir.

Necə ilhamla danışırdımsa, qəflətən Katya məni bağrına basıb qucaqladı:

- Kaş mənim də ərim sənin kimi- Zöhrə ulduzu tək yol göstərən olaydı. Elini- obasını, yurd- yuvasını belə ürəkdən sevəydi!

Bir az duruxub, hissiyyatla sözünə davam elədi:

- Sənin sevdiyin o Komsomol qız xoşbəxt olacaq! Sənin amalın, əqidən, məsləkin və ən əsası vicdanın var...

Katerina məni sevirdi!

Saçlarından, dodaq və döşlərindən çıxan qoxuya bələnmişdim.

İncəliyə yiyələndiyimdən, tez-tez onu bağrıma basıb, qulağına pıçıldayırdım:

- Heç yanda yox, təkcə sənin ağuşunda özümü xoşbəxt hiss edirəm...

Yataqda mənə necə qısılırdısa, ona yazığım gəlirdi. Axı birgə həyatımızın ömrünə cəmisi bir neçə ay qalmışdı.

O, bunu bilirdi. Ancaq dönük həyatından və özündən qurtulmaq üçün məni seçsə də, indi başqa çarəsi yoxuydu...

Gözlərinin və dodaqlarının kənarına xəfif qırışlar düşmüşdü. Bəlkə də onun özü bunu sezmirdi. Bütün bunlar xəyanət, alkoqol, narkotika və sonra da, ən sonuncu miskin asılılığı qumar olan əri Seryojaya görəydi. Tələf olmuş arzularının bəhrəsiydi ki, vaxtsız-vədəsiz qazanmışdı.

Saat 16:45 -də geyinib çıxdım.

Taksiylə gedib Tomagildə mülki paltarımı geyinərək Mariyanın görüşünə tələsdim.

Ağlıma hardansa gicgici bir fikir düşdü:

“Cinayət eləməzdən əvvəl söz yox ki, elə mülki geyinmək daha yaxşıdır... qaçıb aradan çıxanda, - o da hələ çıxa bilsən - səni ordu sıralarında, hərbi hissələrdə axtarmasınlar.”

Və sonra da düşündüm ki, elə bir cani yoxdur, iz buraxmasın.

Beynimə qəfil gələn bu axmaq kriminal elementlər tez də ötüb keçdi və yolboyu Mariyanı fikirləşdim: “Artıq, tulalı qızla da tanış olurdum.

Mariya bizimlə hərbi xidmət çəkib, dünyayla məşhur familiya daşıyan kəlçə şorgöz gədə, Kalaşnikovun həmyerlisi idi. Bəlkə tanışı, qonşusu, ya əməlbaz qohumudu? Maraqlıydı, "bazarlığı" kiminlə, niyə, nədən alınmamışdı? Görəsən yolumu gözləyir? Əgər dəyanəti çatıb gözləsə, deməli tulalı, qızlar etibarlı olur... Bəs gurultulu soyadlı əsgər yoldaşım bilsə, inciməz? Yox əşşi... belə işlərə ruslar pis baxmır, müsəlman deyillər ki...

Ən ucuz pozğuna da tamah salan bizik. Bizim qəbahətli qadınlar təklülə tüfəng kimi tək-tək atıb, bığlı, kepkalı kişilərimizi yıxardı. Rus pozğun qəhbələri isə Maksim pulemyotu kimi dayanmadan boşaldar, biçərdi bizimkiləri... dığırlanardıq heysiz-heysiz harda gəldi...

Mənə elə gəlirdi görüşsək, bakirə də olsa, içkili və yol üstə olduğundan, hansı yolla olur-olsun cinsi əlaqəyə girəcək.

Mariya istəsə, mənim də fikrim qəti idi. Katerina titim-titim titrəyən dodaqlarıyla nə qədər öpsə, dırnaqlarıyla canımı şırımlasa da, - yenə intim əlaqə yaşamağa həvəsim qalmışdı.

Amma o məni lüt görsə qorxacaq: Sinəm, kürəyim, boyun-boğazım, hətta əl-ayaqlarım dırnaq izləri, diş yerləriylə doluydu. Ancaq yaxşı ki, üzü gecəyə gedirdi..."

Taksi hələ çatmamış, uzaqdan Mariyanı gördüm. Yaxınlaşanda diksindi və dərhal da solğun

bənizinə bir rahatlıq, arxayınlıq yayıldı, yanaqları allandı.

Məni elə həsrətlə qucaqladı, elə bil beş-on il əvvəl ayrılmışdıq və bir-birimizi yüz ildi tanıyırdıq...

Beş nömrəli trolleybusdan turbazanın yaxınlığında düşdük. Özüm vaxtı uzadırdım, qaranlıq çöksün. Yaxınlıqdakı taxta oturacaqda oturan, sabahı ümidsiz yaşlı qadın, yanındakı yekəqarın, çalbığlı kişiyə nostalji hisslərlə Bertman pianosu haqda nəsə danışırdı...

Mariya məni mülki paltarda görəndən yaman müti olmuşdu, hətta bir anlıq mənə elə gəldi, ona öl desəm, ölər.

Hər ehtimala qarşı Mariyaya nə turbazanı, nə də onun yanındakı, taxta hasarlı hərbi hissəmizi göstərdim.

Yumşaq, kiçik əlindən tutub xiyabanboyu gəzirdik. Sanatoriyanın hündür, yumru dəmir çubuq hasarının kənarıyla xeyli irəlilədik... Günorta bürküsündə içdiyi konyakın təsiri getsə də, əli istiydi.

Qara dənizin çimərlik boyu uzanan qumsal sahilinin üst hissəsindəki yüksək qayalıqların təpəsinə qədər gəlib çıxmışdıq.

Dəniz ayaqlarımız altındaydı.

Bir qədər dənizə, uzaqlarda, üfüqdə üzən böyük gəmilərə baxdıq. Uzun vida fiti verən sərnişin gəmiləri də sahildən uzaqlaşıb, get-gedə kiçilirdilər...

Sahildə bir neçə, içərisində pəhləvan cüssəli oğlanlar, mühərrikli qayıqla keşik çəkir, hərdən də

çimərlik uzunu sürətlə sürüb, plavki və qara eynəkdə, şeşə-şeşə əzələli lüt bədənlərini göstərirdilər.

- Üzəkmi? - soruşdum.

O, mənə qısılıb başını buladı. Çimmək istəmirdi. Heç düzü, özüm də istəmirdim.

Toran çaldığından, qayalıqların üstündə ins-cins gözə dəymirdi.

O, artıq kimsəsiz yerdə olduğumuza əmin olduğundan qəflətən, ehtiraslı baxışlarla məni süzüb, bic-bic:

- Lütfən, gəl yerdən oturub bir az dincələk, - dedi.

Atın mahmızları yeri döyürdü...

Kül başıma, ürəyimdən keçənləri o mənə təklif eləyir.

“Özünü küçəyə qoyma azz... səni buraya bəs nəyə gətirmişəm, hə?” -kəkəş-kəkəş ürəyimdə qoqazlandım.

Və onun incə belindən ehmalca tutub, bir az arxaya, meşə massivinə sarı apardım.

Deyəsən Odessada bir neçəsini dişinə vursa da, bir şey çıxmamışdı. Artıq özünü inamlı hiss edirdi.

Kiçik gömgöy çəmənlikdə bir yer seçdik. O, çantasından bir neçə qoşa səhifəli Труд qəzeti çıxartdı və hərəmiz birini açıb, altımıza sərdik.

Oturduğumuz çəmənliyin ətrafı çox sıx və tikanlı kolluq idi.

Bir saata yaxın yalandan ordan-burdan danışdıq.

Necə oldusa, zavallı qız intim söhbətə keçdi.

Plüralizmdi də! Qadın rəhbər vəzifədə! Nəyı pisdi?

Amma, düzü dözümsüzlük göstərdi.

Alacaqaranlıq idi, qaranlığın düşməsinə çox az qalırdı, birdən ağlıma gəldi: “Qu desən, qulaq tutular, niyə uzadıram?”

Əvvəl isti, yumyumşaq əllərini sığalladım, müqavimət göstərmədiyini görəndə ürəklənib saçlarından öpdüm.

Sonra qollarını dizimin üstünə alıb ovdum.

O, Lilitadan “dərs” almamışdı deyəsən, dodaqlarımı dodaqlarına sarı uzadanda, artıq nənəmiz Həvva kimi kürəkləri yerə doğru getdi.

Onu çəmənliyə uzatdım...

Bir xeyli yerdə eşələnəndən sonra, cinsi əlaqəyə girmək istəyəndə... inləyib yalvardı ki, toxunma, менструасия dövrüdür, başqa nə istəyirsən elə. Həmdə başqa nə vardıki?

Düzü heç bilmirdim менструасия nədi və ağlıma ilk gələn o oldu ki, yəqin ürəkkeçməsi, soyuqdəyməsi, ya nəsə başqa bir xəstəliyi var.

Bəlkə yalan deyir? Xəstəydisə, bura niyə gəlirdi?

Qızmış nər kimi, zorla, alt paltarını bir anda ayağından sıyırıb, tələsik “işimi” gördüm.

Çox ehtiraslanmışdım...

Qurtarıb yerə düşəndə, Mariya lal-dinməz əl çantasından siqaret çıxartdı. Yetişmiş əncirə bənzər dodaqlarında siqareti alışdıran vaxt, gördüm altımızdakı Труд qəzeti qana batıb.

Qanı görəndə əvvəl iyrəndim və dərhal bütün bədənim ürpəndi...

Birdən dəhşətə gəldim: Bu nə qan idi?

Dərhal içimdə misgin, qəzəb dolu bir nifrət yarandı. İlahi ona nə olmuşdu? Yoxsa faciəvi sonluğun rüşeymi cücərir?

Sanki ondan türmə ətri gəldi...

Bu qəhbə "qız"ıydı ki? Bəs niyə demirdi qızam?

Yoxsa çaşıb, onu yüzlərlə boş kibrit qutusu, ya içki şüşəsi hesab eləmişdim? Axı həqiqətən, o cinsi əlaqə istəmədi...

Bədənim süstəlsə də, birtəhər ayağa qalxıb, siqaret odunda saata baxdım: 20:52 idi.

Yəqin Boyko məni axtarır. Bu Mariya da daha əl çəkəsi deyil.

Yaranışımdan üzübəri həyatımda ilk krizis yaşayırdım...

Möhkəm həyəcanlanmış, bərk peşiman olmuşdum.

Bütün bədənim soyudu...

Bu nə iş idi?

Plastilin də yoxuydu, ovuşdurub gərginliyi götürəm...

Doğrudanmı kazarmada yediyim salalı qarabaşaq, dadsız soyutma balıq, smetanlı rus

borşu məni qızıxdırmış... onun qız bakirəliyinə toxunmuşdum?

İçim bürkülü avqust istisində, Bərdədəki həyətimizin ayağında, çöhrəsi nurlu nənəmin yapdığı təndirin, bayırda çırthaçırtla yanan ağzı kimi, artıq vücudumu qarsırdı.

Ulu tanrım! Doğrudanmı qız zorlamışdım?

Qaçmaq istədim.

Mənim əsgər və qafqazlı olduğumu bilsə də, ad-familiyamı doğru-düzgün bilmir, hərbi hissəmizin yerini tanımır, beş-altı saatdan da sonra Tulaya uçmalıydı... Siqareti söndürüb, ləçəyinin uclarını ağzında çeynəyirdi...

Qəflətən əlimdən tutmaq istədi. Elə bildim əlimdən yapışıb, milis işçilərini bura tökəcək, vay-şivən qaldırıb fəryad qoparacaq və üz-gözünü cırıq-cırıq şırımlayıb, çimdik-çimdik ətini didəcək.

Ancaq, o çox sakit idi.

Danışmır, başını aşağı dikib susur, heç peşiman olana da oxşamırdı.

Ancaq "ondan" qan gəlmiş, bakirəliyi zorlanmış, namusu ləkələnmişdi!

Dəliqanlı qardaşı, alicənab atası varsa, papaqlarını yerə vurmuşdu...

İndi necə ərə gedəcəkdi? Eşidib - duyan qulaqlardan necə qurtulacaqdı?

Düşüncələrim məni qorxudur, qollarımın indi qandallanacağı, hesab soruşulacağı haqda düşünərək, dəhşətə gəlirdim. Ona konyak

içirənlərdən də, ağlı kəm, hərif yalnız mən çıxmışdım. Demək təkcə məni xamladı, hə?

Bu an gözlərim qarşısında Komsomol canlandı : İki, iri göz yaşı ağır-ağır yanağı boyu diyirlənməyə başladı...

Tərəqqinin tənəzzülüydümü?

Xudbin qız heç ağlamır, çox, lap çox da arxayın yeriyirdi. Bu təzahürün səbəbi nəydi?

Hərdən gülməli atmaca atmağa başladı.

Lənət şeytana! Yüz min lənət... Məşum gecəmi yaşayıram?

Фиксаж məsələsi məni yaman poxa saldı.

Mənə belə gəldi ki, ondaki bu ani sakitlik qarşımıza çıxacaq ilk milis işçisinə kimidir.

Şübhələndirmək, hürküdüb qaçırtmaq ona məgər lazımıydı?

Birdən lap dəhşətə gəldim, başımın tükləri qabardı, - qancıq məni tutduracaq!

Dərhal da beynimdə amnistə düşmək məsələsi fırlandı. Cavanlığımı, bölükbaşı, kiçik serjant, əsgər, tələbə, komsomolçu olduğumu, ilk dəfə qanunsuz iş tutub, zorlama maddəsiylə cinayət elədiyimi yəqin nəzərə alarlar...

Nə müsibətlə, düz on doqquz ay hərbi xidmət çəkmişəm. Valideyinlərim, Katerinam, Komsomol, Məhbubə xala, əsgərlərimiz, hələ Xuraman, Şərq küçəsi eşitsə, necə olacaq?

Düşündükcə əzalarım qabarırdı.

Taksidə gələndə beynimə cinayət eləmək fikri, elə-belə vurmamışdı yəqin...

Səsim tutulurdu.

Birdən canım soyudu və qulaqlarım gup-gup guppuldayıb, sonra da heç nə eşitmədi.

"Öldürüb qaçmaq!"

O, gülə-gülə nəsə deyirdi.

Boğazladım onu!

Sonra mənə elə gəldi gözləri bərəldi.

...Yazığın gözləri hədəqəsindən çıxırdı. Toyuq kimi çırpına-çırpına ləm kimi olub, yerə aşdı və dərhal geri çönüb, qaçmağa başladım.

Qulaqlarım açıldı.

Şalvarımı, mavi rəngli neylon köynəyimi tikanlı kollar cırıqlamış, Katerina da lüt canımı cırıq-cırıq eləmişdi. Bütün bədənim dırnaq yarasıydı...

Qaça-qaça tövşüyürdüm.

Yüksək qayalıqdan tullanıb, yuvarlana-yuvarlana çimərlik istiqamətində dığırlandım.

Lap yaxınlıqda enmək üçün cığır varmış.

Amma elə bir tərəfdən də bu yaxşı oldu. Paltarımı, bədənimi görüb soruşan olsaydı, qayalıqdan düşəndə yıxılmışam, kollar sıyırıb, deyərdim.

Birdən ağlıma gəldi ki, gərək yeganə sübut olan qəzet səhifələrini hökmən götürüb yandıraydım. Külünü də ovcuma yığıb cibimə tökər, sonra da dənizdə yuyardım. Ancaq geri qayıtmaq müşkül

məsələydi. Getsəm də o yeri çətin ki, tapa bilərdim. Kolluq çox sıx, həm də zülmət qaranlıq idi...

Qumsal sahilə çatıb, cəld mavi neylon köynəklə qara şalvarımı soyunub, isti qumun altında gizlətdim. Yaxınlıqdakı su budkasından su alanda, birdən nə görsəm yaxşıdır?

Alt çimərlik paltarımda qan ləkələri!

Və hövlnak yüyürüb qaranlıqda, qumda uzanıb dincələn insanların arasında gizləndim.

Az qalırdım hirs-hikkədən çığıram, amma özümü ələ alıb, yüyürə-yüyürə dənizə girdim. Bir az sahildən aralanıb, dənizin dərin yerində ayaqlarımla üzə-üzə плавки-mi çıxarıb yudum.

Qasıq hissəmin qana bulaşmış yerlərini də yuyub-təmizlədim. Dənizin şor, duzlu suyu Katerinanın cırıqladığı dırnaq yerlərini yaman göynədirdi. Əvvəl qorxudan hiss eləmirdim.

Qan həngaməsi dəniz sularında qərq oldu...

Arxayınlaşıb, üzə-üzə sahilə çıxdım.

Qalırdı qəzet məsələsi.

Ötəri baxmışdım: Beşinci günün Труд qəzetiydi.

Əsla, iz buraxmaq olmazdı. Yox!

Qətiyyətlə qumdan paltarları çıxararaq geyindim və cavan bir kişidən də kibrit qutusu alıb götürüldüm. Dığırlananda iz saldığım yerə gəlib, cığırla təpəyə dırmaşmağa başladım.

Diki çıxdıqca özümə ürək-dirək verirdim:

“Onu zorlamamışam ki!”

Düzdü, менструация sözü demişdi, di gəl heç müqavimət göstərmirdi axı...

Özü də istəyirdi!

Zülmət qaranlıqda Труд qəzetinin qanlı səhifələrini kibrit işığında, düz iki saata yaxın axtarandan sonra, axır ki tapdım.

Yandırmaq istəyəndə yenə iş bəd gətirdi.

Kibrit qutusunda hələ iki ədəd çöp qalsa da,başının kükürdü yoxuydu. Qaranlıqda qoşa səhifələri qamarlayıb, bərk-bərk bükmələyərək, şalvarımın kəmər hissəsində gizlətdim.

Artıq tələsmək vaxtıydı.

Cəld xiyabana sarı qaçmağa başladım. Qarşıma çıxan ilk, cavan oğlanla qol-boyun gələn qızdan, спичка istədim. Olmadı...

Çox etinasız:

“Çəkən deyilik”,- dedilər.

İkinci də elə oldu və nəhayət üçüncüdə, qolu qırmızı sarğılı дружинник bir kişi спичканı uzadıb, mehribanlıqla:

- Götür, məndə зажигалка da var, - dedi.

Minnətdarlıq eləyib, yenə adam olmayan zülmət qaranlıq tərəfə qaçdım.

Qanlı Труд qəzetini yandırıb, külünü ora-bura sovurub səpəndən sonra bir az toxtayıb, qəfil turbazaya tərəf götürüldüm.

Şahid qalmamışdı!

Qaça-qaça düşünür, götürqoy edib özümü sakitləşdirirdim:

“Qətl törətməmişəm ki!”

Lap tutaq məni tapdılar, heç həqiqətdə də onu zorlamamışam axı...

Hər ikimizi soyundurub yoxlasalar, cırıq-cırıq idim.

Zorlanana daha çox mən oxşayırdım.

Üstü açılsa, milis bizi tutsa, dırnaq izləri allah şahididir...

Sonra da ağlıma gəldi ki, istintaq getsə, deyəcəklər: “Sən zorlamısan, onun da gücü çatmayıb, əvəzində səni dırnaqlarıyla didib şırımlayıb ki, iz qalsın”.

Bu lap pis oldu ki!

Köşkdən bir limonad alıb ağzımı, dilimi, əllərimi yudum. Bədənimin Mariyaya toxunan hissələri artıq tər-təmiz olmuşdu.

Təngnəfəs Tomagilə kimi qaçdım.

Tolik və Tolya da evdəydi. Cəld əynimi dəyişib, Tomanı çölə çağırdım, hövlnak:

- Менструация nə deməkdi?- soruşdum.

O, gülə-gülə:

- Nədir ki?

Heyrət və həyacanla təkrar soruşdum.

Qulağıma pıçıldadı:

-Qadınlarda olur, ayda bir dəfə... -“aybaşı” adlanır... Qan gəlir, boş şeydi...

İçim necə rahatlaşdı!

Pərvərdıgarə!

Sanki uzun illər səfalət içərisində yatdığım türmədən məni açıb buraxdılar.

Azadlığa qovuşdum!

İlahi, elə bilirdim qız zorlayıb, qətl törətmişəm. Nə yaxşı oldu.

Tomanı qucaqlayıb qaytan dodaqlarından öpdüm və kazarmaya kimi birnəfəsə qaçdım. Taxta hasarın qapısından keçib, gizlincə həyətə girəndə, sevinc və qürurla: "Ay dili dili, ay dili dili, dilidi..." - xalq mahnısını ürəyimdə, pəsdən zümzümə edirdim.

Rota gündəlik qayğısındaydı...

Kinoya gedənlər hələ gəlməmişdi. Məni axtaran olsaydı, ən azından kəlbəcərli Sahib, barmaqları döyənək bağlayıb, çapıqları daşa dönmüş, əlindəki qabarlara baxmayaraq, kibrit dənəsinin alovunda yanğı hiss eləməyən Mürşüd, qarşısındakı "yeyəndə" köpü tez də yatan Turabxan indi üstümə cumardı.

Deməli, gün sakitçiliklə sona çatmışdı!

Seyidə, mollaya, falabaxana, cadu-filan yazana qəti inanmasam da, son üç-dörd saat ərzində, "Sərqin" molla Xeyrullasının cəddini bəlkə yüz dəfə çağırmışdım...

Bu da nəticəsi!

Yeri gəlmişkən, burda bir haşiyə çıxım:

Sinəsində motalla, haramçılıqla alınan Lenin ordeni gəzdirən sədr Hüseyin Ağayevin "həşəmətli" qayınları, -vaxtıyla Bərdədə qızıl mağazası işlədən yolçu, əl açıb dilənən siqanlardan da sırtıq dillənçilik eləyən seyid Abdulla, seyid Fəttah və bir də... uşaq

vaxtlarından tanıdığım, Səməd Vurğun adına kolxozun Qəhrəmanlı kəndindən olan, plüşlü divanda puloverdə oturub, dilini bilmədiyi, tanımadığı yad ərəb əlifbasında, əzan səsini yamsılayıb, muğamat üstündə xırıltılı hıçqırıqla, gözüyumulu, əli qulağının dibində,- nəzir alandan sonra şövqlə oxuyan,- oxuduğunu özü də anlamayan seyid Əlinin pis əməllərini çox gördüyümdən onlara nifrət edirdim. Seyid Fəttah bir az da irəli gedib, özünü pürkamal hesab edərək, işlətdiyi yeməkxananı çöndərib, qeyri-leqal fahişəxana eləmişdi. Seyid Əli tez-tez qəzet plantatoru olacam deyirdi. DTK-nın agentiydi. Seyid Abdulla da əyninə plaş-çadır geyinərək, olmayan cəddini çağırıb, vəzifəlilərin qapısını güdürdü ki, nəsə qopartsın...

Nəsə, mətləbdən çox uzaqlaşmayaq.

Parad formamı dəyişib idman forması geyindim. Üstümdən dağ götürülmüşdü!

Amma ləçər mənə “toy” tutdu!

Bu tulalı tula, Odessaya gələndən cinsi əlaqədə olduğum sayca beşinci qadınıydı.

Dul, qəhbə Valya, bənövşəgözlü Katerina, Şevçenko parkındakı adını bilmədiyim qara eynəkli tələbə, donuzməməli Toma və bir də bu aybaşı Mariya ...

Yekun nəticədən fərəhlənib həyətdəki turnikdə oynamaq istədim.

Zorlama, məşum qan məsələsindən sonra hövl içində... baş verən qorxu həyəcanlardan, - çox

yorğun, əzgin və keçirdiyim əzablı, müdhiş iztirablardan süstləşmişdim. Əl-ayağım sanki buxovlanmışdı

Oynaya bilmədim.

Kazarmaya qayıdıb, irtibatım olan irsal-mərsulla məşğul olmağa başladım. Sonra da adətim üzrə, sonuncu jurnal və qəzetlərdən moda nümayiş eləyən gözəl qızların, dünya, olimpiya çempionlarının, möhtəşəm imarət, qəsr və mənzərə şəkillərini, maraqlı xəbərləri, elmi məqalələri səliqəylə kəsib götürdüm.

Doğrudan, ordu sıralarında hərbi xidmət əsl həyat məktəbidir. İrfana çatmağın bir cığırı da, elə məhz buradan keçir.

Bu gündən özümə əsl kişi sözü verdim:

“Katerinadan başqa Odessada heç bir qız, ya qadınla görüşməyəcəm...Vəssalam!”

Yoxsa zöhrəvi xəstəliyə tutulma qaçılmaz olacaq...

Belə də iş olar?

Burnumu hər deşiyə soxuram...

Yerimə paltarlı uzanıb, gözümü yumdum.

Dərin yuxuya keçmişəm.

Gün ərzində keçirdiyim nigarançılığın, həyəcanların təsirindən yuxu gördüm.

Horra qarışıq bir yuxuydu:

“Sıldırım qayanın başından yıxıldım. Son saniyələrim idi. Parçalanmalıydım, amma yerə gəlib

çata bilmirdim... Sonra da ay işığı keçə bilməyən uçurumlarda hey süzdüm...”

Latviya həngaməsi

Qəhvəyi kürə çörək

“Список стариков – Дмб - 1972”

Odessa, 10 və 11 iyul 1972-ci il.
1 və 11 günlər.

Oyananda çox əzgin, yorğun və yuxusuz kimiydim, ona görə idmana gedə bilmədim.

Dəniz çimməyi də qaldı.

Rota səhər yeməyinə gedəndə cərgəyə qoşuldum.

Dünənki balacaboy, tulalı Mariya anadan əmdiyim südü burnumdan gətirmişdi. Hələ də onu lənətləyirdim. Qanlı Труд qəzeti yadıma düşdükcə çirkinirdim.

Yəqin indi Tuladadır...

Barabanlı palçıqqarışdıranın "başı" yenə xarab olmuşdu. Palçıq çatmırdı. Uşaqlarımı Heydərovgilin işlədiyi birinci blokda, küncləri düzəltməyə qoydum ki, palçıq az işlənsin.

Faiqlə üzbəüz iki dəfə qarşılaşsaq da, salamlaşmadıq.

Əsədov da məndən yan gəzirdi. Blokda qarşılaşanda qabağımı kəsib, ürəyini açdı. Cüt çəkdirdiyimiz şəkillərdən ona vermədiyim üçün haqqına inciyibmiş. İnstitutun yeməkxanasına, isti sosiska yeməyə də ona görə getməyibmiş. Beləcə, küsməsinin səbəbini aydınlaşdırdı.

Əlqərəz, barışdıq...

Kirovabadlı Faiqin bilərəkdən buraxdığı kobud səhvləri ona danışdım:

“Üç gün əvvəl, gecəyarı samovolkadan qayıdırdıq. Zavallı Toma yata bilmirmiş ki, biz gəlib paltarlarımızı rahat dəyişə bilək. Əvəzində gecə saat ikidə utanmaz-utanmaz qayıdıb mənə dirəşir ki: “İstəyirsən sən get, mən gecəni onunla yatım.”

Ölümdən, meyiddən də pay uman oğraş!

Düzdü, Tomayla intim əlaqədə olduğumu o bilmirdi, ancaq bilirdi ki, onu saxlayan Tolik və Tolyayla dostluq edirəm. Tolik də evdəydi, hərçənd yıxılana qədər içmişdi... zira, Tolyanın “növbəsi” olanda o həmişə belə edir, yatanda bərk də xoruldayırdı.

Amma nə olsun?

Mənim xətrimə, ucdantutma azərbaycanlı uşaqlara necə hörmət qoyulur, məgər azdı?

Belə nankor insandan adama dost olar?”

İkinci səhvə yol verdiyi, Liza məsələsini də danışdım.

Nazı tüpürüb söz verdi ki, o da Faiqi bu andan etibarən danışdırmayacaq:

- Qıyış pəydədə nağaya çalmaq istəyiy dənə əə... Qıjovla gələn sel göymüyüb hələ!

- Yetişiblər... Zəlalət yaşadacam!- dedim.

Ужин-dən əvvəl turnikdə oynayırdıq, uzun zaman çalışsam da, eləyə bilmədiyim hərəkəti axır ki, bu gün yerinə yetirə bildim -turnikdən yapışıb

yellənərək sürət yığıb və birdən cəhd edərək, 360 dərəcə fırlandım.

Bu çətin təmrini axır ki, qollarımın gücü hesabına bacardım.

Planyorkada, iyirmi künc düzəltdiyimizi məruzə edəndə mayor nədənsə dillənmədi.

Molodoy tağım komandiri Podqornu mülki paltarımı istədi. Onun xətrinə Tomagilə gedib, şalvar, ağ neylon köynək və tuflilərimi çantaya yığıb gətirdim.

Tomanın üzünü dostyana sığallayıb, bərk-bərk də tapşırdım:

- Sibir uşaqlarından kim sizə gəlsə, daha, qəbul eləmə!

Toma səbəbini soruşmadan, gülə-gülə:

- Baş üstə, yoldaş komandir!

O həmişə mənə "yoldaş serjant" deyərdi. İntim əlaqədən sonra isə "yoldaş komandir" deyə müraciət eləyirdi.

Toma çox yaxşı qadınıydı.

Məni çox istəyir, ancaq heç cür "bel bağlaya" bilmirdi.

Yoxsa Tolik və Tolyanı çoxdan qovmuşdu!

Düzü Tomayla, həm zövqümə uyğun olmadığına, həm məndən yaşca çox böyük olmasına, həm də Tolik və Tolyayla saxladığım münasibətə görə əlaqələrimizi dərinləşdirmək istəmirdim.

Düzdü, onların yanında heç vaxt artıq-əskik hərəkətə yol vermirdik...

Amma xəyanət mübhəm də olsa, baş vermişdi!

Mülki paltarlarım olan çantanı Podqornuya uzadanda, o iftixarla:

- Mənə bildirmədən də, istədiyin vaxt samovolkaya gedə bilərsən. Nə vaxt ilişsən, deyərsən Podqornudan icazə almışam, özü buraxıb, "договорились? - ürəklə soruşdu.

Ona dərin minnətdarlığımı bildirdim...

Təzə, üstü ulduzlu, qızılı mis düymələrlə sıralanmış boğazlı xebeni geyinmişdim. Hava xoş olsa da, çamadanımdan çıxarıb, təzə qısaboğaz çəkmələri də geyindim. Saçımı-üzümü bərbərxanada təmizlətmişdim.

Bu gün çox səliqəli və gümrahıydım.

Gecə institutun yeməkxanasına gedib, incibalığım Lizanı evlərinə ötürmək istəyirdim, amma mümkün olmadı.

O, Verayla getdi və qayıdıb turbazanın rəqs meydançasına gəldim.

Tansda Nazını tapdım və təsadüfən də dünən onun tanış olduğu qızı gördük.

Yanında rəfiqəsi də vardı.

Tanış olduq, Latviyadan gəlmişdilər. Elə hey gülürdülər... Saat 22:00-da aeroportda olmalı, gecə ikidə Riqaya uçmalıydılar. Latış qızların təyyarə biletləri vardı və turbazadakı otaqlarında çamadanlarını yığmışdılar.

Nazıyla xosunlaşıb məzəyə, gecəyarı olsa da, onları yola salmağı qərara aldıq.

Qızlar təklifimizi eşidəndə məmnun olub, ürəkdən sevindilər. Aeroporta getmək üçün bizə hazırlaşmaq lazım gəlirdi.

Danışdıq ki, onlar rahat rəqs etsin və biz hazırlaşıb qayıdaq.

Kövrək hisslərlə qucaqlaşıb, bir-birimizə ev ünvanlarımızı yazıb verdik.

Kazarmaya qayıtdıq.

Mülki paltarlarım tağım komandirləri olan-Podqornu və Kaşşeyevdə olduğundan işimiz dalana dirəndi.

Kaşşeyev vəziyyəti eşidən kimi, heyrətlə bildirdi: - Exx тыы... bizi də qızlar gözləyir...

Ortaq yol tapmalıydıq.

Çarəni Kaşşeyev özü də tapdı: Onun starşı serjant xebesini Nazim, Podqornunun serjant xebelərini də mən geyinəsi oldum. Başımıza isə köhnə və əzik olduğundan pilotka əvəzinə фурашка qoyduq. Podqornuda ağ уволнителни vardı. Kaşşeyev alıb üstünü yazdı: “Служебная дела”

Guya xüsusi hərbi tapşırıqla iş dalınca gedirik... Vaxtını da gecə saat 04:00-a kimi göstərdi.

Çönüb olduq старшый сержант Асадов və сержант Бабаев.

Yazıqlar geyinməyimizə də kömək eləyib, qürurla yaxşı yol diləyərək yola saldılar.

Kaşşeyevin yadına nə düşdüsə, bizi geri çağırıb dedi:

- Patrullara, ya zabitə urcah olsanız, sənədlərinizi yoxlayıb: "Nə iş görəcəksiniz?" - soruşsalar, deyərsiz ki, rotamızın komandiri Latviyadan, məzuniyyətdən qayıdasıdır, onu qarşılamağa gəlmişik.

Təyyarəni gözləyirik...

Nüfuz məmurları olan, yaşılgöz Boykoyla mayor Deqtyarın heç nədən xəbəri yoxuydu, amma Boykonun imzası ağ uvolnitelniyə əvvəldən qoyulmuşdu.

Qızlar rəqs edirdi...

Nəzakətlə başa saldilar ki, bizi aeroporta xüsusi turist avtobusu dəstəylə aparacaq, siz gedin, orada görüşərik.

Razılaşdıq...

Çox sakit idim. Vaskı Nazıyla sərnişin avtobusuna əyləşib, aeroporta getdik.

Yolboyu silkələnib şirin yuxu gətirən, dərisi bıçaqla kəsilib doğranmış oturacaqda mürgüləyib düşünürdüm:

"Bu Nazim kasıb oğlandır və bütün ömrü boyu Latviyaya gedəsi deyil, düz-əməlli yazı da yaza bilmir ki, heç olmasa, məktublaşıb, nə vaxtsa, o qızı Ağcabədiyə dəvət edə bilsin.

O, bu əziyyəti görəsən niyə çəkirdi?

Mən isə Bakıda yaşayır, institut oxuyur, rusca məktublaşa bilir və nə vaxtsa Riqaya getmək və ya

onlarla Bakıda görüşmək şansım var. Onsuz da belə ötəri sevgilərin ömrü bir an qədər az, xatirələri isə ömür uzunudur.

Beləcə özümə bəraət qazandırır, özümü haqlı olduğuma inandırırdım. Dünyanın hər yanında dost-tanışı olmağın nəyi pisdi?"

Aeroporta qızlardan əvvəl gəlib çıxdıq. Riqa reysinə hələ qeydiyyat başlamamışdı.

Açıq gözləmə salonundakı kafedə oturub, adama iki bulkayla bir fincan kakao aldıq.

Yenicə bismillah eləyib yeyib-içirdik, bir neçə patrul və çiyinindəki paqonlarda iki kiçik ulduzu olan cavan zabit - leytenant salona girdi. Qolunda əsgərin qənimi - Начальник патруля sözləri yazılmış qırmızı sarğı vardı.

Bizi görən kimi ədəblə işarə elədilər ki, bayıra çıxaq.

İsti kakao fincanda eləcə buğlana-buğlana yarımçıq qaldı...

Çölə çıxdıq.

Özümüzü çox sərbəst aparır, qorxmurduq.

Əsgəri təzim edib kimliyimi bildirəndən sonra, hərbi biletimin arasından uvolnitelnini çıxarıb nazik bığlı, sarışın leytenanta uzatdım.

O, gur işığın altında diqqətlə oxumağa başlayanda üyüdüb-tökürdüm:

"Komandir rotamız, baş leytenant Bryusov indi Riqa reysi ilə Latviyadan gələcək. Onu qarşılamağa

gəlmişik. Çamadan daşıyacağıq. Təyyarənin gəlməsinə da lap az qalır...”

Əclaf dediklərimə qulaq asmırdı və qəflətən gözlərini uvolnitelnidən çəkib sınayıcı nəzərlərlə:

- Baş leytenant Boykonun imzası başqa, içi isə başqa mürəkkəblə yazılıb...

İçimdən bir elektrik keçdi, əsəbiliklə:

- Neyləyim? Bəlkə qələmin qara çerneli qurtarıb? Qara gözümün biri aydın, biri də muştuluq, - bunu da öz dilimizdə dedim.

Qaşlarını düyünləyib:

- Yox, xətlər də ayrıdır,- dedi.

İlişdikmi?

- Günah bizi buraya göndərənlərdədir,- dedim, belə də iş tutarlar? - çox sakit və inamlı danışırdım.

Nazim nəsə, işin düyünə düşdüyünü hiss edib, öz dilimizdə astadan:

- Noooluff əəə... poxu çıxıyy?

Vaskı Nazıya cavab vermədim.

Onsuz da patrul- leytenant şübhələnmişdi. Əclaf savadlı zabitə oxşayırdı. Üzümə diqqətlə baxaraq, dalbadal çaşdırıcı suallar verir, rəng-rufumu belə izləyirdi. Yanındakı patrullar isə kənarda durmuşdu, bizə yaxınlaşmırdılar.

Reysin nömrəsini, Riqadan təyyarənin nə vaxt uçub gələcəyini yoxlamaq qərarına gəldi və göz qırpmayan patrullardan birini yanına çağırıb, göstərişlərini verdi.

Nazim qorxuya düşmüşdü. Ana dilimizdə və bir az da bərkdən soruşdu:

- Əə... mən ölüm, nooluff? Niyə demiysən əəə mənə, üyəyim paytdadı...

Cavab gələnə kimi leytenant Nazının da qırmızı hərbi biletini yoxladı.

Və məndən çox təmkinlə:

- Niyə starşı serjant dura-dura sən cavab verirsən, yoldaş serjant? -soruşdu.

Cəld dedim:

- Pəltəkdi, rus dilini də yaxşı bilmir, yoldaş leytenant.

Nazı öz dilimizdə qarğışa keçmişdi: "Ölüm döşəyinə düşəsən səni haa, bu haydan çıxdı əə? Bu nə zəlalətdiy əə, çəkiyik?"

Nöqsan tapmışdı!

Elə düzü formamız özü də нарушения idi. ХБ-geyinib, furaşka qoymaq olmazdı...

Nazı nəsə tapmış adamlar kimi:

- Əə fəhlə adamlayıq, nə istəyiy ey əə bunlayy...

- Gərək paradnı geyinərdik,-dedim.

Patrul qayıdıb məruzə elədi ki, dedikləri uyğun gəlir, hər şey qaydasındadır. Riqadan gələn təyyarə on beş dəqiqəyə kimi enəcək...

Gözəl-göyçək, sarışın, uzunboylu, cavan, nazik bığlı leytenant hər ikimizin hərbi biletini özündə saxlayıb, uvolnitelnini qaytardı və çox ciddi şəkildə:

- Sabah uvolnitelnini sizə verən baş leytenant Boykoyla gəlib Комендатура-dan hərbi biletləri apararsınız, - dedi.

Qulaqlarıma inanmadım.

Canıma istilik yayıldı... Mübahisə etməyin isə yeri, faydası yoxuydu.

Hər hökmü zaman verir!

Bu günə qədərki əsgərlik həyatımızda ilk dəfə olaraq quyruğumuzdan tələyə düşdük!

Di gəl, sabah bunu Boykoya başa sal. Hərəmiz ən azı, üstü Kreml qülləli göy beşlik verməliydik...

Nazı hirslənmişdi. Təpindim ki, artıq danışma, ixtiyarları var, lap özümüzü də aparıb gecəni komendaturada saxlasınlar. Bu əsgər həyatıdır, nağıl deyil ki!

Leytenant Nazının səs-küyünü eşidib geri döndü və üzünü mənə tutub, ciddi şəkildə əmr etdi:

- On beş dəqiqə müddətində aeroport ərazisini tərk edin!

Artıq hərbi əmr idi!

Nazının ağzını yumub, kənara çəkdim.

Elə bu vaxt turbazanın, yanlarına və alnına Турист sözləri yazılmış xüsusi, rahat, alabəzək avtobusu göründü.

Avtobus aeroportun geniş giriş qapısının qarşısında dayandı.

Vaxt dar idi.

Nazimin qolundan bərk-bərk qırraşıb avtobusa çatmaq üçün sürüyəndə, gördüm ki, patrullar indi də orada dayanıb.

Əllərində iri çamadan, qızlar avtobusdan ağır-ağır düşüb binanın içərisinə doğru girəndə gözlərimə inanmadım: Sarı saçlı, sarı bənizli, sarı qaşlı sapsarı Nella əyninə də sarı çit don geyinmişdi. Hamıdan seçilirdi.

Bizə verilən vaxtın başa çatmasına hələ bir neçə dəqiqə qalırdı.

Nazimi izdihamlı meydanda buraxıb girişə doğru yüyürdüm və özümü patrula yetirib:

- İcazə ver, içəridən konfet alıb qayıdım, çıxıb gedirik.

Patrul iri qol saatına baxıb, başını buladı:

- Tez ol...

Özümü qeydiyyat gedən bölməyə yetirib, sapsarı Nellanın qolundan yapışdım. Tövşüyə-tövşüyə, təngnəfəs:

- Patrullar bizə vaxt verib, ləngiyə bilmirəm, yoxlamadan keçən kimi çölə çıxın, gözləyirik... - həyəcanla bildirdim.

Nellanın təbəssümü, gülüşü də sarı gecə işığında sanki sarı rəngə çalırdı.

Öz dillərində nəsə dedi, başa düşmədiyimi görüb kişmişi gülərək:

- Хорошо, хорошо, - razılaşdı.

Və gənc leytenantın yaxınlaşdığını görüb, cəld aradan çıxdım.

Vaskını çətinliklə olsa da tapdım.

Omsklu Allayla görüşdüyümüz tarixi, sarı otluğa yaxın yerdə dayanıb, onları gözləməyə başladıq.

Az keçmiş qızlar çölə çıxdı.

İlahi, riqalı sarı Nella xarici qızlara necə bənzəyirdi!

Eynən filmlərdən, televiziya ekranlarından gördüyüm qızlara necə oxşayırdı...

Narın tüklü sarı qaşları, kirpikləri, sapsarı saçları, yaşıl gözləri, uzun düz budaq kimi biçimli tarım qılçaları...

Bərdədə belə qızlar heç yuxuya da girmir. Bu əsl möcüzə, nağıl idi. Məlikməmmədin divin yanında gördüyü qız da buna tay ola bilməzdi.

Latış qız!

Yaxşı ki, ünvanını almışdım. Təhtəlaltı şüurla dərk edirdim:

“Onu nə vaxtsa axtaracağam!”

Qızlar gəldi!

Elə yenicə onlara yaxınlaşmaq istəyəndə, üç patrul birdən özünü yetirdi.

Əclaflar!

Sanki təəhüd götürmüşdülər.

Nazı yenə qarğışa keçdi: “Nə vaveyla salmısınız əə? Ölüm şəybəti içəsiz! İt uşağı elə bil mircalıq yeyib... Qudurğanlar!”

Zorla bizi 124 nömrəli marşrut avtobusuna mindirdilər.

Sapsarı Nella, öz dillərində patrullara nəsə qışqırırdı. Nə patrullar, nə də mən o deyənləri başa düşmədik.

Bəli!

Bizim Vətən belə vətənlərdəniydi!

Bir misqal da olsa nə Nella məni, nə patrul Nellanı, nə də başqa kimsə, kimsəni başa düşürdü.

Bu necə vətəniydi?

Axı biz hər üçümüz eyni, - qıpqırmızı, üstü beş ulduzlu SSRİ pasportu daşıyan Sovet vətəndaşlarıydıq!

Elə Azərbaycan Dövlət Universitetinin o naxçıvanlı, saqqallı müəllimi yaxşı deyibmiş:

“Bu çoxsaylı xalqları zor gücünə bir yerə yığıblar...”

Nazı qansız, qaytan dodaqlarını yalayıb, saçına sığal çəkə-çəkə, qulağini hikkəylə eşib:

“Oğyaşlay qoymadı, kakoyumuz buğlana-buğlana qaldı, pul veymişdik.”

Az qalırdı, avtobusun pəncərəsindən çölə çıxam.

Nazının isə qızlar vecinə deyildi, onu hərbi bilet daha çox maraqlandırırdı.

Qızlar sakitcə dayanıb, maraqla bizə tamaşa eləyirdi...

Nə edəydik? Çıxılmaz vəziyyətdə, sanki Bermud üçbucağına düşmüşdük.

Möcüzə baş verdi!

Fikirləşirdim, növbəti dayanacağa qədər gedib, sonra geri qayıdarıq.

Qəflətən patrullar, bir göz qırpımında başqa boz rəng marşurut avtobusuna mindilər. Marşurutun nömrəsinə baxdım:

101!

Və bəxtimizdən onlar minən kimi, 101 gecənin sükutunu nəriltiylə pozub, yerindən bizim 124-dən tez tərpəndi.

Qızlar gözləyirdi...

101 uzaqlaşan kimi, avtobus gedə-gedə özümü yerə atdım. Vaskı da arxamca tullandı...

Qızlara yetişib... heyranlıqla, sevincək, qucaqlaşdıq!

Ömrümdə ilk dəfə... Bakının qumsal bağlarında yetişən sarımtıl, şipşirin, yumşaq əncir kimi, latış dodaqları öpdüm.

O, işıq saçır, təbii ətrinin iyi ürək vururdu... Latışlar, xarici qızlar kimi nə yaman olurmuş! Elə bil cənnətdəydim... Onun sifəti alışıb-yanır, qaranlıqda ələ keçən ceyran balası kimi, ürkək, bərəlmiş iri gözləri par-par parıldayırdı.

Ancaq gün nəhs gətirmişdi!

Riqaya gedən təyyarəyə minik başlayırdı. Nazimin payına düşən qız da yoxa çıxmışdı. Qaranlıqda harasa girmiş, bəlkə də Nazını bəyənmədiyindən gizlənmişdi.

Eyy... gidi dünya!

Latışlar nə sevilməli, ömür-gün keçirilməli qızlardı!

Ehtiras və məhəbbətlə sapsarı Nellanın hərarətli, şipşirin qıpqırmızı dodaqlarından bir neçə dəfə öpdüm... əllərimi yupyumşaq şux sinəsində gəzdirdim... və birdən:

- Посадка, посадка...-deyib, tələsməyə başladı.

Ayrılmalıydıq.

Çılğın ehtirasla ətirli, isti, bal kimi əncir dodaqlarından acgözlüklə öpdüm...

Gecə saat üçdən keçmişdi, Arkadiyada aeroport taksisindən düşdük.

Növbəti əsgər gününü də bu münvalla,-hərbi biletsiz yola salırdıq.

Rota uyuyurdu.

...Dünya ağarmamış, sıra meydanındakı sincin gur səsinə oyansam da, ayağa qalxa bilmirdim. Sanki gözlərimə qor dolmuşdu. Hərbi bilet məsələsi yadıma düşən kimi, dik sıçradım.

Dan yeri sökülməmiş tağım komandiri, gənc Podqornuya məsələni açdım.

Danışdıqlarımı eşidib yazıq həyəcanlandı, hətta, ilk meyid görən uşaq kimi rəngi avazıdı.

Bərk qorxdu!

Tez özümü tox tutub, təmkinlə:

- Sən narahat olma, Boykoya deyərəm, yerdən ağ uvolnitelni tapmışdım, üstünü də özüm yazmışam...

Podqornu sonacan məni dinləmədən, vahimə içində, hövlnak götürülüb getdi.

Səhər idmanına yenə gedə bilmədim.

Saat 06:53 - də Podqornu arxamca gəldi ki, Kaşşeyev kubrikada səni gözləyir.

Hadisəni ona olduğu kimi nağıl elədim. Kaşşeyev məni dinləyib, heç bir həyəcan-filan keçirmədən, ancaq təşvişlə:

- Qəti gözləməyin, Boyko indi oyanmış olar. Hər üçünüz gedin girin yanına, hadisəni olduğu kimi danışın.

Podqornu elə qəmgin durmuşdu, sanki rekviyemə qulaq asırdı. Kaşşeyev əlacpəzirlik etdikcə, gözlərimdə bir az da böyüyürdü. O yaxşı oğlan idi. Yuxudan kal oyansa da məntiqi aydın, göstərdiyi yol doğruydu. Diqqətlə üzünə baxdığımı görüb:

- Babayev, özün deyərsən ki, xalam oğlu Azərbaycandan gəlmişdi. Tərs kimi siz də yox idiniz. Podqornuya dedik, o da bizi Kaşşeyevin yanına apardı. Kaşşeyev özü də gələn adamı görüb.

Sizi çox axtardıq. Sonra Kaşşeyevdə ağ uvolnitelni vardı, özü yazıb bizi buraxdı və arxasını da olduğu kimi...

Bəli!

Kaşşeyev kişi kimi bütün məsuliyyəti öz üzərinə götürdü. Üçümüz də yüngülləşib bir az toxtadıq.

Boyko öz vaqon-hücrəsində o gözəl arvadıyla yatırdı...

Oyanıb çölə çıxmasını bir qədər gözlədik, amma vaxtı uzatmaq olmazdı. Mayor gələnə kimi məsələni yoluna qoymaq lazım idi.

Podqornu qapını bir neçə dəfə yavaşca tıqqıldatdı. Elə bil Musson yağışlarından yenicə çıxıb indi də Akavando bataqlığında batmışdıq və hələ də çabalayırdıq. Bir qədər çəkən müdhiş sükutdan sonra içəridən səs gəldi:

- Войдите...

Əvvəl özüm qapını açdım. O, yataq otağından qalxıb iş otağına keçdi. Məni görən kimi hansısa çamura batdığımı hiss edib, qarışqa bicliyiylə:

- Что случилось? - kinayə ilə soruşdu.

Bildirdim ki, xoşagəlməz hadisə baş verib, Əsədovla Podqornu da qapıda gözləyir.

İcazə alıb onları da içəri dəvət elədim.

O vəziyyətin düşündüyündən də ciddi olduğunu anladı və dərhal da rəngi avazıdı:

-Tez olun, - deyib, əliylə oturmağımızı təklif elədi.

Otura bilmir, miskin görkəmdə təşviş və həyəcanla bir-birimizin üzünə baxırdıq ki...

Boyko hövsələdən çıxdı və qışqırdı:

- Что за чп?

Girəvəydi, əsgər kitelimi əlimlə tarazlayıb, rəsmi görkəm alaraq, nikbin ağsaqqallar kimi danışmağa başladım.

Əvvəlini Kaşşeyevin təlimatlandırdıgı qaydada, arxasını isə... guya qohumumuzu yola salmağa getmişdik və aeroportda baş verənləri olduğu kimi sadaladim.

Boyko sinə dolusu dərindən nəfəs aldı, rahatlaşdı və bir qədər dalğınlıqla fikrə gedib canıyananlıqla:

- Mayor Deqtyar bilməməlidir... Özüm komendaturaya zəng vurub həll edərəm. Gedin, Kaşşeyevi bura göndərin. Yaxşı ki, özünüz ələ keçməmisiniz...

Depressiv haldan çıxdıq, amma söz yox iddiası olacaqdı.

Minnətdarlıq eləyib çölə çıxanda Mürşüdlə Hüseyini qapının ağzında gördük. Məni görən kimi Hüseyin çox cəsarət və mərdi-mərdanə dedi:

- Boykoya deyin, Mürşüdlə Hüseyin samovolkaya qaçmışdı, onları axtarırdıq.

Mürşüdlə Hüseynin bu kişi hərəkəti əsl Bərdədən görünən dünyaydı!

Boyko dərhal Kaşşeyevi qəbul edib, ona uvolnitelni yazdı və zəng vurub komendaturaya bərk-bərk tapşırdı...

Kaşşeyev tam təlimata uyğun hazırlaşıb, parad formada çıxdı.

Ağlıma gəldi ki, dünən bizi tutan savadlı leytenant bağışlanmaz səhvə yol verib:

“O, hərbi biletin içərisini diqqətlə oxusaydı Nazimin starşı, mənim də serjant yox, mladşı serjant olduğumu, başa düşəcəkdi. Və bununla da elədiyimiz saxtakarlıq faş olacaq, fakt qraşısında qalacaq, hətta bizi komendaturanın hauptvaxtına salacaqdılar!”

Düzdür, yalandan deyə bilərdik, bu yaxınlarda starşı serjant və serjant almışıq, hərbi biletə qeyd eləməyi gecikdiriblər, ancaq hərbidə belə şeylər keçmirdi.

Hərbi biletdə yazılan nəydi, poqonlarda o da olmalıydı...

Kaşşeyev əli- ətəyindən uzun qayıtdı.

Verməmişdilər!

Boyko bərk hirsləndi və göylə getdi. Haraylasa, telefonda səs-küylıə danışdı.

Kaşşeyev cəld onu öyrətdi ki, komandir rota, baş leytenant Bryusovu qarşılamağa göndərmişik.

Komandir rota Riqadan məzuniyyətdən qayıdırdı. Əsgərlər içkili olmayıb, xuliqanlıq eləməyib, dava salmayıb, adama bir fincan kakao içiblər... onu da yazıqların burunlarından gətirmisiniz. Bu artıq millətçilikdir!

Saat 11:07-də Boyko Kaşşeyevi təkrar komendaturaya göndərdi.

Axır ki, bir saat keçmiş Kaşşeyev hərbi biletlərlə qayıtdı.

Keçəl başından, kor gözlərindən qorxduğu kimi biz də hərbi biletin itməsindən, hardasa ilişib qalmasından qorxurduq.

Əsədovla sevincimizin, heç, həddi-hüdudu yoxuydu.

Kaşşeyevlə Boyko qanımızı satın aldı!

Nazim qırmızı hərbi biletini öpür və əzizləyib cansız biletlə danışırdı:

- Qadan alım əəə... iyiymi aydıy səndən ötyü can qoymuşam. Məni baqaja qoymaq istəyiydin əyyə-əyyə?...

Müsəlman uşaqlar ətrafımıza yığışıb, deyib-gülürdülər.

Xata sovuşmuşdu!

Kəlbəcərli vaynösə Sahib Əkbərovu göndərdik ki, iki butulka çaxır Boykoya, bir butulka üç ulduz konyak da arvadına alsın.

Günorta yeməyindən əvvəl kubrikaya girib sovqatı Boryaya vermək istəyəndə... qənirsiz gözəl olan arvadı sinəsi-başı açıq çarpayıda uzanmışdı...

Ya rəbb ! O necə uşaq kimi qayğısız idi.

Məni görəndə heç qımıldanmadı da.

Boyko özü deyəsən yox idi. Əlimdəkilərin hədiyyə olduğunu biləndə gözləriylə masanı göstərib:

- Положи... - dedi.

Canıyanmışın ay sifətini, yay kimi qara qaşlarını, peykanlarını, gömgöy alov saçan gözlərini, ağappaq yumşaq sinəsini, pedikürlü dırnaqlarını, zoğalı laklanmış ağappaq incə ayaq barmaqlarını, şümal baldırlarını kim görsə əriyərdi...

Şəhvətli dişi!

Bizimkilərin sözü olmasın, - belə gözəl, mərhəmətli xanımı görmək, özü belə savab işiydi.

Qapıdan çıxmaq istəyəndə, qıyılmış baxışlarla:

- Eyy qafqazlı serjant, mağazadan çörək ala bilərsən?- soruşdu.

- Əlbəttə, əlbəttə, - sevinclə əriyə-əriyə dedim.

O, pul vermək üçün əlini zərli pulqabına aparmaq istəyəndə :

- Özümdə xırda pul var, - tələsik dedim.

O, heç uzandığı yerdən tərpənməmişdi və necə oldusa çevrilib üzü döşəyə, başı mənə sarı uzandı və ayaqlarını dizdən büküb, aramla havada yellədə-yellədə başını qaldırıb işvəli təbəssümlə:

-Qəhvəyi kürə çörəyi olsun,- dedi.

Gözlərim onun ipək kimi uzun, qara zülfləri tökülmüş zərif sinəsindən açıq-aydın görünən ağappaq yumru döşlərinə sataşdı.

Diksindim!

Və rəngi qaçmış cəld gözlərimi çəkdim.

O məni diqqətlə izləyirdi.

Udqundum... boğazımı elə bil boğdular, səsim titrədi:

- Baş üstə xanım... - güclə xırıldayıb dedim.

Ehmalca qapını örtüb dalı-dalı çıxdım.

Yaxınlıqdakı, qarşısına “Хлеб” yazılmış mağazalarda qəhvəyi kürə çörəyi tapa bilmədim.

Hardansa ağlıma düşdü:“Qarın tox olanda doğrudan pələng də uşaq kimi qayğısız yatır...” -deyənlər nə yerində deyib.

Taksiylə Odessanı ələk-vələk eləyəndən sonra baxdığım düz on səkkizinci çörək mağazasından axır ki, tapa bildim. Özü də mağazada bu çörəkdən bol idi, düz üçünü alıb, sevincək geri qayıtdım. Hər ehtimala qarşı mağazanın yerini bələdlədim:

“Улица Ярославского № 16.”

Mağaza düz fabriklə üzbəüz yolun kənarındaydı. Fabrikin qarşısındakı lövhəni də sonacan oxudum:

“Укр. ССР, Областное Управление Местное промышленности Фабрика Карто- нажно - Бумажных изделий”.

Çörəkləri boz rəngli qalın kağız torbaya qoymuşdular.

Onu yenidən görəcəyim ümidiylə həyə-canla tələsirdim. Onunla bir gecə yaşayan ölüb ağ kəfənə

bürünsə də, gərək bu həyatdan köçməyinə peşiman olmasın.

Bərdəlilərin sözü olmasın: “Çim yağ idi!”

Qapıya yaxınlaşanda ürəyimin çırpınan guppultusunu aydınca eşidirdim.

Bir daha əmin oldum ki, onun gözəlliyi haqda danışılanlar həqiqətən mif deyilmiş.

Qapını ehmalca, qorxaq tıqqıldadıb içəri girəndə Boykoyla qarşılaşdım.

Şok keçirdim!

Düzü əclafı görməyimə ürəyimdə çox pis oldum. Kaş bunu elə bu dəqiqə ildırım vuraydı, yandırıb kül edəydi, Boyko adlı adam daha olmayaydı heç... - fikirləşdim.

Konyak və çaxırlara görə minnətdarlıq elədi. Çörəkləri masanın üstünə qoyanda dilim dinc durmadı:

- Xanım, axtardığım düz on səkkizinci mağazadan tapdım. Qəhvəyi kürə çörəyi hər mağazada olmurmuş...

Boykonun gözəlçəsi paltarda olsa da, hələ də uzanıqlı idi. Çox məzəli, komik bir eyham və yumorlu intonasiyayla:

- Yerini tanıdınmı barı?

- Bəli xanım, - dedim, üstünü ağ təbaşirlə nişanlayıb, yerini yaxşı-yaxşı bələdləmişəm, Yaroslav küçəsindədir.

Nazik alt dodağını dişləyib:

- Bölükbaşı, bundan sonra, bir mağaza gəzəcəksən...

O, mənimlə aşkar məzələnirdi. Boykonun qorxusundan daha dillənmədim.

Birdən də Boykodan soruşdu: -Rəbbimiz tövbə eləyənləri bağişlayır, düzdü həə Borya?

-Çürütdüyün dovğaya görə hə!

Geri qayıtdım...

Və birdən mənə elə gəldi ki:

“Bundan sonra, bir mağaza gəzəcək- sən...” deməklə, bəlkə eyham vurur? Yəni: “Moskvalı oglan kimi, sən də təkcə mənimlə gəzəcəksən!”

Vücudumu xoş bir duyğu sardı...

Kefim açılmışdı, yeməkxanaya gedib, Veradan pomidor, soğan, xiyar və çörək aldım. Yeri gəlmişkən

kəlbəcərli Sahib, təpərsiz Mürşüd pomidora mamador deyirdilər. Və bu vaxt düşündüm ki, qəhvəyi kürə çörəkdən niyə birini də özümə almadım?

Balaca Liza gələndə məni görübmüş, Bakirə deyib ki, - qayıdanda Tofik məni görsün.

O, anasına kömək edirdi.

İşindən ayrılıb yanıma gəldi.

Xeyli söhbət elədik. Liza, mənimlə elə səmimi danışır, danışdıqca, xırda dırnaqlarını didə-didə elə gülümsəyirdi ki, ürəyimə elə gəldi fikrini dəyişib, artıq razıdır...

Faiqlə bu incibalıq qızın üstündə düşmən olmuşdum.

- Axşam yeməyini birlikdə yeyəkmi?-soruşdum.

Gülə-gülə başını bulayıb:

- Yox! Sən nə danışırsan? Mən heç vaxt restoranda olmamışam, lazım deyil,- dedi.

O, doğrudan da hələ uşaq idi. Hərdən donunun ətəyini yuxari çəkə-çəkə uşaq filmlərindən, oxuduğu nağıllardan iftixarla danışır, çəkdiyi şəkilləri göstərəndə necə lovğalanırdi. Kasıb yaşadıqlarını, bir az da böyüyüb işləyəcəyini ümidlə deyirdi...

Nədənsə mənə elə gəldi, onunla uşaq sevgi oyunlarını birlikdə oynayacayıq və o bəzi, üzərinə ad-familiya yazılmayan sinədaşlari kimi biryolluq unudulmayacaq.

Özüm çox bərkini tutmadım. Əmin idim ki, artıq gec-tez təslim olacaq. Anası da danışdığımızı bilir, könlündən keçirdi ki, əsgərliyi bitirib qızını da qoltuğuma vurub gedəm. Onların Komsomolumdan xəbərləri yoxuydu...

Aldıqlarımı götürüb, incibalığı Lizayla çox mehriban sağollaşdıq.

Nazim, Hüseyin və Mürşüdlə yeddinci mərtəbədə oturub "mamador-çörək" yedik. Hətta rota günorta yeməyinə gedəndə biz tox olduğumuzdan yeməkxanaya getmədik.

Nazı evlərindən məktub almışdı. Bərk dilxor idi. Nə qədər elədim nə baş verdiyini açmadi.

Kazarmaya gəlib, vaynösə Sahib Əkbəro-va aldırdığım günün yeni qəzetlərini oxumağa başladım.

Çapdan yeni çıxmış qəzetlərin iyi çox xoşuma gəlirdi. Yeni qəzetləri əlimə alıb vərəqləyəndə sonsuz ləzzət alırdım. Adətən Советский спорт, Одесса, Известия və Правда qəzetlərini oxuyurdum. Nədənsə ağlıma vermişdi, indi Труд qəzetini də aldırırdım...

Tikdiyimiz möhtəşəm binanın doqquzuncu mərtəbəsinin üstünü dünən beton nastillərlə bağlamışdılar. Briqadamın malakeşlərini çıxar-dıb planı yerinə yetirmək məqsədiylə orada suvaq vurdururdum.

Rastvornasos işləməsə də, kran dəmir “бадйа”da palçıq verir, uşaqlar suyla yaxşı qarışdırıb, duruldaraq ürəkdən işləyirdilər.

Boyko Pervomayskiylə, Dyakivlə danışan-da доложит eləmişdi ki, Babayevin briqadası əla işləyir, günə 150-160 kvadrat metr suvaq vururlar. Odur, möhkəm üzə düşüb uşaqlara tapşırmışdım: “ Bu gün yüz kvadratdan əskik suvaq vurulmamalıdır...

Belədə oldu, axşam planyorkada mayor Deqtyarla iş icraçısı, mənim briqadamı tərifləndi. Hətta Deqtyar xüsusi vurğuladı:

- Malanı, briqadanla düz eləyib doqquzun-cu mərtəbədən başlamısan. Krandan səmərəli istifadə eləmək lazımdır. Yeddi və səkkizinci mərtəbələrdə qalan yarımçıqları rastvornasosla da işləyə bilərsiniz. Ancaq doqquz və daha yüksək mərtəbələrə şlanq çatmayacaq...

Starşina məzuniyyətə getdi.

Kaşşeyevin, Arifin, Fedirkonun və bir neçə əsgərlərin rəyini nəzərə alıb, çap şriftləriylə старик-lərin siyahısını tutdum. Adları qırmızı qan rəngində yazırdım.

Kaşşeyev də Boykodan möhür alıb gətirdi. Səhifənin aşağısından, Командир часть: под-полковник Дякив sözlərini yazıb, familiyasına uyğun adının qarşısına mərifətli bir qol da çəkdim. Sonra da imzanın yanından, üfürüb hovlayıb Boykonun möhürünü basdım.

Guya Dyakiv Pervomayskidən göndərib.

Siyahını zərfə qoyub ağzını yapışqanladıq və vaynösə Sahib Əkbərovu başa salıb poçta göndərdim.

Katerina zərfin üzərinə düz üç yerdən surğuclu möhür vurmuşdu...

Sıra meydanında sonuncu proverka idi. Adbaad yoxlamadan sonra... kənddə, pəncərə-sindən özbaşına adlayan, qonşularına Voronej-dən gələn qonaqla təsadüfi görüşdən sonra, gecəyarı ayaqyoluna gedəndə tumanında qan görən Ksyuşadan doğulan - növbətçi Levçenko bu surğuclu, möhürlü məktubu gətirdi və nümayişkaranə, yüksək tonla Kaşşeyevə dedi:

- Pervomayskidən, şəxsən komandir çast-dan gəlib.

Hamı maraqla qulaq asırdı. Görəsən nə baş verib? Kaşşeyev məktubu mənə uzadıb:

- Aç, oxu görək...

Elə bu vaxt tağım komandiri Podqornu cır səsiylə qışqırıb, əmr verdi:

“Ротааа…Равняайссс… Смирнааа!”

Bir az qurdalanaraq zərfi açdım. Sıra meydanında ölü bir səssizlik hökm sürürdü. Quş uçsa inanın səsi eşidilərdi. Hərbi hissə komandirinin “yalançı əmrinin” baş hissəsini oxumağa başladım və dərhal əsas məsələyə keçdim: Список стариков-Дмб-1972

1. Starşıy serjant Kaşşeev
2. Mladşıy serjant Babayev
3. Serjant Asadov
4. Ryadovoy Fedirko
5. Ryadovoy Akberov...

Hər oxunanda sürəkli əl çalınırdı. Çox gözəl alınmışdı. Bu payız tərxis olunanların siyahısı qurtardı və bir az pauza verib, özüm zarafatca qışqırdım:

“Serjant Podqornu!”

Bu vaxt hamı gülüşdü! O, cəmisi altı ay xidmət eləmişdi hələ...

Siyahı əhvalatı qurtarandan sonra da Kaşşeyev “odboy” elan elədi.

Soyunub yerimə girsəm də yata bilmirdim. Yuxum qaçmışdı. Əllərimi başımın arxasında çarpazlayıb orta məktəb illərini düşünürdüm:

“Bərdədə Kolxoz bazarının arxasında yaşayan, qonşu saatsaz Salehin bir oğlu vardı, - Şahin. Mənimlə həmyaş olardı. Bizim 1 №-li orta məktəbdə oxuyur, yeddinci sinifdən şer, qəzəl, poema yazırdı. Kök, hündür oğlan idi. Tənəffüslərdə uşaqlar onun arxasınca qaçar, şer dedizdirərdilər. Hamı onu dəli Şahin adlan-dırardı. Kişi kimi Прима çəkər, siqareti siqaretə calayardı. Baxanda elə bilərdin, bəs institut tələbəsidir. Gülməzdi. Siqaret sümürməkdən dişləri saralmışdı.

Danışırdılar ki, evdə bir dəfə paltarlı-zadlı çarpayıda uzanıb, zülmət qaranlıqda siqaret çəkirmiş. Yuxuya keçər və közərən Прима siqareti barmaqları arasından sinəsinə düşüb köynəyini yandırar və od yorğan - döşəyi alar...

Sahin hövlnak sıçrayıb qaçar.

Qonum-qonşunun köməyiylə alovu zorla ram edərlər.

Dəli Şahinin qəzəlindən bir kuplet yaxşı yadımdaydı:

*****

“Ey fələk sormaqdayam, de kimdi ustadın sənin?

Qurmadın dünyanı düzgün, yoxmu bir dadın sənin?

Hər kim gəldi dünyaya, çoxmu nöqsan eylədi?

Badə içdim dərd azalsın, dərdim tüğyan eylədi...”

*****

Dəli Şahin bu qəzəli yazanda doqquzuncu sinifdə oxuyurdu. Sonralar o universitetə qəbul olunmuşdu və yazıq deyəsən təhsilini heç bitirməmiş də öldü.

Heyfim gəldi ona...

“Kərbəla müsibəti”
Rotada yeni epoxa

Odessa, 12 iyul 1972-ci il, III gün.

Ramiz Babayev əhvalatından və Faiqin dikbaş, tərbiyəsiz davranışından sonra “Sibir uşaqlarıyla” aramızda soyuqluq yaranmışdı.

Onlar bizim Laçın, Kəlbəcər uşaqlarının yumşaqlığından elə başa düşürdülər ki, biz nəsə əfəlik və старик-lik eləyə bilmirik.

Əslində isə ruslar onlara bizə görə dillənmir, samovolkaya şəxsən mənə görə rahat gedə bilirdilər. Ancaq deyəsən artıq cızıqlarından çıxır, özlərindən müştəbeh olub, göylə gedirdilər. Fikirləşmirdilər ki, mıxı mismar edən var...

Pürkamal çıxıblar!

Gecə yatmaq əmrindən dərhal sonra, kazarmada kuybışevli Hüseyinlə laçınlı Mürşüd yanıma gəldi.

Sən demə hələ, günorta yeməyi zamanı Şeydayev bizim şamxorlu Vahidlə dalaşmaq istəyib, hətta yeməkxanada dirəşib ki, çıx çölə петух gədə, səni уничтажать eləyəcəm, bizim uşaqlar araya girib, imkan verməyiblər.

Vahid bərk qorxub.

Bu əsl həqarət idi!

Təpərsiz Mürşüd naümidcəsinə:

- Sən döyəndən sonra Ramiz Babayev sakitləşmişdi, indi yenə bizim uşaqlardan zəli tək yapışıb əl çəkmir, kimi görsə, söz atır, onu-bunu lağa qoyur...

Pərvərdigarə bu nə zəlalət idi?

Faiqin çıxartdığı hoqqanı isə bircə Nazıya demişdim, uşaqlar hələ bilmirdi. Düzü Bərdəli Şükürün xətrinə istəmirdim Sibirdən gələn azərbaycanlılarla aramıza nifaq düşsün...

Tərslikdən elə bu vaxt Turabxan da bizə yaxınlaşdı:

- Ramiz Babayev bu gün Arifə deyirdi ki, siz nə stariksiniz ə dılğır, mən starik-mstarik tanımıram, beynim çönsə pis olacaq, sən ölə-sən mal kimi çığnayacam sizi...

Bu vaxt vaynösə Sahib Əkbərov gəldi ki, Kaşşeyev səni çağırır. Uşaqlara dedim:

- Gözləyin gəlim, artıq bir plan cızmaq, hərəkətə keçmək vaxtıdır, başqa xəbər də var deyəsən.

Kaşşeyev rotada starşinanı əvəz eləyir, nüfuz məmurları olan mayor Deqtyar və Boyko-dan sonra artıq üçüncü komandir sayılırdı.

Mənə oturmağı təklif edib, sözlü adamlar kimi astadan, aramla başladı:

- Sibirdən gələn, sizin əsgərlərdən olan Baxşıyev indi məndən samovolkaya getməyə icazə istədi, sənə görə dinmədim. Bu dəqiqə onu hauptvaxta basaram. İcazə verməyəndən sonra da həyasız-həyasız əlini havada yelləyib, ikrahla, molodoysan hələ, səndən starşı olmaz, dedi. Bizim rus stariklər də mənə görə onların payını vermir.

Hər şey su kimi, ovuc içi kimi apaydın görünürdü... Rotada yeni epoxa başlamalıydı!

Keçdi gül, uçdu bülbül, istər ağla, istər gül - məsəli yadıma düşdü:

- Kaşşeyev,- dedim, - bu gündən millətçilik məsələsi qurtardı! Starik - stariklik eləməlidir, molodoy da - molodoyluq. İstər rus olsun, istər moldovan, istər özbək, istərsə də tatar.

Keçəl başa nə taxta daraq?!

Stariksən keç yuxarı başa, molodoysan, get kazarmada döşəməni qaşı yu, çarpayıları zapravka elə, kartof soy və bu kimi işləri gör - molodoyluq elə... Paxat elə! Molodoy əsgər nədi, samovolka, qızla gəzmək, içki içmək nədi? Hələ bir, stariklərin üstündə stariklik də eləmək keçir ürəklərindən. Allah sən saxla!

Kaşşeyevlə rotamızın gələcək taleyini aydınlaşdırıb, müəyyənləşdirib cəld kazarmaya qayıtdım.

Agcabədili Nazı, kəlbəcərli vaynösə Sahib Əkbərov, məni gozləyən təpərsiz Mürşüd, qayışbaldır Turabxanla kuybışevli Hüseyni də yanımıza çağırtdırıb, əlahiddə situasiyanı oldu- ğu kimi onlara başa saldım.

Məsələ həqiqətən qəlizləşmiş və bişmişdi.

Leninin sözü olmasın: “Sabah gecdi, bu gün tez... məhz elə bu gecə hərəkətə keçmək lazımdır...”

Şeydayevlər, Baxşıyevlər, Heydərovlar, Kəngərlilər və Ramizlər, bilməlidir ki, həmyer-lim mirzəalıbəyli Şükürün xətrinə, şəxsən mənə görə, bərk gediblər!

Bura Vətən olsa da, qürbət eldi.

Çox əjdahaların, divlərin şüşə ürəkləri bu-rada sındırılıb... nağıllarda olduğu kimi Məlik-məmmədlərin meydanı deyil Odessa!

Beləcə uzun müşavirədən sonra təqdirə-layiq məxfi planımı açıqladım.

Artıq iki qütbə ayrılmışdıq.

...Gecəyarı İsmət, Mürşüd, Hüseyin və Turabxan növbəti əsgər həyatının şipşirin, öz uşaq yuxusunu uyğulayan zəli Ramiz Babaye-vi, Şeydayevi və sonda da Baxşıyevi ayrı-ayrılıqda oyadıb, ağızlarını qapayaraq, bir-bir ağ mələfəyə bükülü vəziyyətdə, çiyinlərində ikinci mərtəbəyə qaldırdılar.

Nazıyla keramik yığılan taxta yeşiklərin üstündə oturmuşdum.

Kəsif qoxulu otaqda onları ağ mələfədən açdılar...

Qonşu otaqda - Ədalət, Sahib Əkbərov, Arif, Vahid, Elman və xəstə Mamedə qədər bütün uşaqlar taxta parçaları, başı qalın ağır dəmirli əsgər remeni, bel sapı və bıçaqla silahlanmışdılar.

Bərk-bərk tapşırmışdım ki, bıçaqlar yalnız qorxutmaq üçündür, lazım gələrsə, bıçağın küt arxasıyla vursunlar.

Bir sözlə, zərbəni çaşdıraraq - sol əllə aldadıb, sağ əllə vurmalıydıq.

Çarpayılarından oğurlanıb ağ mələfədə aparılanların çırpıntı və iniltilərindən duyuq düşən "Sibir uşağı" Rufullayev də onların ar-dınca özünü yetirdi.

Onları zorla sıraya düzdürüb, dördünə də elədikləri əməlin nə qədər düz olub-olmama-sıyla bağlı ədalətlə sorğu-sual elədim. Ədalət, mükafatın, ya zəqqumun qədərincə verilməsi-dir. Kimin günahı nədir, ədalətlə cəzasını o qədər almalıdır.

Qürbət el, gecə yarıdan keçmiş, lüt vəziy-yətdə... Əlqərəz, qorxub, boyunlarına heç nə almadılar.

Vahidi çağırtdırdım.

Üzümü Şeydayevə tutub:

- Yalanla plov bişsə, bax o Qara dəniz boyda kərə yağı məndə! Qaclaşmaq istəyirsiniz bizimlə?

Əsl məhşər ayağı, onların yerdə allahlıq eləmək ümidlərinin bitdiyi - narıncı bir gecəydi! Yuxu deyildi bunlar...

İyirmi aydı gün sayırıq, bunlar isə dünən gəlib ağalıq eləmək istəyir, özü də özlərindən böyük dilbir, dinbir qardaşlarının üstündə. Qabilin sözü olmasın: "Yaman oluruq biz, səhv düşəndə yerimiz..."

Tək zemelya Şükürlə Fatıya tuman çıx-maz, artıq dırnağı ətdən ayırmaq vaxtıydı.

Bir daha əmin oldum: Əsgər şən mahnı oxuya bilməz. Öz molodoy azərbaycanlılarımı-za daha etibar qalmadı.

İyirmi ay, Biləcəridəki kişinin sözü olmasın paxat eləyəsən, it zülmü çəkəsən və starik adı qazanmış əsgər-kütləni məsxərəyə qoymaq olmazdı. Bu əsl həqarət idi. Zəlalət çəkmək daha yaraşmazdi bizə.

Düz yarım əsrdir, sovet hərb sistemində bu "stariklik qanunu" polad zəncir həlqə formasında konveyer lenti kimi işləyirdi.

Biz molodoy olanda, Pervomayskidə allahın zülmünü çəkmişdik. Türmədən yenicə çıxıb əsgərliyə gəlmiş, olimpiya çempionu kimi bədən fiqurası olan muskullu rus Vasilyevlə nasılkada rasstvor daşıyırdıq. Nasılkanın taxta qolu ağırlığa dözməyib, dəfələrlə sınırdı. İki-üç kuzov hündürlüyündə qırmızı kərpiclə tıxlanıb qalaqlanmış, qatardan böyük eşalonların gün-də neçəsini boşaldırdıq. Ağır işdən inləyən, hələ düz-əməlli sümüyü bərkiməmiş müsəlman əsgərlərimiz... üstəlik, gecə də döşəməni zığ-palçıqdan qaşıyıb, ağarana qədər sürtürdü.

Bizim uşaqlar Vətəni qorumaq adıyla hərbi xidmətə gələndə hərəsi, - ən azından öz ailəsinin əzizi idi. On yeddi -on səkkiz yaşlı ev uşaqlarıydı hamısı.

İyirmi ayın içərisində ağır yük daşımaqdan daşımaqdan kövrək sümüklü onurğaları əyilmiş yazıqların, əlləri döyənək olmuş, göz bəbəkləri donuqlanmış, cod tük çıxarıb vaxtsız kişiləş-mişdilər.

İndi, dünən gələn bu din qardaşlarımız nə istəyirdi bizdən?

Heç olmasa, salaqa ruslara sataşaydılar?

Bəxtiniz "oxan" durub, cəhənnəm Sibir-dən, cənnət Odessaya gətiriblər sizi.

Bəs deyil?

Stariklik ilhamı onları erkən minmişdi!

Bir mirzəalıbəyli Şükürə görə sizə bu qədər hörmət qoyduq. Mən bərdəliləri dünya-nın "ali irqi" hesab edənlərdənəm.

O Tövrat və İncildən sonra üçüncü səmavi kitab olan Qurana and olsun, Bərdədə, ya Ba-kıda yaşayanda, orta məktəb, tələbəlik illərində kim deməydi, mən Kirovabadlıyam, ya Varta-şen, Qutqaşen, Puşkin, Dəvəçi, Mirbəşir, ya da Əlibayramlı, Nuxa, Astraxanbazar, Jdanov, Martuni,

Mardakert, lap Naxçıvandanam... on-ları ikinci dərəcəli məxluqat sayardım.

Bu mənim bəşəri duyğularımın fantaziya-sı deyildi...

Mənə elə gəlirdi, dünya özü də bərdəlidir və hər şey Bərdədən başlayır.

Kəlbəcər, Laçın, Lerik, köhnə Xankəndi - indiki Stepanakert, ya Qubadlı, Qaryagin, ya da başqa rayon olsun, mənim üçün fərq eləməzdi.

Bərdə, Bərdə, yenə də Bərdə...

Ona görə Sibirdən gələn azərbaycanlıları, bu günə kimi bərdəli Şükürün bərdəliliyinə qurban eləmişdim.

Zira, dönük çıxdı mənim Şükür qismətim. Tərəfgirlik, dost yumşaqlığı daha qurtardı!

Bu məşum gecədə isə... hərə öz yerini tapmalıydı.

Və tapdı da!

Əla plan qurmuşdum. Ayağa qalxıb düz Rufullayevin qarşısında dayandım:

-Rufullayev!

Bu üç nəfəri mən gətizdirmişəm. Sən niyə gəlmisən?

O, güman eləmədiyi şəraitin qəfil yaran-masından bir az əndişələnmiş, çaşmış canı isinmişdi.

Kəkələdi...

Onun yerinə Şeydayev dilləndi:

- Yatdığımız yerdə bizi tuman-köynəkdə gətiriblər. Bu kişilikdəndir?

- Kim gətirib?

- Sizinkilər.

Elə bil mənə sancaq batırdı.

- Qardaş sən, ya bunlar məgər bizimkilər deyilsiniz?

O duruxdu...

Üzümü Baxşıyevə çevirdim:

- Baxşıyev! Kaşşeyevə niyə molodoy deyirsən? Yazıq bizim kimi iyirmi aydır ev-eşiyindən didərgin düşüb, Vətənə qulluq eləyir. Özü də savadlı, səndən iraq, hər şeyin yerini bilən, dost yolunda ölümə belə hazır olan oğ-landır. Elə bilirsən səndən qorxur?

- Özümüz bilərik!

-Yox! Rotada starikliyin tərəkə vaxtı bu gecədi. Siz tələsdiniz!

O, hələ də hikkəliydi...

- Sabahdan özünüz bilərsiniz, indi tələdə sizsiniz...Yazılmayan kitabı vərəqləməzlər, ya-zarıq bu gecə... Oxuyarsız, oxumazsız, özünüz bilərsiniz.

Sonra yenidən üzümü gənc Şeydayevə tutdum:

- Şeydayev! Burnunu az dik tut. Vahidi yemək yediyi yerdə çölə çıxarıb döymək istəyirdin? Heç sənin vicdanın var? Əvvəla səndən iki yaş böyükdür, ikincisi də o, bir il əvvəl "stadion davası"nda azərbaycanlı, salaqa bərdəli Sabirin üstündə ruslarla ölüm-dirim "müharibə"sinə gedib, sağ qalıb. Nə olar ondan cəmdəkli olanda? Biz heyvan deyilik ki, güclü-gücsüzü basıb yesin. Faiqə arxalanırsınız? mirzəalıbəyli Şükürə? Ya Heydərov Bakirə? Sənə neyləmişdi? Kaşşeyev rotanın ruslarını ayağa qaldırsa, onda nə edəcəksiniz?

-Ramiz! Bizim Şərq küçəsində sənin kimi cib dəsmalı gəzdirənə ədəbaz deyirlər. Səni o gün döymüşəm, ağzın-burnun qan idi. Dərs olmadı? Hələ, beynimi çöndərməyin, mal kimi çığnayaram deyirsən?

Rufullayev elə bil qəflətən, qəflət yuxusun-dan oyandı, alçaldıqlarını hiss eləyib, ağ gecə köynəyinin sinəsini cırdı!

-Sizi məhv edəcəyik! - qışqırdı.

Cəld sıçrayıb, Rufullayevin ağzından bir kəllə vurdum. Nəsə xırç elədi və qaşından qan süzüldü. Baxşıyev, Şeydayev və zəli Ramiz Babayev üstümə atıldı.

Mürşüd, Hüseyin və Nazı da hərəsi bir tərəfdən hayqırdı.

İşarə verilmişdi!

Yan otaqdakı uşaqlar özlərini yetirdi...

Dalbadal yumruq, kəllə, təpik yesəm də, partlayan yerim olmadığından, şükür vəziyyə-tim yaxşıydı.

...Dörd cəmdək yerə uzanmışdı.

Qan içində çabalayırdılar...

Heç nə olmamış kimi, sakitcə qayıdıb kazarmaya getdik.

Zəli Ramizin çənəsi remen zərbəsindən dağılmışdı. O özünü kazarmaya salıb fəryadla Zakirin çarpayısına cumdu.

Zakir Kəngərli Faiqi, Faiq bərdəli Şükürü, bir sözlə, rotanın işıqları yandı...

Çığırtıya Kaşşeyev özünü yetirdi.

İkinci “stadion davası” yenidən düşmüş, “müharibə” başlamışdı. Şükür alt tuman-köy-nəkdə üstümə yüyürdü:

- Mən ölüm, Faiqlə işiniz olmasın!

İlk iki ardıcıl kəlləni, elə Şükürün gözləri qarşısında Faiqin ağzına ilişdirdim.

Dodağında qan köpüklədi.

Heç üç dəqiqə keçməmiş bizim uşaqlar gizlətdikləri yerdən bel sapı, kürək, taxta-tuxta, kim nə gəldi çıxarıb, remenləri açaraq, kazar-maya doluşdular.

Göydə salva yağırdı!

Biz sayca onlardan çox, müttəhid, həm gövdəcə böyük, həm də mütəşəkkil dava təcrübəmiz vardı...

Yazıq Kaşşeyev!

Starşinanı əvəz elədiyindən və qırğının onun üstündə düşdüyünü güman etdiyindən qan axıdılmasını istəmirdi.

Ancaq xəncər qından çıxmışdı!

Dəli olmuşdum.

Sibirdən gələn azərbaycanlı əsgərləri al qana boyadıq.

Biz həm də yaşca onlardan böyük idik. Bu da əsas amillərdən biriydi.

Qara cod tüklü ayı kimi minkəndli Mürşüd, laçınlı qayışbaldır Turabxan, kəlbəcərli Sahib Əkbərov, şamxorlu Vahid, Baba, uzun Ədalət, Çingiz...daha kimi deyim? Demək olar ki, mayıf Mameddən başqa bizim uşaqların hamısı,

məhəccərin üstünə sərilmiş tozlu xalça kimi onları çırpırdılar.

Qəflətən ağcabədili Nazı arxadan məni ortalayıb tutdu və fəryadla qışqırdı:

- Əəə, bu yazıxlayı niyə öldüyüysünüz? Sizin qanınız, vicdanınız yoxduy? Müsəlman deyilsiniz əəə?

Birini də Nazıya çəkdim!

- Elə müsəlman olduğumuz üçün dalaşırıq dəə!

Sanki dəlilik eyforiyasındaydım...

Şükürdən başqa bir nəfər də olsun "sibirli" uşaq xətərsiz ötüşməmişdi...

Heç birininin dodağı, burnu, qaşı, çənəsi, qulağı, başı salamat deyildi...

Mürşüdə demişdim, uşaqlara tapşır: "Elə döyməliyik, sonradan birləşib bir-bir bizim uşaqları təkləməyə cürət eləməsinlər. Az döysək, sabah bir də baş qaldıracaqlar. Dava uzanacaq."

Nazim Əsədovun isə bu gizli sazişdən xəbəri yoxuydu.

Məqamı yetişəndə qışqırdım:

- Mürşüd, hardasan?

...Azərbaycanlı əsgər "sibirlilərin" hamısı yerdəydi...

"Müharibə" bitmişdi.

İlk ayağa qalxan Baxşıyev oldu.

Remenin dəmiri tutduğundan burnunun üstü necə dağılmışdı!

Cəld çarpayısının üstündən dəsmal götürüb burnuna sıxdı və üst-başını çırpa-çırpa:

- Sağ ol, Babayev! - xırıldadı.

Səsindən məyusluq, ümidsizlik, taleyin amansızlığıyla barışqanlıq sezilirdi.

Ayaqda güclə dayanmışdı.

Cavab vermədim. Planım uğurla başa çatmışdı.

İndi qədrimizi bilərlər...

Kaşşeyevi də başa saldım: “Sabahdan, istər rus olsun, istər azərbaycanlı, starik stariklik eləməlidir, molodoy da molodoyluq.

Molodoy nədi, samovolkaya qaçdı nədi?..”

Kaşşeyev işıqları söndürtdürüb, növbətçi və dnevalnılara göstərişini verəndən sonra hamı əməliyyatın müvəffəqiyyətlə başa çatdı-ğına tam əmin oldu.

Qatar maşinisti naşılıq eləmiş, əyri bir döngədə qatarı relsdən çıxarmış, arxasınca yerindən qopardığı şpal qalaqları göz dağı qalmışdı. İndi qalırdı bu şpalları düzüb, relsləri yenidən bərpa eləmək və kəhrəba təsbeh düzülüşünə oxşar qatarların yolunu açmaq.

Əsgər həyatımızın bu məşum gecəsi də belə bir tarixə çevrildi...

Səhərin açılmasına iki-üç saat qalmışdı.

Sübh tezdən oyana bilmirdim. Səhər yeməyi vaxtı, saat 07:30-da Kaşşeyev özü mə-ni oyatdı.

Gecə keçirdiyim həyəcanlardan sonra, yenə horralı bir yuxu görürdüm.

Yaxşı ki, Kaşşeyev gəldi.

Oyanan kimi gecə baş verənləri xatır-ladım...

Kazarmada növbətçi və dnevalnılardan başqa xəstə-xüstə və üç-dörd nəfər də dünən şil-küt elədiyimiz əsgər qalmışdı.

Geyinib qalxdım.

Bu günkü dəniz idmanı da qaldı.

Faiq, baş-gözü sarıqlı, gözləri yumulu çar-payısındaydı...

Kaşşeyevlə yeməkxanaya getdik.

Yolboyu gecəki davanı xatırladıq. Bildirdi ki, sübh çağına qədər onları sançasta aparıb-gətirib, hamısına ilkin yardım göstərilib...

Heç gözləmədiyim halda azərbaycanlı “sibir”lilər bir kişilik göstərdi:

“Satqınlıq olmayacaq!” - dedilər.

Onların bu qərarı çox xoşuma gəldi və qəflətən vicdan əzabı məni çulğadı.

Peşiman oldum. Və düşündüm ki, səhv eləmişəm.

Niyə axı onları bu qədər döydük?

Əqidəm, məsləkim niyə yol verdi bu işə?

Axı bizim uşaqlar onlardan çox idi, həm də nə qədər olmasa, onlar da özümüzünkü-ləriydi.

Mənim kimi onların da arxada gözlə-yənləri, bəlkə lap sevdikləri də var.

Onları da ana doğub, yazıq deyillər?

Bəs bu yazıqların valideyinləri bu vəziy-yətdə onları görsə, neyləyər?

Bəlkə də bu gecə ata-anaları elə mənim özüm kimi horra yuxular görüb.

Səhər oyananda qulflarından çıxan nəzir-niyazdan paylayıb, öz Xeyrullalarına fal açdı-racaq, uşaqlarının başında bir qara dumanın olub-olmadığını dəqiqləşdirəcək, dizlərini yerə qoyub Allaha yalvaracaqlar.

Hansı ana uşağının bu vəziyyətini görsə, dözərdi? Bəs niyə mənim vicdanım bu işə yol verdi?

Anladım ki, din qardaşlarım qan içində çabalayanda cənnət çiçəkləri qoxlayanlardan da deyiləm.

Ürəyim bir anlıq sızladı da...

Yeməkxanadan çıxanda pilləkəndə vaskı Nazimlə qarşılaşdıq. Ona salam verdim.

Çox ciddi görkəm alıb:

- Əə... səndə Azəybaycan qanı yoxduyy? Sən nə əzazil adamıymışsan əə... Yazıq deyil-ləy əə...

Dillənmədim.

Düşünə-düşünə çıxıb getdim.

Və necə oldusa, birdən, inamla ürəyimdə bir toxtaqlıq tapdım:

“Mən nə etmişəm ki? İnsana nə qədər hörmət qoyular? Niyə Vahidi döymək istəyirdi dünən gələnlər? Kaşşeyevə niyə молодой deyirdilər?”

Son qərarım belə oldu:

“Çox düz elədim! Qoy onların anası keçələ, “saçlı” deyib, ağlamasınlar! Bu hadisə onların gələcək ömür yollarına düz istiqamət verəcək! Halallıq, düzlük, haqq-ədalət, böyük-kiçik tanıyacaqlar.

Bu, tarixi dərs idi!

Çörək verənə gərək şıllaq atmayasan. Əclaflığın, harınlığın, haqsızlığın da bir həddi, sonu olmalıdır...”

Amma bunları ağcabədili Nazıya başa salmaq çətin məsələydi. O da elə döyülənlər kimi savadsız,

naşı, təfəkkürü çox bəsit biri-siydi. Odur ki, Nazıya çox da əhəmiyyət vermədim.

Gün gələcək, nə vaxtsa dərk edəcək, kimiydi müqəssir, döyülənlər, ya döyənlər!?

Tarix, zaman özü hər şeyi sonda su kimi aydınlaşdırır. Bizim hələ nə yaşımız var?

...Briqadanın uşaqlarını yığıb, işlərini böldüm və hamısına da tapşırdım ki, "Sibir uşaqları"nın birinə də söz atmasınlar, sataşma-sınlar və onlar tərəfdən bir ЧП baş versə, mənsiz heç bir hərəkət etməsinlər...

Kazarmaya gəldim.

Çox yorğun, əzgin olduğumdan paltarlı yerimə uzandım. Gözlərimə yuxu getmirdi. Nə qədər elədim, nə qəzet, nə məktub, nə də kitab oxuya bildim. Gözlərimi qapayıb, gecəki hadisəni film lenti kimi xatırladım.

Zakirin Kəngərli Faiqi durquzub, Dur bizimkiləri öldürürlər, deməsini mayıf Mamed qulaqlarıyla eşitmişdi. Faiq qorxusundan dur-maq istəmirmiş, "bərk gedən" kirovabadlı oğlan bəs nə oldu?

Poçtu gətirdilər.

Pervomayskidən, xumbaçı çənə Telman-dan məktub aldım. Zərfi açanda içindən başqa bir məktub da çıxdı.

Dərhal üzünü oxudum. Hitlerə oxşar Qanboyun oğlu Ələsgərdən idi.

Nədənsə dərhal Ələsgərin çirkarxın çuqun lyukundan çıxan başını xatırladım.

Taksini saxladıb heyrətlə ona: “Burada nə axtarırsan?” - soruşanda, o, özünü itirib kəkildəmişdi:

“Kanalizasiya idarəsində işləyirəm...”

O vaxt gülməkdən uğunub ona demişdim:

“İşləməyə başqa idarə tapmadın, ayyəə... Bu pox-püsürün içində niyə eşələnirsən?”

Çirkarxın içərisində işləyənlər, əsasən yaşlı erməni, rus və bir də yerli kimsəsiz al-kaşlar olardı.

Fürer Bəylər elə yaxşı demişdi donuz məsələsini. Mən də dərhal bir beyt yazmışdım sənə, yadındadı:

“Ə, Ələsgər yenə də
Yaşadığın o damdı?
Bəylər bunu deyəndə
Donuz damını andı.”

***

Cavan oğlansan, ağır ol, zavtan olsun, get özünə düzəməlli, peşənə uyğun bir iş tap...

Hələ başqa bir məqam da məni indi heyrətləndirdi: Dörd aydır Odessada xidmət

eləyirəm, bu bədbəxt məktubu niyə Pervo-mayskiyə yazıb?

Hər gün küçədə bizimkilərlə qarşılaşsada görünür heç soruşmayıb da... Deməli yarım ildir bunun məndən heç xəbəri yoxdur. Özüdə utanmaz-utanmaz yazıb ki:

“Elə bilmə səni unutmuşam. Köhnə uşaqlıq dostu, küçəmizin məhlə həmyaşıdı, orta və ali məktəb yoldaşı olmuşuq. Yasamal-dakı evində çörəyini çox kəsmişəm. Mən çörək itirən oğlan deyiləm.”

Bu kəlmələr məni keçmişə qaytardı.

Uşaqlıq illərim yadıma düşdü. Dərhal duyğulandım, elə kövrəldim...

O vaxt əyri-üyrü, toz-torpaqlı Şərq küçəmizin namusu, qeyrəti biz idik... Qaranquş yuvaları dağıdan vaxtımızıydı... İlanın kiçik yumurtalarını evimizdə yumşaq, pərqu yorğan-döşəkdə bəsləyərdik...

Ələsgər sarışın olsa da, günün altında sülənməkdən sifəti yanıb qaralmışdı.

Biz hər bazar günü futbol oynayardıq.

Ətraf küçələrin uşaqlarıyla yığışıb Vostok, Şərq, Kolxoz, Nüşabə və Sputnik adında futbol

komandaları yaratmışdıq. Mənim komandam əvvəl Peyk, sonra Şərq komandası adlanırdı.

Ələsgər soyunanda ağ, əzələli qılçaları görünərdi. Ayaqları güclü olduğundan onu müdafiədə oynadar və tapşırardım ki, top ayağına düşən kimi cəld mənə atsın.

Özüm hücumda oynayırdım.

Neçə il futbol oynadıq, bir dəfə də olsun topu düz ötürə bilmədi. Necə vururdusa, top yan-yörədəki düzənlikdən uçub, kolxozun pam-bıq, taxıl əkiləcək şumluğuna düşər, həmişə də:

“Ayağıma yaxşı düşmədi,” - deyərdi.

İnsan psixologiyasında coğrafi mühit əsas amillərdən biridir. Günəşli ölkələrdə doğulan uşaqlar əsasən dəcəl olsa da, adətən sakit da-yanar, danışmaz, itaət edərdi.

İlahi! O vaxt necə qaynayar, necə ehti-rasla oynayardım! Dizlərim, dirsəklərim, alnım həmişə sıyrıq-sıyrıq olardı.

Sərxanın uşaqları qızbibi Vaqiflə Arif, Hitlerə oxşar, hesabdar Qanboyun oğlu Ələsgər isə heç vaxt yıxılmaz, özlərini çətinə salmaz, uduzanda da veclərinə olmazdı!

Gənclik ehtirası yoxuydu onlarda.

Elə bil uduzan bunlar deyildi!

Hər növbəti futbol oyununa gedəndə onları yalvar-yaxar, zorla aparar, oyun zamanı da vurduqları əyri ötürmələrə və qapıçının buraxdığı qola görə, bir-bir günahı olanların hamısını söyüb oyundan qovar, sonda rəqib komandayla təkbaşına oynayardım...

Araz və Məhbubə xalanın oğlu Arif kimi Ələsgərlə Xosrov da tək gəzərdi...

Xosrovla Ələsgərin özlərindən çox balaca, bələkdə olan bir qardaşları da vardı, - Xanlar və Tofiq.

Alagöz müəllimənin qohumu Xanımın iki oğlu - qızbibi Vaqif və Arif, Baharın üç oğlu... biz isə altı qardaş olduğumuzdan onlar həmişə məndən qorxar, kimin-kimdən nə giley-güzarı olsaydı, mən həll eləyərdim.

Nənəmin yanıbalalı inəyi saxladığı pəyədə onlara keçdiyim dərslər də gözlərimin qabağına gəldi.

Onda necə qayğısız bəxtəvərlər idik, İlahi!

Dünyanın keçmişinə döndü cavanlığı-mız... Heyf...

Doqquzuncu mərtəbənin açıq eyvanında oturub, dizlərimin üstündə Ələsgərə duyğusal və tutarlı bir cavab yazdım.

Amma düzünə qalsa, bərdəli uşaqlıq dostlarımdan, altı ayda bir dəfə olsa da, son aylarda mənə məktub yazan elə tək Ələsgər idi.

Çəpik, dəhşətli dərəcədə yalançı və gopçu, iddialı Xosrov, qızbibi Vaqif və Arif Sərxanoğlular 20 ayda cəmisi iki-üç məktub yazmış olardı.

Məhbubə xalanın oğlu Arif isə hələ tutulmamışdan əvvəl bir-iki məktub göndər-mişdi, amma bilirdim ki, onları Məhbubə xala dilə tutub, məcburi yazdırıb.

Dor ağacı, kompası olmayan gəmi kimi, Bahar arvadın oğlanları nitqnərdaz - Vaqif, Siyasət, Bayram, Şəqilət xalanın oğlanları - nəhəng bir balina olub suda yaşamaqdan, nəşə çəkib eşşək kimi asfalt yolda mürgü-ləməyi daha çox xoşlayan Yunis və Aydın isə heç yazmırdılar.

Bakir Heydərov yanıma gəldi.

Yanları açıq eyvanda nostalji hisslərlə, düşünə-düşünə Ələsgərə dizlərimin üstündə məktub yazırdım. Bakirin eyvana gəlməsiylə Mürşüdlə Turabxanın özünü yetirməsi bir oldu.

Yerimdən qalxmadan belə, çox sakit və təmkinlə:

- Eşidirəm, -dedim.

Mərdi-mərdanə:

- Niyə bizi döydürürdün?- soruşdu.

Səsimin tonunu dəyişmədən:

- Get onu Faiqdən, Şeydayevdən, Ramiz Babayevdən soruş,- dedim.

Mürşüd gizlincə işarə eləyirdi, vuraq bunu? Başımı buladım ki, lazım deyil.

Onsuz da çox olduğumuza, onları bərk döydüyümüzə görə daxilən bir əzab çəkirdim. Ancaq son vaxtlar çox iddialı gəzir, ipə-sapa yatmır, hələ bu azmış kimi bizim uşaqların üstündə də ağalıq eləmək istəyirdilər. Məni nisbətən sakitləşdirən də elə bu idi.

Qəflətən, ciddi və arxayınlıqla:

- Yox! Belə getməz! -dedi,- Kərbəla müsi-bəti yenidən yaşanmalıdır! Ya siz, ya da biz burada stariklik eləyəcəyik, iki qoçun başı bir qazanda qaynamaz!

Mat qaldım.

Bu kimə və nəyə arxalanıb belə cəsarətlə danışırdı? Bu nə azğınlıq idi? Nədən qaratikan kolu kimi ilişdiyini cırıqlamaq istəyirdi?

Heyrətlə:

- Necə? - soruşdum.

Amansızcasına:

- Eşitdiyin kimi!

Mürşüdlə Turabxan irəlilədi və əlimdəkiləri yerə atıb cəld onların qarşısını kəsdim. Bakir onları görsə də, sifətində qorxu deyilən şey yoxuydu.

Biz üç, o isə tək idi.

Amma lap ağ oldu, insan bu qədər cızı-ğından çıxmaz, görünür bu sözlərin arxasında nəsə yatırdı.

Özümü ələ alıb, təmkinlə:

- Stariklik qolu güclülüklə ölçülmür, ay bədbəxt, hərbidə старик son aylarını yaşayan əsgərlərə deyirlər... Zaman ilə hesablaşmaq zorundasınız, bu bir, ikincisi, bizimlə yenə qac-laşmaq istəyirsiniz?

O məni heç dinləmək belə istəmir, ac yalquzaq kimi düz gözlərimin içinə baxa-baxa qətiyyətlə:

- Qaranlıq qaranı udar, axşam biz də hazırlaşacağıq, Kərbəla müsibəti bu gecə yaşanmalıdı, ya sizə verən allah, ya da bizə, - hikkəylə, at kimi fınxırıb dedi.

Yanıb-yaxılsam da, tövrümü pozmadan:

- Bakir! Əsgər vətən əmanəti, yurd əmanətidir! Hamının arxada gözü yolda, qulağı səsdə olanı var...

Düzdü sənlə çörək yemişəm, yoldaşlıq eləmişəm... Sən tapdadın duz çörəyi. İndi mən sənə deyirəm: Qalxanı çək başına, görək qoç Koroğlu kimdi, korun oğlu kimdi? Mən sənə əl qaldırmaq istəmirdim, özün başını çobanın çomağına sürtdün.

İndi get dəstəni hazırla. Qaranlıq gecənin qaraüzlü günahkarları siz oldunuz.

Старик bizik!

Zalıma rəhm etmək, məzluma zülm etmək kimi bir şeydir.

Danışdığın sözlər, iri tələblər üçün də la-yiqli cavab alacaqsan!

Mürşüdlə Turabxan onun qolundan yapı-şıb eyvandan çıxartdı.

Bəli, elə bilirdim, məsələ bitib. Sən demə "müharibə" bu gecəymiş!

Dəftər- qələmi yığışdırıb tələsik kazarma- ya getdim. Məni əsas qorxudan bir məsələydi:

"Kimsə qaranlıqda kimisə bıçaqlaya bilər, ya vurulan remen dəmiri, taxta parçası və ya bel sapı kiminsə başına dəyib o dünyalıq edərdi. Bu çox incə bir məsələdir. Hamımız da azərbaycanlıyıq."

Çernışevski demiş:

"Nə etməli?"

Hər şey heç nədən başlayır.

Bir xeyli var-gəl edib düşünməyə başla-dım. Yuxarı baxırsan bığ, aşağı baxırsan saq-qal. Qan su yerinə axacaq, kimsə güdaza ge-dəcəkdi!

Bizim uşaqlar onlardan üç-dörd dəfə çox idi.

Hələ Kaşşeyevə desəm, rus stariklər də bizə kömək edəcəkdi...

Yaman yerdə axşamladıq.

Bayquş yaranışından viranə üçündür. İyirmi aydan sonra bu bayquşlar hardan gəlib çıxdı!?

Çoban çomağı Mürşüdü, vaynösə Sahib Əkbərovu, Ədaləti, qayışbaldır Turabxanı, vas-kı Nazimi çağırtdırdım.

Məşvərət eləməliydik...

Sabah bir şey olsa, tək mənim üstümdə qalmasın. Onsuz da ölüm işi olsa, mən başçı, "sərkərdə" kimi tutulacağam. Buna söz ola bilməzdi. Amma atalar demiş, məsləhətli don gen olar...

Uşaqlar yeddinci mərtəbədə yığılıb məni gözləyirdi. Hirsimdən bilmirdim nə edəm.

Zatına da, südünə də bələd olduqlarım dünən gecə bu qədər döyülməyin qarşısında indi nə istəyirdi? Doğrudanmı zaman axıb gedir, amma bütün işlərini qurtarıb getmir?

Bu məşum gecəmi olacaq? Zombilər kimi ət yeyib qan içəcəyik?

Naşılıq bu dəfə ölümlə nəticələnə bilərdi. Hansı tərəfdən ölən olsa, mən tutulacaqdım.

Nə üstdə?

İyirmi aydır, zülmlə gün sayıram.

Bir pəstaha çıxarıb, hələ hərbi xidmətin üstündən də tutulmaq... mənim səviyyəmə nə dərəcədə uyğun idi?

Ya kimsə bıçaqlanıb, meyidi ortada qalsa, kim nə qazanacaqdı?

Zərərin yarısından qayıtmaq da xeyirdir. Amma yox, zərərdən qorxan xeyir görməz də deyiblər.

Əsas məsələ hələ bunlar deyildi. Əsas oydu ki, ölən bilinsəydi də, öldürəni tapmaq müşkül məsələydi.

Ölənin qanı batacaq, deməli, bu gecə kiminsə rekviyemi çalınacaqdı!?

Hamı məndən şübhələnəcək.

Deməli bu gecə əsl sərkərdələr kimi tarixi missiya daşımalıydım.

Bir dəfə də... Bakıda institutda oxuyanda, Qazaxın Daş Salahlı kəndindən olan qrup yoldaşım Mahir Eminovla Sovetskidə başıma belə bir hadisə gəlmişdi. Onda birtəhər ölüm-dən qurtarmışdıq.

Zəlzələni görən yanğına tez razı olar. İndi necə olacaqdı?

Bunu Allahdan başqa heç kim bilməzdi... Bu "yeni stadion müharibəsinin" aqibəti məni çox bezdirir, qorxudur, sıxır və düşünə-düşünə, ağzıma

ot sapı salıb çeynəyə-çeynəyə, aramla pilləkanları qalxırdım. Bu iş çox qəliz istiqamət almışdı.

Birdən nədənsə mənə elə gəldi min illərdi yaşayıram...

Hər iki tərəfdən kimə nə olsa, - işığa möh-tac olanın çırağını üfürüb söndürmək kimi bir şey alınacaqdı...

Nə qədər ürəkli olsam da, nə qədər əlimin altında vuruşa bilən əsgərim olsa da...

Axı, daxilən həm də ziyalı idim!

Onları gözümçıxdıya salmaq, alçaltmaq istəmirdim, belə məntiqsiz hərəkətlər təbiətimə, təfəkkürümə yad idi.

Dəvə kimi kinli yerlilərimin isə başa düş-dükləri, - yalnız yumruq-təpik, hərbə-zorbaydı.

Pəncərəmizi sanki vaxtsız-vədəsiz qırov basmışdı.

Hərbi xidmətə yeni gəlsələr də, iyirmi ay zülm çəkmiş həmyerlilərinin üstündə stariklik eləmək istəyirdilər.

İddiaya, iştaha bir bax!

Çox-çox igidlər belə mənəm mənəmliyin qurbanı olublar.

İndi bircə dümbək, qaval, tütək, zurna-balabanımız çatmırdı!

Dərin dəryada döşək açıb yatmaq nə qədər real idisə, bu gecəki qan-qadadan qaç-maq, qurtulmaq da o dərəcədə real idi.

Artıq taleyə bel bağlayıb, şansının gətirə-cəyinə ümid etmək məqamı deyildi.

Barmaq sümüyü əzmək kimi asan olma-yacaqdı...

Yallı şirlər kimi cəsarət və sürətlə şığıyıb meydana atılsan da, zil qaranlıqda hansı namərdin harada pusquda gözlədiyini güman eləyə bilməz, heç təsəvvürə gətirə bilməzdin.

Gözlə görünməz yazı deyildi ki, zərrəbin altına tutub oxuyaydın.

Paslı bıçaqla hansısa namərd, pusquda dayanmışın biri, zülmət qaranlıqda mənfur işini görüb, dərhal aradan çıxa bilərdi.

Buna görə də qızmışın hovu alınmalıydı!

Amma necə?

Mülki vaxt olsaydı, filmlərdəki kimi, istəsən bir-neçəsini vurub, qızıl küləşli çovdarlığın içiy-lə qaça-qaça yenə bir müddət gizlənərdin.

İndi isə əsgərsən, qaçılası yerin kazar-madan o yana deyil...

Özünü qorumaq üçün hamı taxta par-çalarıyla çəkic, qılınc, külüng formalarında alət-lər hazırlayırdı.

Deyəsən kazarmaya müqəddəs suyun çilənməsi vaxtı çatmışdı.

İt olasan, belə vəziyyətə düşməyəsən!

Fikirlərim sapa düzüldükcə gecə qopacaq həngamə, vur-çatlasın beynimdə fırlanırdı.

Zəhər- zəqqutun, zəqqum gələndə acı bərk qaçar deyiblər.

Közərən ocağa benzinmi çiləyim, sumu?

Vəziyyətim çoban məşəqqətlərindən də ağır idi. Yaxşı ayğır ilxım vardı, yaxşı da çobanlarım, yaxşı sərkərdə olmaq lazımıydı, - "süvariləri" atlandırıb döyüşə aparsın.

Yaxşı igid dalı gözlər, yaxşı at da qabağı. Amma qarşıda ocaq əmanəti, yurd əmanəti - özümüzünkülər, din qardaşlarımız idi...

Hadisənin hər iki başı məni tutacaqdı.

Siyasət nənə-bacı bilməz deyiblər, amma siyasətlə iş tutmaq vaxtıydı.

İlluziyaya qapılmaq məhvə aparardı.

Yanar oda düşmüşdüm. Titan qapaq dişli Şeydayev nə bilir həsrətli vida fiti nədir?

Ya xortdana oxşar bu Ramiz Babayev nə bilir zülmət gecə öz qara örtüyünü meşələrin, evlərin, səhraların üstünə çəkəndə, bu zülmət gecədə bizim kazarmada nələr baş verəcək?

Eşşək nə bilir zəfəran nədir?

Hər səhər yanıma salıb dəniz kənarında gəzdirməkdən, Bakirin yanaqları dəniz hava-sından qızarmış, behişt istirahəti eləyib qızmış, indi də hayıxıb üstümüzdə ağalıq eləmək eş-qinə düşmüşdü.

Ox yaydan çıxmışdı!

Xisləti murdar Faiq nə istəyirdi?

Heç yerlim Şükür də az aşın duzu deyil-miş, gözə görünmür, danışıqdan, hürriyyətdən qaçırdı.

İndi onlara rəzil, kölə olmaq yaraşırdı.

Ağır əsgərliyin son əbədi ağalıq dövrünü yaşamalı olduğumuz halda, bu xortdana oxşar oranqutan meymunları, erməni kimi əntər əc-dadlılar nə istəyirdi bizdən?

Günləri, saatları saya-saya iyirmi ay keçir-mişik...

Hələ bu qotur oğlu qotur - ağcabədili pəl-tək vaskı Nazim! Məni məzəmmət eləyir...

Yerinə stariklik eləmək istəyirlər - heç sənin şərəfin yoxdu, düdük?

Onlar artıq nəzəri şəkildə bu gecə məhv olacaqdı!

Bu şəksiz idi.

Vurub birini gəbərtdik.

Sonra? Gərək elə iş görəsən, sonradan, ara sözü olmasın:

“Ana, gözüm çıxdı, neyləyim? - demə-yəsən.

Bu işin kökü, qayəsi azğınlıqdan, savad-sızlıqdan başqa bir şey deyildi!

Heyvan əhliləşdiricisi əlinə kiçik bir qamçı alıb onlara insan kimi işlər görməyə, danışıb müəyyən sözlər işlətməyə şirin bir konfetlə də nail ola bilir.

Bəs öz ocağına köz sala bilməyən, bu qanmaz... təxəyyülü, təfəkkürü bəlli olmayan “danışan heyvanları” necə başa salaydıq?

Sirkə tünd olanda, öz küpünü partladar.

Onlar elə bilir, bizim uşaqlar qul, kölə kimi qorxudan itaət edəcək “qoyunlardır.” Ürək-lərindən bizim yerimizə stariklik eləmək keçir.

Gözləyin, dəvə qoz sıçacaq!

Ölüm işi, ya bıçaqlanma olsa, - həm də hansı tərəfdən olur-olsun belə, - günah keçisi mən olacaqdım.

Bunu ovuc içi kimi aydın görürdüm.

Bəs nə etməli?

Fikirlərim yüyənsiz at kimi çapırdı.

Sizin qazanınız var deyə, biz vuraq, öz güvəcimizi sındıraq?

Uşaqlar yeddinci mərtəbəyə yığışmışdı. Fikirlərim dumanlı olsa da, hələ qəti qərara gələ bilməsəm də, əmin addımlarla içəriyə girdim.

Hamı sanki cilov gəmirirdi.

Hissə qapılan kim, asıb-kəsən kim, çənə-boğaz edən kim, heysiz halda divara söykənib qərar gözləyən kim... Misri qılınc əlində olsa, sapı belə kəsə bilməyən mayıf Mamed də yol göstərirdi. İndi gəl ayırd elə, kim haqlıdır?

Nazı gəlişimdən qürurlanıb məmnun hal-da gülümsündü:

- Taa gəl çıx dənə əəə... bütün iş sənin boynundadıyy... hamı sənin sözünü gözləyiyy...

Nazim nədənsə, gecə başqa hərəkət elə-sə də, indi dava eləməyin lehinəydi.

Düzdü, hara çəksən, günah onlardaydı, haramzadalıq Faiqdən başlasa da, qəliz oğlana oxşayan bu Bakir də ürəyinə tikan batmış kimi vurnuxurdu.

Hər şeyin təfərrüatına varmaq, hər şeyi düzgün araşdırmaq, düzgün nəticə çıxarmaq, düzgün qərar qəbul eləmək lazımıydı.

Yaxşı ovçunun toruna, ov öz ayağı ilə gələr.

Kəlbəcərli Sahib Əkbərov paslı bolt kimi qəflətən açıldı:

- Şeydayevin boğazından qırraşıb, boğub öldürəcəm...

Soyuqqanlılıqla, əsl başçı, sərkərdə kimi:

- Boş danışma, arxadan taxtayla birini başına endirərlər, küçük kimi zingildəyib böyrü üstə yıxılarsan. Çən, çiskin - dumanda örüş yeri deyil bura sənə... dizlərini yerə qoyub anasını əmən keçi balasını tutub hikkəylə boğasan.

Müxtəsəri, hal-qəziyyə belədir dostlar: Bakir Heydərov onların başçısıdır və qan-qan deyir.

Sərt dağlıq ərazidən olan Mürşüd qəflətən çönüb Sahib Əkbərova:

- Toqquş-toqquş, əəə...Cığır döyül ey... eşşək üstdə papağının dalını qaldırıb yorğa-yorğa gələsən, zaftan olsun, boğmaq nədi? Bel sapını vur düz kəlləsinin ortasına, sümüyü çatlasın!

Əlbəəl canlanma başladı.

Hamı dilbədil ötür, asıb-kəsir, öldürüb-di-rildirdi. Biri dedi:

“Onu elə vuracam, gözü kəlləsinə çıx-sın...”

“Bu gecə kef gecəsi olacaq!” - bir başqası dilləndi.

Kəlbəcərli vaynösə Sahib Əkbərov göydo-daq Ədalətə:

- Çiy söhbət eləmə əə... quşatanla eşşək vurmaq deyil eyy bu, sidqnən qardaşdan da mətləb almaq olmaz...

Sidr-kafuru müftə görsə, uzanıb ölməyə hazır olan yefreytor İlyas susurdu.

Dağlarda, sərt qayalıqlarda boz küləklərin şapalağı altında çəpiş kimi böyümüş Turabxan yanar gözləriylə:

- İkisini çıxın mənə.

Sərrast fikir yürüdən yoxuydu.

Hüseyin çəkdiyi Kazbek tüstüsünü yan-ğıyla sinəsinə çəkib, kişi-kişi Ədalətə:

- Məzə cırtdatma əəə... danışanlara qulaq as...- dedi.

Bir qarış boyu olan, əlində öldürücü silah əvəzi - zəncir sallanan ağdamlı Çingiz Nazıya xırdalalayırdı:

- Səhrada gül bitmədiyi kimi cahilə də söz yetməz, birini daşla vuracam, yerdə qalanı bu zəncirlə mələdəcəm...

Qəflətən ağlıma bir ideya gəldi və qurulan tələnin tərkib hissəsi belə də olmalıydı!

Sakit-sakit dedim:

- Dostlar, reallığı dərk eləməyin məqa-mıdır. Birinci dəfə Pervomayskidəki “stadion davası”ndan Allahın köməkliyi ilə sağ-salamat qurtardıq, ikinci

dəfə Pervomayskidə hücumu biz təşkil eləyib, heyfimizi çıxdıq və nə yaxşı ki, onlardan da ölən -itən olmadı. Bu da bəxti-mizdən idi. Səs -küylə iş aşmaz. Üçüncü "müharibə"ni dünən gecə saldıq və yenə tale üzümüzə güldü, güdaza gedən olmadı. Bəxtimizin bu cür gətirməyi və "müharibə"nin itkisiz başa çatması - bütün bunlar izaholun-maz təsadüfdü.

Anamız namaz üstdə və Allah tərəfimizdə olub.

Amma macərapərəstliyin də bir həddi-hüdudu var. Söz yox ki, qarşıdan gələn bu müdhiş gecənin söz-söhbət həniri ruslara da çatacaq.

Acınacaqlı hal alınır.

Bakir Heydərov bu gecə qardaş qırğını, Kərbəla müsibəti yaşadacağını bəyan edib.

Artıq ikiüzlülük, özgəlik, düşmənçilik toxu-mu səpilib, aramızda uçurum yaranıb.

Onlar intiqam almaq istəyir.

Ancaq başa düşmürlər ki, od-ocaq, yurd-yuva əmanəti olan, vətən vicdanları sayılan, qürbətdə bu qədər əsgər həmyerliylə qırğın etməkdənsə, səbəbkarı tapıb cəzalandırmaq lazımdır.

Kimdir səbəbkar?

Kirovabadlı Faiq Kəngərli, Ramiz Baba-yev, Baxşıyev, Şeydayev və onlara qoşulan Bakir Heydərov.

İndi vəziyyət belədir: Onlar tarana getmək istəyir.

Bakir Heydərov açıq-aşkar dedi: “Burada ya siz, ya da biz stariklik eləyəcəyik!”

Hərəniz öz variantınızı söyləyin, ortaq yol tapaq.

Hamısı bir ağızdan səs-səsə verərək, bütün məsuliyyəti mənim boynuma qoydular:

“Nə desən odur, öl desən öləcək, öldür desən öldürəcəyik…”

Nazı, - bəlkə də uşaqlar onu pisikdirib, mənə utandığından, ya xəcalətindən demirdi, - nəsə kişilənmişdi, hətta dedi:

- Öldü vayy, döndü yoxduyyy əəə… Nə qədəy bu salaqalayın qabagından qaçacayıq? Süpüygə-zad deyilik ki, ona-buna?

Ağlıma gələn son ideal qərarımın məğzini aramla danışmağa başladım:

- Dostlar, biz Yəzid deyilik ki?

Hamısı bir ağızdan:

“Allah Yəzidə nəhlət eləsin,” - dedi.

- Onlar nadanlıq edir və bu işin sonunu görmürlər. Başçıları Bakir Heydərov savadsız, qəlbi təmiz bir uşaqdır. Düzdü, "Qəmlo" kimi ürəkli, döyüşkəndir... amma tək cəsarətlə hər şeyi həll eləmək olmur.

Bu döyüşdə qalib gəlsək, qələbə starik-liyimizin surğuclu möhürü olacaq!

Siyasətlə hərəkət eləmək lazımdır. Onlar bu gecə, Kərbəla müsibəti, qırğın, qan istəyir, İstəməyənlər də məcbur olub puşkaya gedərək ortalığa qatılacaq. Gecə qara - cücə qara, kim özünü ölümdən sığortalaya biləcək? Qəti qərarım belədir:

- Bu döyüşü axşama saxlamaq və gecə qardaş qırğını salmaq axmaqlıqdır. Bu çətin görünən işin asan bir yolu var:

- Bakir tələ tikəsi olmalıdır!

Elə bu dəqiqə hərəkətə keçməliyik! Necə?

Rota bir azdan yeməkxanaya, günorta naharına gedəcək.

Bizim uşaqlardan beş nəfər ağaclarla silahlanıb ikinci mərtəbədə işarəmi gözləyir. Yeməkxanaya girhagirdə Nazı Bakirin qolun-dan tutub cərgədən çıxarır:

"Babayevin üçüncü mərtəbədə sənin-lə söhbəti var," - deyir.

O qaçmağı şəninə, şəstinə sığışdırmayıb, dərhal gələcək.

Mən onunla bir qədər söhbət aparıb, Nazıya işarə eləyəndə, Nazı fit çalar və dərhal tökülüb gələrsiniz.

Onu o qədər döymək lazımdır ki, daha nə baş-gözü qalsın, nə qol-qılçası, nə də iradəsi. Elə hönkürməlidir ki, tavanın malası tökülsün!

O mənən sınmalıdır!

Bura nə Ərəbistan səhrası, nə Kərbəla, nə də o özü Yəzid deyil!

İddiaya bir bax:

“Starikliyi ya siz, ya da biz eləməliyik!”

Dünən gəliblər, iyirmi aydır zülm çəkirik…

Nə isə, ikinci mərtəbədə bu beş nəfər onu döyməli olacaq:

-Mürşüd, Hüseyin, Turabxan, Ədalət və Vahid.

Bakiri Heydərovu elə-belə, yüngül kötək-ləmək yolverilməzdir!

Onu ölümünə döymək, ancaq öldürmək də olmaz! Çırpmağa başlayanda şəxsən mə-nim işarəm olmadan heç kim dayanmır…

Qırğının səbəbkarlarından Şeydayevlə Ramiz onsuz da şil-küt olub, qalır Faiq Kən-gərli, Maarif, bir də Şükür.

Şükürü qurban edirik bərdəliliyinə.

Yerdə qalanların isə, elə də bir fərli gücü yoxdur.

Ona görə, yeməkxanadan çıxanda da, hələ heç kim duyuq düşməmiş eyni qaydada dübarə Faiqlə Maarifin də payını veririk.

Və bununla da qardaş qırğınının, - öz sözləri olmasın, "Kərbəla müsibəti"nin qabağı hiyləgərliklə, qansız-qadasız, sülhlə, ölüm-itim-siz alınar!

Onlar iri ağac kimi, şaqqıldayıb sınacaq!

Mən başqa yol görmürəm...

Nazı yüyürüb məni qucaqladı:

- Ə mən demişəm eyy… bu Dallesdiyy…

Artıq vaxt yetişirdi.

Bir qədər gözlədik və adları çəkilən beş nəfər "silahlanıb", tələ qurulan yerə getdi.

Sıra meydanında sinc vurulan kimi tökü-lüşüb biz də getdik. Adbaad yoxlamadan sonra rota yeməkxanaya yollandı.

Onlara, xüsusilə də Faiqə qarşı məndə nəsə bir intiqam hissi yaranmışdı. İntiqam hissiylə dalaşan həmişə qalib gələr.

"Sibir uşaqlarının" gözü qırılmalıdır! - dönə-dönə ürəyimdə təkrarlayırdım.

Saat 13:00 idi.

Rota yeməkxanaya girhagirdə dəstədən çıxıb kimisə çağırmaq bəhanəsiylə, sonuncu əsgər içəri girənə kimi gözlədim və yeməkxana əvəzinə cəld üçüncü mərtəbəyə qalxdım.

Heç üç-beş dəqidə keçməmiş Bakir Hey-dərov Nazıyla içəri girdi.

İkrahla:

- Qardaş qırğını, Kərbəla müsibəti salmaq istəyirsən? - soruşdum.

O, çox təkəbbür və tərs baxışla:

- Axşam baxarıq buna!

Qətiyyətlə:

- Bakir!

Sən dik burnunun ucundan azca qabağı da görməyənin birisən. Deyəsən halvanı yeyib, eşşəyi minmisiniz. Bizim uşaqlar iyirmi aydır dırnaqlarıyla, dişləriylə, suluqlu, döyənəkli, mazol əllərilə zülm, zillət, minbir əzab və əziy-yətlə gəlib bu gün старик olublar.

Ruslarla Pervomayskidə bir молодой azərbaycanlıya görə “stadion davasında” ölüm-dirim “müharibə”si aparıblar.

Siz dünən gəlmisiniz.

Hansı iddia, hansı təkəbbür, hansı ağıl, hansı fəlsəfəylə bizi молодой, özünüzü старик adlandırmaq arzusundasınız?

Özünü nə hesab eləyirsən?

Sən xumbetsən? Bu haqqı sənə kim verib? Tövbə elə, bala, dinə-imana gəl, üzr istə müsəlman qardaşlarından.

Sən Yəzid olmaq istəyirsən?

İkrahla üzümə baxıb, dillənmədi.

- Çaqqal var baş kəsir, qurdun adı bədnamdır…

O əsəbi baxışla məni tərs süzdü, intiqam hissindən üzü səyriyirdi və qəflətən çönüb geri şığıdı və gedə-gedə də:

- Mitilinizi atacağam, tifağınızı dağıdacam, - dedi.

Arxasıyla qışqırdım:

“Çaqqalların hayıfını baqqallar çıxar!”

Vaski fit verdi. Nazıyla mən yuxarıda, beş taxtayla silahlanmış “bizim dəstə” aşağıda, Bakir Heydərov da mərtəbələrarası pilləkanda idi.

O əvvəl heç nə başa düşmədi.

Döyüküb dayandı və bir anlıq qulaqbatı-rıcı qorxunc sükutdan sonra, dərhal uşaqlar tö-külüşdü…

…Bakir bir dəfə də olsun səs çıxarmadı. Uşaqlar onu çırpa-çırpa tozlu beton pilləkanın üstünə

yıxdılar. Qollarına, qılçalarına, qarnına, kürəyinə o qədər vurdular… o qədər kötəklədi-lər…

O iki-üç dəfə istədi çömbəlib qalxsın,- bacarmadı. Qollarıyla başını qoruyur, kirpi kimi qıvrılır, yığılıb-açılır, sifətini gizlədirdi.

Mürşüd axirda əlindəki taxtani tullayıb dəmir kimi ağır və göyənəkli möhkəm yum-ruqlarıyla onun ağız burnunu dağıtdı... Və əmin olanda ki, artıq Bakirdə bakirlik qalmadı, çığı-rıb işarə verdim ki, dayanın, siz neyləyirsiniz? Öldurmək istəyirsiniz ?

Uşaqlar götürülüşüb getdilər.

Nazimlə yavaş-yavaş yuxarıdan düşüb, pilləkanda onun lap böyründən saymazyana keçdik.

Ağız- burnundan şorrama, köpüklü hava qıvırcaqlı isti qan axırdı.

Sürünə-sürünə başını qaldırıb:

- Çox sağ ol, Babayev... - köpüklü, qanlı xırıldadı.

Və gözləri doldu...

Artıq gözlərinin dolması sındığından xəbər verirdi.

Çox inamla dedim:

- Sən tələ tikəsi olmasaydın, ölüm ola bilərdi.

Başqa çıxış yolu olmadı, dost!

Bu gecə ortada meyid olmayacaq.

Bunun üçün din qardaşların əbədiyyətə kimi sənə borclu qalacaqlar!

Biz yaxın dost olacağıq. Sən buna layiq, mərd oğlansan!

Bəlkə də o, nə dediyimi heç vaxt başa düşməyəcək...

Yerdən zorla qalxıb yeməkxanaya yox, qanını silə-silə həyətdəki su krantının altına tərəf getdi.

- Hamı istər cənnətə getsin, amma günah-ları qoymaz! - arxasınca qışqırdım.

Yeməkxanaya getdik.

Rota növbəti naharını eləyirdi. Sakitçilik idi, heç nə olmamış kimi aparırdıq özümüzü...

...Nazı kirovabadlı Kəngərliylə Maarifi yeməkxanadan çıxhaçıxda tutdu və əvvəlki qaydada, şirin dillə aldadıb üçüncü mərtəbəyə gətirdi.

Yuxarıdan, blokun pilləkən hissəsindən onları aydın görürdüm.

Üçü də birdən içəriyə girdi.

Onların hələ heç nədən xəbəri yox idi. Amma gecəyə nə plan qurmuşdularsa, çox iddialı idilər.

Heç salam da vermədilər.

Özümü əsl rus sərkərdələri kimi təmkinli aparıb, aramla:

- Eşitmişəm yeni “Kərbəla müsibəti” planı hazırlamısınız?

İlahi, kirovabadlı Faiq Kəngərli özünə sığmırdı, iddiasından az qalırdı dəymiş qarpız kimi qəfil cırılsın, alnını düyünləyib:

- Keç mətləbə, - hamı bilir Şirvan çuxur-dadı, - saymazyana dedi.

Maarifdə bir az təbiilik, səbr və kişilik vardı. Heç dinmir, üzümə tərəf də baxmırdı.

Faiqə ikrahla baxıb:

- Bəli, düz deyirsən, hamı bilir Şirvan çuxurdadı, amma onu da bil ki, kəklik dağda gözəldir! Səkə dağdan dağa!

- Buya kazaymadıyy... - Nazim ironiyayla söhbətə qarışdı.

Mən də üzümü Maarifə tutub sakitcə danışmağa başladım:

- Maarif!

Siz gələn gündən yerlim Şükürə görə biz sizi rus stariklərin ayağına vermədik. Hər zaman sizə dayaq olub, himayəyə götürdük. Biləcəridəki aerodrom kepkalı kişinin sözü olmasın, siz bizim əsgərlər kimi, пахат eləmədiniz. Biz старик-lər siz, молодой-larla dostluq elədik.

Bakir, Şükür, Faiq, sən və bir də mən...

Fərq qoymadıq sizə?

Və bunları minnət üçün də demirəm, indi ona görə belə eləyirsiniz?

Yəni hamıya aftava-ləyən, bizə sarımsaq-döyən?

Mən rusların da qabağına sinəmi sipər eləyib verdim ki, sizə молодой-luq yaşatma-sınlar...

Aman Allah, sözümün dalını danışmağa Faiq imkan vermədi. Çox dikbaş, özünə inam və kəsəqarabağı:

- Sinəni bizə görə ta açma! İrtibat qurtardı!

Yanıb yaxıldım:

- Xırmana girən porsuq yabanı özünə qəbul edər.

Sonra çox nəzakətlə üzümü Maarifə çevirib:

Maarif! Faiq öz əməlinin cəzasını söz yox, çəkəcək. Sən isə məni bağışla! Ömrün boyu xatırlayarsan bu sözümü... başqa çıxış yolu yox idi...

Gedə bilərsiniz...

Zəifləri əzməyi xoşlayan kirovabadlı Faiq Kəngərli iddialı addımlarla qapıdan sərkərdə Napaleon kimi birinci və təşəxxüslə çıxdı.

Maarif də qeyri-müəyyən bir istehzayla başını bulayıb getdi...

...Bakir Heydərovdan fərqli olaraq, bunlar o ki var bağırır, çığırırdılar. Amma qaçıb blokun girişindən çölə çıxmağı da bacardılar.

Binanın blokları açılan arxa giriş hissə-sindəki həyətdə çoxlu cırıq, xarab, keyfiyyətsiz qara tol qırıqları, ovulub - xarab olan gipsoplitə qalaqları vardı.

Hər ikisini o qalaqların üstünə yıxıb, palaz çırpan kimi payalarla, ritmik səslə çırpdılar.

Əvvəldən tapşırmışdım, başlarına paya vurmasınlar. Belə də oldu.

Nazimə işarə elədim, uşaqları saxlasın.

Qurduğum plan Hitlerin “Barbarossa” planından da uğurlu alınmışdı!

Faiq ilan dili çıxarıb yalvarır, uşaqlar da çırpırdı...

İlahi!

Bir az əvvəlki dil nə idi bəs bunda?

- Xoruz öz küllüyündə banlar, bura bizim-kidir, - şamxorlu Vahid cihnə çəkdi!

Sonda Mürşüd özündən razı halda, div kimi hayqırdı:

-Петухлар!

Cəld vaskı Nazimlə aşağı düşdük.Hər ikisi yağış vurub islatmış ağ gipsoplitə qalaqlarının üstündə sərilib qalmışdı. Ağızlarına çırpılan sonuncu yumruq- təpikdən sonra onların da ağızlarından, burunlarından, qaşlarından qıvır-caqlı isti qan axırdı.

Faiqin başının üstündə dayanıb, əllərimi belimə qoyaraq aldığım intiqamın həzzindən hiyləgərcəsinə qımışıb:

- Ta sinəmi açmaram heç kəsə, arxayın ola bilərsən. Bir də məşhuri-qələt edib, - mənim xoşum gələn qıza gözün düşməsin.

Cındır!

Sənin kimi oğlanlara şərq küçəsində qəhbə deyirlər... Kərbəla müsibəti yaşatmaq elə sənin kimilərə yaraşır! Sən heç Yəzid də ola bilməyəcəksən, alçaq. Ömrün boyu isə Yəzid kimi söyüləcəksən. İndi dincəl...

Onları elə orada qoyub getdik.

Bəli, “Sibir uşaqları”nın vuran dörd qolu-zorlusunun, - düz səkkiz biləyi, səkkiz də dizi “sındırılmışdı.”

Qalırdı bu mirzəalıbəyli Şükür, o da bu gündən Alıbəyin daşşaqlarını yeyər... onsuz da daha, dərsini qiyabi aldı!

İndi arın-arxayın stariklik eləyə bilərdik!

Məsələ çözülmüşdü.

Mürşüd və Nazimlə Kaşşeyevin yanına getdik.

Yeni epoxa başlanacaqdı!

Hər şeyi müxtəsər dedim:

- Kaşşeyev, istər rus olsun, istər azər-baycanlı, bu gündən starik starikdir, molodoy da molodoy. Qoy hamısı bizim bir il əvvəl olduğu kimi döşəmə, hamam yusun, onlar da nasılka götürüb beton daşısın. Xəşil bişirmək bilmirlər, aşbazlıq iddiası edirlər. Molodoy nədi, samovolka nədi? Dünən gələn də, tağım ko-mandirinə dirsək göstərər?

Kaşşeyevlə tam anlaşdıq.

O, da öz növbəsində çağırıb Fedirkonu, Podqornunu təlimatlandırdı.

-Boykonu da xəbərdar edəcəm,- dedi.

Bu da “Sibir uşaqlarının Kərbəla müsibəti röyası...”

Axşama qədər sakitçilik oldu.

Nazimlə uşaqlara tapşırmışdıq ki, kom-pakt şəkildə gəzsinlər. Bir-birilərini gözdən qoy-masınlar.

Ariflə Vahid xəbər gətirdilər:

“Bakir Heydərov növbətçiyə xəstəyəm de-yib, kazarmada çarpayısına uzanıb tək yatır. Faiqlə Maarif isə otaqların hansınasa giriblər. Mirzəalıbəyli Şükür bint, yod, pambıq, dəsmal daşıyır...”

Hamı ayıq idi.

Mayıf Mamed də yeni xəbər gətirdi:

“Sibir uşaqların”dan ikisi yenə yekə-yekə danışırdı, o, balacaboy gədəylə bir uzunu...

Gözlədik...

Sıra meydanındakı sonuncu adbaad yox-lamadan sonra одбой verildi.

Kaşşeyev növbətçi və dnevalnılara tap-şırmışdı:

“Sibir uşaqları”ndan istər rus olsun, istər azərbaycanlı samovolka məsələsi olmamalı, yüngül ЧП- üstündə belə döşəmə yumalıdır-lar.”

İşıqlar sönən kimi beş nəfər döyüşən uşaqlarımızı taxta silahla silahlandırıb ikinci mərtəbəyə çıxartdım. Nazimlə özüm isə üçüncü mərtəbədə gözlədik.

Yekə-yekə danışanlar ağ mələfəyə bü-külmüş vəziyyətdə gətirilməliydi.

Ancaq nədənsə, ləngiyirdilər. Dərhal Nazı-nı xəbərə yolladım.

Nazının çölə çıxmasıyla geri qayıtması bir oldu. Susmuşdu...

Bərdəli Şükür ağ tuman-köynəkdə tək içəri girdi. Üstümə gəlib az qala ayaqlarıma dö-şənəcək, ağlayacaqdı:

- Onlar səhv edib və layiqincə paylarını alıblar.

Ağ bayraq qaldırılmışdı!!!

Ölümsüz, itkisiz, qansız-qadasız!

Şükür artıq yumşaq danışır, barışıq təklif edirdi:

- Ağızlarını yaxşı qırdınız, indi bilərlər, starikliyi kimlər eləməlidir...

Susuzlamış çılpaq sərt qayalara yağış səpirdi...

- Şükür! - dedim, sən məsələ qəlizləşəndə bu addımı atmalıydın. Gözləmə mövqeyində çox dayandın. Ancaq səni qınamıram. Biz üç-dörd aya çıxıb gedəcəyik. Sən isə bunlarla hələ il yarım da bir yerdə olacaqsan. Ona görə bir söz demirəm sənə. Əgər sizin "Kərbəla müsibəti" planınız baş tutsaydı, o qardaş qırğınında ölən olsaydı kim cavab verəcəkdi?

Faiq Kəngərli kimi çaqqal-çuqqal doğan analardır günahkar.

Mən bu günə qədər kiminsə haqqını ye-məmişəm.

Biz pis idik?

Əvvəl hələ sən də, dostların da pisliklə yaxşılığı ayırd eləməyi öyrənməlisiniz.

Mənim ahu kimi Komsomolum yolumu gözləyir. Nə çox, nə də az, - düz iyirmi aydır.

Hansı tərəfdən bıçaqlanan, ya ölən ol-saydı, başçı kimi birinci məni tutacaqdılar.

Buna görə yaxşı ki, mən ən düzgün variantı seçib, hər şeyi qaydaya qoymağı ba--cardım.

Ölənin ana - atası, qardaş - bacısı yoxdu bəyəm?18-20 yaşında kiminsə ölməyini, ya "boz həyat" yaşatmaq istəyirdiniz bizə?

Elə vaynöysə, şivən qopartmaqdansa, belə yaxşı olmadımı?

Bir ittifaqda birləşmişdik, sizi nə qane etmədi? Köklü- köməcli bizi qoparıb atmaq istəyirdiniz? Sizi axı əndişələndirən nə idi? Niyə sənin dörd qoluzorlu şil-küt olan dostların bizə yuxarıdan aşağı, belə həqarətlə baxırdı? Neyləmişdik?

"Kərbəla müsibəti" fikrinin, planının baş ideoloq - zinakarı, fitnəkarı nə qazandı?

Qəhər onu boğur, sanki nəyisə gizlədir, köksü yansa da, danışa bilmirdi.

Mən isə ilan kimi sancmır, ürəyimi deşən sözləri məqamı olduğundan ona başa salırdım:

- Getsinlər hələ fitrə-zəkat, nəzir-niyaz paylasınlar. O, xəbis Faiq boğazına çatı salıb özünü assın. Mən onu məğrur bir igid kimi tanıyırdım. Ancaq görəydin necə qəhbə-şivən qoparıb böyürürdü.

İndi ona xiffət çəkmək də yaraşmır!

Dinamik inkişaf edən dalğanı dayandır-maq üçün Şükür dodaqucu gülümsəyərək ümidverici cavab gözləyirdi.

Mən isə ciyərim yandığından, tapdanmış haqqımızı bərpa etdiyimin eyforiyasında həzzlə yaşadığımdan susmaq bilmirdim:

- Həyatda hər şey kitab, film, nağıllardakı kimi olmur. Bura qərib diyardır.

Vahid suçsuz olduğu halda sizin uşaqlar niyə onu yemək yediyi yerdə, çölə çıxarıb döymək istəyiblər?

Bax adamın mitilini belə çırpar, evini belə yıxarlar! Adama deyərlər:

“İndi niyə minnətçi göndərmisən, dızı-dırsan? Şükür onu bil, Faiq kimi həmvətənin badalağındansa düşmən gülləsi yaxşıdır...”

Şükür elə bil sozalmışdı.

Ayağa qalxıb:

- Sülh sazişini bağladıq! Zemelya amma biləsən bu gündən ruslu - azərbaycanlı, starik - starikdi, molodoy da - molodoy!

Danışdıq?

O məni qucaqladı və: “Sülh bərqərar oldu,” - dedi.

Gecə hamı yatmışdı. Nazıyla zarafatlaşıb, bir-birimizi boğurduq. Baxdım ki, Ramiz Baba-yev gizlincə gözlərini qıyıb baxır.

Belə həyan yatarsınız bax!

Çatana çatır, çatmadıqlarının da dalınca bir daş dığırladırdılar. Araqarışdırmaq istəyən-lər artıq susdurulmuşdu.

Sübh tezdən rotadamızda yeni epoxa başlanacaqdı.

Bu gecə rahat yata bilərdim...

Doqquzuncu kitabın sonu...

Mündəricat

1. Dodağı xallı Mənzər, ramanalı Mayya Чайка – 3 və “oğurluq” 5 rubl təbəddülatı...03
2. Boryanın batman ad günü və Popova vurulan kəllə.....32
3. Düşüncələr... Motalla alınan Lenin Ordeni və Nazirin ikrahı.....57
4. Salam iyul – 1972 Toma ehtirası və Sosializmin qarğa-quzğun məclisi.093
5. Дмб “Приказ”ımıza düz 100 gün qaldı!..... 135
6. Dübarə “Lenin ordenli Hüseyin Ağayev” və əfətli Hüseyin kişiylə Zeynəb Xanlarovanın “Yaşıl teatr” əhvalatı.146
7.Qırmızı kostyumlu Anna Krasik.188
8.Əlvida on doqquz ay!.....194
9 Elbrus Abbasovla bank Rza, mədəniyyət Soltan və Əli müəllm əhvalatı.....207
10.Zemelya Faiqlə dostluğa xitam!..227
11.Qanlı “Trud” qəzeti.....242
12. Latviya həngaməsi, Qəhvəyi kürə çörək, “Список стариков -ДМБ - 1972”.....272
13. “Kərbəla müsibəti”.....301

Tofiq Xəzər

(Tofiq Əli oğlu Babayev)

Tofiq Əli oğlu Babayev 1951-ci ildə Bərdə şəhərində anadan olub. 1967-ci ildə Bərdə şəhər 1 saylı orta məktəbini bitirib.

1974-cü ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunu bitirib.

"Qızıl qələm" və ""Vətən media mükafatı laureatıdır.

2010-cu ildə "Azərbaycanın vətənpərvər ziyalısı" diplomuna layiq görülüb.

Ailəlidir, 3 övladı var

Tofiq Xəzər

“Bərdədən gürğnən dünya...”

(Azərbaycan dilində)

On altı cilddə. İkinci cild. IX cild

Redaktor: Tofiq Babayev

Korrektor: Zahir Əzəmət

Dizayner: Mülayim Vəliyeva

Kompüter yığımı: Ülkər ANS

Yığılmağa verilib: 14.06.2011

Çapa imzalanıb: 22.09.2011

Kağız formatı: 84x108 1/32

Həcmi: 360 səh. 22,5 ç.v.

Tiraj: 300, Sifariş 76

Qiyməti 10 manat